AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU

MÜASİR FƏLSƏFƏ PROBLEMLƏRİ ŞÖBƏSİ

MÜASİR FƏLSƏFƏ VƏ AZƏRBAYCAN: TARİX, NƏZƏRİYYƏ, TƏDRİS

Bakı – "Elm"- 2010

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU
MÜASİR FƏLSƏFƏ PROBLEMLƏRİ ŞÖBƏSİ

Məqalələr toplusu AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Şurasının 2 iyul 2010-cu il tarixli iclasında müzakirə edilmiş və çapa məsləhət görülmüşdür (7 saylı protokol)

Elmi redaktorlar:
Fəlsəfə elmləri doktoru, professor Əli Abasov,
Fəlsəfə elmləri doktoru, professor Əbülhəsən Abbasov

Redaksiya heyəti: Aydın Şirinov, Əli Abasov, Əbülhəsən Abbasov, Əhməd Qəşəmoğlu, Füzuli Qurbanov, Zümrüd Qulizadə, Rəhman Bədəlov.

Məsul katib: Mətləb Mahmudov

Müasir Fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris. Bakı, "Elm", 2011, 492 səh.

İSBN 978-9952-453-11-9

0301020000

655(07)-2011

© "Elm" nəşriyyatı, 2011

Münəricat

Əbülhəsən Abbasov. Fəlsəfə millətləşmənin və müstəqil dövlətçiliyin zəruri əsaslarındandır (ön söz əvəzi) .....

I Bölmə

Səlahəddin Xəlilov. İnsanın özü və idrak prosesi.....
Əli Abasov. Müasir Azərbaycana hansı fəlsəfə lazımdır.....
Əbülhəsən Abbasov. Fəlsəfə və müasirlik. .....
Əbülhəsən Abbasov. Fəlsəfə, elm, gerçəklik: postneoklassik epistemologiyaya doğru. .....
Зумруд Гулизаде. Некоторые концептуальные вопросы исследования и преподавания гуманитарных наук. .....
Aydın Şirinov. Fəlsəfənin və onun tədrisinin əhəmiyyəti haqqinda. .....
Рахман Бадалов. Гуманитарные науки в Азербайджане: контекст, проблемы. .....
Теймур Даими. Парафуторологическая рефлексия: дать истории завершиться. .....
Али Абасов. Какая философия нужна современному Азербайджану. .....
Füzuli Qurbanov. Modernləşmə fəlsəfəsi və Azərbaycan. .....
Niyazi Mehdi. A.F. Losevin Azərbaycan fəlsəfəsinə təsirlərindən.....
Əhməd Qəşəmoğlu. Milli, müstəqil dövlətin fəlsəfəsinin qarşısında duran mühüm vəzifələr. .....
Rauf Məmmədov. Azərbaycanda fəlsəfənin inkişafı ilə bağlı düşüncələr. .....

II Bölmə

Гасан Кулиев. К методологии поиска архетипичного Кавказа. .....
Zümrüd Quluzadə. XXI əsrin əvvəllərində vəhdət əl-Vücud fəlsəfəsinin təfsirinə dair bəzi məqamlar. .....
Könül Bünyadzadə. Müasir Azərbaycanda dini təfəkkürün inkişaf istiqamətləri haqqında. .....
Ağalar Məmmədov. Fəlsəfəmizin dilində bəzi düzəlişlər və təkliflər. .....
Aydin Şirinov. Sosial zaman və onun relyativliyi. .....
Füzuli Qurbanov. Müasir elmi yanaşmalarda risk faktoru. .....
Абульгасан Аббасов. Постнеоклассическая эпистемология осмысления и созидания гражданского общества. .....
Сергей Румянцев. Зачем нужна социология в Азербайджане? Перспективы и потенциал развития. .....
Рауф Гарагезов. Размышляя о судьбах науки и образования в Азербайджане. .....
Mətləb Mahmudov. Müasir dövrdə korparativ idarəetmə prinsipinin səmərəliliyinin fəlsəfi aspektləri. .....
Adil Axundov. Qərb sivilizasiyasında böhran və Azərbaycan. .....
Qərib Allahverdiyev. Azadlığın insanın mənəvi zənginləşməsi ilə qarşılıqlı əlaqəsi. .....
Kamran Məmmədov. Millət və millətçilik məsələləri siyasi elmin aktual problemi kimi .....
Али Абасов, Валентина Мирзаева. Вместо заключения.

Məqalələr toplusunun müəllifləri .....

Əbülhəsən ABBASOV

FƏLSƏFƏ MİLLƏTLƏŞMƏNİN VƏ MÜSTƏQİL DÖVLƏTÇİLİYİN ZƏRURİ ƏSASLARINDANDIR

(ön söz əvəzi)

4 may 2009-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında 2009-2015 illərdə elmin inkişafı üzrə Milli Strategiya" və həmin Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı təsdiq edilmişdir. Bununla Azərbaycan elminə zamanın tələblərini, cəmiyyətimizin ehtiyaclarını ödəmək, yeni inkişaf səviyyəsi əldə etmək üçün daha etibarlı zəminlər yaradılmış, geniş imkanlar verilmişdir. Eyni zamanda, Dövlət Proqramı ilə konkret məqsədlər və vəzifələr, məsuliyyət yükünün həcmi və dərəcəsi müəyyənləşdirilmişdir. Azərbaycanın intellektual inkişafını, insan kapitalının artmasının prioritet məsələ kimi öndə tutulmasını və həyata keçirilməsini təminatlandıran Milli Strategiya və Dövlət Proqramı ictimai, humanitar elmlərin qarşısında da ciddi və təxirəsalınmaz vəzifələr qoymuşdur ki, burada fəlsəfənin və filosofların üzərinə xüsusi yük, məsuliyyət düşür.

Ən böyük qələbələrin, tarixi zəfərlərin taleyi döyüş meydanlarından əvvəl insanların təfəkküründə (beyinlərində) və qəlblərində (ürəklərində) həll olunur, çünki İnsana məxsus ən böyük qüdrət, dəyanət və əzmkarlıq fəzilətli amaldan, kamil idrakdan, işıqlı və xoşməramlı ovqatdan doğur. İnsan və insanlıq dünyasında həqiqi xəzinə vardırsa, o da möhtəşəm zəka və yaxşı ürəkdir. Bəlkə də bu səbəbdəndir ki, nəzəri biliklər sistemində öz qədimliyi ilə fərqlənən **fəlsəfə** həmişə müasir və aktual olmuş, bəşəriyyəti, insan varlığını narahat edən qayğıların həllində özünü cavabdeh və borclu bilmişdir. Bu, təbii haldır, çünki fəlsəfənin başlıca funksiyası qüdrətli və fəzilətli təfakkür vasitəsilə insanları, cəmiyyətləri və bütövlükdə bəşəriyyəti xoşbəxt etməkdir! Dünyada insanların birgəyaşayışının zəruri tələbatlarını

rasionallıq və ədalət, müdriklik və humanizm süzgəcindən keçirməklə nizama salmaqdır! O, insana kim olmağını, nəyi və necə istəməyini, hansı səmtə və necə getməyini öyrətməklə (xüsusən də təhdid və təlatümlərlə dolu dramatik dövrlərdə!) öz tarixi missiyasını daşımaqdadır. Daha dəqiq və əhatəli tutumda desək, fəlsəfə yalnız insana düşüncə və fəaliyyət yönümü verməklə kifayətlənməyib, həm də xalqlara və millətlərə, ölkə və dövlətlərə inkişaf istiqamətini seçməkdə, bugününü və gələcəyini müəyyənləşdirməkdə yardımçı olub. Peyğənbərlik iddiasından özünü uzaq saxlamağa çalışsa da, bəşəriyyətə yol göstərib, mahiyyət axtarışı və inşaasında insanlara, millətlərə, dövlətlərə dayaq durub. Tarixi zaman cərəyanında hər hansı bir qüdrətli dövlətin və ya millətin formalaşmasına nəzər yetirdikdə biz bu həqiqətin təsdiqini, yəni təməldə yararlı və möhtəşəm fəlsəfi sistemin mövcudluğunu görürük. Bu mənada fəlsəfəni millətləşmə və dövlətləşmə prosesinin ən mühüm atributiv vasitəsi hesab etmək olar. Bu, eyni zamanda, o deməkdir ki, müvafiq fəlsəfi qaynaq-dayaqların mövcudluğu etnik vahid və koalisiyaların, xalqların siyasi-hüquqi tarixi birlik forması kimi çıxış etməsinin zəruri şərtidir. Başqa sözlə desək, milləti millət eləyən onun fəlsəfəsidir!

Fəlsəfə, sadəcə olaraq, "millət" fenomen-məfhumunun nə olduğunu, hansı praktiki və nəzəri əhəmiyyət daşıdığını, mütərəqqi inkişafda, sivilizasion gedişatda xüsusi rol oynadığını anladıb-öyrətməklə kifayətlənmir, o, millətin özünü yaradır! Fəlsəfəsiz nə millət və milli siyasət, nə də dövlət və milli dövlətçilik məfkurəsi, ənənəsi mövcud deyil və olmayıb. Belə ki, "millət" qapalı və mütləq mənada dəyişməz (invariant) fenomen deyil, o, kifayət qədər variativ, dinamikliyi ilə fərqlənən varlıq-prosesdir. Burada, etnik sintezləşmə və ümumiliklə yanaşı, ümumi siyasətdə, vahid hüquqi məkanda, dövlətləşmədə iştirak var, sosial-siyasi-iqtisadi dəyər və institutlar hesabına sisteməqovuşma, birgəyaşayış duyumuna və mədəniyyətinə daxilolma var. Millət – mütləqləşdirilmiş "sabitlik əmsalı" yox, tarixi və sosial zaman cərəyanında fəal iştirak edən, stabil

elementlərini qorumaqla yanaşı daim özünü təşkilatlandıran, mövcudluq və inkişaf naminə zəruri dəyişikliklərə, yeniliklərə həssas olan fenomendir. Bütün bunlar isə yalnız xoş niyyətlər, ülvi hisslər, ümid-güman hesabına baş vermir; daha çox nəzəri refleksiya, rasional ağıl, elmi biliklər və onlardan qaynaqlanan əməli-praktiki fəaliyyət hesabına reallaşır. Və burada fəlsəfi biliklər sisteminin, onun kamilliyinin rolu əvəzsizdir.

Millətin əsas qazancları, uğurları və tərəqqisi daim kimlərisə, başqalarını yamsılamaqla, ordan-burdan "bəşəri sərvət" oğurlamaqla başa gəlmir, onun ümumi rifah, ümumi maraqlar naminə fədakarcasına çalışması, əzmkarlığı, onu təmsil edən zəka sahiblərinin, siyasi xadim və dövlət adamlarının xalqla bir yerdə göstərdikləri yaradıcı və məhsuldar fəaliyyət, çəkdikləri əzab-əziyyət bahasına mümkün olur. Məhz bu mümkünat daxilində millətin ən sadə nümayəndəsi də, təkcə götürülmüş bir vətən övladı da zəruri maraqlarını ödəyə, xoşbəxtliyə qovuşa bilər. Belə olarsa, həmçinin, böyük Aristotelin "dövlət insanların səadəti üçün yaradılır!" fikri öz əyani-praktiki təsdiqini tapar. Cəmiyyət də, həqiqətən cəmiyyətdirsə, küt-kor toplum deyilsə, dövlətin bu məqsədə qulluq etməsinə daim həm yardımçı, həm də nəzarətçi olmalı, onu milli maraqlarla uzlaşmayan meyllərdən, əməllərdən çəkindirməlidir. Cəmiyyət-dövlət birliyi də elə buradan yaranır, millət isə qarşılıqlı məsuliyyət, zəhmət və fədakarlıq tələb edən bu sinergizmdə öz layiqli simasını, mənliyini, alicənablığını tapır, üzərinə düşən zəruri özünütəşkil, yeni tərəqqi səviyyəsinə yüksəldən millətləşmə prosesini yaşayır.

Əgər sual olunarsa ki, cəmiyyət-millət-dövlət rabitəsində mütərəqqi sinergizmi qidalandıran ən başlıca amil-şərt nədir, deyə bilərik – intellektual əmtəənin istehsalı və onun optimal dövriyyəsi! Xüsusən də informasion cəmiyyətlərin vüsət tapdığı indiki dövrdə! Fəlsəfənin isə bu amil-şərt kontekstində hansı müstəsna əhəmiyyətə malik olduğunu anlamaq o qədər də çətin deyil. İstər cəmiyyətin və intellektual resursların idarə olunmasının nəzəri əsaslarının işlənib hazırlanması olsun, istər çoxsaylı sosial sifarişlərin çözülməsinə xidmət edən epistemoloji

bazanın, idraki texnologiyaların yaradılması olsun – fəlsəfənin rolu danılmazdır! Müasir dünyanın öz tərəqqisinə görə səcdə edib, baş əyəsi bir neçə varlıqlar içərisində fəlsəfənin yeri xüsusidir. "Tərəqqi" dedikdə, yalnız elmi-texniki-texnoloji və mədəni zirvələrin fəth olunması yox, həm də əxlaqlı yaşamaq nəzərdə tutulur ki, bunun üçünsə Xeyir və Şərin mahiyyətini dərk etmək, sosial məsuliyyət və vicdan borcu, mənəviyyat və ədalət haqqında mükəmməl biliyə malik olmaq gərəkdir. Və bütün bu qazanc və zərurətlərin ödənilməsi, insanlara insan kimi yaşamağın öyrədilməsi fəlsəfəsiz mümkün deyil. Söhbət, şübhəsiz ki, fəzilətlərə, sağlam düşüncəyə, qurucu işlərə yol açan fəlsəfədən gedir.

Bu gün dünya böyük qayğılar, təhdidlər və narahatlıqlar içərisindədir. Bütün bunların mərkəzində **insaniyyətə** edilən qəsdlər, təcavüz dayanır. Durmadan göyə sovrulan, zərbələrə məruz qalan, hətta gündəlikdən çıxarılan və leksikondan silinən insaniyyət, hamıya – bəşəriyyətə, ölkə və dövlətlərə, insanlara hər şeydən çox lazım olsa da, sahibsiz və dəstəksiz qalıb, ona əl tutan, səsinə səs verən yoxdur. Belə gedişatı, belə vəziyyəti müasirliyin "norma"sı, təqdiredici əlaməti kimi qələmə verənlərin "postmodernizm"ini, "qloballaşan dünya"sını nə anlamaq, nə də qəbul etmək mümkün deyil. Bəlkə müdriklik missiyasını üzərinə götürmüş fəlsəfə seyrçilikdən əl çəkib bu barədə düşünməli, Marksın nəzərdə tutduğu "dünyanı dəyişdirməlidir" funksiyasını həyata keçirə bilməsə də, etirazını, qənaətlərini ortaya qoymalı, çıxış yollarını göstərməlidir!? Ən azından, beyinlərə yeritməlidir ki, indiki bəşəriyyət üçün ən zəruri islahat məhz insanlıq və xeyirxahlıq islahatıdır, çünki ali varlıq sayılan **İnsan** ilk növbədə buna ehtiyaclıdır. İnsaniyyət bəşəriyyətin əxlaqi sərvətlərinin qızıl fondunu təşkil edir. Qədim dövrün "əxlaq peyğənbəri" sayılan Sokratdan soruşanda ki, "insanda ən çox nəyi qiymətləndirirsən?", tərəddüd etmədən cavab verir: "insaniyyəti!". Və həmişə insanlıq uğrunda mübarizədə, haqq səsinin ucaldılmasında, sosial ədalətin qərarlaşmasında fəlsəfə ön sırada olub, bu yolda göstərilən fədakarlığı, çəkilən zəhməti ən şərəfli iş

bilib. Beləliklə də insanların həyatının yaxşılaşdırılmasına, insani münasibətlərin, ictimai mühitin, qlobal durumun sağlamlaşdırılmasına dair müxtəlif ideya və konsepsiyalar, sosial-siyasi-iqtisadi modellər ortaya çıxıb ki, indi də onlar öz qüdrətini, faydasını göstərməkdədir.

Lakin həyatın sürətli cərəyanı yeni-yeni mürəkkəb problemlər doğurur ki, onların da təxirə salınmadan həlli tələb olunur. Aydındır ki, hər hansı problem, özünün əməli həllindən əvvəl, gərək nəzəri olaraq araşdırıla, aydınlaşdırıla, onun praktiki çözülməsi üçün çıxış yolları, üsul və vasitələri göstərilə. Çox vaxt isə köhnə biliklər, mövcud olan idraki güc kifayət etmir, deməli, daha müvafiq intellektual bazaya, qnoseoloji zəminlərə və metodoloji yanaşmalara, yəni, ilk növbədə, yeni epistemoloji paradiqmaya kəskin ehtiyac yaranır. Məhz paradiqmaya! Ona görə ki, söhbət ayrıca bir ideya və yaxud prinsipdən yox, bütövlükdə ideya və prinsiplər, təsəvvür və yanaşmalar sistemindən, idraki alət və vasitələr koalisiyasından, geniş əhatəli epistemoloji şəbəkədən, hətta yeni leksika və prosedurlardan gedir. Bu yerdə hər şeyi xaricdən ummaq da düzgün deyil. Bizim öz üzərimizə düşən işi özümüz də görməliyik! Əlbəttə ki, bəşəriyyətə məxsus bütün intellektual sərvətdən bəhrələnməklə! Bir halda ki, "**İnkişafın Azərbaycan modeli**"ndə danışırıq, "**XXI əsr – kreativ, qüdrətli, zəngin Azərbaycan**" konsept-proyektini həyata keçirmək, elmi biliklərə əsaslanan innovasion iqtisadiyyat qurmaq istəyirik, məsələyə bu cür yanaşmalıyıq. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin silsilə yazılarında, o cümlədən ictimaiyyətin xüsusi diqqət və marağına səbəb olmuş tənqidi-istiqamətverici, proqram xarakterli "İctimai və humanitar elmlər: zaman konkstində baxış" məqaləsində ("Azərbaycan" qəzeti, 8 dekabr 2009 cu il) yeni paradiqmlərin, etibarlı nəzəri əsasların yaradılması məsələsi önə çəkilir, bu istiqamətdə güc və səylərin səfərbərliyi vacib bilinir. Son onilliklərdə Azərbaycan fəlsəfə elminin, sosial-siyasi fikrin inkişafında, elmlə dövlət idarəçiliyinin üzvi surətdə

əlaqələndirilməsində, milli-dövlətçilik ideologiyasının püxtələşməsi və həyata keçirilməsində danılmaz böyük xidmətləri olmuş dövlət xadimi-alim Ramiz Mehdiyev haqlı olaraq qeyd edir ki, sosiohumanitar elmlər tarixi tədqiqatlarla məhdudlaşmamalı, müasir dövrün sosial-siyasi, iqtisadi, mənəvi-əxlaqi problemlərinin obyektiv araşdırılmasında, ölkənin mütərəqqi inkişafı baxımından strateji əhəmiyyətə malik istiqamətlərin, optimal üsul və formaların müəyyənləşməsində, milli dəyər və maraqların qorunmasında öz sözünü deməli, sosial sifarişlərə həssaslıq göstərməli və çevik reaksiya verməlidir; bu işdə isə fəlsəfə ön cərgədə olmalı, üzərinə düşən şərəfli missiyanı ödəməlidir.

Burada Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Mahmud Kərimovun "İctimai və humanitar elmlər: reallıqlar, perspektivlər" adlı fundamental xarakterli məqaləsindən bəzi dəyərli fikirlərini xatırlatmaq istərdim: "Son dərəcə ciddi problemlərdən biri də elmi yaradıcılıqda təqlidçiliyin kreativliyi üstələməsidir. Psixi epidemiyaya çevrilən kütləvi bir imitasiya, təqlid elmi araşdırmanın əsas prinsipinə çevrilir. Azərbaycanı öyrənən elmlərin vəzifəsi dünyada mövcud olan stereotipləri bir yerə cəm etməkdən ibarət olmamalıdır! Bu, elmi psixologiyada ələbaxımlılıq, elmi işgüzarlılıqda tqfeylilik yaradır" ("Elm" qəzeti, 16 fevral 2010-cu il, s.6). O, haqlı olaraq vurğulayır ki, elmdə imitasiya, hər şeyi – ideya və konsepsiyaları, modern metodologiyaları yalnız kənardan götürmək təkcə taftalogiya və plagiatlıqla yekunlaşmır, belə mənfur ənənə-praktika, xüsusən də "ictimai-humanitar elm sahələrində, milli mədəniyyətə münasibətdə təhlükəli və risklidir, hətta milli maraqlar mənafeyindən təhdid xarakterlidir".

Hörmətli oxuculara təqdim olunan bu toplu yuxarıda qısaca işıqlandırmağa çalışdığımız qayələrdən, Azərbaycanda fəlsəfənin mövcud durumuna münasibətdən və gələcəyi barədə düşüncələrdən yaranmışdır. O, nəzərdə tutduğumuz toplular silsiləsindən birincisidir. Burada çoxsaylı qayğıları, problemləri əhatə etmək, bütün aktual sualları cavablandırmaq iddiasından

uzağıq. Çalışmışıq ki, bəzi məsələlərə aydınlıq gətirək, vacib bildiyimizi (xüsusən də sosial epistemologiyaya dair ciddi məqamları) diqqətə çatdıraq, müxtəlif dairələri, vətəndaşlarımızı fəlsəfəmizin vəziyyəti və taleyilə bağlı fikir mübadiləsinə dəvət edək. Bu gün fəlsəfəmizin əzəmətini nümayiş etdirmək çətin olsa da, ona öz məğrurluğunu, ruhi möhkəmliyini, dəyanətini və ümidini itirməməkdə yaxından kömək etməliyik ki, bir millət kimi yaxşı yaşayaq və bu yaşayışa layiq olaq. Müdriklərin təbirincə desək, **ümid** səmtini bilən bir gəmidir ki, ona minib sahilə çıxmaq mümkündür. Ümid – inamdır, inam isə həyat çeşməsidir. Fəlsəfənin də bir müdriklik elmi kimi bu həyat çeşməsini, ilham və fəallıq mənbəyini alovlandırmaq – onun ən şərəfli borcudur!

I BÖLMƏ

Səlahəddin XƏLİLOV

İNSANIN ÖZÜ VƏ İDRAK PROSESİ

Hegelə görə, fikir yalnız özünü doğurarkən, özünü tapır. Və yalnız özünü tapanda mövcuddur və fəaliyyətdədir (**1**). Fikrin özünü tapması isə fərdi miqyasda mümkün olduğu kimi, ümumbəşəri miqyasda da mümkündür. Bütövlükdə bəşəriyyət üçün bu proses fəlsəfə tarixindən ibarətdir. İnsan ümumisinin, böyük hərflərlə insanın intellektual müstəvidə özünüdərki ayrıca götürülmüş bir insanın deyil, bütövlükdə bəşəriyyətin missiyasıdır. Fərdin özünüdərki isə fikir müstəvisində yox, hissi təcrübənin bir məqamı kimi həyata keçir. Sadəcə olaraq burada təcrübənin obyekti insanın öz Mən-i, mənəvi dünyasıdır. Təkcə intellektlə yox, instinktlə, nəfslə səciyyələnən konkret, spesifik və unikal bir mənəvi dünya!

M.Merlo-Ponti özünün «Qavrayışın fenomenologiyası» əsərində R.Dekartın məşhur «düşünürəmsə, demək mövcudam» fikrinə işarə etməklə yazırdı: «"Mən düşünürəm" tezisi indiyədək başqasının qavranmasını dəyərdən salırdı; o mənə deyirdi ki, «Mən» ancaq onun özü üçün əlçatandır. Belə ki, Mən bir fikir kimi təyin olunduğumdan Mən mənim özüm haqqımdakı fikrimlə eyniləşdirilirdi» (**2**).

Bəs əslində "*Mən"* kimdir, yoxsa nədir? İnsanın bədəni, nəfsi və əqli *Mən*-lə nə dərəcədə əlaqədardır? Orta əsrlər islam fəlsəfəsində, xüsusən İbn Sina və Ş.Sührəvərdinin əsərlərində *Mən* əsasən nəfslə eyniləşdirilir. Dekart insanın mövcudluğunu onun düşüncəsi, əqllə bağlayır. Materialist təlimlər və adi şüur isə insanın varlığını daha çox dərəcədə bədənlə eyniləşdirirlər. Lakin diqqətlə yanaşıldıqda bütün insan bədənləri təxminən eyni bir funksiyanı icra edir və onların fərqi insan həyatlarının rəngarəngliyini ifadə etmək üçün əsla yetərli deyil. Digər tərəfdən, ölümdən sonra bədənin öz funksiyalarını itirməsi, onun

heç də müstəqil və ya aparıcı olmadığına dəlalət edir. Ölüm isə nəfəsin dayanması və nəfsin bədəndən ayrılması kimi başa düşülür. Deməli, bədənə həyat verən, onu bir canlı varlıq kimi yaşadan əslində nəfs imiş. Əqlin fəaliyyətinə gəlincə, o universal səciyyə daşıyır və bütün insanlar üçün təxminən eynidir. Düşüncə qabiliyyətləri, potensial imkanlar fərqli ola bilər. Lakin yol eyni yoldur. Görünür, buna görə də, əqlin fərdi *Mən*-i səciyyələndirmək şansı azdır.

Lakin nəfslər necə, fərdidirlərmi və nə dərəcədə? Platon belə hesab edirdi ki, nəfs (ruh) bir insan öldükdən sonra başqa insanlarda və hətta heyvanlarda yaşamaqda davam edir. Bununla da nəfsin fərdiliyi, unikallığı inkar edilirdi. Buna baxmayaraq, hər bir fərdin öz şəxsi həyatında nəfsini təkmilləşdirməsi və deməli, sonrakı nəsillərə irs olaraq daha sağlam ruh qoyub getməsi imkanı açılırdı. Bununla da, tərbiyə bir tərəfdən insanlar arasındakı münasibətin sayəsində mümkün olursa, digər tərəfdən, insanın öz *Mən*-ini təkmilləşdirməsi sayəsində həyata keçir.

Özünü tanımaq, həyatını öz meyarlarına uyğun şəkildə qurmaq heç də bütün insanlara qismət olmur. Neçə-neçə insan bu dünyada həyat sürüb, başqaları ilə ünsiyyətdə olub, başqalarını tanıyıb, onlarla iş birliyi qurub, amma bir dəfə də olsun özü ilə görüşmək, özünü tanımaq və öz seçimi ilə nə isə bir iş görmək şansı olmayıb. Kimə ki, özü ilə görüşmək nəsib olur, onun keçirdiyi ilk hiss heyrət və vahimə ilə müşayiət olunur. Başqasının istəklərinə və düşüncələrinə soyuqqanlı yanaşmaq, onları tənqidi surətdə nəzərdən keçirmək emosiyasız da mümkündür. Yaxın adamların mövqeyinə, həyat tərzinə biganə qalmaq çətindir. Özünə qarşı biganəlik isə qeyri-mümkündür. Düzdür, insan özünü heç tanımadan rahatca «yaşayır». Amma əslində kimin həyatını yaşayır?

Hegel «Tarix fəlsəfəsi» əsərində diqqəti insanın özünün əslində nə olması haqqında fikirlərin də tarixən dəyişilməsinə yönəldir. Misirlilərin bu haqda düşüncələrini ifadə etmək üçün Neyt ilahəsinin məbədində həkk olunmuş məşhur yazını misal gətirir: «Mən o-yam ki, olmuşam, varam və olacağam: heç kim mənim

pərdəmi götürməmişdir» (**3**). İnsanın özünə münasibəti, özü haqqında bilgisi problemi daha yüksək inkişaf pilləsi olan yunan təfəkküründə daha aydın qoyulur və «özünü dərk et» şəklində konkretləşir. Hegel bu fikri izah edərək yazır ki, burada söhbət heç də hər bir insanın öz müsbət və mənfi, üstün və zəif cəhətlərini anlamasından getmir. Əsas məsələ ümumiyyətlə insanın özünü dərk etməsidir (**4**). Bu mənada özünüdərk öz-ün, fərdi Mən-in yox, insan ümumisinin dərkidir və tarixi bir prosesdir. Lakin hər bir insanın öz şəxsi həyatında məhz öz fərdi varlığını dərk etməsi problemi də çox önəmlidir. Həm də bu zaman proses daha çox dərəcədə duyğu, hissiyyat müstəvisində gedir, insan həyatının tərkib hissəsi kimi yaşanır.

Özünün əslində kim olduğunu, ürəyindən nələr keçdiyini bilmək imkanı insanı vahimələndirir. İnsanın özü ilə həqiqi görüşü onun özü haqqında yaratdığı himsiz-bünövrəsiz, çox təxmini, ufaq obrazın, bəzən mifin dağılması ilə nəticələnə bilər və insanın həqiqi siması özü üçün tam bir yenilik ola bilər. Şopenhauer yazır ki, insandan başqa heç bir varlıq öz mövcudluğuna təəccüb və heyrətlə baxmır. İnsan öz şüurlu həyatını yaşayarkən, öz mövcudluğuna izahat tələb etməyən öz-özünə mövcudluq kimi baxır. Lakin, insanın öz *Mən*-inə kənardan baxmaq imkanı fəlsəfi düşüncələrin əsası olur və məlum olur ki, insanın kortəbii fəaliyyəti çox vaxt onun öz maraqlarının əksinə yönəlmişdir (**5**).

Bəzi adamlar öz qəlbini dinləməkdən məqsədyönlü surətdə çəkinirlər, onlar öz həyat tərzini mövcud sosial normalara, mənəvi prinsiplərə, əxlaqi dəyərlərə uyğun surətdə qurmağa çalışır və əslində nə kimi bir materialla işlədiklərinin fərqinə varmırlar. Lakin bu material insanın istəyindən, arzusundan asılı olmadan, irəlicədən verilmiş, başqası tərəfindən yaradılmış bir gerçəklikdir. Elə bir gerçəklik ki, onunla tanışlıq ya meditasiya, ya da fəlsəfi reduksiya zamanı mümkün olur. Hər iki halda insan bütün kənar təsirlərdən, sonradan əldə edilmiş keyfiyyətlərdən, cəmiyyətin, mühitin insana təlqin etdiklərindən uzaqlaşmaq, «xilas olmaq» yolu ilə özünə yaxınlaşmağa çalışır. Bu bir azadlıq

məqamıdır və bundan sonrakı fəaliyyət ancaq insanın həqiqi *Mən*-inin realizasiyası kimi həyata keçir.

Upanişadlara görə insan azadlığa, son sevincə elə bu dünyada çata bilər: «Ürəyindəki bütün istəkləri, ehtirasları söküb ata bilsə, insan ölümsüzlüyə çatar. Öz həyatında Brahmana yetişər» (**6**). Beləliklə, Upanişadlar cənnəti göydən alıb yer üzünə endirmiş, insanları da tanrılar qatına yüksəltmiş olur. Buddizm də bu anlayışı bölüşür.

Bütün Veda himnləri, brahmanizm, hinduizm əsrlər boyu bir-birini əvəz etsə də, mahiyyət dəyişməmişdir. Bu dəyişkən, iztirablarla dolu dünyada elə bir səviyyəyə çatmaq lazımdır ki, onun fövqünə qalxmaq və ondan azad olmaq mümkün olsun. (Ancaq bu dünyadan azad olan insan ona nəzarət edə bilər.) Bu səviyyə ali başlanğıc olan Brahmana mənsubdur. Əlbəttə, adi insan Brahman ola bilməz, amma hər bir insan öz həqiqi *Mən*-ini arasa, bu ali başlanğıcı özündə tapa bilər. Fərdi miqyasda Atman adlandırılan bu ali başlanğıc əslində Brahmana adekvatdır. Başqa sözlə, Atman ali başlanğıc və prinsipin universal forması olan Brahmanın xüsusi, özəl təzahürüdür. İnsan bütün diqqətini öz *Mən*-inə yönəldərək hər hansı xarici təsirdən, bu fani dünyanın təbəddülatlarını ehtiva edən *sansaradan* tam azad olduqda onun üçün Brahmana gedən yol açılmış olur. Təmizlənmiş, saflaşmış fərdi ruhun təcəssümü olan Atman ilahi ruha, Brahmana qovuşur.

Bu təmizlənmə yolu, dünyəvi olan hər şeyin fövqünə qalxmaq cəhdi tərki-dünyalığa, asketizmə sövq edir. Və bu yolun sonu yoxdur. Əgər fərdi ruhun təmizlənməsi bədəndən ayrılma hesabına həyata keçirsə, bunun insan həyatına faydası nə olur?

Ruhun təntənəsi bədənin inkarı üzərindəmi qurulmalıdır?! Yoxsa təmizlənmiş ruh yenə bədənə qayıtmalı və həyat yolunu onunla birlikdə qət etməlidir? Axı bədən sadəcə cansız bir cisim deyil, onun da öz istəkləri vardır. Və məqsəd də bu istəkləri düzgün yönəldə bilməkdən, yəni bədənin özünü də tərbiyə etməkdən ibarətdir.

Ruh özünə dalaraq ruhani aləmin ənginliklərinə daxil olduqdan və təmizləndikdən, saflaşdıqdan sonra yenidən yerə enir,

«bədənin ruhu» ilə, nəfslə təmasda olur və nəfsi də təmizləməyə, paklaşdırmağa nail olur. Bu proses zaman-zaman davam edir, hər gün və hətta gündə neçə dəfə nəfsin ilahi ruhla təmas sayəsində haqqa yönəldilməsi baş verir. Nəticədə nəfs özü də təmizlənir, nurlanır. Hətta bədən də, insanın sifəti də dəyişir, nuraniləşir.

Ancaq paklaşmış, təmizlənmiş insan öz həqiqi siması, varlığı ilə təmasda ola bilər və azadlığa da ancaq bu zaman çata bilər.

Nəsihətlər, tövsiyələr üzərində qurulmuş tərbiyə sistemi ancaq ənənəvi mühit üçün faydalı ola bilər; o da əgər vərdişə çevrilərsə. Standartdankənar, ekstremal vəziyyətlərdə məhz həmin vəziyyətə uyğun optimal qərar çıxarmaq üçün mənəvi prinsipləri dövlətçilik təfəkkürü və ixtisas maraqları ilə eyni müstəviyə gətirmək, bu amilləri çıxarılacaq qərarın strukturana daxil etmək üçün ən əsas şərt sərbəst düşüncə, yaradıcı təfəkkürdür. Ayrı-ayrılıqda mənəvi prinsipləri bilmək, müəyyən bir ixtisasa yiyələnmək, siyasi və hüquqi bilikləri mənimsəmək olar, amma ən başlıcası, hər bir şəraitdə onları əlaqələndirmək, optimal sintezini yaratmaqdır. Bu isə hər adama müyəssər olmur. Belə bir əlaqə hiss və ya vərdiş səviyyəsində deyil, ancaq təfəkkür səviyyəsində yarana bilər. Ona görə də, Qərb dünyası hələ XVIII əsrdən təfəkkür tərbiyəsini ön plana çəkir. Con Lokk özünün məşhur «Zəkanın tərbiyəsi» və «Təlim haqqında» əsərlərində təlimin əsas vəzifəsi kimi təfəkkürün tərbiyəsini irəli sürürdü. Bu ideyanın irəli sürülməsində xronoloji baxımdan yenə də Şərq irəlidədir. Yəni bu fikri də İbn Sina Con Lokkdan səkkiz əsr əvvəl irəli sürmüş və vərdişə çevrilmiş zəkanı «bilikli qüvvə», yaxud «maddi zəka» adlandırmışdır (7).

İdrak məsələsində İbn Sina Aristotel mövqeyi ilə neoplatonçular arasında tərəddüd edir və əslində idrakın daha sintetik bir modelini yaratmağa çalışır. Lakin bu yeni modelin formalaşdırılması daha çox dərəcədə Əbu Turxana müyəssər olmuşdur.

Bu təlimə görə, hər bir şey, əgər o tamamlanmış bir formaya və hansı isə funksiyaya malikdirsə, deməli, müəyyən bir ideyanın daşıyıcısıdır. Həm də şeylər bir yox, bir çox ideyanın

daşıyıcısıdır. Lakin biz cisimləri onların mahiyyətini ifadə edən ideyaya müvafiq adlandırırıq. Təsadüfi deyil ki, eyni bir şey müxtəlif situasiyalarda, kontekstlərdə fərqli ideyanın önə çəkilməsi ilə – fərqli adla qeyd oluna bilər. Məsələn, formaca dairəvi olan *qızıl üzük* həndəsi kontekstdə – «dairə», öz funksiyası baxımından – «üzük», maddi dəyər baxımından – «qızıl», analitik kimya müstəvisində – aurium (Au) kimi qeyd edilir. Başqa sözlə desək, cismin daşıdığı ideyalardan hər dəfə biri mahiyyət kimi önə çəkilir.

Burada söhbət ideyanın özündən, canlı ideyadan yox, onun müəyyən növ cisimlərdə passiv halda təmsil olunmasından, onun surətlərindən gedir. Surətlər isə çox olur və müxtəlif cisimlərdə daşınır. Hissi dünyada hər bir cismi fərqləndirən, onu özü edən isə, onun hansı ideyaları və hansı nisbətdə daşıması. Cansız cismin, habelə insan xaricində bütün canlıların daşıdığı bütün ideyalar passivdir. Hansı isə ideyanın önə çəkilməsi, aktivləşməsi, aydınlaşması ancaq idrak prosesində mümkün olur.

İnsan cismi, hadisəni dərk edərkən onun daşıyıcısı olduğu ideyaları məqsədyönlü surətdə axtarıb üzə çıxarır. Yəni cisimdə passiv halda daşınan hər hansı ideya öz-özünə, öz sayəsində deyil, subyektin – insanın nəzərlərinin yönəlməsi, fokuslanması sayəsində işıqlanır, aşkarlanır. İşraqilik təlimində buna *işraq*, fenomenologiyada isə *intensiallıq* deyilir.

Fenomenologiyada istifadə olunan fenomen termini də cismin özündən onunla fərqlənir ki, idrak prosesində cismin daşıdığı bütün passiv ideyalar kompleksi deyil, ancaq bir və ya bir neçə ideya aydınlaşır, aktivləşir və baxılan kontekstdə cismi əvəz edir. Yerdə qalan isə Kantın «özlüyündə şey» adlandırdığı, aktivləşməmiş və konkret idrak aktında subyekt üçün qaranlıq qalan passiv ideyalar toplusudur. Bu mənada qaranlıq heçlik kimi də başa düşülə bilər.

Beləliklə, «özlüyündə şey» əslində Kant fəlsəfəsində təqdim olunduğu kimi, idrak üçün həmişə əlçatmaz, qaranlıq bir sahə kimi deyil, hər bir konkret dərk prosesində idrakdan kənarda qalan hissə kimi dəyərləndirilməlidir. Bu cür yanaşdıqda

aqnostisizmlə fenomenologiyanın sanki sintezindən çıxış etməklə yeni bir idrak modeli yaranır: Əbu Turxan fəlsəfəsinin orijinallığı da məhz fərqli təlimləri xüsusi hallar kimi ehtiva etməsində – sintetik mahiyyətindədir. Müasir fəlsəfi fikir üçün olduqca önəmli məsələlərdən biri də budur ki, Əbu Turxan fəlsəfəsi kontekstində Kantın "özlüyündə şey" ideyası da tamamilə başqa bir mahiyyətdə üzə çıxır.

Bu təlimi incələdikdə belə bir sual ortaya çıxır: cisimlərdəki hansı isə ideyanın aktivləşməsi (işıqlanması) daha çox kimdən (nədən) asılıdır? Cisimdənmi, yoxsa subyektdənmi?

Cisim özü daşıyıcısı olduğu passiv ideyaları aktivləşdirmək, işıqlandırmaq qabiliyyətinə malik deyil. Bu qabiliyyət ancaq insanda var. Lakin insan cisimdə olanı necə «görür», yaxud necə tanıyır? Özündə əvvəlcədən olmayan bir ideyanı insan necə «tanıya» bilər? Deməli, bu ideyalar (həm də bütün cisimlərə aid olan ideyalar) insanda öncədən vardır. Cisimlə kontakt, subyekt-obyekt münasibəti əvvəlcə müvafiq ideyaların insan beynində canlanması üçün bir vəsilə olur. Və sonra bu canlanmış ideyanın guya cisimdə də üzə çıxarılması təəssüratı yaranır. Amma cisimdəki passiv ideya, əslində yenə də passiv halda qalır.

Buradan belə bir qənaətə gəlmək olar ki, insan bütün digər cisimlərdən, varlıqlardan fərqli olaraq təkcə öz bədəninin ehtiva etdiyi, yəni özünə aid olan ideyaların deyil, həm də bütün digər cisimlərdə olan ideyaların daşıyıcısıdır və onları canlandırmaq imkanına malikdir. Həm də bu keyfiyyət insan bədəninə aid deyil. Bədən özü də bir cisim olaraq «özündə şey»dir, müəyyən passiv ideyaların daşıyıcısıdır. Və onun da dərk olunması üçün işıq, intensiya lazımdır.

Belə çıxır ki, bədəndə yerləşən hansı isə orqan nə isə əlahiddə bir keyfiyyətə malikdir, yəni başqa cür proqramlaşdırılmışdır. Bax, belə bir əlahiddə xüsusiyyəti ilə məhz beyin bədənin bütün digər orqanlarından fərqlənir. O, sanki bütün kosmosda təcəssüm olunmuş mümkün ideyaların daşıyıcısı və onların canlandırıla bilməsi üçün bir vasitədir.)

Necə ki, radioqəbuledici özü bir cihaz kimi müəyyən passiv ideyanın daşıyıcısıdır və eyni zamanda tamamilə başqa ideyaların ötürülməsinə, səslənməsinə xidmət edir. Yaxud kitab və ya kompüter özləri bir cisim olaraq müəyyən mahiyyətə malikdirlər, «kitab» və ya «kompüter» ideyalarının daşıyıcılarıdır. Və bununla belə, həm də olduqca fərqli ideyaların məlumatların daşıyıcısıdır. Bu məlumat-ideyalar kitab və kompüter üçün kənar, yad ideyalardır. Burada ideyaların simvolik saxlanmasından söhbət gedir.

Kompüterdə də müəyyən bir məlumatın passiv yaddaşdan çıxarılaraq operativ yaddaşa keçirilməsi mümkündür. Burada hansı isə məlumat-ideya müəyyən bir proqram əsasında aktivləşir, işıqlandırılır. Amma insan üçün işıqlandırıcı amil kənar təsirdir.

Belə bir təsir ümumi halda situasiya, mühit və ya daha geniş miqyasda götürsək, təbiət, hissi dünya, kosmos sayıla bilər. Əlbəttə, kosmik amil Allahın iradəsi kimi də şərh edilə bilər. Lakin indi bizi maraqlandıran bu deyil.

Hissi dünyada, cisimlərdə olan passiv ideyalarla insanın potensial hafizəsində olan ideyaların adekvatlığı, birqiymətli eyniyyət problemi fəlsəfədə ən mübahisəli məsələlərdən biridir. Bir çox filosoflar belə hesab edirlər ki, insanda ideya hissi təcrübənin nəticəsi olaraq, yəni cisimdəki xassələrin, passiv ideyaların üzə çıxarılması, inikası kimi yaranır. Platonun «Menon» əsərində yazdığına görə, insan nəfsi ölməz olduğundan və insanın əvvəlki həyatlarındakı təcrübələrin nəticələri universal hafizədə saxlandığından idrak prosesi onun indiki həyatında cisimləri xatırlaması, tanıması və ya yenidən dərki (raspoznovanie) kimi həyata keçir (**8**). Lakin bu halda da tam adekvatlıqdan danışmaq çətindir. Yaxud Platonun başqa bir fikrinə uyğun olaraq, cisimlər (Əbu Turxanın terminologiyasına görə, cisimlərdəki passiv ideyalar) ideyaların (əslində mütləq ideyaların) surətləridir. Lakin bu zaman hissi dünyada ideyalar təhrif olunduğundan, yenə də orijinala tam adekvat olmur.

Əbu Turxan belə bir versiya irəli sürür: həm cisimlərdəki, həm də insanın genetik hafizəsindəki ideyalar eyni bir yaradılış prosesinin nəticələridir **(9)**. Başqa sözlə, mikrokosmdakı passiv ideya ilə cisimdəki passiv ideya – hər ikisi eyni bir aktiv, orijinal ideyanın surətləri olduğuna görə, bir-birinə ekvivalentdirlər.

İnsanın kosmik ruhla (dünya ilə) əlaqəsi onun daşıdığı daha yüksək səviyyəli ideyanın realizasiyası kimi həyata keçir. Əql kosmik ideyanın realizasiyasıdır. Bu ideyanın realizasiyası da xarici aləmlə, mühitlə qarşılıqlı əlaqə prosesində həyata keçir. Kosmik ruh (mikrokosm) bütün insanlar üçün eyni potensial baza olduğuna görə, insanlar hamısı «bu dili» bilirlər. Sadəcə olaraq, müxtəlif adamlar üçün bu potensialın müxtəlif hissələri aktivləşmiş olur. Yəni insan ona daxilən xas olan bu potensial bilik bazasından yararlana bilmək üçün intellektual iradə nümayiş etdirməlidir.

Canlanmış, işıqlanmış ideya kopiyalanmaq və çoxalmaq imkanına malikdir. Bu isə maddi realizasiya prosesində həyata keçir.

Eyni ideyanın müxtəlif daşıyıcılarının olması materialın bolluğundan asılıdır. Eyni qədər materialdan müxtəlif şeylərin yarana bilməsi isə ideyaların bolluğundan asılıdır.

İdeya yoxsulluğu şəraitində dünya yeknəsəq və bir-birini təkrarlayan şeylərdən ibarət olardı. Burada «müxtəliflik» ancaq materialın müxtəlifliyi və məkan-zaman sayəsində mümkün olur.

İdeya zənginliyi isə müxtəlif mahiyyətli şeylərin yaranmasına imkan verir. Bu müxtəliflik çox vaxt potensial imkan şəklində də özünü göstərir. Başqa sözlə, bu zaman virtual müxtəliflikdən söhbət gedə bilər. Bir tərəfdə məhdud miqdarda material və olduqca müxtəlif ideyalar, formalar, layihələr, digər tərəfdə isə məhdud sayda ideyalar və əksinə, böyük material bolluğu vardır.

Əbu Turxan təliminə görə, hər bir yaranış ideya və materialın konkret bir görüşü, başqa sözlə desək, ideyanın maddi realizasiyasından ibarətdir. Digər tərəfdən, artıq reallıq olan hər bir cisim özündə daşıdığı passiv ideyanı (ideyanın konkret bir surətini) özü canlandıra bilməz. Bu ancaq insan idrakının

məqsədyönlü fokuslanması sayəsində mümkün olur. Və canlanmış ideya yenidən yüzlərlə surətlər vasitəsilə çoxala bilər.
Bizim real dünyamız virtual ideyalar dünyası ilə virtual materiallar dünyasının «təsadüfi görüşlərindən» hasil olur. İki əksqütblü virtuallığın toplanmasından bir reallıq yaranır. İnsana bəzən elə gəlir ki, o bu görüşləri idarə edə bilər. Lakin insan buna ancaq lokal bir miqyasda, ancaq konkret bir ideyanın realizasiyası miqyasında müyəssər olur. Geniş miqyasda götürdükdə isə bu, insan üçün idarəolunmaz bir prosesdir və ancaq daha böyük bir qüdrətin istəyi və iradəsi ilə həyata keçir. İnsanlar bu qüdrətə Allah deyirlər.
Maddi şeylərin cəmlənməsi yalnız hər hansı bir canlı ideyanın cazibəsi sayəsində yeni bir sistemin, yeni bir mahiyyətin yaranmasına gətirib çıxara bilər. Bu toplanma əslində sintezdir, yeni bir mahiyyətin əvvəlki materialları istifadə etməsidir. Bu zaman toplananların mahiyyəti arxa plana keçir və bütöv sistem bir mahiyyətin, bir yeni canlı ideyanın maddi realizasiyası kimi üzə çıxır. Əgər belə bir səfərbəredici ideya olmasa, guya toplanan şeylər əslində özü olaraq qalacaq və onların məkanca bir yerə cəmlənməsi yeni bir mahiyyətin yaranmasına səbəb olmayacaqdır.
Bir qayda olaraq ağıl, nəfs və ruh anlayışlarından istifadə edən klassik fəlsəfi təlimlər Yeni Dövrdə şüur anlayışının prioritetliyi sayəsində fərqli düşüncə tərzinə keçmişdir. Fəlsəfənin müvafiq terminologiyaya yenicə uyğunlaşdığı bir vaxtda *aşkarlanmayan şüur* haqqında təlimin ortaya çıxması fəlsəfi paradiqmanın bir daha dəyişilməsi tələbini ortaya qoymuşdur. Lakin bu yenilik tələbi əslində köhnəyə, Şərq təfəkkür ənənələrinə qayıdış tələbindən ibarətdir. Fəlsəfənin dini düşüncədən ayrılması sahəsində arxa plana keçmiş ruh və bədən problemi qarışıq dini-fəlsəfi sistemlər halında olan Şərq düşüncəsində həmişə prioritet mövzu olmuşdur. Qərb fəlsəfəsi təbiəti, maddi dünyanın qanuna-uyğunluqlarını ruha istinad etmədən, müstəqil şəkildə tədqiq edən elmə əsaslanmaqla və elmi dünyagörüşünün güclü təsirinə məruz qalmaqla Şərq düşüncə ənənələrindən çox uzaqlaşmışdır. İdrak

prosesləri, şüur fəlsəfənin predmetində saxlansa da maddi gerçəkliyin öyrənilməsi elmin ixtiyarına verilmiş, elmlə vasitələnmiş və fəlsəfə bu bölgüyə ancaq elm fəlsəfəsi kimi daxil olmuşdur.

XIX əsrin axırları, XX əsrin əvvəllərində isə təbiətşünaslığın inkişafı elə bir mərhələyə gəlib çatdı ki, şüurun və nəfsin də təbii-elmi yolla öyrənilməsi günün tələbinə çevrildi. Elm yenə də fəlsəfəni izləməkdə davam edərək onun tədqiqat sahəsinə daxil oldu. Ən önəmlisi isə budur ki, ənənəvi terminlər yeni məzmunla zənginləşir. Ruh, nəfs və şüur anlayışlarının fərqli kontekstlərdə işlənməsi, bir tərəfdən, onların məzmununu zənginləşdirsə də, digər tərəfdən, onların mahiyyətini yenidən nəzərdən keçirmək zərurəti yaranır. Beləliklə, təbiətşünaslığın inkişafı fəlsəfi terminlərin də dəqiqləşdirilməsini tələb edir.

Təsadüfi deyildir ki, Amerika filosofu Uilyam Ceyms psixologiyaya təbiətşünaslığın bir sahəsi kimi baxır (**10**). Digər tərəfdən professor Leddin yazdığı kimi psixologiya şüur və-ziyyətlərini təsvir və şərh edir. Beləliklə, fəlsəfənin başlıca kate-qoriyalarından olan şüur (yaxud nəfs, və ya ruh) təbiətşünaslığın predmetinə çevrilir. Təsadüfi deyil ki, bəzi filosofların (məsələn, H.Spenser) fikrinə görə, «cismani həyatla ruhani həyatın mahiyyəti eynidir» (Spenser bunu daxili münasibətlərin xarici münasibətlərə uyğunlaşması kimi, təkamülün nəticəsi kimi izah edir).

U.Ceymsə görə, ruhani (nəfsani, mənəvi) həyatın faktları fiziki mühitdən kənarda öyrənilə bilməz. Bu baxımdan o, nəfsi ancaq qeyri-maddi varlıq kimi nəzərdən keçirən rasional psixologiyanın mövqeyini qəbul etmir. Müasir psixologiya etiraf edir ki, insanın daxili qabiliyyətləri onun yaşadığı maddi dünyanın formalarına uyğunlaşdırılmışdır (**11**).

Təbiətşünaslığın nailiyyətlərindən istifadə etmək cəhdləri tədqiqatçını istər-istəməz materialist mövqeyə sürükləyir. Nəfsdəki prosesləri, beynin fəaliyyətini əsəb sistemi ilə əlaqələndirən U.Ceyms bunun açıq-aşkar materialist baxış olduğunu dərk etdiyi üçün vəziyyətdən çıxış yolları axtarır, lakin

təbiətşünaslığın müddəalarını idealist fəlsəfə kontekstinə sala bilmir. U.Ceyms etiraf edir ki, materializm yüksəkdə duranı aşağıda olandan asılı vəziyyətə salır. Nəfsin beynin fəaliyyəti ilə əlaqələndirilməsi də bu qəbildəndir. Amma hələ ki, elm ancaq bu yolu təklif edə bilir (**12**).

Burada yada salmaq yerinə düşərdi ki, hələ orta əsrlərdə İbn Sina və Ş.Sührəvərdi nəfs hadisələrini bədənlə izah etmək cəhdlərinin qüsurlu olduğunu göstərirdilər. Ş.Sührəvərdi yazırdı ki, aşağıda olan özündən yüksəkdəkini idarə edə bilməz. Ona görə də, nəfs bədənin məhsulu ola bilməz. Bədən nəfsi yox, nəfs bədəni idarə edir (**13**). XX əsrin ən böyük psixoloqlarından biri Karl Qustav Yunq yazır ki, ideyalar hansı isə konkret insandan yox, nə isə daha böyük bir varlıqdan yaranır. Biz onları deyil, onlar bizi formalaşdırır (**14**).

U.Ceyms də, K.Q.Yunq da İbn Sina, Ş.Sührəvərdi kimi nəfsin bədənə nisbətən yüksəkdə durduğunu, daha böyük bir sirrə əsaslandığını bir sövq-təbii ilə, fəhmlə dərk edirlər. Lakin bir Qərb adamı olaraq U.Ceyms təbiətşünaslığın açdığı imkanlardan kənar qala bilmir və ümid edir ki, ənənəvi elmi üsullarla alınan biliklər, fizioloji və nevroloji proseslərin tədqiqi, nəhayət, nəfsin öyrənilməsi üçün baza olacaqdır. Və ümid edir ki, indi baş-ayaq qoyulanlar fəlsəfi kontekstə keçdikdə yenidən öz yerini tuta bilər.

Elmin mövqeyi isə təxminən belədir ki, nəfs, şüur hadisələri bədənlə xarici maddi aləm arasında qarşılıqlı əlaqədən irəli gəlir. Yəni iki maddi tərəf arasındakı münasibət fərqli bir mahiyyətin – şüurun yaranmasına səbəb olur. Lakin ən çətini və elm üçün əlçatmaz olan da, elə bu keçid məqamının anlaşılmazlığıdır. Cisimlə qarşılıqlı əlaqə nəticəsində orqanizm müəyyən fiziki təsirlərə məruz qalır və bu təsirlər beyinə ötürülür. Beyində də müəyyən proseslər gedir, qıcıqlar neyronlara təsir edir və s. Bütün bunları elm öyrənə bilər. Lakin beyində gedən sonrakı maddi proseslərin sayəsində maddi aləmin hüdudundan kənara çıxan, ondan köklü surətdə fərqli olan və maddi üsullarla qavranıla bilməyən, görünməsi, eşidilməsi, toxunulması mümkün olmayan şüur hadisələri ortaya çıxır. Bax, bu keçidi və yaranmış

yeni mahiyyətli hadisəni təbiətşünaslıq izah edə bilmir. Elmin ən son nailiyyətlərinə əsaslanmağa çalışan fəlsəfə də bu məqamda aciz qalır. Bu keçid, sıçrayış, bu böhran məqamı elm üçün anlaşılmaz olduğu kimi, sıçrayışdan sonra qədəm qoyduğumuz yeni dünya, mənəvi-ruhani dünya da elm üçün əlçatmazdır. (Elm bu sahəni fəlsəfəyə saxlamışdır.) Çünki, bu dünyada nə məkan, nə zaman, nə də səbəbiyyət hökm sürür. Maddi dünya qanunlarından heç biri burada işləmir. Lakin insan malik olduğu əqlin, mənəviyyatın sayəsində, həmin sirli və əsrarəngiz dünyanın sayəsində maddi dünyaya fərqli bir münasibət bəsləməyə başlayır ki, bax, bundan sonrakı zona yenə də elmi tədqiqat zonasıdır. Daha doğrusu, bu elə əvvəlki, şüuraqədərki maddi dünyadır, sadəcə bizə məlum olduğu şəkildə. Zira, şüuraqədərki dünyanın özü də bizim üçün əlçatmazdır, qaranlıqdır. Dünya bizim üçün şüur mərhələsindən sonra işıqlanır. Daha doğrusu, işıqlanmış hissəsi bizim üçün dünyadır.

Ədəbiyyat:

1. Гегель. Лекции по истории философии. Книга первая. С-Пб., Наука, 2001, с. 72.
IX, стр.12.
2. Мерло-Понти. (Вах**:** Филиппов Л.И. Философская антропология Жан-Поля Сартра. М.,
«Наука», 1977, стр.15).
3. Г.В.Ф. Гегель. Философия истории. С-Пб, «Наука», 2000, стр. 248-249.
4. Yenə orada: səh. 249.
5. А..Шопенгауэр. Мир как воля и представление. Приложение 2-е. О метафизической потребности человека.
6. İlham Güngören. Buda və ögretişi. İstanbul, «Yol yayınları», 1981, səh.34.
7. Ибн Сина. Избранные философские произведения. М., «Наука», 1980, стр.319.
8. Платон. Собрание сочинений в 4 т.: Т. IV, М.: Мысль, 1990. – стр. 588-589.

9. Bax: Fəlsəfə və sosial-siyasi elmlər jurnalı, 2008, № 5-6, s. 109.
10. У.Джеймс. Научные основы психологии. - Минск.: Харвест, 2003, стр.3.
11. Yenə orada, səh. 5.
12. Yenə orada, səh. 9.
13. Ş.Sührəvərdi. İşıq heykəlləri.- Şərq fəlsəfəsi (IX-XII əsrlər), Bakı, 1999, səh. 221.
14. Юнг К. Г. Психология бессознательного. М., Канон, 1994, стр.6.

Əli ABASOV

MÜASİR AZƏRBAYCANA HANSI FƏLSƏFƏ LAZIMDIR

Azərbaycanın bu günkü inkişaf problemlərinin onun mədəni irsi fonunda müzakirəsi təqdim olunmuş məqalənin adında ehtiva olunan suala mümkün cavabların müəyyənləşdirilməsinə yardım edə bilər. Qoyulan problemin tam izahına iddia etmədən, zənnimcə, bizi Azərbaycanın müstəqillik əldə etməsi, sovet formasiyasının dağılması ilə baş-başa buraxılmış və SSRİ-nin çöküşü ilə sürətlənən və qloballaşma dalğasının təsiri altında inkişaf edən problemlərinin şərhinə yaxınlaşdıracaq ümumi qaydada bəzi fikirləri diqqətə çatdırmaq istərdik. Biz aşağıda, fikrimizcə müzakirəsinə ehtiyac duyulan böyük problemlər blokunu təqdim edirik:

1. İlk növbədə bu əsasən, bütövlükdə dünyəvi proseslərin gedişinə və ayrı-ayrı ölkələrin siyasi, iqtisadi və mədəni inkişaf ssenarilərinin dəyişməsinə həlledici təsir göstərən geopolitoloji amildir. Cəmiyyət həyatı və dünya dövlətlərinin müasir modellərinin xarakterinə amiranə təsir göstərən qloballaşma nəzərdə tutulur.
2. Sonra, Azərbaycanın təcrübəsinə uyğun modernləşmə prosesləri çərçivəsində qalmaqla müasir dövrün sosio-mədəni

inkişaf modeli kimi mühüm paradiqmasını müzakirə etmək lazım gəlir. Məhz bu kontekstdə milli mədəni irs cəmiyyətin dayanıqlı konsolidasiyasına və ölkənin pozitiv inkişafına ya mane olur, ya da mədəniyyətin uğurlu təfsir modeli olduqda ona yardım edir.

3. Sosio-mədəni problemlərə müraciət onu göstərir ki, müasir şəraitdə mədəniyyətin ümumi qəbul edilmiş maddi və mədəni tərkib hissələrinə bölünməsi nəinki kifayət deyil, həm də mədəni ənənə və ictimai inkişafın qarşılıqlı əlaqə modellərinin nəzəri qaydalarının praktiki gerçəkləşdirilməsinə əngəl törədir.

4. Belə vəziyyət müzakirə edilən diskursa bu qüsuru qismən aradan qaldıran sosial mədəniyyət konseptini daxil etməyi israrla təkid edir. Azərbaycan cəmiyyətinin optimal inkişafı və onun, müəyyən mədəni ənənənin daşıyıcısı olan fərdinin fəaliyyəti üçün hansı sosio-mədəni modelə (M.Veberin «protestant etikası» yanaşmalarının islam mədəni gerçəkliklərinə uyğunlaşması kontekstində) üstünlük verilməsini məhz bu rakursda müəyyənləşdirmək olar (**1**).

5. Sonuncu məqam bizi F.Fukuyamanın «Böyük Parçalanma» ətrafında cəmləşən ideyalarına müraciətimizi tələb edir (**2**). «Böyük Parçalanma» variantlarından hansısa birinin Azərbaycanda nə vaxtdan gerçəkləşməyə başlamasını və bu fenomenin cari nəticələrinin necəliyinin müəyyənləşdirilməsi vacibdir.

6. Nəhayət, dünyagörüşü səviyyəsində, dünyanın adət etdiyimiz klassik mənzərəsini dağıdaraq obyektlər (və subyektlər) dünyasını onlar arasında *sporadik* yaranan qarşılıqlı münasibətlər şəbəkələri dünyası ilə əvəzləmiş postmodernizm konsepsiyasında birləşən mənəvi və mədəni axtarışların ümumi vəziyyətinə diqqət yetirək. Təbii proseslərdən fərqli olaraq (və bunu həmişə xatırlamaq lazımdır) sosial gerçəklik prosesləri daim insan tərəfindən qurulur (T.Lukman) və bu adamların mövcud olduğu mühitin unikallığını yaradır.

7. Sonda belə bir fikri də söyləmək istərdim ki, fəlsəfə müasir nəzəri refleksiya norması olmazdan öncə əhəmiyyətli dərəcədə dəyişilməlidir. Fəlsəfə inkişafının müxtəlif tarixi dövrlərində ya

ayrı-ayrılıqda, ya da bütövlükdə dünyagörüşü, metodologiya, məntiq, idrak nəzəriyyəsi (qnoseologiya), varlıq nəzəriyyəsi (ontologiya), dəyərlər nəzəriyyəsi (aksiologiya) və sadəlik üçün üstündən keçdiyimiz insanın bir sıra digər intellektual fəaliyyət istiqaməti kimi çıxış etmişdir. Fəlsəfənin bütün bu sifətləri dəqiq təyinə, fəaliyyət sahəsinə, ideya və prinsiplərə malik olmuş və onların köməyi ilə fəlsəfə insanın öz-özünə, Allaha (Mütləqə), təbiətə, cəmiyyətə münasibətini geniş kontekstdə sistemləşdirmiş və insanın dünya ilə qurduğu çoxsaylı əlaqələrini (gerçək və ideal) özü tərəfindən qiymətləndirməsini determinasiya etmişdir. Hal-hazırda fəlsəfi refleksiyanın bütün bu yayılma istiqamətlərində Yeni fəlsəfənin yaradılması layihəsini gündəmə gətirən ciddi, bəzən də inqilabi dəyişikliklər baş verir.

Dəyərli etirazlar və praktik təkliflərin labüdlüyünü öncədən görərək qeyd etmək istərdik ki, təklif edilmiş sxem həm tənqid, həm də inkişaf üçün tamamilə açıqdır. Üstəlik, bəyanlanmış mövzunu ardıcıl nəzərdən keçirməklə biz, diqqəti həll reseptlərindən daha çox, həllini gözləyən problemlərə yönəldəcəyik. Bu gün vəziyyət elədir ki, problemin qoyuluşu, onun təcili həllindən daha çox növbəti müzakirələri ehtiva edir.

***

Son onilliklər ərzində dünya sistemli dəyişikliklərə uğrayaraq belə bir aydın təəssürat törətmişdir ki, bəşəriyyət vərdiş etdiyimiz qarşılıqlı əlaqəli tarixi zaman atmosferindən çıxmış və keçmiş, indi və gələcəklə əlaqənin kəsilməsi ilə xarakterizə olunan tam qeyri-müəyyənliyə yönəlmişdir.

Müasir dünya ölkələrinin əksəriyyətinin qarşılaşdığı тящдидляр unikaldır, onlar yeni dünyəvi fenomen - qloballaşma prosesinin hər şeyi əhatə edən pressinqi altında formalaşır. Bəşəriyyət, nəticələrini hələlik öncədən söyləmək çətin olan qloballaşma epoxasına qədəm qoymuşdur, lakin aydındır ki, dünya insanların bir nəslinin həyatı ərzində əhəmiyyətli dərəcədə daha qarşılıqlı əlaqəli və vahid olmuş və sürətlə unifikasiyalaşmağa davam edir;

ümumbəşəri dəyərlərin mürəkkəb, ziddiyyətli və xeyli dərəcədə kortəbii formalaşma prosesi start götürmüşdür. Bununla bərabər maddi rifahın artan əhəmiyyətə malik olduğu dəyərlər sistemində insanın mənəvi tələbatlarının azalma təmayülləri aşkar görsənir.

Qloballaşma proseslərinin necə fəaliyyətdə olması, ayrı-ayrı xalqların mədəni inkişafının xarakterinə necə təsir göstərəcəyinin düşünülməsi buna ayrılan zaman qıtlığı şəratində keçir. Ümumi qəbul edilmiş dünyagörüşü mövqeyi və dəyərlərinin yoxluğu şəraitində kəskin texnoloji sıçrayışın nəticələri haqlı əndişələr doğurur, belə ki, bu zaman mentallığın dəyişməsi texnoloji sferanın kəskin transformasiyası və informasiya partlayışı ilə ayaqlaşa bilmir. Qloballaşmanın daha təhlükəli törəməsi mədəni çoxobrazlığın azalmasıdır. Unifikasiya prosesləri, mədəniyyətlər arasında fərqlərin radikal şəkildə yuyulması labüddürmü? Bundan öncə dilin çoxluğunun ölməsi, xalqlar və mədəniyyətlər arasında vahid dilin formalaşması bu qədərmi zəruridir? Bəşəriyyət vahid mədəni standartlara gələcəkmi və bu zaman nələr itirilə bilər? Bu və heç də az kəskin olmayan digər problemlər, çoxları artıq bu problemi müstəqil həll etmək imkanlarından məhrum olan müxtəlif xalqların həyati vacib mədəni atributlarını qoruma yolları haqqında məsələni labüd olaraq ortaya çıxarır.

Qloballaşma tarixin dikəltdiyi və xalqları ayıran müxtəlif çeşidli sərhədləri sürətlə dağıdır, lakin eyni zamanda mədəniyyət və xalqların çoxluğunun tədricən itmə təhlükəsini artırır. Bu mürəkkəb problemlərin həlli, yalnız təkcə ayrı-ayrı şəxslərin deyil, həm də bütöv xalqların hüquq və azadlıqlarının ən ümumi, universal və mütləq xarakterini qəbul edən plüralizmin fəaliyyət göstərdiyi gerçək demokratik cəmiyyətlərdə mümkündür. Dünya hələ ki, belə ideal vəziyyətdən çox uzaqdır.

Qloballaşma dövrü mədəniyyəti tarixi səbəblərdən marginal olan və özündə çoxobrazlı mədəni istiqamətləri sintezləşdirmiş xalq və dövlətlərə daha böyük təhlükə daşıyır. İki və daha çox sivilizasiyalırın qovuşağında formalaşan sosiomədəni təsisatlar və onların mədəniyyətlərinin heterogenliyi səbəbindən mədəni identikliyi tamamilə aradan qaldırmağa qadir olan qloballaşma

proseslərinin təsirinə ilk növbədə məruz qalmışlar. Azərbaycan məhz belə ölkələr sırasındadır, ona görə də biz bu prosesi dayandırmağa və yaxud onun formasını dəyişməyə qadir sosial texnologiyalar axtarmalıyıq.

Qloballaşma gerçəkləri etnik münaqişənin beynəlmiləlləşməsi və yeni neft strategiyası ilə əlaqədar olaraq, yəni keçmiş SSRİ respublikaları ilə müqayisədə Azərbaycana kifayət qədər daha erkən çatmışdır. Lakin milli mədəniyyət qarşısında yaranan problemlərin əksəriyyətini qloballaşma prosesləri törətməyib, tarixi inkişaf və respublikada keçid dövrünün ziddiyyətlərinin nəticəsidir. Yeri gəlmişkən artıq bu gün, hələ ki, paralel və nadir hallarda kəsişən bu iki prosesi tez-tez qarışdırır, bu və ya digər nəticələri səhvən əks səbəblərə müncər edirlər. Şübhəsiz, ölkənin gerçək və zahiri problemləri qloballaşmanın Azərbaycan, region və dünyadakı mümkün dinamikası çərçivəsində təhlil edilməlidir.

Gələcəyə yönəlik proqnozların qeyri-müəyyənliyi ilə yanaşı bir şey aydındır: qloballaşma nəticələri (pozitiv və neqativ) artacaq öz-özünə inkişaf edən sistemdir, ona görə də hər bir ölkə özü üçün bu prosesin təhlükələrinə nəzarət və xəbərdaredici texnologiyalarını mənimsəməlidir. Bu xüsusilə vacibdir, çünki bu gün qloballaşma faktiki özbaşına buraxılıb. Bu ideyaların xalqlar tərəfindən qəbul edilməsi üçün siyasi və sosiomədəni zəmin praktiki olaraq mövcud deyil, xalqlar və onların mədəniyyətlərinin inkişafı üçün boş məkan saxlayacaq siyasətin formalaşdırılması ilə məşğul olan nüfuzlu dünyəvi mərkəz yoxdur; qloballaşma şəratində ayrı-ayrı xalqların mədəni dinamikası ssenarilərinə həsr edilən tədqiqatların sayı da çox deyil.

Qloballaşma tərəfdarları və əleyhdarları arasında kəskin qarşıdurmanın artması, bütün xalqların qəbul edəcəyi və dünyanın ən müxtəlif regionlarının sakinlərinin mədəni təcrübəsini inteqrasiya edəcək ümumbəşəri dəyərlərin formalaşdırılmasına yeni yanaşmalar tələb edir. Əks halda bu təcrübənin bəşəriyyətin daha yaşarlı, «ekoloji təmiz» həyat mədəniyyəti tipini aşkarlamazdan və bu dəyərli ünsürləri

ümumbəşəri mədəni irsə daxil etməzdən öncə biryolluq itmə təhlükəsi qaçılmaz olacaq.
Mədəni plüralizm və müxtəlif mədəni cərəyanların sintezinin unikal təcrübəsi dünya miqyasında mədəniyyət fenomenlərinin harmonik birləşmə mexanizmlərinin yaradılması üçün yaxşı model ola bilər. Və bununla əlaqədar, əsrlər boyu qərb və şərq sivilizasiyalarının güc sahələrinin kəsişmə nöqtəsində yaşamış insanlar nəslinin təcrübəsi çox dəyərli ola bilər.
Bu xüsusilə vacibdir, belə ki, siyasi doktrinalar, iqtisadi modellər, sosiomədəni konsepsiyalar, elmi ustanovkalar, dəyər və hüquqi normalar gerçək həyatın dinamikası ilə ayaqlaşmayaraq tamamilə köhnəlmişdir, və bu günün təhdidlərinə çoxdan cavab vermirlər. Böhranlı dövrlər keçmişdə də dəfələrlə meydana gəlmişdir, lakin cəmiyyət həyatının bütün sferalarını əhatə edən cari böhranın miqyası onu göstərir ki, vəziyyət prinsipial yeni xarakter alıb, onun dəf edilməsi yalnız formalaşmış təfəkkür, davranış, dünyaduyumu stereotiplərinin kardinal sındırılması yolu ilə mümkündür. Biz şüurun dəyişdirilmə yolları haqqında düşünməliyik (**3**), yalnız bu yeni dünyagörüşünün, yeni fəlsəfənin formalaşmasına gətirə bilər.

***

Müasir şəraitdə davamlı inkişafın həlledici amili dövlət və cəmiyyətin modernləşmə modelinin seçilməsidir. Yuxarıda göstərdiyimiz səbəblərə görə hər bir belə model, uzunmüddətli tarixi zaman ərzində formalaşan mədəni ənənəni nəzərə almalıdır. Başqa sözlə desək, modernizasiya modelinin düzgün seçilməsi o halda mümkündür ki, onun sistemyaradıcı elementi kimi, insan və cəmiyyətin, onların davamlı inkişafı üçün əlverişli olan həyat tərzini nəinki təşviq etməyə, həm də yaratmağa qabil aktiv sosiomədəni model götürülür.
Modernləşmə problemi özlüyündə inkişafın mərkəzi problemidir, qloballaşma dövründə onun nüfuzu dəfələrlə artır: modernləşmə mədəniyyətin marginallaşdırılmasının təhlükəli alətinə, yəni

mədəni müstəmləkələşdirmə formasına çevrilir və cəmiyyətin əhəmiyyətli hissəsi tərəfindən, müxtəlif mədəniyyətlər tipinin sürətlə toqquşması ilə şərtlənən mədəni şok (bax. **4**) kimi qavranılır. Mədəni şokun ifrat formaları, sürətli modernləşmə hesabına vəziyyəti və insanların şüurunun tezliklə dəyişməyə cəhd göstərən cəmiyyət və dövlətlərdə müşahidə olunur. Lakin özgə təcrübəsinin əxz edilməsi kimi götürülən modernləşmə, belə modernləşmənin neqativ nəticələrini çilovlamaqa qadir yeni ictimai institutların və elitanın formalaşmasında gecikmə cəmiyyətdə intizamsızlıq, parçalanma və xaosa aparır.

Deməli, dövlət və cəmiyyətin əsas sosiomədəni inkişaf modelinin məkanına gətirilən seçilmiş modernləşmə variantı, mövcud modelin transformasiyasına gətirə bilməsə də, ən azı mədəni ənənənin həyati əsasını dağıtmamalıdır.

Modernləşmənin nəzəri konsepsiyalarının bolluğunda biz, onların əməli gerçəkləşdirildiyi demək olar ki, hər yerdə uğursuzluq müşahidə edirik. Postsovet ölkələrində bunun səbəblərindən biri də, fikrimizcə mədəniyyət fenomeninin düşünülməsinin ehkamcı çalara malik xarakterindədir.

***

Mədəniyyət haqqında iqtisadi bazisin hansısa əlavəsi kimi təsəvvürlər tamamilə köhnəlib. Bu gün mədəniyyət ilk növbədə, lazımi davranıldıqda gələcək inkişafın mümkün ssenarilərinin bərpasına qabil unikal sistem kimi nəzərdən keçirilir. Bu rakursda, xüsusilə sinergetik prinsiplər üzrə öz inkişafının tənqidi fazasında fəaliyyət göstərən mədəniyyət permanent yaradıcılıq, yeni mənəvi məkana keçmə imkanı, daha çox xəritə və oriyentirlərdən məhrum dünyada fasiləsiz naviqasiya kimi nəzərdən keçirilməlidir. Mədəniyyət - insanın yaradıcı fəaliyyətinin xarakterindən əhəmiyyətli dərəcədə asılı olan insan təbiətinin gələcək inkişafına təsir göstərməyə imkan verən fenomendir.

İnsan fəaliyyəti üçcəhətlidir - o eyni zamanda və yaxud paralel olaraq mədəniyyəti, sosiallaşma formasını və sivilizasiyanı törədir, ona görə də tarixdə müntəzəm mədəniyyət böhranları qloballaşma epoxasında xüsusilə kəskinləşən mənəvi və texnogen inkişafın ziddiyyətləri və toqquşması ilə izah oluna bilər. Halbuki mədəniyyətin mövcud interpretasiyaları özündə əsasən insan zəkasının, permanent genişlənən insan fəaliyyətinin «vəhşi» təbiətinə, onun cilovlanmaz kortəbiiliklərinə «qəhrəman» qarşıdurmasını inikas etdirməli olan pozitiv, müsbət dəyərləndirmələri daşıyır. Köhnə dəyərlərin təftişi, daşlaşmış stereotiplərin dağıldığı bizim əsrdə mədəniyyətin interpretasiyası və anlaşılması ətrafında formalaşmış xürafatçılığın da yenidən nəzərdən keçirilməsinin vaxtı çatmışdır. Əsrlər boyu hökmranlıq etmiş mədəniyyət tipi, bəşəriyyəti təhdid edən çoxsaylı fəlakətlərin meydana gəlməsi ilə birbaşa əlaqəlidir. Ayrı-ayrı dövrlərdə formalaşan mədəniyyət sistemi ağrılı artım, tənəzzül və anomal inkişaf mərhələsini yaşayır.

Lakin mədəniyyət haqqında köhnə təsəvvürlərin ən zərərlisi, onun hələ də insanın dünyanın dəyişdirilməsinə yönəlik maddi və mənəvi fəaliyyəti ilə məhdudlaşan hadisə kimi tədqiq edilməsidir. Halbuki artıq «...XX əsrin birinci yarısında mədəniyyətin maddi, sosial və mənəvi kimi üçhədli üzvlənməsi qəbul edilmişdir. Maddi mədəniyyət dedikdə insanın öz məskunluq mühiti ilə qarşılıqlı münasibətinə, tələbatlarının ödənilməsinə, sonrakı mövcudluğunun təminatına, həyatının texnoloji tərəflərinə aid olan hər şey başa düşülür. Sosial mədəniyyət dedikdə, insanların bir-birinə münasibəti, status və sosial institutlar sistemləri anlaşılır. Mənəvi mədəniyyət dedikdə, həyatın subyektiv aspektləri, ideyalar, ustanovkalar, dəyərlər və onlara yönəlik davranış üsulları nəzərdə tutulur» (**5**). «*Sosial mədəniyyət*» konseptinin tətbiq edilməsinin - sosial və humanitar elmlər strukturunda mücərrəd nəzəri quramaların konkret cəmiyyət (dövlət) üçün inkişaf və mədəni ənənənin qarşılıqlı munasibətlərinin praktikada spesifikasını müəyyənləşdirən aktiv modelə çevrilməsinə əngəl törədən məhdudiyyətləri aradan

qaldıran yeni paradiqmanın yetişməsi haqqında danışmağa imkan verən inqilabi addımdır. Doğrudan da sosial mədəniyyətin vasitəsilə cəmiyyətin maddi və mənəvi mədəniyyətləri müəyyənlik və bağlılıq əldə edir, onlar sosial münasibət və təsisatlar, siyasi və iqtisadi tədqiqatlar sistemində aşkar izlənilməyə başlayır. Həqiqəti desək, yalnız sosial mədəniyyət paradiqmasının cəlb edildiyi halda mədəniyyətin dinamikası və modernləşməni vahid konseptdə birləşdirən sosiomədəni inkişaf modeli praktik məna kəsb edir. Və burada mədəniyyətin, hər bir cəmiyyətin mənimsəməli olduğu fövqəladə vacib anlaşılmasını qeyd etməmək olmaz: «XX əsrin sonlarında ABŞ da formalaşmış zəngin, azad və müxtəlifliyin olduğu cəmiyyətdə *mədəniyyət* sözü seçim ideyası ilə assosiasiya olunmağa başladı» (**6**). Əlbəttə söhbət *azad* seçimdən gedir.

Azacıq sonra F. Fukuyamanın tədqiqatı timsalında biz bu məsələyə qayıdacayıq, hələlik inkişafın sosiomədəni «ölçüsünü» təsvir edən M.Veber ideyalarının Azərbaycana necə tətbiq olunmasını nəzərdən keçirək.

***

Veber qərb liberal sisteminin əsasını qoymuş «protestant etikasını» tədqiq edib. Nəinki liberalizmin fundamental ziddiyyətləri və zəifliyinin aşkarlandığı dünyada yaşayan, həm də sistemli böhrana oxşar olan misilsiz resessiya zonasına daxil olan Azərbaycanla bağlı vəziyyət necədir? (**7**). Azərbaycan ərazisində təqribən 30 etnos və xalqın nümayəndələrinin yaşamalarına baxmayaraq, türk əhalisinin üstünlük təşkil etdiyi ölkədir. Konfessional çoxluq – şiə müsəlmanlardır, lakin qeyri-rəsmi hesablamalara görə sünnülər əhalinin 30-40 faizini təşkil edir. Həmçini Azərbaycana, bütövlükdə erkən industriallaşma və sovet ateist irsinin gerçəklikləri ilə determinləşmiş fövqəladə sekulyarizasiyasının miras qalması xasdır, ona görə də Azərbaycanın sosiomədəni inkişafı üçün tamamilə «dini» modelin seçilməsi

qəbuledilməz oldu. Bu gün ölkə qəribə «Şərq - Qərb» simbiozu ilə işarələnmiş inkişaf yolunu nümayiş etdirir.

Dövlət və cəmiyyətin xarakteristikalar spektrini genişləndirmək mümkün olsa da, aydındır ki, onların bayanlananları, xalqın müstəqillik əldə etdiyi dövrdə suveren dövlətçilik binasının yüksəldiyi özülün - milli özünüdərkin əsasını təşkil edir. Bizdə müstəqilliyin əldə edilməsi ilə totalitarizmin iflası və demokratiyaya keçid eyni vaxta təsadüf edir, ona görə də milli özünüdərk Azərbaycanda hüquqi dövlətin və vətəndaş cəmiyyətinin əmələ gəlməsi və inkişafının spesifikası ilə dumanlanır. Aktual milli özünüdərk hal-hazırda hökmran olan siyasi ab-havanın təsiri altında modernləşir.

Etnos, onun yerliçilik və regionçuluq fenomeninə doğru inkişafı ilə birlikdə inkişaf edən iyerarxik münasibətlər və klançılıq strukturu ənənəvi icmanı formalaşdırır.

Millət bütün insanları bərabərhüquqlu vətəndaş kimi nəzərdə tutan dövlətdə formalaşır. Bununla əlaqəli belə bir sual meydana çıxır: Azərbaycan millətinin formalaşma prosesi bitibmi? Xatırladaq ki, biz mədəniyyət deyil, siyasi terminlərlə cavab almaq istəyirik, və bu halda o inkaredicidir: nəinki bütün etnoslar, hətta sayca üstün etnos da millətə konsolidasiya olmayıb, dövlətçiliyin formalaşması bitməyib, hüquqi dövlət və vətəndaş cəmiyyətinin inkişafından isə danışmağa dəyməz. Beləliklə siyasi tarixin subyekti olan Azərbaycan milləti formalaşma mərhələsindədir, bu isə onu belə vəziyyətin bütün müsbət və mənfilikləri ilə birlikdə «gecikmiş millətlərə» aid edir (burası da var ki, əvvəllər SSRİ tərkibində olmuş xalqların böyük əksəriyyəti kimi). Sonuncu bizdə nə üçün hələ də milli özünüdərk konsepsiyasının olmamasını, həm də əsrin əvvəllərində məşhur olan «türkçülük, islam, modernləşmə», modelinin belə bir konsepsiyanın əsası kimi götürülə bilməməsini qismən izah edir. Bu milli deyil, Azərbaycan dövləti və cəmiyyətinin müasir siyasi və mədəni vəziyyətini bütövlükdə özünə hopdura və şəxsiyyətin vətəndaş olaraq suverenliyini praktikada gerçəkləşdirə bilməyən etnik modeldir.

Başladığımız məqam üzərində dayanaq və müstəgilliyin möhkəmləndirilməsinə doğru hərəkitimizi davam etdirək. Bizim yeni milli layihəmiz XX əsrin sonunda yaranır və əsasən gərb siyasi dəyərləri ilə formalaşan geopolitoloji məkanda gerçəkləşir.
Eyni zamanda azərbaycanlılar, totalitar diktaturadan demokratiyaya, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına unikal keçid şəraitində şərq (və sovet) mentallığı ifadə olunmaqla millət kimi formalaşır. Azərbaycanda tarixən, həmçini sosializmin son onilliklərində dövlət və hakimiyyət ənənəvi olaraq iqtisadi, sosial və siyasi münasibətlərin formalaşmasına həlledici təsir göstərmişdir. Sovet totalitarlıq və iyerarxiyalığı, mərkəzləşmiş, bəzən də şəxsləndirilmiş hakmiyyətin bütün sosial strukturlarını özünə tabe edən sərt təşkilatlanmış idarə etmə sisteminin formalaşmasına gətirmişdir. Bu sistemin dağılması içtimai strukturların destabilizasiyasına, mədəni şokun törətdiyi miqyasda cəmiyyətin sürətlə təbəqələnməsilə sonuclanmışdır.
Başqa cür də ola bilməzdi, axı biz hamımız - yalnız demokratiya libasını əynimizə yoxlayan, xarici formanın daxili məzmundan vacibliyinə səmimiyyətlə inanan totalitarizmin övladlarıyıq. İndi bu yanılmalar həm daxili anlama, həm də zahiri məcburiyyətlə dəf olunur.
Milli özünüdərk qarşısında dayanan böyük problem onun marqinallığın dəf edilməsidir. Ziddiyətlidir, Azərbaycən mədəniyyəti xarici təsirdən bütün yaxşıları milli ənənəyə uyğunlaşdırmaqla özündə sintez edə bilir, lakin mədəniyyətin belə plastikliyi siyasi kamilliyin inkişafına sanki mane olmuş və müstəqil dövlətə doğru hərəkəti çətinləşdirmişdir. Azərbaycan mədəniyyəti imkan daxilində «formaca milli, məzmunca sosialist» sovet ikiləşdirmə şablonuna muqavimət göstərmişdir, eyni zamanda zərərli siyasi sistem fasiləsiz olaraq rus siyasi - ideoloji leksikonu milli dilə həkk etdirməyə və onu mədəniyyətə pərçim eləməyə çalışmışdır. Buna baxmayaraq, demək olar ki, bütün azərbaycanlıların sanki dəriyə çevrilmiş sosialist libasını heyrətləndirici sürətlə kənara atması bütün bunların ciddi inam yox, özünəməxsus ayin olmasının göstəricisidir. Bu gün hökmran

qərb siyasi doktrinası, və ruscanı uğurla sıxışdıran ingilis dili ilə bağlı oxşar mənzərənin tezliklə müşahidə olunma təhlükəsi varmı?

Məlumdur ki dövlətçiliyin yoxluğu sırf dil birliyinə gətirir, ona görə də dilin statusunun bərpası uğrunda mübarizə, müstəqilliyə aparan bütün milli hərəkatlar üçün labüd mərhələdir. Lakin müstəqillik əldə edildikdən sonra dilin milli ünsiyyət və dövlətçiliyin gerçək ünsürünə çevirilməsi üçün o, yeni siyasi məzmunla tamamlanmalıdır - o vətandaş cəmiyyəti və hüquqi dövlət dili olmalıdır. Xarakterikdir ki, Türkiyədə latın qrafikasına keçilməsilə yanaşı əhaliyə doğma dildə dünya siyasi, iqtisadi, fəlsəfi və bədii ədəbiyyatın ən gözəl nümunələri ilə tanış olmaq imkanı verən tərcümə inqilabı gerçəkləşir. Bu sırf siyasi metoddan heç də az olmayaraq, bizdən daha çox etnoslardan ibarət türk millətinin konsolidasiyasına yardımcı olmuşdur.

«Azərbaycanlılar», «Azərbaycançılıq» terminləri - tarixi inkişafın nəticəsidir, bu əxlaqi və mənəvi mövqedən müzakirə edilməyən, yalnız qəbul edilməsi gərəkən faktdır: buna, həm də müstəqilliyə bizi tarix gətirmiş və həyatımızın gerçəkliyinə çevirmişdir. Lakin bu terminlərin Azərbaycanın sosiomədəni inkişaf modelinin konstruksiyalarının daşıyıcısına çevrilməsi, hələ ki, terminoloji müzakirə çərçivəsindən kənara çıxmayan azərbaycançılıgın «anatomiya və fiziologiyası» geniş müzakirələr və tədqiqatlar tələb etməsi tamamilə başqa məsələdir. Bununla belə aydındır ki, bu Azərbaycan vətəndaşlarının onların milli, konfessional və yaxud istənilən digər identikliyindən asılı olmayaraq hüquqlarının bərabərliyinin konstitusion möhkəmləndirilməsi əsasında cəmiyyətin böyük əksəriyyəti üçün məqbul siyasi konsolidasiya formasıdır.

Dinin Azərbaycanın dünyəvi dövlətçilik sistemində yeri və cəmiyyətdə rolu haqqında yeni, daha geniş müzakirələr lazımdır. İlk baxışda hər şey sadədir: din siyasətə deyil mədəniyyətə inteqrasiya olunmalıdır, o mədəni ənənəni rəngarəng etməli, mənəvi amil və əxlaqi dəyərlər normasına çevrilməlidir. Praktikada isə biz yerli islam dəyərlərinin sosiomədəni inkişaf modelinə plastik,

üzvi inteqrasiyası kimi fövqəladə mürəkkəb məsələ ilə üzləşirik. Deməli bizə müasir dövrün təhdidlərinə və inkişafın gerçəkliklərinə uyğun «islam protestantizmi» modeli lazımdır. Və bu Azərbaycan üçün heç də təzə məsələ deyil, onunla hələ Mirzə Fətəli Axundov məşğul olub. Axundov (əsərləri şahidlik edir) ilk şüurlu və ardıcıl islam islahatçısı, nəzəri də olsa ilk islam «protestantı» olmuşdur. Onun «islam protestantizmi» tamamilə aşkər və bu gün hətta o qədər inqilabidir ki, onun üzərindən sükütla keçirlər: «İslam dini yalnız o halda möhkəm və uzunmüddətli ola bilər ki, ona etiqad edənlər elmin köməyilə dinin mahyyətinə nüfuz etsinlər və bilsinlər ki, o nədir, ona hansı zərurət var və o hansı formada olmalıdır? O zaman onda dəyişikliklər və islahatlar aparıla bilər, onda bəzi yüngül ayinlər, zəruri dəyişikliklər edilməklə xalq hüquqlarına aid bəzi qərarlar saxlanılar, onda ölüm hökmü, bədənin şikəst edilməsi və umumiyyətlə ilahi səltənət nəfinə qoyulmuş bütün ağır ayinlər ləğv edilməli, Avropa və Amerika protestantları kimi, digər millətlərdən fərqləndirmək üçün yalnız islamçılıqda protestant adlandırılmalı» (**8**).

Etiraf etmək lazımdır ki, müasir islam gerçəklikləri tamamilə ziddiyyətlidir. Onlar, dünya islamının öz siyasi, iqtisadi və sosiomədəni transformasiyasını artıq başa çatdırdığını etiraf etməyə imkan vermir, lakin daha aydını odur ki, bu proses tamamilə kritik «bifurkasiya» nöqtəsinə yaxınlaşmışdır, bundan sonra isə, islamın əvvəlki, XIX-XX əsrlərin qovuşağındakı «bifurkasiya dayanacağı» ilə şərtlənən nəticələrdən daha kəskini gözləniləndir. O zaman islam özünün Maarifçilik dövrünü yaşamış, Qərbə «yetişməyə» imkan verən modernləşmə layihələri ilə maraqlanmışdır. İslamın bugünkü, tarixi inkişaf və təcrübənin bütöv qatları üzərindən keçən inkişaf dövrü özünün identifikasiyasını tələb edir, müəyyənləşdirmək zəruridir ki, nəyə görə bəzi müsəlman ölkələri dünyadakı dəyişikliklərə hansısa transformasiyalarla cavab verməyə cəhd göstərir, digərləri - onları rədd etməyə çalışır, üçüncülər isə çaşqınlıq vəziyyətində, yol ayrıcında qalırlar; müsəlman dünyasının mənzərəsi nəyə görə ifrat ziddiyyətli

təmayüllər nümayiş etdirir: demokratikləşmə cığırına cəsarətsiz addımlardan tutmuş radikal əhval-ruhiyyələrin spontan gurultusuna qədər.
Bu günə qədər islam fikri üç əsas nöqteyi-nəzəri hazırlamışdır:
a) mühafizəkar yönümlü ənənəviçiliyə söykənməklə müsəlman cəmiyyətinin vəziyyətinin sarsılmazlığı;
b) fundamentalizm və radikalizmə söykənməklə «ilkin» islama qayıdış (minimum), imkan yaranarsa bütün dünyanın islamlaşdırılması;
c) liberal-demokratik dəyərlərə söykənməklə Quranın yeni təfsiri hesabına islamın modernləşməsi.
Üçüncü istiqamət bir qədər fəallıqdan sonra bu gün gerçəklik və fundamentalistlərin zərbələri altında praktiki olaraq məhdudlaşdırılır. Lakin onun yerini tədricən, neftin qərb rifah göstəricilərinə çatmağa imkan verdiyi müsəlman ölkələrində yaranan yeni cərəyan tutur.
İslamın daxili potensialına müraciət də həmin istiqamətdə gedir, onun təsiri altında ümumi prinsiplər əsaslandırılır. Məsələn, Küveytdə bu istiqamət, praktiki olaraq dövlət səviyyəsində inkişaf edir, burada vəqflər nazirliyinə müasir islam dünyagörüşünün əsasını, Quran ayələri və Məhəmməd Peyğəmbərin buyurduğu: «Bütün şeylərdə ən yaxşısı ortalıqdır» sünnəsinə əsaslanan mötədillik prinsipinin təşkil etdiyini isbatlamaq tapşırılıb. Bu gün Küveytdə vahid «Mötədillik - həyat tərzidir» doktrinası yaradılmışdır, ona görə «mötədillik - ölçüb-biçilmə, sadəlik, hər bir ifratçılıqdan uzaqlaşma, məsələn həm ifrat praqmatizmdən, həm də gerçəklikdən qopmuş idealizmdən uzaqlaşma, çoxdan köhnəlmişi kor-koranə saxlama, həm də daimi dəyişikliklərə cəhd etmənin qəbul edilməzliyi kimi başa düşülür» (L.R.Sükiyaynen).
Biz Azərbaycanda dinamik və sabit inkişafa kömək edən məxsusi «etikanı» formalaşdırmalıyıq. Lakin bu zaman yeni mədəni özünüidentikləşdirmə, Yaponiya və bir sıra Cənubi-Şərqi Asiya ölkələrində olduğu kimi, yəni modernləşmənin çoxsaylı risk və təhlükələrinin aradan qaldırılmasına yardımcı olan məxsusi ənənə formasında qərb siyasi dəyərlərinin mənimsənilməsinə kömək

etməlidir. Qərb politoloji terminologiyasında bu proses belə göstərilir: «Müasir liberal dövlətin əsaslandırılmasına zəmin belə bir təsəvvür idi ki, hökümət siyasi dünyanın maraqlarına uyğun olaraq din və ənənəvi mədəniyyət tərəfindən hansısa əxlaqi tələbi dəstəkləməyəcək. Kilsə və dövlət bir-birindən ayrılmalıdır; son məqsədlər və yaxud xeyirin təbiətinə aid daha vacib əxlaqi və etik məsələlərə dair rəylər plüralizmi zəruridir. Əsas dəyər tolerantlıq olmalıdır. Əxlaqi konsensusun yerini siyasi nizamı təmin edən aydın qanun və ictimai institutların tutması fərz edilir» (**9**).

Tarixin dönüş məqamlarında mədəni ənənədən, həyat fəaliyyətinin yeni şəraitə adaptasiya forması kimi istifadə olunur. Bu ayrı-ayrı respublikalarda tam fərqli post-sovet mühitinə qərb demokratiya prinsiplərinin birbaşa tətbiqi cəhdlərinin uğursuzluğa düçar olmasında xüsusilə aydın görsənir. Bir də ki, bu prinsiplər Qərbin, indi də bir sıra Şərq ölkələrinin özündə, hansısa universal «demokratiya formulu» əldə edilməsi üçün kifayət qədər geniş və sərbəst traktovka edilir. Millətin formalaşması və onun özünüdərki yalnız modelləri milli-mədəni forma daşıyan hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması yolu ilə mümkündür. Deməli, mədəni ənənə, mədəniyyət və dünyada onun haqqında təsəvvürlərin ümumi dəyişmə dinamikasından çox şey asılıdır.

***

Bəs Azərbaycan mədəni ənənələrinin xüsusiyyətləri necədir?

Etiraf etmək lazımdır ki, Azərbaycan içtimai şüurunda bədii refleksiya hələ də nəzəri refleksiyanı üstələyir, mədəniyyət dünyası hələ də siyasət dünyasını kölgədə qoyur, yeri gəlmişkən bütün dünyada tarixi inkişaf ədəbiyyatdan fəlsəfəyə və ondan gerçək həyata, siyasətə özünüdərk hərəkatı ilə dəstəklənmişdir. Bizim müasir problemlərimizin əksəriyyəti nə bədii, nə də ki, fəlsəfidir, onlar siyasidir, çünkü biz gerçək siyasət dünyasında həyata müqavimət göstəririk.

19-20 əsrlər Azərbaycan üçün ona görə əlahiddə əhəmiyyət kəsb edir ki, onlardan birincisinin ikinci yarısında etnosdan, xalqın formalaşmasının başlanğıcını müəyyənləşdirən Azərbaycan cəmiyyətinin həyat fəaliyyətinin yeni sosiomədəni modeli yaranmağa başlayır. Cəmiyyətin sosiallaşma və siyasiləşmə prosesi kimi bu proses də sovetlər zamanı suni şəkildə dondurulur, ona görə də bu gün etnosdan birbaşa millətə yeni keçid prosesi gedir, bir az suni prosesdir, çünki ötən əsrin əvvələrindəki xalqı formalaşdırmış tarixi situasiya artıq dəyişmişdir. Azərbaycanlıların da aid edildiyi qərb politologiyasının termini olan «geçikmiş xalqlar» - inkişaf etmiş gərb ölkələrinə aramsız və uğursuz çatmağa çalışırlar.

Biz mədəniyyətimizin, dövlətçiliyimizin, mentallığın dayaq, hesab nöqtəsini tarixdə itirmiş, ya da ki, hələ tapmamışıq, bu o demək deyil ki, bu nöqtə ümumiyyətlə yoxdur, əksinə onlar lap çoxdur və biz onların nizamlanma sistemi üzərində dayana bilmirik. Bizim son yüz ilimiz tarixi baxımdan az ya çox dərəcədə aydındır, lakin bədii və fəlsəfi refleksiyaya məruz qalmayıb, duyulmayıb. Onlarda orta əsrlər, kapitalizmin doğuluşu və dönüşü, sosializm dövrü (o cümlədən həm də yeni feodalizm kimi), əsrin əvvəllərinə kvazi-qayıdış, o dövrlərin bütün ağır problemləri və sınaqları, bugünkü keçid zamansızlığı qovuşmuşdur. Bizim 1000-illiyimiz - bu mif tullantıları, tarixi məlumat parçaları, inkişaf dağınıqlıq və avtonomluğu, nəinki fəlsəfi, heç bədii refleksiya ilə də qavranılmayıb. Lakin sual yaranır: ona görə belə olub ki, nəsr refleksiyası vacib deyildi və yaxud fəlsəfə, mədəniyyətin özgə tarixi üzərində refleksiya edən kosmopolitik qalığı olub? Bizim fikrimiz tez-tez belə bir dairə üzrə hərəkət edir: «özgədə» - «özünkünü» axtarmalı, «özünkünü» - «özgəyə» gətirməli.

Bu gün yeni problem - qloballaşma və ondan Azərbaycan üçün yaranan kiçik plyus və böyük minusları ilə birlikdə meydana çıxır. Texnokratik dalga bizi bir anda mexaniki yaddaş dünyasına ata bilər, lakin tarixi yaddaş olmadan orada mövcudluq mümkündürmü?

Dövrünə dözən sovet ziyalıları heç də xalqın milli inkişaf məsələlərini irəli sürməyə qadir ziyalısı ola bilmədi, o nə bədii, nə də fəlsəfi hərəkata başçılıq etmədi, o heç də siyasət dünyasına daxil ola və xalqı öz ardınca oraya apara bilmədi. Bizə «yeni» ziyalılar lazımdır mı və bu mümkündürmü? Ziyalıların tapşırığı «sadədir»: azərbaycanlılara dövlətçilik hissini, siyasətə marağını formalaşdırmalı, onları ailədən, həm azərbaycan milləti, həm də dövlətçiliyin formalaşması yalnız orada mümkün olan cəmiyyətə çıxarmalıdır (heç də qaçırmamalıdır). Deməli cavab mənfidir, belə ki köhnə ziyalılar sovet insanı dünyasının yoxluğa gedişi ilə birlikdə aradan çıxır. Görünür, qarşımızda əvvəlcə yeni ziyalılar elitasını formalaşdırmaq, sonra - millətin əməlgəlmə məsələsi dayanır. Köhnə, əsrini yaşamış ziyalıların günahı - həyatdan «dönüklük», hər şeydən qapalılıq, həyat həqiqətindən davranış etiketləri arxasında gizlənmək çəhdləridir. Gerçəkliyin «təhtəlşüuri» mənimsənilmə sahəsindən ziddiyətlərin dərkolunmuş dünyasına yüksəlmək lazım gəlir. Gerçəkliklə toqquşmalı, öz taleyinin gözlərinə dik baxmalı.

Amma hələ ki, bizim üçün təriqətçi avtonomluq, mədəniyyətin həyatdan kənarlaşması, onun plastikliyi şəxsi bədii ənənədə yad modelləri işləməyə məcbur etmək bacarığı xarakterikdir. Mədəniyyəti gah dahiliyə, gah da səriştəsizliyə düçar edən hansısa transsendental əbədiyyət. Məlumdur ki, gerçək zaman və məkan - əbədiyyət üçün qapalı kateqoriyadır, ona görə də Azərbaycan mədəniyyətin xronotop modeli sosiallaşmayıb (onda hələ köhnəlik ünsürləri çoxdur). Onu yalnız bütöv kim başa düşmək olar, ona görə də ümumiləşdirici işlər olmadan, o təhlil üçün sadəcə qapalıdır. Vəziyyəti dəyişmək üçün təsvirçilikdən imtina, refleksiyaya keçid, fikir və fəaliyyət azadlığı zəruridir. Mif çərçivəsindən kənara çıxmaq lazımdır, insan - özünü və mədəniyyətini qoruyan vətəndaş, xalq - millət olmalıdır.

Yeni ziyalı elitasının missiyası - ədəbiyyatı fəlsəfə ilə birləşdirməli, yad olana daimi əsaslanmadan imtina etməli, mənəviyyatlı olmalı, müasir mif və eposlar yaratmağa son qoymalı, özünə həqiqəti söyləməli, «ədəb pərdəsini» yığışdırmalı, öz-

özünü oğurlamağa və bu zaman milli mentallığın oğurlanmasına haqq qazandırmağa son qoymalı, tarixdən qorxmamalı, Azərbaycan dilini həm anlayış sistemi, həm də siyasət və sosiumun kommunikativ sistemi kimi inkişaf etdirməli, yalnız Bakını Azərbaycan hesab etməyə son qoymalı, Azərbaycana, onun tarix və xalqına vahid baxışı formalaşdırmalı, xalq və millət kimi qalmaqla bəşəriyyətlə birlikdə irəliyə hərəkət etməli.

Mədəniyyətlərə yanaşmada plüralizm təkcə elm və mədəniyyət deyil, həm də müəyyən sosiomədəni norma və dəyərlərin təzahürü, özlüyündə mədəniyyət fenomeni olan siyasət və ideologiyada da yeni dövrün başlanmasının əlamətidir. Ona görə də keçid dövrünün cəmiyyət və dövlətlərinin müasir siyasi və sosial transformasiyası yeni mədəni rolun hazırlanmasına cəhd kimi qiymətləndirilməlidir. Bu yeni mədəni rola, intellektual konsepsiyaları həyata investisiyalandırmağa qadir siyasi elita da hazır olmalıdır.

***

İndi isə yuxarıda bəyanlanmış, amerikalı tədqiqatçı F. Fukuyamanın əsərlərində təqdim olunan "Böyük Parçalanma" fenomeninin tədqiqinə qayıdaq. İnkişaf etmiş Qərb ölkələrində bu dövr ötən əsrin 60-90-cı illərini əhatə etmiş və bu ölkələrin industrial cəmiyyətin dəyər və normalarının total təftişə məruz qoyan postindustrial inkişaf dövrünə keçidini bildirmişdir. Böyük Parçalanmaya daha səciyyəvi olan neqativ nəticə sosiomədəni inkişaf modelinin böhranı ilə şərtlənən və əxlaqi relyativizmin dinamikası ilə güclənən sosial problemlərin artmasıdır. Fukuyama qeyd edir ki: «Texnoloji innovasiyalar üçün «heç bir hüquq» tanımaq istəmiyən cəmiyyətlər, cinayətkarlığın artması, ailələrin dağılması,.... vətəndaşların ictimai həyatda iştirakdan imtina etməsi ilə bağlı fərdi davranışın bir çox formaları üçün elə həmin «heç bir hüdudla» da toqquşurlar» (**10**). Belə görünür ki, bu inkişaf etməkdə olan ölkələr üçün yaxşı xəbərdarlıqdır.

Mövcud situasiyanın təhlili üçün Fukuyama ona qədər hazırlanmış, lakin bir qədər forması dəyişdirilərək «....qruplar

üzvlərinin bölüşdüyü və bu qruplar daxilində əməkdaşlığı mümkün edən qeyri-formal dəyər və normalar toplusu» (**11**) kimi təsvir etdiyi «sosial kapital» konsepsiyasından istifadə edir. Eyni zamanda müəllif dəqiqləşdirir ki: «İnsanlar qrupunun ümumi dəyər və normaları qəbul etməsi özlüyündə sosial kapital istehsal etmir, ona görə ki, dəyərlər yanlış da ola bilər» (**12**). Sosial kapitalın vacib mənbəyi qismində ailə (**13**), o cümlədən müxtəlif məsələləri həll etməyə borclu olan fərqli təşkilat və insanlar birliyi götürülür.

Müzakirə edilən termini daha yaxşı anlamaq üçün, burada kiçik haşiyə çıxaq. Bir vaxtlar təşkilati nizam haqqında təsəvvürlərə söykənən informasiya nəzəriyyəsi, sistemin dezorqanizasiya ölçüsü və onun enerji ehtiyatlarının səpələnmə dərəcəsi - entropiya anlayışına qarşı dayanmalı olan negentropiya anlayışını (Leon Brüllien) diskursa daxil etmişlər. Sosial münasibətlər dünyasında analogiyalar aparmaqla söyləmək olar ki, sosial kapital - sosium qarşısında yaranan problemləri dəf etməyə qabil cəmiyyətin «potensial enerjisi» , «sosial negentropiyadır». Bax bunun üçün, Fukuyamanın fikirlərinə görə sosial kapital - hansısa qrupların ideya və maraqlarının inkişaf və təşkilinə yardımcı olan etibar və sosial şərikliyin əlaqəsidir. A.Tokvilin təyini daha sadədir - bu «birləşmək incəsənətidir» (bu gün «özünütəşkilatlama» demək daha dəqiq olar), ona görə də o, dövlətlə qarşılıqlı münasibətlərdə özünüidarəetmə ideyalarına tərəfdar olan vətəndaş cəmiyyəti ilə sıx əlaqəyə malikdir.

Fukuyamanın statistik materiallardan geniş istifadə əsasında gəldiyi, Böyük Parçalanmadan Japoniya və Cənubi Koreya kimi dövlətlərin bütövlükdə qaça bilməsi və bunun modernləşmə və postindustrial inkişaf proseslərində mədəniyyət amilinin rolunun göstəricisi olması nəticəsi daha vacib görsənir.

Tarixən idarəetmə nəzəriyyəsi, daha doğrusu cəmiyyətdə (dövlətdə) nizamın dəstəklənmə və təşkili nəzəriyyəsi bir məhsuldar sxemi təklif edib - hakimiyyət münasibətlərinin iyerarxiyası, lakin son zamanlar o, sistem elementlərinin digər əlaqə tiplərinə («şaquli» əvəzinə «üfuqi») və elementlər arasında informasiya

mübadiləsinə əsaslanan yeni şəbəkə sxemi ilə tamamlanır. Sinergetik yanaşma rakursunda şəbəkələr (iyerarxiyadan fərqli olaraq) qeyri - iyerarxik metodlarla nizamı törədən spontan özünütəşkilatlandırma bacarığına malikdir.

Bu idarəetmə tipləri arasında fərqi göstərən Fukuyama yazır: «Sərt nümayəndəli təşkilatların koordinasiyalı probleminin digər həlli, hansısa mərkəzləşmiş hakimiyyət tərəfindən yaradılmayan, yalnız desentralizasiyalaşmış agentlərin fəaliyyəti nəticəsində meydana gələn spontan nizam forması - şəbəkədir. Şəbəkələrin nizamın yaradılmasına gerçəkdən müvəffəq olması üçün, onlar labüd şəkildə formal təşkilatlar arasında yer tutan qeyri-formal normalardan, başqa sözlə desək «sosial kapitaldan» asılı olmalıdırlar (**14**).

Lakin, idarəetmədə şəbəkə sistemlərinin rolunu etiraf edən Fukuyama haqlı olaraq qeyd edir ki, gələcək onların iyerarxik sistemlərdə rasional tamamlanmasını dəstəkləyəcək, «Əvvəla biz şəbəkələr və onların əsasında dayanan sosial kapitalın mövcudluğunu özlüyündə nəzərdə tutulmuş hesab edə bilərik, onlar harada mövcuddurlarsa iyerarxiya yeganə mümkün təşkilat forması ola bilər. İkincisi, iyerarxiya təşkilatın qarşısına qoyduğu məqsədlərə çatmaq üçün daha çox funksional zəruridir. Və üçüncüsü, insanlar sövq-təbii iyerarxik təşkilatlanmağı *xoşlayırlar*» (**15**).

Təfsilatına varmadan qeyd edək ki, bizə Azərbaycanda yeni sosial kapitalın formalaşmasının təməlini hansı dəyər və normaların təşkil edə biləcəyini, bu prosesdə nəyi hakimiyyətin idarəedilməsində iyerarxik sistemə qurban verməyin lazım gəlməsini və nəyi vətəndaş cəmiyyətinin özünütəşkilatlandıran şəbəkələrin öhdəsinə buraxmağı müəyyənləşdirmək lazımdır. Bundan əlavə Azərbaycanda «Böyük Parçalanmanın» hansısa variantının nə vaxtdan gerçəkləşməyə başladığını müəyyənləşdirmək lazımdır. Azərbaycan tarixən bir neçə oxşar mərhələ yaşamışdır, onlardan sonuncusu ölkənin Rusiya tərəfindən müstəmləkələşdirilməsi, müstəqil ADR-nin təsisi, bolşevik çevrilişi, XX əsrin sonlarında suverenliyin əldə edilməsi

dövrünə təsadüf edir. Bizim sonuncu Böyük Parçalanma daha çox qlobal və dramatik görsənir (**16**).

***

Bəşəriyyətin köhnə «klassik» mənzərəsini darmadağın edən qloballaşma planeti fəthində daha çox XX əsrin sonuncu rübündə start götürmüş yeni metodoloji ustanovkalara əsaslanır. Bu və sonrakı dövrlərdə bəşəriyyətin mənəvi və mədəni axtarışlarının ümumi vəziyyəti dünyagörüşü səviyəsində, dünyanın ənənəvi klassik mənzərəsini aşılayan postmodernizm konsepsiyasında birləşir. Doğrudan mədəniyyət elm, fəlsəfə, bütün bəşəriyyət postmodern vəziyyətini yaşayır. Yeni «həyat fəlsəfəsinin» problemlər dairəsi çox maraqlıdır: bilik, elm legitimdirmi (J. F. Liotar), onlar demokratiyadan uzaq adi hakimiyyət münasibətləri iyerarxiyasına qoşulubmu (M. Fuko) və birdə insan gerçəklik yoxsa «simulyakrlarla» iş görür (J. Bodriyar); bədii və hətta elmi mətnlərin dekonstruksiyası zamanı nəzəri fikri hansı cansıxıcı nəticələr gözləyir (J. Derrida), bəs biz təhtəlşüur fenomenini düzgünmü anlayırıq (J. Lakan) - budur, yeni dövrə aid problem və sualların heç də tam olmayan siyahısı.

Belə baxış rakursunda dünya, insan tədricən yox olur, obyekt və subyekt daha kommutasiya olunmur. Ənənəvi insanın yox olması və ya həyatın simulyasiyalarına uyğunlaşmalı olduğu dünya nə ilə yeni deyil? İnsan, həyata davam etmək üçün özündə subyekt, fərd, persona, şəxsiyyəti öldürməli, bir sözlə dünyanın vəhdətinə uyğun (bu postmodernizm tərəfindən inkar olunur) vahid başlanğıcın dağıdılmasını öz üzərinə götürməlidir.

Məgər «dəqiq» elmlərin anası olan fizika, klassik dünyagörüşünün iflasından sonra predmetlər fizikasından münasibətlər fizikasına keçmədimi? - deyə postmodernistlər sual verir. Elə isə nəyə görə insan sosiologiyası münasibətlər sosiologiyası ilə əvəzlənməsin? Axı gerçəklikdə biz, lokal tarixi - mədəni hadisələrin formalaşdırdığı bir sıra bir-birindən fərqlənən identikliklərə malikik. Madam ki belədir, onda postmodernin yeni «subyekti» özü haqqında nəyi, daha dəqiqi həqiqi nəyi bilməyi

bacarar, o özünü nə qədər «dərininə» «oxumağa» qadirdir? Praktiki olaraq *heç nə*.

Beləliklə postmodernizm maraqlı mənzərəni formalaşdırır: gerçək dünya əvəzinə hər bir nüvəsi mərkəz kimi nəzərdən keçirilə bilən (lakin olmayan!) hansısa sonsuz münasibətlər şəbəkəsi.

Əlini yelləyib vidalaşan monizm dünyanın vahidliyi erasının bitdiyini bəyan edərək, yolu mühakimələrə qədər hər şeyi yeyən və ovlayan, bəşəriyyətin maariflənmiş mövcudluğunun universallığı və rasionallığına hücum edən, kamilliyə iddialı olan bütün sistemləri dağıdan plüralizmə verir. Bu sistemləri çıxdıqda isə, yeri gəlmişkən deyək ki, bütöv heç nə qalmır! Və ümumiyyətlə rədd olsun iyerarxiya (fəlsəfədən siyasətə qədər hamısı)! Totalitarizmin istənilən növü ilə mübarizə aparan, mədəni plüralizm və hər bir fəlsəfi və elmi doktrinaların bərabərhüquqlu olmasını etiraf edən xalis demokratiya.

Təbiətə örtülmüş şəbəkə sosium üçün də hazırdır, indi artıq təsisat və təşkilatlar deyil, onlar arasında şəbəkənin təqdim etdiyi münasibətlərin zənginliyi vacibdir.

Postmodernizm nəzəri ustanovka və fəlsəfənin metodologiyasından sürətlə gündəlik praktika və siyasətin dəyərli dominantına çevrilir. Lakin əgər fəlsəfi postmodernizm gerçəkdən demokratikdirsə, dəyər və metodologiyalar plüralizmini real müdafiə edirsə, siyasi planda isə postmodernizm əgər tərəfgir deməsək də daha seçicidir. Bütün mədəniyyət və dinlərin dəyərlərinin, multikulturalizm plüralizminin, fəlsəfi antropologiyanın postmodernist ustanovkalarının demokratik etiraf epoxası «sivilizasiyaların toqquşması» konsepsiyası ilə «uğurla» tamamlanan qloballaşmanın başlaması ilə təftişə məruz qalmağa başlayır, 2001 11 sentyabrdan sonra isə onlar yenidən sərt müzakirə edilmə təhlükəsi altındadır. Və bu da heç də təsadüfi deyil, belə ki, siyasət postmodernizmdə yalnız onun həmləvər ruhuna uyğun gələni götürür.

Postmodernizm epoxası humanitar tədqiqatlarda - onları inqilabiləşdirmişdir deməsək də - dərin iz buraxmışdır. Belə ki, XX

yüzilliyin ortalarından ayrı-ayrı fənlər çərçivəsinə sığmayan həm təbii-elmi, həm də humanitar xarakterli biliklərin geniş sahələrini əhatə etməyə iddialı olan yeni cərəyanların formalaşması başlamışdır. Bu cərəyanlar eyni zamanda metodoloji, dünyagörüşü və ümumfəlsəfi problemlərə toxunur. Onlar qısa müddət ərzində sivilizasiyanın formalaşdırdığı dünya haqqında donmuş təsəvvürlərə və insanın idrak tərzinə əhəmiyyətli dəyişikliklə etmişdir. Belə cərəyanlara qlobal və sosial ekologiya, sinergetika, sülh mədəniyyəti, gender, qlobalizm nəzəriyyəsi, «canlı» tarix konsepsiyası, qeyri-rəsmi hərəkatlar nəzəriyyə və praktikası və s. aid etmək olar. Bütün bu cərəyanları demokratiyaya yeni baxış birləşdirir, çünki onlar özləri demokratik prinsiplərin «ifadəçiləri» olmuşlar, belə ki, bütünlüklə plüralizm metodlarına və dunyaya postmodernist baxışlara əsaslanırlar. Bununla yanaşı onlar insanı yaradıcı seçim hüququndan məhrum edən totalitar və avtoritar təfəkkürün məhdudluq və darlığını çox gözəl nümayiş etdirirlər. Bu cərəyanlar məcmu halında nəinki təkcə elmdə, həm də sosial həyat praktikasında demokratik prinsiplərin kəsərliyini dayanıqlı vətəndaş cəmiyyətini və sabit hüquqi dövlətin yaranma zəruriliyini, qeyri-formal hərəkatların azadlığını fasiləsiz təsdiqləyən yeni şüur və yeni təfəkkürün əsasını qoymuşlar. Bu cərəyanların metodoloji və dünyagörüşünün xüsusiyyəti münasibətlər və şəbəkələr konsepsiyasıdır. Artıq nəinki nəzəriyyədə, həm də praktikada spontan təşkil olunan bu şəbəkələr struktur və iyerarxik təşkilatları əvəzləyir.

Məsələn, kişi və qadınların mental və emosional ustanovkalarla rollar, davranışlarında fərqləri müəyyənləşdirən mürəkkəb sosiomədəni konstrukt - gender. Yaradıcılarının refleksiyasında gender predmetlik və yaxud əşyavilikdən məhrumdur, daha çox o, cəmiyyətin formal və qeyri-formal şəbəkələrində təqdim olunan cins-rol münasibətlərinin mürəkkəb çulğalaşmasıdır. Gender diskursu tədqiqatçıdan idrakın yuxarıda adları çəkilən bütün yeni cərəyanları üçün xarakterik olan prosessual düşünməyi tələb edir.

Təbii-elmi və humanitar təfəkkür bir nöqtədə - təbiət və cəmiyyətə postmodernist baxışda birləşirlər. Biz mədəniyyət paradiqmamızla ardıcıl yaradılan və dağıdılan dünyada yaşayırıq. Ona görə də İoninin qeyd etdiyi kimi, müasir cəmiyyətdə itctimai proseslərin obyektivlik və öncədən müəyyənləşməsinə sadəlövh inam artır, və cəmiyyətin özünün dəyişdiyini bildirir. Obyektiv əhəmiyyətli stratifikasiya sistemləri yox olur, məcburi-vacib həyat tərzləri itib-batır, ənənənin yerini tərzlər tutur, həyat formaları sərbəst seçilir, şərhetmədə və deməli davranışda da postmodernist özbaşınalıq ağalıq edir. Sosial dəyişikliklər əsasən mədəni motivasiya əldə edir. Bütün bu hadisələr onu göstərir ki, mədəniyyət proqressiv şəkildə ictimai dəyişiklik və inkişafın hərəkətvericisi olan mühərrik funksiyasını mənimsəyir» (**17**).

***

Qloballaşma dövrünün cəmiyyət və dövlətinin həyat fəaliyyətinin yeni gerçəkliklərinin dərk olunması, Azərbaycanın yeni fəlsəfi paradiqmaya əsaslanmaqla müasir zamanın hansı möhtəşəm təhdidlərini adekvat cavab tapmalı olduğunu nümayiş etdirir.

Belə fəlsəfi paradiqmanın bəzi cizgilərini və onun formalaşmasının fərz edilən müddətini artıq bu gün proqnozlaşdırmaq olar. Belə ki, tarixi iinkişafın tədqiqinə əsaslanan İ. Vallerstayn fərz edir ki, gələcək 25-30 il mövcud sosial sistemin (yəni kapitalizmin) dağılma dövrü olacaq. Gözlərimiz önündə baş verən qlobal iqtisadi böhran belə müddəa irəli sürməyə tamahlandırır ki, İ. Vallerstaynın proqnozu gerçəkləşməyə başlamışdır. Amerikalı sosioloq hesab edir ki, bu illər: «Sistemli böhran sosial refleksiyaya yardım edəcək. Elm və fəlsəfə arasındakı parçalanmanın birdəfəlik dəf olunması mənə real görsənir, həm də içtimaiyyətşünaslıq birləşdirilmiş bilik üçün labüd şəkildə əsas olacaq» (**18**) müddəalarının dərk olunmasında müstəsna vacib rol oynayır.

Belə görsənir ki, elə bu dövr ərzində demokratiya institutunun struktur və mahiyyətində demokratikləşmənin «dördüncü

dalğasının» determinasiyasına yardımcı olacaq ciddi dəyişikliklər baş verəcək. Giddens qeyd edir ki, «demokratiyanın demokratikləşməsi» (**19**) zəruridir, bu isə özünütəşkilatlanmış insanlar qrupunun yeni sosial və siyasi aktivlik sferalarının, ictimai münasibətlərin yeni iyerarxik şəbəkələrinin meydana gəlməsi nəticəsində mümkündür.

Rakursun belə yerini dəyişməsi diqqəti Qərbdə formalaşmış demokratiya və ədalətli cəmiyyət dəyərlərinə yönəldir. Müasir dünyanın 2001-ci il 11 sentyabr hadisələri nəticəsində formalaşan yeni təhdidlərinin qərb tədqiqatçıları mühitində bu sahə stereotiplərinin transformasiya zərurəti diqtə edir. Məsələn, həm şəxsiyyətin avtonomluğuna, həm də praqmatik dəyər normalarına əsaslanan ədalətli cəmiyyətin kommunitar konsepsiyasını təklif edən Amitai Etsioninin tədqiqatlarını qeyd edək (**20**). «Dərs odur ki - A.Etsioni yazır - Qərb dünyaya elə münasibət bəsləməlidir ki, hamıya aydın olsun ki, o həm qərb, həm də şərq dəyərlərinə, həm dünyəvi, həm də yumşaq dini baxışlara, həm azadlıq, həm də icmaçılığa hörmət göstərəcək, və belə sintezləşdirilmiş yanaşma müəyyən siyasi qərarlarda əksini tapacaq» (**21**).

Fəlsəfəyə keçərkən qeyd edək ki, onun bütün zamanlar üçün əsas məsələsi insan varlığının vəhdət və bütövlüyünün isbatlanması olmuşdur. Bu gün belə isbatın prinsipial mümkünsüzlüyü sübut edilmişdir, ona görə də, idrak natamam və nisbi biliyi formalaşdırmağa məhkum olmuşdur. Belə ki, yeni idrak mexaniki determinizmi ardıcıl dəf edən dünyagörüşü sferasında dünyanın vahid mənzərəsinin əvəzinə zəruri seçim tələb edən bir sıra ehtimali ssenarilər təklif edir.

Belə inam formalaşmağa başlamışdır ki, bizim dünyamız insansız praktik mənadan məhrumdur, bundan əlavə əgər o mövcuddursa, yanlız onda maraqlı müşahidəçinin olması sayəsində mümkündür. Mayallaq aşan «obyektiv» fəlsəfə, yeniləşmiş, daha çox zəngin və məhsuldar düşünülmüş «subyektivizmə» qayıtmışdır. Rendall Kollinz tərəfindən hazırlanmış «qeyri-aşkar sosiologiya» buna misal ola bilər: «Biz sosioloji təhlili digərlərinin böyük əksəriyyətindən, dünyaya daha aşkar yanaşmalardan ayıran

mərkəzi problemdən başlayırıq. Bu rasionallığın məhdudluğu problemidir. O aşkarlıqdan uzaq olan belə bir nəticəyə aparır ki, insan düşüncəsinin qüdrəti qeyri-rasional özül üzərində qurulur və cəmiyyət rasional razılaşmalar deyil, ayrı-ayrı insan tipləri arasında etimadın sosial əlaqələrini törədən daha dərin emosional proseslərin köməyi ilə vəhdədə birləşir» (**22**).

Rendall Kollinz din kimi fundamental sosial təsisatın təhlilindən başlayaraq belə bir vacib nəticəyə gəlir ki, ona oxşar bütün digər təsisatlar iki amil hesabına formalaşır və fəaliyyətini saxlayır: daim böyük insanlar qrupunun (adeptlər və ya tərəfdarlar) saxladığı müəyyən dəyərlər (inanclar) və onlarla əlaqəli bu adeptlərin şərtsiz icra etdiyi ayinlər. Əgər bu doğrudursa, onda aydın olur ki, bu və ya digər təsisatın təməlində nə üçün rasional konseptlər yoxdur: inanc və yaxud dəyərlər - yalnız dövrünün xüsusiyyətlərini əks etdirən temporal dayanacaqlardır, onlar keçici və təfsilatilə subyektivdir. Onda belə çıxır ki, oxşar qnoseoloji ustanovkalar vasitəsilə tədqiq edilən dünya - subyektivdir, bizim biliklərimizin çoxu ictimai inkişafın nəticəsidir. «Mahiyyət etibarilə, bütün maddi və simvolik dünyamızı biz cəmiyyətdən əldə etmişik. Bizim məskun olduğumuz təsisatlar - ailə formamız, iqtisadiyyat, siyasət və hər nə varsa hamısı - digərlərinin topladığı təcrübədən, qısası cəmiyyətdən gəlib. «*Allah - cəmiyyətin simvoludur*» (**23**) - R. Kollinz yazır.

Dəyişikliklərin təsiri altında tədricən yeni idrak mədəniyyəti, əvvəlki monoloji mədəniyyətə (insan–subyekt - dünya-obyekt) qarşı duran yeni təfəkkür və şüurun ünsürlərinin formalaşmasına istiqamətlənmiş dialoji mədəniyyət (insan - dünya: iki subyekt və ya iki obyekt) yaranır. Dialoji mədəniyyət idrakın yeni prinsiplərini, onun müddəa və sərt determinizmdən uzaq nəticələrini, birmənalı cavablarını, mütləq həqiqətləri təklif edir. Bu daha çox axtarış mədəniyyətidir, onun üçün məsələləri nöqteyi-nəzər və konsepsiyaların - o cümlədən bir-birinə bilavasitə və ya bilvasitə zidd olan- çoxobrazlığına formulirovkası yolunun özü fövqəladə vacibdir. Dialoji mədəniyyət həmçini postmodernizm məcrasında inkişaf edir, lakin o, onun dəyər, əxlaqi qiymətləndirmələr və ori-

yentirlərin cəlb edilməsi hesabına ən ümumiliyini məhdudlaşdırmağa çalışır.

Müasir sosial proseslər, onların mürəkkəb, əsasən qeyri-xətti dinamikası, fasiləsiz olaraq daha çox linear dünyanın proseslərinin tədqiqinə uyğunlaşdırılmış, nəinki formal, həm də dialektik məntiqin təsvir imkanlarının məhdudluğunu aşkarlayır.

Gözlərimiz qarşısında gerçəkləşən, müxtəlif növ bifurkasiyalara məruz qalan qloballaşma ssenarisi «qeyri-xətti həndəsə» (məntiq) ilə də xarakterizə olunur. Buradan çıxış etsək, qloballaşmanın güclü təsirinə məruz qalmış müasir sosial proseslər, sinergetik terminologiya ilə desək kooperativ proseslər kimi nəzərdən keçirilməlidir.

Ümumiyyətlə qeyd etmək zəruridir ki, müasir sosial gerçəklik, aşkar «qeyri-xətti» xarakterə malik klassik elm üçün qeyri-adi istiqamətlərin inkişafını tələb edir. Sinergetikadan başqa, ona yaxın istiqaməti - resursları insanlar, informasiya, təşkilatlar və şeylər olan sosial məkan-zamanın dördölçülü təsəvvürlərindən çıxış edən tetrasosiologiyanı qeyd edək. Əgər sosial sinergetika sosial dayanıqlığın özünütəşkilatlandırma mexanizmlərinin aşkarlanması ilə məşğuldursa, tetrasosiologiya sosial dayanaqlığa yardımçı olan sosial harmoniya tiplərini öyrənir.

Beləliklə, müasir gerçəkliklər həm yeni fəlsəfəni (dünyagörüşü), həm də yeni metodologiyanı tələb edir, bütövlükdə isə onlar tarixi prosesin fəlsəfəsini yenidən nəzərdən keçirməyə aparır, çünki mövcud inkişaf prosesi gələcək üçün «açıq», gələcək isə keçmiş və indinin sərt çərçivələri ilə sərt determinasiyalaşmış olmuşdur. Dünyanın yeni mənzərəsində sosial nizam və produktiv xaos bir-birinə qarşı durmayıb biri digərini qarşılıqlı tamamlayır, bu iki vəziyyət sosial sistemlərin dayanıqlığına yardımçı olan sintezə can atır. İqtisadi, siyasi və sosiomədəni qloballaşma proseslərinin inteqrasiya sferasında fəlsəfənin köhnə binasının təməlinin transformasiyasını tələb edən yeni ontoloji, qnoseoloji və aksioloji problemlər yaranır.

Müasir vəziyyətin qısa icmalı onu göstərir ki, fəlsəfənin yeni cərəyanlarının sonrakı inkişafı və adekvat düşünülməsi, insanın

ən köhnə fəaliyyətinə təkan verərək və metafəlsəfə adlandırılan hansısa yeni refleksiya layihəsinə ehtiyac duyur.
Qeyd olunduğu kimi elmi istiqamətlərin əksəriyyəti, hadisə və predmetlərin tədqiqindən spontan dəyişiklik və transformasiyalara meylli olan onlar arasındakı münasibətlərin tədqiqinə keçir. Bununla əlaqədar Şərqin unudulmuş idrak ənənəsi yada düşür. Fəlsəfə və Şərqin fikir ənənələri arasında çoxlu fərqlər göstərmək olar, lakin əsas fərq ondadır ki, dünyanın «obyektiv» mənzərəsini yaradan fəlsəfə, ondan insanın özünü olmasa da idrak prosesinin təhrifedici amili saydığı subyektivliyini çıxarmağa çalışmışdır. Kobud desək, Qərb qarşısında sual qoyur: «insan olmadan bu dünya necədir?» - Şərq mütəfəkkiri üçün məsələnin belə qoyuluşu sadələşdirilmiş və səmərəsiz, daha doğrusu maraqsız görsənmişdir.
Bununla yanaşı qeyd edək ki, praktiki olaraq bütün ənənələr zaman-zaman eroziyaya məruz qalır, bəzən isə aktuallığını itirir, bu xüsusilə inkişafın keçid dövrlərində baş verir. Azərbaycanın bugünkü inkişaf dövrü elə ölkənin həm siyasi sisteminin daxili transformasiyası, həm də dünyəvi qloballaşma prosesləri ilə əlaqəli radikal dəyişikliklərin mürəkkəb keçid mərhələsini əks etdirir. Gözlərimiz önündə həm milli-konfensional ənənəviçiliyin, həm də sovet irsinin köhnə ənənələrinin dağılması baş verir və biz bu ağrılı prosesin hansı çətinlik və necə dramatik keçdiyini görürük. Şəxsiyyət amili əhəmiyyətli dərəcədə artır, keçid dövrü insanı öz dövrünün böyük risk və təhdidlərinə məruz qalır, həyat fəalliyəti və gündəlik davranışın modelini daim seçmə yükü onun üzərindədir. «Harada ki, ənənələr geri çəkilir, orada biz böyük açıqlıq və müstəqillik şəraitində yaşamalı oluruq. Avtonomiya və azadlıq şəraitində ənənənin gizli hökmranlığı daha açıq müzakirələr və dialoqla əvəzlənir» - Giddens qeyd edir (**24**).
Təqdim olunmuş məqalə elmi - ictimai mühitdə oxşar açıq müzakirə və dialoqa başlamaq cəhdidir.

Ədəbiyyat və qeydlər:

1. Вебер М. Избранные произведения. М., Прогресс, 1990, Протестантская этика и дух капитализма, с.44-344.
2. Фукуяма Ф. Великий Разрыв, М., АСТ, 2003.
3.Deyilənlərlə əlaqədar bu kitaba diqqət yönəltmək vacibdir - Станислав Гроф, Эрвин Ласло, Питер Рассел. Революция сознания. Трансатлантический диалог. М., 2004. - Bu kitab müasir dövrün üç nəhəng alim-mütəfəkkirinin dəyər və identikliyin böhranını törətmiş qlobal mənəvi və maddi böhran haqqında düşüncələri əksini tapıb. Diskussiyanın ümumi yekunu - böhranın önlənməsi yaranmış vəziyyətə cavabdeh olan şüurun dəyişdirilməsini ehtiva edir.
4. Ионин Л. Основания социокультурного анализа. М.,1995.
5. Ионин Л. Основания социокультурного анализа, с. 24-25. Diqqət yetirmək lazımdır ki, mədəniyyətin üçhədli bölgüsünü təqdim edən İonin ötən əsrin ortalarında (1952) ABŞ-da işıq üzü görmüş (Kroebez A., Klukhohn C. Culture. A critical review of concept and definitions/ Cambridge, Massachusetts) kitaba əsaslanır. Deməli bizim geriliyimiz təqribən yarım əsrə bərabərdir.
6. Фукуяма Ф. Великий Разрыв, с.29.
7. Liberal kapitalizmin ardıcıl və inandırıcı dəlillərlə çıxış edən tənqidçisi İ.Vallerstayn bununla əlaqədar yazır: «Bizim demokratiya adlandırdığımız gerçəkdə sağ təmayüllü populizmə ziddir, həm də o liberalizm dedikdə başa düşdüyümüzə də ziddir. Demokratiya ekspert və mütəxəssislərə oxşar ehtiyatlı münasibət, onların obyektivliyinə, qərəzsizlik və vətəndaş duyğularına şübhəni ehtiva edir. Demokratlar liberal mühakimələrdə yeni aristokratiya üçün - xüsüsilə həmişə nəticəsi mövcud iyerarxiya modellərinin saxlanması olan universal prinsipləri bəyanlayanlar üçün fəlakətli olan - sığınacağı görürlər. Ona görə də mahiyyətcə fərqli olan təmayülləri simvolizə edən liberalizm və demokratiya bir-biri ilə heç vaxt yola getmirlər». Валлерстайн И. Конец знакомого мира. Социология XXI века. М., Логос, 2004, с. 132.
8. Ахундов М.-Ф. Избранные произведения. Азернешр, Б., 1987, с. 99.

9. Фукуяма Ф. Великий Разрыв, с. 21-22.
10. Фукуяма Ф. Великий Разрыв, с. 28.
11. Фукуяма Ф. Великий Разрыв, с. 30.
12. Там же.
13. «Bütün cəmiyyətlər müəyyən qədər sosial kapital ehtiyatına malik olur; onlar arasında gerçək fərq, «etimad radiusu» adlandıra biləcəyimizlə əlaqəlidir».... Aşkardır ki, hər bir halda ailə - sosial kapitalın vacib mənbəyidir. Фукуяма Ф. Великий Разрыв, с. 31.
14. Фукуяма Ф. Великий разрыв, с.270.
15. Фукуяма Ф. Великий разрыв, с.303
16. Bununla əlaqədər F. Fukuyamanın kitabından tamam iri bir sitat gətirəcəyik: «Sosial kapital - bir dəfə inam əsrində yaradılmış və qədim ənənə sayəsində nəsildən-nəsilə ötürülən hansısa nadir və qiymətli əşya deyil. O bugün bizlər, müasir dünyəvi insanlar tərəfindən məhv edilən daimi mənbəyə də malik deyil. Lakin, baxmayaraq ki, sosial kapitalın ehtiyatı daim tamamlanır, bu proses avtomatik, asanlıqla və itkilərsiz getmir. Elə məhsuldarlığı artıran və yaxud sənayenin yeni sahəsini yaradan ixtiranın özü də mövcud cəmiyyəti dağıdır və yaxud həyatın bütün ukladını köhnəlmiş edir. Texnoloji tərəqqinin eskalatoruna çıxmış cəmiyyət daim qaçdı-tutdu oynamağa məcburdur, çünki sosial qaydalar dəyişən iqtisadi şəraitə uyğunlaşmaq üçün inkişaf edirlər. Maşın istehsalı insanları kənddən şəhərə köçürür və kişini ölkədən uzaqlaşdırır, digər tərəfdən informasiya texnoloqiyaları onları kənd yerlərinə qaytarır və qadınları işə təhrik edir. Kənd təsərrufatının meydana gəlməsilə nuklear ailə yox olur, industriallaşma ilə yenidən meydana gəlir və postindustrial epoxaya keçidlə böhrana girməyə başlayır. İnsanlar bütün bu dəyişən şəraitlərə zaman-zaman uyğunlaşa bilir, lakin texnoloji dəyişikliklərin sürəti çox vaxt sosial uyğunlaşma sürətini üstələyə bilir. Sosial kapitalın istehsalı tələbatı ödəməyə qadir olmadıqda, cəmiyyət bunun əvəzini baha qiymətə ödəməli olur.

Cəmiyətdə paralel inkişaf edən iki proses baş verir. Tarix siyasi və iqtisadi sferada proqressiv və xətti olur, və XX əsrin sonunda texnoloji inkişaf etmiş cəmiyyətlər üçün yeganə həyat qabiliyyətli seçim olaraq liberal demokratiya bunun kulminasiyası oldu. Sosial və əxlaqi sferada isə, ancaq, tarix yəqin ki, dövrüdür, və sosial kapital çoxsaylı nəsillərin həyatı ərzində azalır və artır. Dövrdə sosial kapitalın artımına qarant olan heç nə yoxdur. Ümid üçün yeganə əsas - sosial nizamın yaradılmasına çox güclü daxili insan bacarığıdır. Tarixin oxunun yuxarı istiqamətlənməsi bu yenidən yaratma prosesinin uğurundan asılı olacaq». (s.383-384).

17. Ионин Л. Основания социокультурного анализа, с.5.

18. Валлерстайн И. Конец знакомого мира. Социология XXI века, М., Логос, 2004, с.292. 19. Гидденс Э. Узкользающий мир. Как глобализация меняет нашу жизнь. М., Весь мир, 2004, с.88-89.

20. Этциони А. От империи к сообществу: новый подход к международным отношениям. М.,Ладомир, 2004, 384с.

Belə cəmiyyətin əsasını müəyyənləşdirən Etsioni yazır: «Əvvəla o, avtonomluq və ictimai nizam arasında dəqiq qurulmuş tarazlığa əsaslanır («Avtonomluq» termini altında fərdi hüquq, demoratik idarəetmə forması və azad bazar başa düşülür, «İctimai nizam» - həm dövlət məcburiyyəti, həm də normativ xarakterli qeyri-formal ictimai nəzarətə əsaslanmış, daha doğrusu sərt və yumşaq hakimiyyət sistemidir)....

İkincisi, ədalətli cəmiyyətdə avtonomluq və nizam arasındakı münasibətlər daim yenidən nəzərdən keçirilir....Nəhayət, ictimai nizam inam və qeyri-formal vasitələrə (yəni normativ nəzarətə) nə qədər möhkəm əsaslanırsa, dövlətdən bir o qədər az asılı olur, və hakimiyyətin «nəzarət etdiyi fəaliyyət növlərinin spektri azdırsa, cəmiyyət ideal vəziyyətə daha yaxın olur» (s.31-32).

21. Этциони А. От империи к сообществу: новый подход к международным отношениям, с.99.

22. Петер Л.Бергер, Бриджит Бергер, Рэндалл Коллинз. Личностно-ориентированная социология. М., Академический Проект, 2004, с.400.

23. Петер Л.Бергер, Бриджит Бергер, Рэндалл Коллинз,с.436.
24. Гидденс Э. Узкользающий мир. Как глобализация меняет нашу жизнь. М., Весь мир, 2004, с.62.

Əbülhəsən ABBASOV

FƏLSƏFƏ VƏ MÜASİRLİK

Müasir fəlsəfəmiz, müxtəlif sahə və mövzuları ehtiva etsə də, bir əsas məqsədin reallaşmasında öz vahidlik səviyyəsini tapır: dünyada və cəmiyyətimizdə baş verən hadisələri, prosesləri yeni baxış bucağından, habelə yeni paradiqmalar müstəvisindən öyrənmək, mövcud ciddi problemlərə,reallıqla zəruri olan arasındakı ziddiyyətlərə münasibət bildirərək mümkün çıxış yollarını aramaq, təklif və tövsiyələr irəli sürmək. Bu da təbiiliyi qədər də qanunauyğundur. Belə ki, hər bir tədqiqatçı-filosof öz yaradıcılığında, ilk növbədə, yaşadığı dövrü əks etdirməyə, onu "materiallaşdırma"ğa çalışır. Ümumiyyətlə, fəlsəfə, hər şeydən əvvəl, öz mahiyyətini onda göstərir və ifadə edir ki, yeniliklərlə səsləşir, proseslərə adekvat və ləngimədən reaksiya verir, münasibət bildirir,cəmiyyətin innovasion inkişafına yardımçı olur. Təsadüfü deyildir ki, tarix boyu bütün görkəmli filosoflar öz dövrləri üçün belə nümunə göstərmiş, yeninin səlis anlamını verməyə və daha "optimal yol" müəyyənləşdirməyə çalışmışlar. O da həqiqətdir ki, bəşəriyyət durduqca onun varlığı və təbiəti, bugünü və gələcəyi ilə əlaqədar bir çox problemlər öz aktuallığını saxlayır, zaman keçdikcə yenidən dəyişmiş şəraitə uyğun şəkildə həllini tələb edir. Beləliklə də "əbədi", "ənənəvi" problemlər "yeni", "müasir" problemlərə çevrilirlər.

Göründüyü kimi, fəlsəfi yaradıcılıqla məşğul olan hər bir şəxs daim iki qrup problemlərlə – "ənənəviliyi qədər də müasir olan" və konkret dövrün ortaya çıxartdığı "yeni" problemlərlə üzləşir. Söz yox ki, hər kəsin öz prioritetləri olur: biri "daimi problemlər"in, digəri indi, konkret olaraq, əhəmiyyət kəsb edən "yeni problemlər"in tədqiqinə girişir. Əlbəttə ki, prioritetlər seçimində zaman-məkan gücü də öz təsirini göstərir və olduqca əhəmiyyətli dərəcədə, xüsusən də köklü və sürətli dəyişikliklər, transformasiyalar dövründə. Hal-hazırda yaşadığımız mürəkkəb tarixi dövr, təlatüm və dramatizmlərlə zəngin zəmanə bu

qəbildəndir. Həm lokal, həm də qlobal miqyasda baş verən hadisələr, cərəyan edən proseslər günbəgün öz idraki "həzmetmə"sini tələb edir – təkcə özləri üçün deyil, insanlar, xalqlar, bəşəriyyət üçün! Çünki idraki həzmetmə və anlama nə qədər gec və ləng həyata keçirilirsə, bir o qədər gələcəyi naməlum, davranışı proqnozlaşdırılmayan və deməli, təhlükətörədici "hesablanmamış məhsullar" dünyanı, cəmiyyətləri, hər bir kəsi qorxu altında, təhdidlər məngənəsində saxlayır, qeyri-müəyyənlik, destruksiya və depressiya ab-havasında şüurların və qəlblərin sarsılmasına səbəb olur.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsinə dair" tənqidi-istiqamətverici xarakterli məqaləsində haqlı olaraq vurğulanır ki, "fəlsəfənin müxtəlif funksiyaları arasında ən mühümlərindən biri onun ictimai inkişafın proqnozlaşdırılmasında metodoloji təməl kimi çıxış etməsi, proqnostik funksiyaya malik olmasıdır" ("Azərbaycan" qəzeti, 5 may 2009-cu il, s. 3). Başqa əsərlərində də vacibliyi qeyd edilən bu funksiya ilə əlaqədar olaraq o, həmin məqalədə yazır: "Düşünürəm ki, milli ictimaişünaslıq bu barədə ciddi düşünməli, daha fəal mövqe tutmalı, filosoflarımız milli inkişafımıza aid məsələlərə daha çox diqqət yetirməlidirlər". Ola bilsin ki, müasir dünyanı xaosa sürükləyən səbəblərdən biri də elə, bütövlükdə, proqnostikanın zəifliyində və gücsüzlüyündədir, müasir fəlsəfənin ictimai praktikadan uzaq düşməsində, özü-özü ilə məşğul olmasındadır.

Etiraf edək ki, bu gün, dünya miqyasında, fəlsəfə ictimai həyata, proseslərin təşəkkülünə və gedişinə təsiretmə gücünü itirməkdədir, onun indiki bəşəri inkişafdakı iştirakı, sanki, epizodik ifadə olunan niyyətlərlə, kövrək ehtimallarla və bəzən də sxolastik mülahizələrlə məhdudlaşır, həm lokal, həm də qlobal mənada birləşdirici, inteqrativ, sintezləşdirici rolu və bu əsasda istiqamətverici funksiyası, "söz sahibliyi" ödənilmir. Nəticədə ayrı-ayrı cəmiyyətlərdə, regionlarda, dünyada mövcud olan pərakəndəlik, bir-birini eşitməmək və anlamamaq halları artır,

insani münasibətləri qoruyub saxlayan, möhkəmləndirən daxili determinantlar, dəyərlər, indiyə qədər tarixən önəmli əhəmiyyət daşımış pozitiv adət-ənənələr, vərdişlər, davranış nümunələri ortadan çıxır. Bəzən xoşagəlməz bu göstəriciləri, belə vəziyyəti əməlli-başlı bilgiyə, istedada malik olmayan, sürüşkən və cılız əxlaq sahibləri, özlərini "ən müasir insan", "modern adam", "avanqardist şəxs" adlandıraraq, dövrün hökmü, tələbi kimi qələmə verməyə çalışırlar, təsirli cavab almadıqda isə Hegel və Marksdan tutmuş Nəriman Nərimanova, Mirzə İbrahimova, Əzizə Cəfərzadəyə kimi – hamını "qılıncdan keçirirlər". Bu "cənablar" bir universal həqiqəti anlamırlar və anlamaq istəmirlər: heç bir tarixi dövr dəyərlərin aşınmasına, insani münasibətlərin, sosial və siyasi institutların tənəzzülünə, qarşıdurma və toqquşmalara, münaqişə və müharibələrə, xoşməramlı ümumi ovqatın və mühitin dağıdılmasına, abır-həyanın, ictimai "ölcü"lərin itirilməsinə ehtiyaclı olmamışdır. Əksinə, hər bir dövr, bəşəri mövcudluq və inkişaf mərhələsi daha geniş və məzmunlu insaniliyə, daxili istiliyə və həmrəyliyə, "ümumi anlama", rasional ölçü və normalara, onların qüdrətinə ehtiyaclı olmuşdur. Bəşəriyyət öz zəngin və layiqli mövcudluğu naminə "yaxa qurtarmaq" istədiyi mənfur şeyləri onun istəyi, zəruri tələbatı kimi qələmə verməyin özü, ən azı, səhvdir, psevdosavad əlaməti olmaqla yanaşı, insanlığa, bəşəriyyətin halına laqeydlikdir, biganəlik və daşürəklilikdir. Bu tip "postmodernizm" və "postmodernlik" xalqları və ölkələri, bütün dünyanı yalnız fəlakətlərə sürükləyə bilər, tarix bunu dəfələrlə sübut edib və etməkdədir.

Ona görə də, fikrimcə, bu gün hər bir kəsin söz demək payı, imkanı onun ağlına, xoş niyyətinə, istedadına mütənasib olmalıdır. "Söz azadlığı"nın hüdudları məsuliyyət və vicdan hissinin, amal və niyyət paklığının sərhədlərini aşmamalıdır. Və yaxşı olar ki, insan bunu özü anlasın, "söz və fikir azadlığı"nı sui-istifadə alətinə çevirməsin və nəticə olaraq, inzibati təsir üsullarına, kənardan senzuraya ehtiyac qalmasın. Yox, əgər bu yoxdursa, kimlərinsə sərsəm, destruktiv hərəkətlərinə, söz demək,

nümunə olmaq istəklərinə, elmi, təhsili, mədəniyyəti içindən çürütmək tendensiyalarına nə cəmiyyət özü, nə də dövlət dözməli deyil. Neqativlərə, naqisliklərə dözümlülük, həqiqi demokratiyadan uzaq olduğu qədər də, adekvat anlanılan tolerantlıqdan uzaqdır. Necə olurdu ki, Atatürk, Den Syaopin kimi dahi şəxsiyyətlər, məharətli dövlət xadimləri, böyük işlər görmüş insanlar, əməldə ən istedadlı islahatçılar olsalar da, bir dəfə də "mən islahatçıyam", "müasirəm" demirdilər, qurub-yaratmaqla yanaşı daim keçmiş tarixə, mədəni irsə, sələflərin təcrübəsinə və xidmətlərinə hörmət-izzətlə yanaşırdılar, həssaslıq göstərirdilər, qayğılı münasibət aşılayırdılar, ancaq bir daşı daş üstə qoymayanlar, heç bir fərqləndirici istedada və qabiliyyətə malik olmayanlar özlərinə "müasirəm", "modernistəm", "islahatçıyam" deməkdən çəkinmirlər?! Nə olar, insan səhv yola düşə bilər, ancaq həqiqətə, düz yola da qayıda bilər və bu, həm vacibdir, həm də mümkündür. Burada isə ən gözəl qaynaq, zəngin məktəb elə böyük zəka sahiblərinin, nadir tarixi şəxsiyyətlərin miras qoyduqları idarəetmə fəlsəfəsidir. Düşünməli deyilmi: iti və dərin tənqidi təfəkkürün sahibi olan bu şəxsiyyətlər, bir dəfə də olsun belə, böyük tarixi simaların, elm və mədəniyyət adamlarının ünvanına acı söz, məhvedici fikir söyləməmiş, onların barəsində istehza ilə çıxış etməmişlər. Dahi mütəfəkkir Konfutsi, daha sonralar isə görkəmli dövlət adamı, əvəzolunmaz islahatçı Den Syaopin çox düzgün demişlər: "Böyüyün qarşısında kiçilməyən, bu dünyadan alçalıb gedər!". Məşhur islahatçı Den Syaopinin olduqca dəyərli fikirlərindən birini də xatırlatmaq istərdim: "Keçmiş, keçmiş naminə yox, bu gün və gələcək üçün öyrənilməlidir!"; "Müasirliyə qulluqda qədimlikdən istifadə etmək vacibdir!".

Ümumiyyətlə, XX əsrin iki böyük dövlət xadimlərinin – Atatürkün və Den Syaopinin idarəetmə fəlsəfələrində, dünyagörüşü sistemlərində maraq doğuran əhəmiyyətli oxşar cəhətlər çoxdur. Cəmiyyətin yenidən təşkili və idarə olunmasında, onun əsaslı modernizasiyası və islahatların həyata keçirilməsi praktikasında hər ikisi üçün aşağıdakı zəminlərə

riayət edilməsi, onların üzvi surətdə uzlaşması və bir-birini tamamlaması önəmli olmuşdur: milli qürur hissinin və öz xalqının gücünə, böyüklüyünə inamın canlandırılması; tarixi irsə həssaslıq və qayğılı münasibət, mənəvi ənənələrə, sosiomədəni dəyərlərə hörmət və bu sərvətlərdən istifadə etmək qabiliyyəti; izolyasionizmin (təcridolunmanın), qapalılığın yararsızlığının anlanılması, nizamlı açıqlığın qurulması və xaricdən mütərəqqi, faydalı olanın götürülməsi; bəşəri dəyərlərə hörmət və müasirliyə güclü cəhd; keçmiş ictimai quruculuq praktikasının tənqidi təhlili və bu praktikaya hörmətlə yanaşı, ondan müsbət olanın götürülməsi; azadlığın insani ləyaqət, şərəflilik, məsuliyyət və vicdan hissi kimi fenomenlərlə uzlaşdırılması; subyektiv-eqoistik siyasi maraqların qətiyyətlə çərçivəyə alınması və məhdudlaşdırılması; siyasi hakimiyyətin daxili vahidliyinin, vəhdətinin təşkili və qorunub saxlanılması; sosial varlığa innovasion-yaradıcı münasibət, islahat proseslərində rasional bilgiyə, elmə və müsbət bəşəri təcrübəyə arxalanmaq, mühüm əhəmiyyətli məsələlərin həllində ciddi siyasi iradənin, qətiliyin və ardıcıl-sistemli tədbirliliyin ortaya qoyulması; milli maraqların həyata keçirilməsi istiqamətində ictimai və beynəlxalq rəyin hazırlanması; iqtisadi, siyasi, geopolitik müstəvilərdədə tarazlaşdırıcı faktorların, "ortaq nöqtələr"in müəyyənləşdirilməsi, onlardan səmərəli istifadə və s.

Göstərdiyim bu əsasların hər biri, ayrılıqda və birgə – kompleks halda, xüsusi tədqiqat obyekti kimi çoxdan öyrənilməyə layiq və ehtiyaclı olsa da, indiyə qədər bu vəzifənin mahiyyətinə, əhəmiyyətinə müvafiq səviyyədə bizim fəlsəfi, ictimai və humanitar elmlərdə zəruri işlər görülməmiş, fundamental qoyuluşda və aktual kontekstlərdə fəlsəfi-konseptual araşdırmalar aparılmamışdır. Bunun məntiqi nəticəsi olaraq, səmərəli, nəzəri-praktiki əhəmiyyət daşıyan təklif-tövsiyələr irəli sürülməmiş, istifadə üçün yararlı təlimatlar, vasitələr hazırlanmamış, təsirli və səmimi təbliğat-təşviqat işi qurulmamışdır. Düşünürəm ki, ciddi transformasiya dövrünü yaşayan, modernləşmə yolunu seçmiş cəmiyyətimiz üçün bəşəri sərvət rolunda çıxış edən tarixi təcrübə

nümunələrinin, bir sıra ölkələrdə (Türkiyə, Almaniya, Yaponiya, Çin, Tayvan, Cənubi Koreya,Yeni Zellandiya və s.) vaxtilə həyata keçirilmiş və danılmaz müsbət nəticələrlə yekunlaşmış köklü islahatların dərindən öyrənilib-mənimsənilməsi çox faydalı olardı. Bəşəri təcrübənin dərindən öyrənilməsi və mənimsənilməsi, ən azı, sosial mühitin adekvat dərki və onun təkamülünün, ictimai gedişatın rasionallıq paradiqmasını yaratmaq üçün vacibdir və burada, şübhəsiz, fəlsəfi elmlər öz üzərlərinə düşən vəzifələrdən qaçmamalıdırlar. Hər halda, dərketmə və özününüdərk, sosial rasionallıq, insani münasibətlərin və idarəetmə sisteminin optimallığı kimi məsələlər ilk növbədə fəlsəfənin problemləridir. Bu istiqamətdə fəlsəfə öz işini lazımi səviyyədə görə bilərsə, deməli, bir çox taleyüklü məsələlərin (cəmiyyətdə sosial ədalət və ictimai tarazlıq, milli və demokratik konsolidasiya problemləri və s.) həllində də daha çox uğurlar qazanmaq olar.

Tarixin belə bir mürəkkəb, dinamik dövründə, sosial zamanın olduqca sürətləndiyi bir vaxtda metanəzəri, inteqrativ bilik, nizamlayıcı və kreativ düşüncə, mütərəqqi dünyagörüşü, adekvat qnoseoloji-metodoloji zəminlər yaratmağa borclu olan fəlsəfəmizin həddən artıq ləng, ifrat arxayınlıqla tərpənməsi, əlbəttə ki, dözümlü hal deyil. Akademik Ramiz Mehdiyev yuxarıda adını çəkdiyim məqalədə yazır: "Təəssüflər olsun ki, hələlik müasir fəlsəfə daha çox ənənəvi fəlsəfi baxışlar üzərində qərar tutur. Ona görə də, biz fəlsəfənin praqmatik, metodoloji və proqnostik funksiyalarını ümumi dünyagörüşü ilə vəhdətdə inkişaf etdirməliyik". O, müasir mərhələdə Azərbaycan fəlsəfə fikrinin qarşısında duran başlıca vəzifələr içərisində mövcud ictimai gerçəkliyin elmi-nəzəri dəyərləndirilməsini prioritet problem kimi göstərərək, demokratik dövlət quruculuğunda Azərbaycan reallığına uyğun konkret modelin formalaşmasının həqiqətə çevrildiyini qeyd edir və tam əsasla vurğulayır ki, yalnız başqa ölkələrin təcrübəsini təqlid etməklə bu uğurları qazanmaq mümkün olmazdı. Onun fikrincə, bu modelin daha da optimallaşdırılması və gələcəyə xidmət etməsi üçün müstəqillik

dövründə artıq qət edilmiş quruculuq mərhələsi, qazanılmış təcrübə dərindən və hərtərəfli öyrənilməli, tranzit dövrünü yaşayan ölkələrdə dövlət quruculuğu problemləri müqayisəli surətdə təhlil edilməli, yeni tələb və çağırışlara cavab verən konseptual əsaslar işlənilməlidir. Bu yolda Azərbaycanda dövlət quruculuğu fəlsəfəsinin mütərəqqi, özünü doğrultmuş prinsiplər üzərində inkişaf etdirilməsi və müstəqillik dövrünündə əldə olunmuş praktiki nəticələrin nəzəri cəhətdən ümumiləşdirilməsi geniş imkanlar açmaqla yanaşı, vacib bir məsələdir.

Şübhəsiz ki, təxirəsalınmaz vacib işlərin təşkilində və həyata keçirilməsində başlıca məsuliyyət, siyasi və iqtisadi elita ilə yanaşı, elmi elitanın üzərinə düşür. Elmin nüfuzunu və statusunu qaldırmaq, aktual problemlər üzrə mövcud potensialı səfərbər etmək, elmi yaradıcılıqda nümunə olmaq, zəruri koordinasiya-əlaqələndirmə şəbəkəsini formalaşdırmaq, ehtiyac olarsa, hansısa qanunverici təşəbbüslə çıxış etmək, hüquqi əsasların yaradılmasını təminatlandırmaq, intellektual resursların formalaşması, səmərəli idarə və istifadə olunması ilə bağlı tədbirlər görmək və s. – bütün bu məsələlərin həllinə elmi elita ilk növbədə cavabdehdir. Elə ona görə də dünya elminin alimə və tədqiqatçıya münasibətdə irəli sürdüyü tələb və standartlara cavab verən milli elmi elitanın formalaşması son dərəcədə vacibdir.

Bu zərurətin ödənilməsi üçün, əlbəttə ki, intellektual resursların, insan kapitalının səmərəli idarə olunmasına, həqiqi alim yaradıcılığına qayğı və diqqət qat-qat artırılmalıdır. Bəli, daim dövlətdən və cəmiyyətdən yararlanmaq, şəxsi mənfəət güdmək başlıca niyyəti və qabiliyyəti olan adamların deyil, məhz durmadan dövlət və cəmiyyət, millət üçün çalışanların, sözün həqiqi mənasında, seçilmiş insanların qayğısına qalmaq, onların dəyərləndirilməsi olduqca mühüm məsələdir və burada hakimiyyət nümayəndələrinin, siyasi elitanın üzərinə böyük məsuliyyət düşür. Ümumiyyətlə, yaradıcı insanların, fədakar şəxsiyyətlərin seçib-seçilməsində, dəyərləndirilməsində qərarlaşmış, elmi və əxlaqi-mənəvi əsaslara söykənən **sistem** olmalıdır. Bu sistemin fəaliyyəti obyektiv meyarlardan,

humanizm qayələrindən çıxış etməli, milli və ictimai maraqlardan qaynaqlanmalı, sağlam prinsipləri rəhbər tutmali, maksimum dərəcədə şəxsi-subyektiv motiv və meyllərin təsirinə düşməkdən özünü qorumaq qabiliyyətini göstərməlidir. Burada təqib və təzyiqlərə, basqılara, əsassız ayrı-seçkiliyə, kor-koranə inzibatçılığa yol vermək olmaz.

Dəyərləndirmə sistemi hər insana qabiliyyətinə, istedadına, çəkdiyi zəhmətə və əldə etdiyi konkret nəticələrə görə qiymət verməlidir. Elə fəaliyyət göstərməlidir ki, iddiali olanlarin özləri-özlərinə sual versinlər: "Mən, konkret olaraq, hansı müsbət nəticə əldə etmişəm, bu dövlətə və xalqa hansi fayda vermişəm?" Belə olduqda, bəlkə də, nə sovetlər dönəmində, nə də ki indi ortaya bir yararlı ideya, metodoloğiya, konsepsiya, fundamental tədqiqat qoymayan, lakin bütün rejimlərdən yağdan bıçaq kimi çıxan və akademiklik iddiasinda olan "alim"lərin, təfəkkür və əməl, davraniş bəsitliyi ilə insanları boğaza yığmış "mədəniyyət xadimləri"nin yersiz ambisiyalarının qarşısını almaq, necə deyərlər, abır-həya çərçivəsini daha etibarlı etmək olar.

Fikrimcə, abır-həya, özünə tənqidi yanaşma və ictimai rəylə hesablaşma, yüksək intellektlə bir yerdə, elitar korpusa "giriş" üçün vacib meyar olmalıdır. Əğər cəmiyyətin elitasını təşkil edənlər abır-həya, intellekt cəhətdən başqa təbəqələrin, aşağı statuslu siniflərin bərəbərində olacaqlarsa, onda bu elitaya nə ehtiyac var?! Yox, bütün hallarda elita fərqlənməlidir – intellekti və abır-həyası ilə, cəmiyyətə verdiyi töhfələrilə və potensial qabiliyyəti ilə. Bu səbəbdən də dəyərləndirmə sisteminin başlıca qayəsi ondan ibarət olmalıdır ki, **sosial mobillik**, yəni cəmiyyətdə bir sinifdən (təbəqədən) başqasina keçid (yuxarı və ya aşağı) əhəmiyyətli dərəcədə intellektlə, səmərəli və fədakar zəhmətlə, əxlaqi-mənəvi dəyərlərə sadiqliklə müəyyənləşsin. Sözün düzü, inkişaf etmiş qabaqcıl ölkələrdə elitanın formalaşması elə bu yolla da baş verir. Məsələn, uşağın sosial statusunda yaranan dəyişikliklərin (istər yuxarı,istərsə də aşağı istiqamətdə) ABŞ-da 70 faizi, Yaponiyada isə 80 faizi əvvəlcədən intellekt səviyyəsinə görə proqnozlaşdırılır; çalışırlar ki, anadanğəlmə və qazanılmış

intellektual sərvət sosiumun biğanəliyi və yaxud fəaliyyətsizliyi ucbatından itib-batmasin. Təsadüfi deyildir ki, bu ölkələrdə istedadlı uşaqlarla iş aparan mərkəzlərin fəaliyyəti ğeniş yayılmışdır.Bu, hər şeydən əvvəl o deməkdir ki, həmin ölkələrdə innovasion ikişafın ictimai standartları mövcuddur və onlar özlərini əməli surətdə ğöstərməkdədir.

Əsasən müsəlman dünyasında beyinlərə hakim kəsilmiş, ölkələri və xalqları rəzil günə qoyan "yüksək boy vermiş sünbülü vaxtında rədd etmək lazımdır" prinsipindən əl çəkmək lazımdıd. İdarəetmə fəlsəfəsində müdriklik meyarı sayılan bu "dəyər", əslində, cəhalətin, qəddarlığın, mağara "şüuru"nun, heyvani hissiyyatın bariz nümunəsidir. O, əsrlər boyu müsəlman cəmiyyətlərinin geriləməsinə və tükənməsinə, daxilən çürüməsinə səbəb olmuş və bu gün də öz mənfur işini görməkdədir. Əgər hansısa məkanda uzun müddət ərzində bu "dəyər" rəhbər tutularsa, orada həqiqi milli elita, yararlı sosial və intellektual kapital formalaşa bilməz, toplumun "insan materialı" get-gedə daha çox korlanar və tükənər.

Elitadan söhbət düşmüşkən, fəlsəfə və ümumiyyətlə, ictimai, sosiohumanitar elmlər qarşısında duran bir xüsusi əhəmiyyətli problemə diqqət çəkmək istərdim. Bildiyimiz kimi, fəlsəfənin mühüm bölmələrindən biri **praksiologiyadır** (yunanca "praktikos" – fəaliyyətli). Onun obyekti olan **insan fəaliyyəti** vasitəsilə insan varlığının mahiyyətini və təbiətini, şəxsiyyətin özünüifadə və özünütəsdiq xüsusiyyətlərini, onun əqli-ruhi aləmini, maddi və mənəvi istehsala xidmət edən praktikasını, bu praktikanın başqalarının sosiallaşması üçün verdiyi və verə biləcək faydanı daha uğurlu öyrənmək olur. Hər şeydən əlavə, yalnız bu zəmində tarixi şəxsiyyətlərin, vaxtilə elita rolunda fəaliyyət göstərmiş insanların özünü, onların təcrübəsini, qoyduqları irsi dəyərləndirmək (qiymətləndirmək yox, məhz dəyərləndirmək!) olar. Əgər mahiyyət xarakterli keyfiyyətlər lazımınca dəyərləndirilmirsə, onlar insan, bugünkü və gələcək nəsillər üçün sərvətə çevrilə bilmirlər. Bu mənada bizim fəlsəfə elmi hələ çox işlər görməlidir. Nadir şəxsiyyətlər, görkəmli zəka

və əməl sahibləri fenomeni yalnız tarixin və yaxud psixologiyanın predmeti deyil, burada fəlsəfə tarixi, sosial fəlsəfə, aksiologiya, siyasi fəlsəfə, mədəniyyətşünaslıq üzrə mütəxəssislər öz töhfələrini verməyə borcludurlar. Burada "nadir şəxsiyyəylər" deyərkən, yalnız "özümüzünkü"lər nəzərdə tutulmur! Yaxşı olardı ki, cır və faydasız millətçılıyə yuvarlanmadan, xalqların və ölkələrin inkişafında, nümunəvi sosial rekonstruksiyaların, islahatların həyata keçirilməsində misilsiz xidmətləri olmuş hər bir görkəmli şəxsiyyətin, onun həyat və yaradıcılıq məktəbinin öyrənilməsinə ciddi diqqət yetirilsin. Hər halda, ABŞ və Qərbi Avropadakı, Çin, Yaponiya, Cənubi Koreya və Sinqapurdakı sıçrayışlı inkişaf, tərəqqi öz-özünə baş verməmişdir. Şübhəsiz ki, burada böyük zəka və iradə, yüksək mənəviyyat sahiblərinin, ailə, tayfa və sülalə naminə yox, bütöv cəmiyyət və milləti üçün fədakarcasına çalışmış, zəhmət və əziyyət çəkmiş şəxsiyyətlərin verdikləri töhfə əvəzsizdir, xidmətləri danılmazdır.

Müasir dünya kəskin surətdə tarazlığını itirib və qaneedici yeni "davranış kodeksi"nin yoxluğundan əziyyət çəkməkdədir; total xarakterli qlobal maliyyə-iqtisadi böhran, onun davamı olaraq dünyada sosial və siyasi gərginliyin artması mövcud vəziyyəti daha da mürəkkəbləşdirməkdədir. Həm ayrıca götürülmüş cəmiyyətlər daxilində, həm də ümumdünya miqyasında görünməmiş qütbləşmə, kəskin təbəqələşmə dərinləşmiş və dərinləşməkdə davam edir. Bu şəraitdə müasir insan "sarsılmış şüur" sindromu ilə yaşamağa vadar olunur, onun sosial özgələşməsi isə qarşısıalınmaz prosesə çevrilir.

Razılaşmalıyıq ki, indiki təbəddülatlar olduqca qeyri-adi, sarsıdıcı xarakter daşıyır, sanki dünyanın özü qabarıq surətdə bölünmüş, parçalanmış, baxmayaraq ki, hər tərəfdə qloballaşmadan, inteqrasiyadan, universallaşmadan söhbət gedir. Bəli, bir tərəfdən, müasir dünyanın yeni mövcudluq forması kimi çıxış edən qloballaşma öz möhtəşəm gücünü göstərir, hətta bəzi beynəlxalq təsirli dairələr tərəfindən milli identiklik sərhədləri pozularaq mədəniyyətlərin homogenləşməsinə gizli və açıq-aşkar cəhdlər edilir, digər tərəfdən, bəşəri universium daxilində indiyə

qədər görünməmiş qarşıdurma, fərqqoyma və ayrı-seçkilik, fəlsəfi, tarixi və sosiomədəni konsepsiyaların , siyasi yanaşmaların toqquşması baş verir. O səviyyədə ki, bir sıra alimlər, filosof, sosioloq və siyasətşünaslar artıq sivilizasiyaların toqquşmasından danışırlar. Bəlkə də elə bu sivilizasiyalararası toqquşmanın təzahürüdür ki, Şimali Amerika sivilizasiyasının, Qərbin bəzi söz və səlahiyyət sahibləri İslam sivilizasiyasını etnik və dini komponentlərdən, milli adət-ənənələrdən, mədəniyyət sütunlarından, hətta doğma dildən uzaqlaşdırmaq, azad etmək cəhdindədirlər, çünki bu fenomenlər milli identikliyin mənbəyidir. Ancaq, xoşbəxtlikdən bu eqoist, mənfur, supermaterialist proyektə qarşı, yəni milli simasızlaşdırma vasitəsilə İslam Şərqinə məxsus sərvətlərə sahib olmaq cəhdinə qarşı bir islam aləmində yox, Qərbin özündə də güclü müqavimət müşahidə olunmaqdadır – müqavimət müxtəlifliyinə və səbəblərinə baxmayaraq! Bir çox görkəmli alimlərin, Nobel mükafatı laureatlarının son zamanlar nümayiş etdirdikləri mövqe də bu faktı təsdiqləməkdədir. Dünyada baş verən qlobal transformasiyaların mühüm bir keyfiyyət xüsusiyyəti də məhz bundadır – yəni, yeni müstəvidə və yeni mənada-məzmunda Şərlə Xeyir arasında gedən mübarizədə. Bu toqquşma, demək olar ki, bütün digər lokal və regional münaqişələri, hadisə və prosesləri, o cümlədən – Qarabağ konfliktini, onun durumunu, gedişini və həll olunmasını determinə edir, az ya çox dərəcədə səbəbləndirir və səciyyələndirir.

Bir çox tanınmış mütəxəssislərin haqlı olaraq söylədikləri kimi, Xeyir və Şər arasında mübarizə yalnız Şimali Amerika sivilizasiyası və İslam sivilizasiyası arasındakı toqquşma ilə məhdudlaşmır. Bəşəriyyət, onların fikrincə, bütövlükdə bir vahid sivilizasiya olaraq, panamerikan sivilizasiyasına qarşı dayanmışdır. Nikolas Hagger, məsələn, yazır: "Biz iki sivilizasiyanın toqquşması dövründə – ekspansionist inkişaf mərhələsini yaşayan və dünya hökmranlığına can atan ABŞ-ın başladığı müharibə dövründə yaşayırıq. Bu müharibə terrora qarşı mübarizə adı almışdır. Yaxın zamanlarda yaranmış və yaxud

yaranan bloklar və parçalanmış dövlətlər bu aqressiv siyasət çərçivəsində baxılmalıdır. Bunlar altruist məqsədlər üçün deyil, şəxsi maraqlar naminə yaradılır. Nə qədər ki Birləşmiş Ştatlar öz inkişafının güclü, ekspansionist mərhələsindədir, qlobalist cəhdlər bu dövlətin personalaşdırılmış maraqlarını ifadə edir, hərçənd ki, mahiyyət bütün bəşəriyyətin rifahı haqqında sözlərlə pərdələnir" (**1**).

Bu gün fəlsəfə məhz belə bir ümumi fonda öz missiyasını daşımaq zərurətindədir. Onun universal, inteqrativ xarakterli elm olduğunu nəzərə alsaq, bu ümumi mənzərənin, yaşanan dövrün ziddiyyətlərinin, tələb və xüsusiyyətlərinin fəlsəfi tədqiqatlarda, tədqiqatçı və tədqiqatlar üçün mühüm rol oynadığı daha da aydın olar. Söhbət yalnız zəmanənin mürəkkəbliyinə, qloballaşmanın çağırışlarına həssaslıqdan getmir, bu, necə deyərlər, öz yerində, əsas məqsəd və başlıca vəzifələr ondan ibarətdir ki, nəzəri və praktiki həllini tələb edən ciddi problemlərin müqabilində adekvat kateqorial-instrumental aparat, paradiqmal baza, qnoseoloji-metodoloji zəminlər, hətta, zərurət olduqda, yeni leksika və elmi prosedurlar yaradılsın. Bu mənada professor Əli Abasovun "**fəlsəfənin yeni layihəsi**" haqqında fikirləri ilə tam razılaşmaq olar.

Belə olduqda, aydındır ki, fəlsəfə elmimiz və filosoflarımız daha yaxından işə girişməli, biganə və passiv müşahidəçidən fəal iştirakçıya çevrilməli, taleyüklü problemlərin həllində öz töhfələrini verməlidirlər. Ən azı ona görə ki, həlli vacib olan ciddi problemlər yalnız siyasətin və siyasətçilərin, şair və yazıçıların, tarixçi və folklorşünasların inhisarına verilə bilməz. Əks halda nəinki ictimai şüurda, intellektual sahədə geriləmə və deqradasiya baş alıb gedər, konkret-praktiki işlərin, milli və dövlət əhəmiyyətli məsələlərin həll olunub reallaşmasında da ağır itkilərlə üzləşərik. Üstəlik, nəzərə almalıyıq ki, nəzəri şüurun xeyli dərəcədə bədii refleksiyadan geri qalması bizim üçün xroniki xəstəliyə çevrilib. Uydurmalar, müasir miflər, saxta vədlər, pafos və patetika, söz yığınından ibarət boş-boş cümlələr, axtalanmış kəlamlar cəmiyyətimizi tezliklə ovsunlayır, düşüncə

və əməllərimizə təsir göstərir, zövqlərimizi formalaşdırır. Fəlsəfəsiz və nəzəriyyəsiz şeriyyət, "al yanaqda qara xal" haqqında mahnılar sanki ovqatımızın ruhlandırılması üçün yeganə mənbədir. Təsadüfi deyildir ki, ATV və İTV öz "Ovqat"larına durmadan yalnız şair və müğənniləri dəvət edirlər. Belə çıxır ki, nəzəri şüurun, analitik təfəkkürün, dərin elmi refleksiyanın məhsulu olan fikrin, məntiqi mühakimənin insan ovqatına dəxli yoxdur. Bu isə o deməkdir ki, insanın psixikası, ictimai şüur bütövlükdə korroziyaya uğrayıb, günbəgün ibtidailəşən, bəsitləşən hissiyyat gölməçəsində çabalamaqdadır.

Bütün qəribəliklərə və çətinliklərə baxmayaraq, filosoflarımızın başlıca məqsədi Azərbaycan xalqının mənəvi mədəniyyətinin, ictimai-fəlsəfi fikrinin tarixinə, fəlsəfə, politologiya, sosiologiya və sosial psixologiya elmlərinin aktual problemlərinə dair geniş araşdırmalar aparmaq, yeni tələblərə cavab verən qnoseoloji zəminlərin, metodoloji yanaşmaların, epistemoloji paradiqmlərin işlənib hazırlanması olmalıdır. Xüsusi diqqət Azərbaycanın yeniləşən dünyada bir müstəqil ölkə kimi milli maraq və prioritetlərinin gözlənilməsi, cəmiyyətimizin demokratik prinsip və normalar əsasında təşkilatlanması və idarə olunması, insan hüquq və azadlıqlarının təmin edilməsi, şəxsiyyətin sosiallaşması,innovasion ikişaf və intellektual resurslardan səmərəli istifadə məsələlərinə, hüquqi dövlətin əsas əlamətlərini özündə uzlaşdıran milli dövlət və dövlətçilik problemlərinə yetirilməlidir. Bu diqqətin təzahürü olaraq, milli ideya və milli ideologiya, azərbaycançılıq, ideya-siyasi və sosial fəlsəfi cərəyanların cəmiyyətimizin inkişafında rolu, siyasi institutların demokratikləşməsi və effektivliyi, sosial institutların funksional kamilliyi, vətəndaş cəmiyyətinin formalaşması və sosial idarəetmənin optimallaşdırılması, gender münasibətlərinin tənzimlənməsi kimi problemlərin öyrənilməsinə önəm verilməli, zəruri hallarda yeni, qeyri-ənənəvi metodologiyalardan, təsəvvürlər sistemindən istifadə olunmalıdır. Bir sözlə,"**XXI əsr – kreativ Azərbaycan**" konsept-təşəbbüsünə əməl olunmalıdır.

Bəsit şərhçilik, sitatçılıq, subyektiv tərəflilik, zamanın sınağından çıxmayan konsept və yanaşmalara meyllilik aradan götürülməlidir. Ən başlıcası odur ki, fəlsəfi təfəkkür tərzində və üslubunda yeniləşmə, mülahizələrdə obyektivlik, etibarlı əsaslandırma və elmi plüralizm prinsipləri rəhbər tutulsun. Belə olarsa, nəticədə fəlsəfi fikrin dinamikası həyatın ümumi inkişaf sürəti ilə ayaqlaşar, mühüm əhəmiyyətli sosial-siyasi, iqtisadi, geosiyasi və mənəvi hadisələr, proses və faktlar lazımınca qiymətləndirilər və dəyərləndirilər, vacib ümumiləşdirmələr aparılar. Beləliklə, həm fəlsəfə elminin cəmiyyətdə rolu güclənər, onun idraki, proqnostik, aksioloji, metodoloji funksiyaları həyata keçirilər, həm də cəmiyyətimizə lazımi töhfə verilər, dövrün tələblərindən doğan sifarişlər ödənilər. Yekunda isə xoşagəlməz, təhlükəli hal – həyat və fəlsəfə, gerçəklik və təfəkkür arasında uçurum aradan götürülər. Danılmaz həqiqətdir ki, gerçəkliyin kəsərli idraki silahı rolunu daşımayan, uydurma, sxolastik mülahizələrin, yersiz stereotiplərin şərhi ilə əlləşən "fəlsəfə" yeniləşən cəmiyyətimizin həyat fəlsəfəsi ola bilməz.

Ədəbiyyat

1. Хаггер Н. Синдикат. История грядущего мирового правительства. М., 2008, с. 526.

Əbülhəsən ABBASOV

FƏLSƏFƏ, ELM, GERÇƏKLİK: POSTNEOKLASSİK EPİSTEMOLOGİYAYA DOĞRU

Fəlsəfə və sosiohumanitar elmlər kompleksi üçün **qnoseologiya** və **metodologiya** məsələləri həmişə xüsusi yer tutub, diqqət mərkəzində olub. Cəmiyyətlərin köklü transformasiyası şəraitində isə adekvat idraki arsenala tələbat daha da artır, ictimai inkişafın müxtəlif sahələrilə bağlı ciddi problemlərin həlli zərurətindən doğan yeni idraki "alət"lərin, üsul və yanaşmaların axtarışı,

koqnitiv müstəvinin qurulması, məhsuldar metodoloji-qnoseoloji zəminlərin işlənib hazırlanması, müvafiq təsəvvürlər sisteminin, leksika və prosedurların təklif edilməsi, yəni, **optimal epistemoloji sistemin** formalaşdırılması mühüm və təxirəsalınmaz bir vəzifəyə çevrilir. Belə ki, epistemoloji qeyri-müəyənlik və yaxud dövrünü yaşamış, artıq səmərəsizliyi və hətta yanlışlığı bəlli olan metodologiyalara müraciət, həmçinin, qnoseoloji qərarsızlıq, innovasion tələblərə cavab verən elmi ideya və prinsiplərin yoxluğu nəinki konkret ictimai problemlərin həllini çətinləşdirir, eyni zamanda, fəlsəfə, sosiologiya, politologiya və s. sosiohumanitar elmlərin öz daxilində böhranı dərinləşdirir. Nəticədə həm elmlərin öz inkişafında tənəzzül baş verir, həm də onların qarşısında qoyulan sosial sifarişlər ödənilmir.

Əslində, mahiyyəti üzrə desək, bu gün söhbət yalnız hansısa metodoloji yanaşmadan və yaxud prinsiplərdən getmir. Gündəlikdə, ümumiyyətlə, yeni elmi paradiqma, yararlı epistemologiya problemi dayanır. Məsələnin məğzi indiyə qədər mövcud olan idraki kontekstə, təhlil arsenalına nəyisə əlavə etməkdə, yaxud dəyişdirməkdə deyil. Məqsəd daha dərin və genişdir. Söhbət, bütövlükdə, elmdə paradiqmal dəyişikliklərdən, əqli-ruhi və əxlaqi-mənəvi çevrilişdən gedir. Vacibdir ki, idraki konsept özü köklü surətdə yeniləşsin, həqiqi mənada zamanın tələblərinə cavab verən məzmun-mahiyyət əldə etsin. Və yalnız belə əsaslı yeniləşmə daxilində, necə deyərlər, konsept əvəzlənməsi, epistemoloji yeniləşmə çərçivəsində yeni idraki «alət»lərin axtarışı, işlənib hazırlanması, tətbiqi və bu zəmində ictimai həyatın aktual problemlərinin səmərəli həlli mümkündür. Nə qədər ki, bu istiqamətdə, yəni müvafiq epistomoloji silaha yiyələnməkdə ləngliyə, səhlənkarlığa yol verib vaxt itirəcəyiksə, bir o qədər də Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" adlı məqaləsində göstərdiyi iradlardan, o cümlədən fəlsəfə ilə həyat, sosiohumanitar elmlərlə ictimai praktika arasında yaranmış uçurumdan xilas ola bilməyəcəyik,

sərfəli idraki müddəaların dəyərləndirilməsi isə aşağı səviyyədə qalacaq.

Həmin məqalədə akadmik Ramiz Mehdiyev vurğulayır ki, fəlsəfi tədqiqatların aparılması sahəsində prioritet istiqamətlər müəyyənləşdirilməli, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu Azərbaycanda ictimai və humanitar elmlərin yeni konsepsiyasının formalaşdırılmasına başçılıq etməli və yeni ideyaların, bir növ, bayraqdarı olmalıdır. Bu, ilk növbədə o deməkdir ki, institut öz başlıca prioritetlərini dəqiq bilməli və rəhbər tutmalıdır. Bəs başlıca prioritetlər hansılardır və onların reallaşması nəyi tələb edir? Tam əsasla deyə bilərik ki, başlıca prioritetlər Azərbaycan fəlsəfə elminin müasir dünyanın və ictimai həyatın tələblərinə, qabaqcıl ölkələrin fəlsəfi və elmi epistemologiya sahəsində əldə etdikləri səviyyəyə müvafiqliyi kontekstində qavranılmalı və reallaşdırılmalıdır. Ən əvvəl, söhbət müasir dünyada qərarlaşan **postneoklassik elmi paradiqmanın** mahiyyətinə varmaqdan, onu mənimsəyərək milli zəmində inkişaf etdirməkdən gedir. Sanballı söz, fikir-əməl sahibi kimi dünyanın elmi şəbəkəsinə qoşulmaq, elmi əməkdaşlığı inkişaf etdirmək və beynəlxalq elmi əlaqələr sisteminin fəal aktoru olmaq arzusu da məhz buradan keçir. Qarşılıqlı fayda verən beynəlxalq münasibətlər sisteminin nüfuzlu və layiqli üzvü olmaq istəyiriksə, durmadan bu yöndə çalışmalı, müasir dünya elminin ab-havasına, ideya və prinsiplərinə həssas olmalı, bəşəriyyəti qayğılandıran aktual problemlərin həllində öz töhfəmizi verməliyik. Öz zəkası və zəhməti hesabına ortaya yararlı məhsul qoymayanları, yalnız birtərəfli qaydada bəhrələnməyi hədəf götürənləri tarix və zaman bağışlamır, mütləq cəzalandırır. Eynilə, elmi fəaliyyəti dar məkan-zaman çərçivəsində, qapalı şəbəkədə, "bizim özümüzünkü" anlamında qurmaq son nəticədə maddi və mənəvi ehtiyatları tükəndirir, iflasa aparır. Keçmiş SSRİ-nin aqibəti bunun əyani sübutudur.

İnteqrativ missiya, təfəkkür və əməldə nizamyaradıcı funksiya daşıyan fəlsəfə elminin ümdə vəzifəsi yaşadığımız dövrün təkcə, xüsusi, ümumi (lokal, regional, qlobal) təqdimatda mahiyyətinə

varmaqdan və səciyyəvi xüsusiyyətlərini işıqlandırmaqdan ibarətdi ki, bununla da zəmanəmizin zəruri olan özünüdərki həyata keçirilir. Məhz belə özünüdərki reallaşdırmaqla fəlsəfə digər mühüm funksiyanı da ödəmək üçün imkan və güc əldə edir. Söhbət kokret ictimai mühitin, bəşəri və sosial gedişatın, insan həyatının, iqtisadi, siyasi və mədəni-mənəvi proseslərin elmi meyarlar, tarixi ənənə və perspektivlər, sosio-mədəni dəyərlər səviyyəsindən rasionallığının açılmasından, bütövlükdə isə idraki və əməli-praktiki fəaliyyətin rasionallıq zəminlərinin yaradılmasından, düşüncə və hərəkət konstruktivliyinin etibarlı şəbəkəsinin qurulmasından gedir. Bu, şübhəsiz ki, olduqca çətin, mürəkkəb, böyük zəhmət və istedad tələb edən missiyadır. Eyni zamanda, fəlsəfə və filosoflar üçün ən şərəfli, ən dəyərli bir işdir. Ümumdünya tarixində bütün görkəmli filosofların, möhtəşəm zəka sahiblərinin yaradıcılıq fəaliyyətini saf-çürük etsək, görərik ki, onların ən əhəmiyyətli xidməti, bəlkə də, məhz bu missiyanı həyata keçirməkdən ibarət olub. Əsrlər keçsə də Konfutsi, Sokrat, Platon, Aristotel, Fərabi, İbn Sina, Bəhmənyar, İbn Rüşd, Tusi, Rumi, İbn Xaldun, Dekart, Kant, Hegel, Lokk,..., Veber, Sibusava Eydzi, Parsons kimi mütəfəkkirlərin misilsiz xidmətləri unudulmayacaq – nə öz xalqları, nə də başqaları tərəfindən. Onların ortaya qoyduqları "fəlsəfi sistem"lər elə, bir növ, öz zəmanələrində mövcud dövr və gələcək üçün rasionallıq (konstruktivlik) şəbəkəsini işləyib hazırlamağın, qurmağın nəticəsi idi.

Diqqət mərkəzinə çəkməyə çalışdığım bu missiya əbədidir. O, heç vaxt fəlsəfənin üzərindən götürülmür, əksinə, dünya yaşadıqca daha da çox öz reallaşmasını tələb edir. Aydındır ki, get-gedə artan surətlə mürəkkəbləşən, qloballaşan müasir dünyada fəlsəfənin, o cümlədən Azərbaycan fəlsəfəsinin qarşısında duran həmin missiya xüsusi diqqət, böyük zəhmət və məsuliyyət, əhəmiyyətli səylər birliyi tələb edir. Bəlkə də, ola bilsin, elə bir tarixi inkişaf mərhələsinə qədəm qoymuşuq ki, artıq bu möhtəşəm vəzifəni həyata keçirmək ayrı-ayrı təşəbbüslər, fərdi yaradıcılıq səviyyəsində mümkün deyil, mütəşəkkil ümumi

səylər birliyi, insani-intellektual resursların hansısa yeni struktur-funksional səviyyədə təşkili, koordinasiyası, idarə olunması lazımdır.

Bütün hallarda, bir həqiqət danılmazdır: bu müstəsna əhəmiyyətli vəzifənin həllində Azərbaycan fəlsəfəsinin üzərinə düşən "əmək bölgüsü"nü, idraki fədarkarlığı o vaxt uğurla ödəyə bilərik ki, müasir dünya elminin əldə etdiyi epistemoloji zirvəyə yüksələk. Bir sözlə, fəlsəfəmiz istər ümumən dünya elminin məzmun-mahiyyətində, istərsə də müasir iqtisadiyyatın, təsərrüfat mədəniyyətinin və yaxud da müasir siyasi proseslərin, mədəni əlaqələrin təşkilində, təkamülündə və idarə olunmasında mühüm rol oynayan postneoklassik ideya və prinsipləri, təfəkkür tərzini, idraki yanaşmaları lazımınca və intensiv əxz etməli, yeni koqnitiv fəzanın yaranmasında öz töhfəsini verməlidir. Fəlsəfəmizin milliliyini biz yalnız bu yolla, yəni dünyaya yeni bəşəri sərvət təqdim etməklə, ağıllı nümunə ortaya qoymaqla təminatlandıra və şöhrətləndirə bilərik. Milliliyə hörmət və xidmət boşboğazlıqla, lovğalıqla, qürrələnməklə, təkəbbürlə, asan yolla nəyəsə sahibliklə alınmır, durmadan və ardıcıl surətdə zəhmət, məqsədli fədakarlıq, comərdlik, məsuliyyətli-nizamlı iş, tarixi-irsi potensiala məxsus olan fəzilətli keyfiyyətlərin, dəyərlərin möhkəmlənməsini və inkişafını tələb edir.

Başlıca hədəf heç də elmin elm naminə, fəlsəfənin və başqa sosiohumanitar elmlərin, necə deyərlər, "özləri üçün inkişaf"ına nail olmaqdan ibarət deyil. Məqsəd çox-çox dərin, əhatəli və möhtəşəmdir: surətlə mürəkkəbləşən və yeniləşən dünyada Azərbaycan öz nüfuzlu, layiqli yerini tutsun, milli maraq və prioritetlərini uğurla həyata keçirməklə bugününü və gələcəyini təmin etsin, "**XXI əsr – kreativ**, **zəngin və qüdrətli Azərbaycan**" proyekti, tərəqqi konsepti reallaşsın.

Əslində, bütün elmlər, hər biri öz sahəsində və fəaliyyəti çərçivəsində, mövcudolma, hərəkət və həyat ölçülərini, qanunauyğunluqlarını axtarmaqla, kəşf etməklə, formalaşdırmaqla, yəni ayrı-ayrı idrak sahələri üzrə rasionallıq şəbəkəsini qurmaqla məşğuldur. Və hər biri bu funksiyanı həyata

keçirmək üçün müvafiq epistemoloji bazaya malik olmalıdır. Bu səbəbdən də hər bir elm sahəsi üçün adekvat qnoseoloji-metodoloji zəminlərin, idraki üsul və formaların, kateqorial aparatın və prosedurların axtarışı, qurulması onun inkişaf tarixinin ayrılmaz xüsusiyyəti, atributu olub. Fəlsəfə isə yeganə elm sahəsidir ki, onun vasitəsilə ayrı-ayrı "dar" məzmun-mahiyyətdə formalaşıb fəaliyyət göstərən rasionallıq konsept-şəbəkələri və epistemologiyaları vahid əsasda və yüksək bir səviyyədə ümumiləşmə, üzvi sintezləşmə əldə edirlər və geniş mənada varlığın, universiumun dərki və özünüdərki prosesinin alətinə çevrilirlər; bununla da kerçəkliyin, bəşəriyyətin, insan həyatının, ictimai praktikanın müəyyənləşməsində və gedişatında öz töhfələrini vermiş, xidmətlərini göstərmiş olurlar. Ona görə də, fəlsəfədə epistemologiya və yaxud fəlsəfi epistemoloğiya problemi dedikdə, başqa elmlərdən təcrid olunmuş, ayrı düşmüş, hansısa əlahiddə vəziyyətdə və mücərrəd bir fəzada əlləşmə, sxolastik mülahizələr yığınından ibarət "idraki nəticə"lər ortaya qoymaq nəzərdə tutulmur. Əksinə, daha çox və intensiv surətdə digər elmlərə yaxınlaşmaq, onlarla qarşılıqlı fayda verən əlbirliyində, sinergizmdə olmaq təqdir edilir. İstər riyaziyyat, fizika, kimya və biologiya olsun, istərsə də iqtisadiyyat, tarix, sosiologiya və psixologiya – hər birinin taleyi, mövcud vəziyyəti və inkişaf səviyyəsi həmişə fəlsəfə ilə qarşılıqlı surətdə bağlı olub. Məntiqi olaraq bu, həm də o deməkdir ki, fəlsəfə, özünün inkişafı ilə yanaşı, başqa elmlərin də durumuna və inkişafına məsuldur. Məhz bu səbəbdən də Azərbaycanda sosiohumanitar elmlər sahəsində yaranmış vəziyyətin təhlilini verərkən və çıxış yollarını göstərərkən, fəlsəfənin üzərinə düşən məsuliyyəti, təxirəsalınmaz vəzifələri xüsusi olaraq vurğulayır və önə çəkirik.

Fəsəfə, sözün birbaşa mənasında, humanitar və ictimai elmlərin gücünü və qüdrətini, sosial sifarişlərə çevik və işgüzar reaksiya vermək qabiliyyətini göstərən effektli epistemoloji arsenala onlarla bir yerdə cavabdehdir. Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin öz məqaləsində səsləndirdiyi "Biz ümumən Azərbaycan elmini əyalət ab-

havasından xilas edərək, onun dünya elm məkanına inteqrasiyasina can atmalıyıq" cağırışı, şübhəsiz ki, fəlsəfənin yaxından və təsirli yardımı ilə baş verə biləcək epistemoloji yeniləşmə əsasında öz müsbət cavabını (həllini) tapa bilər. Bu yeniləşmənin aparıcı istiqaməti isə postneoklassik nəzəriyyələrə, konseptlərə, ideya və təsəvvürlər sisteminə doğrudur. Əlbəttə ki, bu istiqamətə yönümlənmə tamamilə klassik və neoklassik arsenaldan imtina etməyi nəzərdə tutmur. Yeri gəlmiş, xarici informasiya bazalarının məlumatı əsasında aparılan təhlillər göstərir ki, Azərbaycan elminin ictimai və humanitar sahələri beynəlxalq səviyyədə çox zəif, bəzi istiqamətlərdə isə ümumiyyətlə təmsil olunmayıb.

Beləliklə, sual olunur: yaxşı, biz bu postneoklassik paradiqmanı necə görürük, onun tipik xüsusiyyətləri, dominant elementləri nədir, təfəkküri əsaslarını nə təşkil edir, başlıca ideya və prinsipləri hansılardır? Bu sualları cavablandırmaq məqsədilə aşağıda bir sıra məqamlara aydınlıq gətirək.

I.İmkanları və gücü şübhə doğurmayan elmi paradiqma, ən əvvəl, adekvatlıq tələblərini ödəməlidir. Bu -- ontoloji, qnoseoloji və məntiqi adekvatlıqdır ki, bir-birilə qarşılıqlı əlaqədə və təsiretmədə götürülür. Yəni, Hegeldə olduğu kimi, ontologiya (dialektika), qnoseologiya (idrak nəzəriyyəsi) və məntiqin vahidliyi ideyası rəhbər tutulur.

Bildiyimiz kimi, fəlsəfə tarixində "ontologiya" anlayışının ən müxtəlif şərhləri olub. Bəziləri ontologiyanı «ilkin fəlsəfə», metafizikaya bərabər bir fenomen kimi anlayıb, digərləri (neokantçılar, pozitivistlər) «yeni ontologiya» yaratmağa cəhd ediblər. Qusserlin «transsendental ontologiya»sı, N. Hartmanın «kritik ontologiya»sı, Haydeggerin «fundamental ontologiya»sı bu qəbildəndir. Burada isə ontoloji proses dedikdə, dialektik mövcudolma nəzərdə tutulur. Epistemoloji təsnifatda bu dialektik mövcudolma həm obyektiv dialektika (ontologiya), həm də subyektiv dialektika (qnoseologiya və məntiq) qismində çıxış edə bilər.

Göründüyü kimi, adekvatlıq prinsipinin ödənilməsi belə, müəyyənləşmədə seçimin mütləqliyi üzündən, epistomoloji müxtəliflikdən azad deyil (Feyerabendin «epistomoloji anarxizmin labüdlüyü» fikrini xatırlatmaq istərdim). Bu, ona dəlalət edir ki, adekvatlıq tələbləri fərqli müstəvilərdə həyata keçirilə və nəticə etibarilə söhbət bir yox, müxtəlif qeyri-ənənəvi metodologiyaların yaranmasından gedə bilər. Bütün hallarda, adekvatlıq (məntiqi olaraq, həm də obyektivlik!) tələblərinin yeni epistemoloji sistemlər çərçivəsində ödənilməsi təfəkkür və gerçəklik, subyekt və obyekt münasibətlərində daha çox həssaslığa, qayğıkeşliyə, tolerantlığa və anlaşmaya doğru transformasiyanı nəzərdə tutur. Zərüri olarsa, gerçəkliyin qeyri-səlis (dəqiq) liyi, qeyri-müəyyənliyi ilə nəinki hesablaşmaq, həm də razılaşmaq. Obyekt haqqında danışarkən, onun özünün "söz payı"nı əlindən almamaq;sərt yox, yumşaq hesablamalara üstünlük vermək. Əksliklər-alternativlər nisbətində "həqiqət ortadadır" kimi cəbri yanaşmadan deyil "ortada problemdir" prinsipindən çıxış etmək və problem situasiyanın həllində (müəyyənləşməsində) hansısa tərəfin, "hissə"nin iddiasını ödəyən mütləq təkzibetmə-məhfetmə üsulunu yox, bütövlükdə "tam"ın və hər bir tərəfin əhəmiyyətli maraqlarının gözlənilməsini vacib bilən mütərəqqi sinergizm prinsipini rəhbər tutmaq. Yəni, o həll yolu, üsul və metodologiya doğru və ədalətli sayılır ki, problem situasiyanı müəyyənləşdirməklə yanaşı, qarşılıqlı anlaşma və faydalanma əsasında daha çox aktorlara ümumi quruculuqda iştrak və yaradıcılıq imkanı verir, tamın daxili konsolidasiyasını, kamilliyini və gücünü artırır.

II.Yeni metodologiya müasir elmdə və elmi tədqiqatlar sistemində aparıcı tendensiyaları, xarakterik xüsusiyyətləri nəzərə almaqla yaradıla bilər. Bu tendensiya və xarakterik xüsusiyyətlər nədən ibarətdir?

1. İdrak obyekti və yeni fənnlər arasında artıq uzun müddətdir ki, çoxnisbili münasibət mövcuddur. Müasır dövrdə elə bir ciddi tədqiqat predmeti, idrak obyekti yoxdur ki, yalnız ayrıca bir fənn tərəfindən öyrənilsin. Cüzi istisnanı nəzərə almasaq, bütün müasir

idrak obyektləri eyni zamanda bir çox elmi fənnlərin tədqiqat predmetinə çevrilmişlər. Hər bir tədqiqat obyekti elmlər kompleksinin ümumi diqqət mərkəzində dayanır. Şübhəsiz, hər bir fənn bu obyekti öz kontekstindən öyrənir. Belə olduqda, ayrı-ayrı fənnlərin eyni obyekt barədə əldə etdikləri biliklərin «ümumi məxrəc»ə gətirilməsi və bu biliklər arasında mübadilənin reallaşması məsələsi qarşıya çıxır. Məhz buradan da biliklərarası sistemliliyin və sinergizmin təmin olunması zərurəti meydana gəlir ki, bu da, ümumən, elmlərin vahidliyi problemi ilə bağlıdır. Açıqlanan bu dəlillərdən çıxış etsək aydinlaşar ki, yeni qeyri-ənənəvi metodologiya məhz yalnız **elmlərin vahidliyi problemi** zəminində qurularsa, məhsuldar və evristik ola bilər.

2. Bu gün hadisə və proseslər bir idrak obyekti kimi, sadəcə olaraq, müxtəlif varlıqların zaman-məkan çərçivəsində yerdəyişməsi baxımından öyrənilmir. Əsas məsələ idrak obyektlərinə məxsus ziddiyyətləri, xüsusi «nöqtələr»i və anları aşkarlamaqdan, təkamül istiqamətlərini və mərhələlərini aydınlaşdırmaqdan, optimal mövcudolma, fəaliyyət və inkişaf şərtlərini, imkanlarını müəyyənləş-dirməkdən, obyektdaxili və xarici mühitlə əlaqələrdə meydana çıxan problemləri çözməkdən ibarətdir. Bu istiqamətdə son onilliklərdə elmi dünyagörüşün ciddi surətdə yeniləşməsinə kömək edən bir sıra elmlərin rolu böyük olub. Xüsusiyyətlər nəzəriyyəsi, fəlakətlər nəzəriyyəsi (yeni mərhələsi), xaos nəzəriyyəsi (yeni baxışda), yenidənqurmalar nəzəriyyəsi, kritik hallar nəzəriyyəsi, qeyri-ənənəvi çoxluqlar nəzəriyyəsinin davamı və inkişafı olan kateqoriyalar və funktorlar nəzəriyyəsi, Lütfi Ə. Zadənin yaratdığı qeyri-səlis çoxluqlar nəzəriyyəsi, qeyri-səlis məntiq, yumşaq hesablamalar nəzəriyyəsi, neyrokompütinq, xaotik kompütinq, təkamül hesablamaları, ehtimal hesablamaları, Soft Kompütinq, qeyri-ənənəvi məntiqin müxtəlif digər sahələri, iqtisadiyyat elmində Corc Soros tərəfindən təməli qoyulmuş refleksivlik nəzəriyyəsi bu qəbildəndir.

3. Bütün bu göstərilən fənlərin vahid bir elm sahəsi əhatəsində epistemoloji sintezləşməsi baş verib ki, bu da **mürəkkəb sistemlər nəzəriyyəsidir**. Bəzən bu nəzəriyyəni, mahiyyət yaxınlığın-

dan çıxış edərək, **xaoslar nəzəriyyəsi** və ya da **sinergetika** adlandırırlar. Ancaq belə eyniləşdirmə düzgün deyil, ən azı qeyri-korrektdir.

Elmlərin tarixi inkişafının təbii nəticəsi olan mürəkkəb sistemlər nəzəriyyəsi öz intişarı və təşəkkülü baxımından, hər şeydən əlavə olaraq, bir neçə idraki «qola» borcludur. Bunlar aşağıdakılardır:

a.Mürəkkəblik fenomeninin bilavasitə və xüsusi olaraq diqqət mərkəzinə götürülməsi və öyrənilməsi. Bu istiqamətlərdə ilk təqdirəlayiq addımlar Amerika riyaziyyatçısı Q. Çeytin və görkəmli riyaziyyatçı, akademik A. Kolmoqorov tərəfindən atılmışdır. 1965-ci ildə A. Kolmoqorov alqoritmik mürəkkəblik anlayışını elmə daxil etmiş, **alqoritmik mürəkkəblik** nəzəriyyəsinin mühüm nəticələrini almışdır. Artıq qısa bir müddətdən sonra onun konsepsiyasının perspektivliyi mütəxəssislər tərəfindən etiraf olunmuş, yalnız nəzəri fizika və riyaziyyat üçün deyil, hətta genetika, sosiologiya, siyasətşünaslıq və iqtisadiyyat üçün də əhəmiyyətliliyi qeyd edilmişdir. (Maraqlıdır ki, böyük alim, "müasir riyaziyyatın kralı" L.Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsinin ilkin rəsmi yaranma tarixi həmin 1965-ci ilə təsadüf edir. Görünür, burada bir qanunauyğunluq var). Sonralar, artıq başqa alimlər tərəfindən, mürəkkəblik kateqoriyasının alqoritmik xarakteristikasından əlavə, digər səciyyələri də aşkarlanmış və tədqiqat predmetinə çevrilmişlər: fiziki-kimyəvi mürəkkəblik, informasion mürəkkəblik, struktur-funksional mürəkkəblik, energetik mürəkkəblik, hesablama mürəkkəbliyi və s. Eyni zamanda bu səciyyəvi xarakteristikaların qarşılıqlı əlaqəsi aşkarlanmış və öyrənilmişdir. Həmçinin, "kəmiyyət ölçüləri"lə yanaşı, "keyfiyyət ölçüləri"nin mənimsənilməsində olduqca maraqlı və ciddi nailiyyətlər əldə olunmuşdur. Bu mənada, Q. Nikolis, İ. Priqojin, İ. Stengers, Q. Kastler, G. Haken, K. Mayntser kimi görkəmli alimlərin xidmətləri danılmazdır. Bilavasitə bioloji və psixoloji mürəkkəb hadisə və proseslərin dərindən tədqiqi baxımından isə "keyfiyyət ölçüləri"nin aşkarlanıb öyrənilməsində K. Yunq, L. Vıqotski, D. Uznadze, P. Anoxin, İ. Şmalqauzen, V. Frankl, A. Şeroziya kimi

böyük istedad sahiblərinin yaradıcılığı, xüsusi olaraq vurğulanmalıdır. Onların metodologiya və konkret-elmi sahələrdə etdikləri nailiyyətlər bu gün də öz əhəmiyyətini itirməyib, çox faydalı və aktualdırlar.

Hesab edirəm ki, qeyd olunan kontekstdə öz metodoloji və qnoseoloji yükünə-potensialına görə, C.Sorosun yaradıcılığı müstəsna yer tutur. Mən deyərdim ki, onun orijinal fikirlərlə zəngin yaradıcılığı mürəkkəblik fenomeninin əsaslı mənimsənilməsində böyük evristik qüdrətə malik mənbədir, tükənməz intellektual sərvətdir. Yalnız dünya maliyyə bazarlarının və iqtisadi proseslərin mövcud vəziyyətinin və perspektiv inkişafının adekvat dərk olunmasında deyil, hətta sosial qurumların, siyasi institut və hadisələrin, mürəkkəb antropoloji proseslərin, geosiyasi münasibətlərin və s. reallıqların mövcudolma və inkişaf dialektikasını dərindən anlayıb müvafiq proqnozlar, ehtimallar irəli sürmək üçün C. Sorosun konsepsiyaları olduqca məhsuldardır.

b. Özünütəşkil və sinergetik effektlərin, fluktuasion və bifurkasion vəziyyətlərin öyrənilməsi. Burada üç elmi fənnin - fızika, riyaziyyat və kimyanın XX əsrin 60-cı illərinin sonundan üzü bəri əldə etdikləri nailiyyətləri öncə qeyd etməliyik. Əslində, bu tarixi andan başlayaraq, yeni elmi paradiqmanın əsas konturları, aparıcı ideya və prinsipləri formalaşır. İnqilabi mahiyyətli və böyük sürətli inkişaf nəticəsində hətta nisbilik nəzəriyyəsi və kvant mexanikası kimi qeyri-klassik sahələrin fundamental prinsipləri, bir növ, artıq «köhnəlmiş bilgilər» səviyyəsində anlaşılır, bu prinsiplərin özünün tam yeni bir idraki mühitdə həqiqi yararlığından söhbət gedir.

Tədricən möhtəşəm, geniş əhatəli elə bir evristik elmi ideya və prinsiplər, leksika və təsəvvürlər, üsul və prosedurlar sistemi formalaşır ki, fəlsəfi və konkret-elmi tədqiqatlarda yaxşı mənada hökmranlığı ələ keçirir. Eyni zamanda, bu zəmində elmlərarası ünsiyyət, qarşılıqlı təsiretmə və bəhrələnmə, bilgilər diffuziyası və absorbsiyası güclənir. O dərəcədə ki, bir tərəfdən, fənlərarası qarşılıqlı faydalanma və analogiyalar səviyyəsində mübadilə in-

tensivləşir, digər tərəfdən, indiyə qədər kəmiyyət parametrlərinin (göstəricilərinin) aşkarlanıb öyrənilməsi mümkünsüz görünən mahiyyətlərin riyazi formalizasiyaya müəssərliyi əldə edilir. Nəzərə alaq ki, riyaziyyatın gücü də artıq hələ də «yeni alət» sayılan variasion hesablamalarla, qruplar və qraflar nəzəriyyəsilə, vektorlar və tenzorlar hesabı ilə məhdudlaşmırdı.

v. Elmdə qlobal riyaziləşmə, abstraksiya və formalizasiya gücünün artması. Qruplar nəzəriyyəsi, riyazi fizika tənlikləri, kompleks dəyişənlər nəzəriyyəsi, funksional təhlil, bifurkasiyaların riyazi nəzəriyyəsi, qeyri-xətti tənliklər nəzəriyyəsi, adi və differensial tənliklər nəzəriyyəsi, variasion hesablama kimi sahələrin sıçrayışlı inkişafı, həmçinin riyazi məntiqin özündə baş vermiş önəmli tərəqqi riyaziyyatın ümumi imkanlarını hədsiz dərəcədə genişləndirmiş, onun qarşısında, necə deyərlər, dəf olunmayan hədlər qoymamışdı. Üstəlik, nəzəri və praktiki (tətbiqi) kibernetikanın, rəqəmli avtomatlar nəzəriyyəsinin, EHM-nin proyektləşməsinin, avtomatlaş-dırmanın, ehtimal nəzəriyyəsinin əldə etdiyi nailiyyətlər, bir tərəfdən, riyaziyyatı keyfiyyəti abstraksiyalaşdırmanın yeni pillələrinə yüksəltmiş, digər tərəfdən, onu real həyati hadisələrin, canlı proseslərin, müxtəlif növ varlıqların öyrənilməsi üçün daha həssas və yararlı etmişdir. Müxtəlif elm sahələrinin yeni səviyyədə «riyaziyyatlaşması», riyazi metodların praktikanın bir çox sahələrinə nüfuz etməsi vüsət almışdır. İndiyə qədər «inteqrallaşma»dan yayına bilən obyektlər artıq yeni riyazi arsenal qarşısında təslim olurdular. Ən çətin halda onların «tərsliyinin» öhdəsindən yeni elmi istiqamət sayılan və sürətlə inkişaf edən hesablama riyaziyyatının vasitəsilə gəlmək mümkün idi (müəyyən keyfiyyət itkilərini nəzərə almasaq!). Onu da qeyd edək ki, praktiki fəaliyyət sahələrinə riyazi üsulların daxil olması, elmlərin riyaziləşməsi, hesablama nəzəriyyə və texnikasının sürətli tərəqqisi bütöv bir silsilə yeni riyazi fənlərin yaranmasına səbəb olmuşdur. Məsələn, oyunlar nəzəriyyəsi, qərar qəbuletmənin riyazi nəzəriyyəsi, informasiya nəzəriyyəsi, qraflar nəzəriyyəsi, diskret riyaziyyat, optimal idarəetmə nəzəriyyəsi bu qəbildəndir.

Bir sözlə, aləmin, müxtəlif növ və təbiətli varlıqların riyazi arsenal tərəfindən hədəfə götürülməsi və bu əsasda görünməmiş uğurların qazanılması real hadisə və proseslərin formal obyekt və nisbətlər səviyyəsində öyrənilməsinə bəslənən ümidləri olduqca gücləndirmişdir. Təsadüfi deyildir ki, formal sistemlərə, abstrakt-simvolik ifadələrə artan inam bir çox görkəmli alimləri mahiyyəti etibarilə oxşar ehtimallar, proqnozlar irəli sürməyə sövq etmişdir. Məsələn, məşhur riyaziyyatçı, kibernetik, akademik Viktor Qluşkov hələ keçən əsrin 70-ci illərinin sonunda təkidlə söyləyirdi: XXI əsrin birinci rübündə robotlaşma və kibernetizasiya qarşısında heç bir mürəkkəb sistem öz sirlərini gizlədə bilməyəcəkdir, ən çətin «hesablanan» prosesi belə, formalizasiya vasitəsilə ifadə etmək mümkün olacaqdır. Hətta süni intellektin tam mənada yaradılmasını o, 2022 - 2024-cü illər üçün artıq real hadisə hesab edirdi.

Düzdür, bu perspektivi şübhə altına alanlar da vardı və onların mülahizələri o vaxt heç də əsassız görünmürdü. Bunlardan biri tanınmış psixoloq, təfəkkür nəzəriyyəsi üzrə orijinal fikir sahibi Andrey Bruşlinski idi. O, öz əsərlərində bir çox proseslərə xas olan qeyri-dizyunktiv əlaqə və nisbətlərin, ayrı-ayrı mahiyyətlərin prinsipcə formalizasiya çərçivəsinə sığışmadığını əsas götürərək süni intellektin yaradılmasına, ümumiyyətlə, kibernetizasiyanın total qüdrətinə bəslənən nikbinliyə tənqidi yanaşırdı.

Beləliklə, ciddi praqmatikliyi ilə fərqlənən məsələyə münasibətdə iki mövqe, iki əks tərəf yaranmışdır. Məğzindən çıxış edərək, bunları, şərti qaydada, pozitivist və metafizik mövqelər də adlandırmaq olar. Pozitivistlərin ümumi fikri bundan ibarət idi: hər şeyi formalizasiya vasitəsilə ifadə etmək və öyrənmək mümkündür, əgər nəsə rasional bilik vasitəsilə formalizasiyaya varmırsa, deməli, ona heç ehtiyac da yoxdur; bütün həqiqi (pozitiv) bilik - spesifik konkret elmlərin birgə nəticəsidir, elm isə ondan yüksəkdə durmağa cəhd edən hansısa metafizik cəfəngiyata ehtiyaclı deyil. Metafizik mövqe tərəfdarları isə, əksinə, belə hesab edirdilər: həqiqi elm heç də yalnız formal sistemlər vasitəsilə abstraksiya səviyyəsinə gətirilmiş obyektlərlə

məhdudlaşmamalıdır, elmin borcu dərin qatlara varmaq, daxilətə nüfuz etmək, necə deyərlər, vergüldən sonra gələn ədədləri də nəzərə almaqdır; bu «ədəd»lərsə heç də həmişə riyazi-kibernetik dilə uyuşmur, onların məna-mahiyyətini formal sistemlər qurmaqla öyrənmək mümkün deyil; formalizasiyaya yatmayan nə varsa kənara atılarsa, dünya və bəşəriyyət bəlalara düçar olar. Görünür, bu mövqe müəllifləri, hər şeydən əlavə, burada mənəvi-əxlaqi, ruhi- psixoloji fenomenləri nəzərdə tuturdular.

Etiraf edək ki, hər iki mövqe kifayət qədər məntiqli səslənirdi. Əslində isə bu mübahisə heç də sırf məntiq məsələsi deyildi -- bəşəri və sosial-siyasi, iqtisadi seçim, cəmiyyətlərin tarixi təcrübəsi, dünyada sülh və ədalət, sivilizasiyaların qarşılıqlı dialoqu, mövcudluğu və perspektivi məsələsi idi. Qlobal dilemma ortada idi: ya, zəruri olarsa, hətta əxlaqi-mənəvi, tarixi-irsi, milli nüans və imperativlərdən azadlıq əldə edərək pozitiv bilik vasitəsilə elmin, texnika-texnologiyanın zirvələrinə doğru irəliləmək, ya da məhdudiyyətlərlə, tabularla hesablaşaraq mümkün və əxlaqi-mənəvi, tarixi-irsi cəhətdən məqbul olanla kifayətlənmək.

İndi artıq tam aydındır ki, xüsusən də Qərbin timsalında tarix aparıcı xətt kimi birinci yolu seçib. Hələ ki! Hətta Frankfurt sosioloji məktəb və ekzistensial fəlsəfə öz qüdrətli, dərin məzmunlu nailiyyətləri və görkəmli nümayəndələrinin nüfuzu ilə tarixi bu seçimdən uzaqlaşdıra bilmədi. Məhz belə dramatik situasiyaya cavab olaraq ekzistensialistlər söyləyirdilər: «Bəşəriyyət öz sonuna çatıb, gələcək isə görünmür!». Korrektlik naminə deyim ki, bu seçim 60-cı, yaxud 70-ci illərdə baş verməyib, onun cizgiləri daha əvvəllərə gedib çıxır -- dilemmanın özü kimi. Qeyd olunan dövrlərdə artıq cizgiləri, müəyyən resursları bəlli seçim, sadəcə, birmənalı tərzdə qərarlaşıb və günbəgün möhkəmlənməyə doğru irəliləyib.

q. Konkret-elmi və praktiki fəlsəfənin təntənəsi. Hər necə olsa da, seçim edilmişdir. Və bu seçimin öz fəlsəfəsi də olduqca təsirli, məhsuldar və məqsədyönlü idi. Deyərdim ki, hədsiz dərəcədə inadkar, nikbin və öz perspektivinə inamlı idi. Üstəlik də bütün

konkret elmləri ağuşuna alaraq sanballı addımlarla zamanı qət edən fəlsəfə idi. Əslində bu fəlsəfə tam mənada yeni deyildi. O, XIX əsrin 30-cu illərindən üzü bəri inkişaf edən pozitivizmin növbəti, yeni mərhələsi idi. Söhbət analitik fəlsəfədən gedir ki, onun da iki mühüm cərəyanı xüsusi qeyd olunmalıdır: 1) müasir riyazi məntiq aparatmından istifadə edən məntiqi təhlil fəlsəfəsi - məntiqi empirizm (R. Karnap, K. Hempel, F.Frank və s.) və məntiqi pozitivizm (U. Kuayn, N.Qudmen); 2) linqivistik fəlsəfə (L. Vitgenşteyn, C. Mur, Q. Rayl, C. Ostin, C. Uisdom, P. Strouson və s.). Bu cərəyanlar üçün ənənəvi (metafizik) fəlsəfı problemlər, demək olar ki, psevdoproblemlər idi.

Seçimin bir başqa fəlsəfi dayağı da olub: **praqmatizm** -- fəlsəfəni insanların müxtəlif həyat situasiyalarında qarşılaşdıqları problemlərin həlli üçün ümumi metodlar kimi şərh edən fəlsəfı təlim. Bu da yeni təlim deyildi. XIX-cu əsrin 70-ci illərində ABŞ-da yaranıb. Əsas ideyalarını Ç. Pirs söyləmiş, doktrinasını isə U. Ceyms, C. Dyui, F.K.S. Şiller və C. Mid işləyib. Burada maraqlı və əhəmiyyətli olan o idi ki, XX əsrin ortalarından başlayaraq Kuayn və Qudmen tərəfindən pozitivizmin müasir məntiq və analitik fəlsəfə ilə özünəməxsus sintezi həyata keçirilib. Məhz bu sintez formalaşan yeni elmi paradiqmanın fəlsəfi, elmi-dünyagörüşü və metodoloji dayaqlarının mahiyyətini müəyyənləşdirirdi. Bu, yeni paradiqmanın qərarlaşması üçün ən başlıca evristik vek-torlardan biri idi. 70-ci illərin sonundan başlayaraq isə həmin bu vektorun təsir gücünün artması yolunda bir çox başqa alimlər (Rorti, C. Makdermott, R. Bednetayn və s.) öz xidmətlərini göstəriblər.

Azərbaycan ictimai şüurunda, hətta ziyalı kateqoriyasına aid edilən şəxslərin düşüncəsində çox vaxt praqmatizm fəlsəfəsi barədə olduqca yanlış, bəsit təsəvvürlərin mövcudluğunu nəzərə alaraq, bu cərəyanın məzmun-mahiyyəti üzərində bir qədər ətraflı dayanaq.

Razılaşarsınız ki, bizdə "praqmatizm" dedikdə, adətən, bilavasitə və heç nəyə məhəl qoymadan mənfəətə doğru cəhd, nədənsə yalnız praktiki mənada faydalanma üsulu başa düşülür. Praqmatizm

ifrat maddiyatçılığın, mənfəətdarlığın sinonimi kimi, obyektiv həqiqətin bütövlüklə kənara atılması zəminində subyektiv-eqoistik iradənin reallaşması mənasında anlaşılır. Hətta, praqmatizmi materializmlə tam eyniləşdirənlər də tapılır.

Elə əvvəlcədən onu deyim ki, praqmatizm heç vaxt materializmi təqdir etməyib, əksinə, açıq və kəskin surətdə ona qarşı çıxıb. Praqmatizmin banilərindən olan Ceyms materializmlə idealizm arasında gedən uzunmüddətli tarixi mübahisəni birmənalı olaraq idealizmin xeyrinə həll edib. Onun fikrincə, uzaq gələcəkdə də olsa, materializm Yerin və bəşəriyyətin məhvi deməkdir və bu perspektivlə heç bir zəkalı insan razılaşa bilməz. Əbədi ruhi başlanğıcın mövcudluğunu qəbul edən idealizm isə, əksinə, xilas üçün inam və imkan yaradır, ideal və ruhi dəyərlərin təntənəsinə yol açır. İki konsepsiya (materializm və idealizm) arasında seçimi, Ceymsə görə, onun təklif etdiyi «inama doğru iradə» prinsipi əsasında həyata keçirmək mümkündür. Bu prinsipə əsasən, əgər iki alternativ həll arasında həyati vacib seçim rasional zəminlər üzərində mümkün deyilsə, insanın qeyri-rasional, emosional-ruhi əsaslardan çıxış edərək seçməyə mənəvi hüququ vardır.

Həqiqət probleminin şərhində Ceyms hələ Aristoteldən gələn korrespondent nəzəriyyədən, yəni həqiqətin bir mülahizə, yaxud nəzəriyyə kimi dünyada obyektiv vəziyyətə uyğunluğu anlamından imtina edir. Ceyms həqiqəti ideyanın uğurluluğu, yaxud işləkliyi mənasında anlayır, insanın öz qarşısında qoyduğu və nail olmağa çalışdığı məqsədin alınması üçün faydalılıq kimi şərh edir. Bir halda ki, həqiqətin və ya ideyanın uğurlu fəaliyyəti də yoxlanışa ehtiyaclıdır, həqiqətin tərifinə yoxlanılmanın özü də daxildir. Daha geniş mənada, Ceymsin praqmatizmi, həm də, onun metod və həqiqət nəzəriyyəsinin dünyagörüşü əsaslarından ibarətdir ki, bura universal təcrübə haqqında təlim - «radikal empirizm» də daxildir. Bu «radikal empirizm» bəzən «şüur seli», bəzən də «plüralistik kainat» kimi anlaşılır və Ceyms tərəfindən qeyri-qanunauyğun, təsadüfə tabe, tamamlanmamış, yeniliyə açıq, plastik bir fenomen kimi təqdim edilir. «Plüralistik kainat»da insana öz azadlığını, yeniliyə olan istəyini, məhdudiy-

yətsiz yaradıcılığını ifadə etmək üçün imkan verilir. Təcrübəyə kəsilməz şüur seli kimi baxılır.

C.Dyui təcrübəni daha geniş anlayır. O, təcrübəni, faktiki olaraq, insanın, təbiətə münasibəti də daxil, bütün fəal həyatı ilə eyniləşdirir. Onun qənaətincə , yaşanılan hər bir şey -- hadisə və şəxslər aləmi, insan fəaliyyəti və taleyi, magiya və elm -- təcrübə deməkdir. Təcrübənin belə anlamı onun hansısa metafizik əsaslarının axtarılması zərurətini istisna edirdi. Bu isə əsrlər boyu formalaşmış bir ənənənin, «tədqiqat qanunu»nun - **fundamentalizmin**, yəni nəyəsə (nələrəsə) istinadın mütləqləşdirilməsi praktikasının, təfəkkür tərzi və vərdişinin sarsıdılması, kənara atılması demək idi. Bu, həmçinin, idraki proseslərdə, təfəkküri refleksiyada «postulativ nöqtələr»ə fiksasiyadan, əvvəlcədən qəti müəyyənləşmədən uzaqlaşmaq idi ki, sonralar özünü daha bariz şəkildə postneoklassik elmi paradiqmada və bu paradiqmanın mühüm atributu olan tənqidi-sinergetik təfəkkürdə göstərməkdədir. Bu, əslində, elmi dünyagörüşündə, demokratik təfəkküri refleksiyada inqilabi mahiyyətli bir çevriliş idi. Təkcəyə, xüsusiyə ənənəvi istinadçılığa qarşı, totalitar düşüncə tərzinə qarşı böyük əhəmiyyətli inqilab idi. Təsadüfi deyildir ki, «elmi metod»un, yaxud «zəka metodu»nun fəaliyyət imkanlarını Dyui cəmiyyətin demokratik quruluşu ilə bağlayırdı. Elə quruluşla ki, azad insanlara sosial və digər eksperimentatorçuluq üçün geniş imkanlar verir, ictimai həyatı daim yaxşılaşdırır. Qeyd etmək lazımdır ki, Dyui sosial rekonstruksiyanın mühüm prinsipini yalnız sülhyaradıcı vasitələrdə və kateqorial surətdə zorakılıqdan imtinada görürdü. O da maraqlıdır ki, Dyuidə, bütövlükdə praqmatizmdə olduğu kimi, idrak (fəaliyyət) prosesi idrak predmetini dəyişir (əgər yaratmırsa da!). Bu məqam da sonralar neoklassik və xüsusən də postneoklassik epistemoloji paradiqmalarda əsaslı yer tutub. Misal üçün, onu qeyd edim ki, yuxarıda adını çəkdiyimiz C.Soros özünün məşhur refleksivlik nəzəriyyəsini yaradarkən («Maliyyənin alkimyası» kitabı) bu məqama xüsusi diqqət yetirib. Hətta deyərdim ki, ona daha geniş məna verib: prosesin dəyişməsini sırf qnoseoloji spesifikadan

doğan məzmunla məhdudlaşdırmayıb. Soros görə, məqsədli dərk edənlə yanaşı, hər hansı formada prosesdə iştirak edənlər də vacibdir. Daha doğrusu, onların nəticəvi dəyişdirici funksiyası və bu funksiyanın verdiyi variativ məhsul, dəyişən «cəmi nəticə»! Hətta hər bir aktorun necə və nə cür düşünməsi ümumi fəaliyyət və refleksiya sistemini dəyişdirir, yeni mürəkkəblik səviyyələri və formaları yaradır.

Dərindən diqqət yetirib mahiyyətə varsaq, bu epistomoloji məqamların - şərti olaraq «antifundamentalist» adlandırdığımız yanaşmanın və prosesin (predmetin) subyektlər, iştirakçılar vasitəsilə, idraki və mənimsəmə prosedurlarının müdaxiləsilə dəyişdirilməsi ideyasının nə qədər əhəmiyyətli olduğunu görərik. Xüsusən də siyasi və geosiyasi, sosial və iqtisadi, ekoloji və mənəvi-psixoloji problemlərin həllində, hadisə və proseslərin proqnozlaşdırılmasında, ictimai inkişaf vektorunun mütərəqqi istiqamətdə müəyyənləşməsində və qərarlaşmasında, hüquqi dövlət və demokratik vətəndaş cəmiyyəti quruculuğunda, demokratik əsaslarda milli konsensusun reallaşmasında! Əfsuslar olsun ki, dünyanın inkişaf etmiş qabaqcıl ölkələrində istər vətəndaşların həyat tərzində, istərsə də təfəkkürdə və əməldə gözlənilən, rəhbər tutulan bu cür epistemoloji «xırdalıqlar» bizlərə çətin gəlib çatır. Biz yenə də real dinamik proseslə yox, onun quru, cansız müqəvvası ilə əlləşməyə üstünlük verir, obyektlə birgə, həmahəng danışmaq əvəzinə onun barəsində uydurmalar quraşdırır, subyekt-obyekt nisbətlərinə dair xüsusən son yüzillikdə əldə edilmiş mühüm elmi bilgilərə, prinsiplərə məhəl qoymadan, daha doğrusu, onları anlamadan böyük elmi, sosial-iqtisadi və siyasi nailiyyətlər arzulayırıq. Nəhayət, biz demokratik təfəkkürün tələblərinə riayət etmədən, acgöz və dilənçi materializmi, ifrat subyektivizmi-fundamentalizmi daxilimizdə öldürmədən demokratik vətəndaş cəmiyyəti qurmaq istəyirik. Sözün düzü, "istəyirik" ifadəsi də bir qədər yerinə düşmür, çünki əhəmiyyətli şeylərin var olmasını özümüzdən yox, həmişə kənardan və başqalarından gözləməyi xoşlayırıq, ən yaxşı halda bütün yükümüzü hansısa "dahi"nin üzərinə atmaqla "işimizi" bitmiş

sayırıq. Tənbəllik və məsuliyyətsizlikdən, nadanlıq və korazehinlikdən azad olmaq istəmirik. Addımbaşı qarşımıza çıxan və günbəgün qalaqlanan problemləri isə çox vaxt Quran ayələrinə, Peyğəmbər kəlamlarına, bəzən də rəhmətlik Mirzə Cəlilə, Sabirə istinadla həll etməyə çalışırıq. Vaxtilə, yaxin keçmişdə, istinad yerimiz Marks, Lenin və Sov. İKP-nin Baş katibi idi! Ümumiyyətlə, görünür, istinadçılıqda, fundamentalistlikdə biz ən «əqidəli», ən «vəfalı» millətik. Bizə həmişə bir başbilən, hamının yerinə düşünüb tədbir görən, dahi bir xilaskar lazımdır. Bir bayraq kimi! Böyük simvol-mahiyyət rəmzi kimi yox, sığortalanmaq üçün, eybimizi, tənbəlliyimizi, kəm-kəsirlərimizi pərdələmək, başqasının ayağına yazmaq üçün. Elə ona görə də həqiqi dahi, həqiqi qəhrəman bizim yükümüzə, hoqqamıza dözmür - tezliklə sıradan çıxıb axirət dünyasına gedir. Əcəba, bununla belə, biz özümüzü abırlı-həyalı, ismətli, mömin bəndələr sayır, dünyanı da buna inandırmağa çalışırıq!

Praqmatizmin başlıca müddəalarından biri belə səslənir: problem situasiyanın uğurlu həlli əldə edilərsə, təklif olunan hipoteza və ya nəzəriyyə həqiqət sayılmalıdır, yaranmış yeni, artıq müəyyənləşmiş situasiya isə reallıq statusu qazanır; bu situasiya əvvəlki şübhəli və problemli situasiyanı əvəz edir. Heç bir təklif olunan həll əvvəlcədən qəbul edilmiş reseptlərdən çıxış edə və ehkama çevrilə bilməz. O, bütövlükdə konkret situasiyanın xüsusi xarakteri ilə müəyyənləşməlidir. Beləliklə, bütün prosedura eksperimental xarakter daşıyır ki, onun da mühüm cəhəti özünükorreksiyadır. Elə bu səbəbdən də, praqmatizmin tərəfdarlarına görə, fəlsəfənin başlıca məqsədi məhz sosial təcrübənin təhlili və kamilləşdirilməsidir.

III. Sosial rekonstruksiyanın mühüm vasitəsi kimi yalnız o metodologiya, ideya-siyasi cərəyan doğrudur ki, insanları və cəmiyyətləri «inteqrallaşmayan» (hesablanmayan) fenomenlər qarşısında aciz qoymur, idraki gücsüzlüyü hər hansısa «universalilər»ə, mistik və ya trassendent obrazlara istinadla ört-basdır etmir, onsuz da artıq dərəcədə şübhəli, qeyri-müəyyən və problematik olan situasiyanı bir daha

mürəkkəbləşdirmir, ona pozitiv nəticələrlə yekunlaşa biləcək inkişaf yönümü verir və bu istiqamətdə yararlı üsul və formalar irəli sürür. Elə ictimai-siyasi, milli hərəkatların dəyərliliyi də əsasən bu meyarla ölçülür.

Göstərilən kontekstdən Azərbaycan cəmiyyətinə, mövcud ictimai duruma nəzər salmaq, bəlkə də, pis olmazdı. Müstəqilliyimizin qazanıldığı, qərarlaşdığı və möhkəmləndirildiyi şərəfli bir dövrdə, üzləşdiyimiz bütün çətinliklərə baxmayaraq, əldə etdiyimiz bəzi nailiyyətlər danılmazdır və hətta düşmənlərimiz tərəfindən də etiraf olunmaqdadır. Ancaq, bununla belə, bir sira qəbahətlər, sanki ənənəviləşmiş və xroniki xarakter almış naqisliklər (rüşvət və korrupsiya, məmur özbaşınalığı, subyektiv və qrup maraqlarının ümummilli mənafelərlə hesablaşmaması, eqoistik-korporativ niyyətlərin önə çəkilməsi, zəhmətkeş insana laqeydlik, dövlət vəzifəsindən sui-istifadə halları, ümumi sərvətin mənimsənilməsi, kəskin siyasi dözümsüzlük, böhtançılıq, qisasçılıq və s.) cəmiyyətimizi və dövlətimizi təhdid altında saxlamaqdadır. Üstəlik də, bu zəmində sosial-mədəni dəyərlərin aşınması, fərdlərin dünyagörüşündə və ictimai psixologiyada baş verən destruksiya insanların ovqatına, ümidlərinə zərbə endirməkdədir.

Bütün bu xoşagəlməz, təhlükəli əlamətlərin başlıca bir səbəbi məhz sosial rekonstruksiya məsələsinə səriştəsiz və məsuliyyətsiz, deyərdim ki, çox vaxt eqoistcəsinə və vicdansız yanaşmağımızdadır, konstruktiv-rasional elmi metodologiyanın, adekvat üsul və prinsiplərin yoxluğunda və yaxud rəhbər tutulmamasında, ən əvvəldən, milli-azadlıq hərəkatının başlanğıcından (1988-ci ildən), rasional və real elmi-idraki məqamların kasadlığında, insanları hesablanmamış sosial-siyasi, iqtisadi-psixoloji fenomenlərin qarşısında təkbətək qoymaqda, sosial rekonstruksiya məsələsinə günbəgün şübhənin, qərarsızlığın, şüarçılığın, utopik amillərin, saxtakarlığın gətirilməsindədir. Şübhəsiz ki, burada mentalitetimizə hopmuş "dədə-baba vərdişləri" də az rol oynamır. Əcaibliyi, paradoksluğu qədər də anlaşılmazdır ki, qüsurlu vəziyyətdən çıxmaq və sağlam

ictimai mühit yaratmaq üçün elmə, alimə, intellektə üz tutmaqdansa, nəzərlərimizi başqa ünvanlara yönəldirik.
Məlum olduğu kimi, hər bir yüksək sürətli dinamik inkişaf, xüsusən böyük, köklü məqsədlər, hədəflər nəzərdə tutulubsa, yeni-yeni problemlər doğurur, qarşıya əlavə ciddi vəzifələr qoyur. Düşünürəm ki, bu taleyüklü problemlərin, vəzifələrin sistemli, ardıcıl və səmərəli həlli intellektual sahədə reallaşması aktual və zəruri olan struktur-funksional dəyişmələrdən, idarəetmənin yeni tələblər səviyyəsndə təşkilindən, aparıcı kadrlar, rəhbər işçilər korpusunun yeniləşməsindən əhəmiyyətli dərəcədə asılıdır. Yüksək səviyyəli intellekt sahibləri, istedadlı və fədakar insanlar, peşəkarlar bilavasitə işlərə cəlb edilməli, onlara müvafiq zəruri səlahiyyətlər verilməlidir. Elə etmək lazımdır ki, intellektual resursların inkişafına, elmin,təhsil və mədəniyyətin taleyinə əxlaqi-mənəvi keyfiyyətləri, professional qabiliyyətləri şübhə doğurmayan şəxsiyyətlər cavabdeh olsun. Uzun illər ərzində etibar edilmiş sahədə müsbət dönüşə nail ola bilməyən, nöqsanlı fəaliyyəti və yaxud da fəaliyyətsizliyi ucbatından işlərin gedişini bərbad hala salan, yalnız immitasiya və şəxsi-ailə, qrup maraqlarının ödənilməsi ilə məşğul olan məmurların iddialarına, eqoistik istəklərinə bundan sonra da dözməyə dövlət borclu deyil!
Rəhbər kadrların seçilməsində bir mühüm məqama diqqət yetirilməsi olduqca vacibdir. Belə ki, sosial rekonstruksiyanın, idarəetmənin başlıca obyekti mürəkkəb sistemdir və bu sistemlə müasir tələblər səviyyəsində işləmək üçün ən azı mürəkkəb sistemlər nəzəriyyəsini, bu nəzəriyyədən qaynaqlanan metodologiyaları, idarəetmə konseptlərini, nəhayət, xüsusən son iki onillik ərzində intellektual resursların idarə olunması ilə bağlı yaradılmış nəzəri əsasları, modelləri bilmək lazımdır. Bu ümumbəşəri, universal tələbin ödənilməsi, həm də, Azərbaycanın dövlətçilik institutunun daha da möhkəmlənməsi və müasirləşməsinin qarantıdır.
Ümumiyyətlə, məqsədəuyğun olardı ki, elm, təhsil və mədəniyyət sahələri, cəmiyyətimizin mənəvi-intellektual həyatı bir səlahiyyətli vahid mərkəzdən idarə olunsun və tənzimlənsin. Bu,

fərdi və kollektiv məsuliyyəti, strukturdaxili və strukturlararası səmərəli birgəfəaliyyət, koordinasiya və özünütəşkilatlandırma imkanlarını xeyli artırar, ümumi fəaliyyət şəbəkəsinin bütövlüyünü, optimal-işgüzar konsolidasiyasını və dinamikliyini təmin edər. Belə bir mərkəzi orqan qismində, fikrimcə, **Azərbaycan Respublikasının Prezidenti yanında İntellektual resurslar** və **İnsan kapitalı problemləri üzrə Dövlət müşaviri xidməti** fəaliyyət göstərə bilər. Nazirlər Kabinetinin strukturunda fəaliyyət göstərən aidiyyati qurumlar – müvafiq nazirliklər, komitə və idarələr, şöbə və bölmələr strateji rəhbərlik və koordinasiya tələbləri baxımından, bu xidmətin funksional səlahiyyətləri və vəzifələri çərçivəsində işlərini qurmalıdırlar. Vacibdir ki, postneoklassik epistemoloji zəminlər üzərində formalaşmış müasir (proqressiv) idarəetmə fəlsəfəsinin başlıca prinsiplərindən biri – müxtəliflik vasitəsilə birliyə (vahidliyə) cəhd və ona nailolma prinsipinin ödənilməsi üçün əvvəlcədən münbit əsas və imkanlar yaransın. Produktiv vahidliyə, iş birliyinə, güclərin ümumi səfərbərliyinə xidmət etməyən fikir və əməl müxtəlifliyi, xüsusən də idarəetmə məsələlərində, son nəticədə pərakəndəliyə, daxili nizamsızlığa və məsuliyyətsizliyə, xaosa və tənəzzülə aparır.

Müasir (sinergetik) idarəetmə fəlsəfəsində əhəmiyyətli yer tutan bu vahidlik prinsipi, əslində, çox qədim köklərə malikdir (vaxtilə onu böyuk fiosof və dövlət xadimi Konfutsi formulə edib və irəlı sürüb!) və dəfələrlə müxtəlif modifikasiya-variantlarda bir çox görkəmli dövlət başçılarının yaradıcı praktikalarında uğurla sınaqdan çıxıb. O, gerçəkliklə, real şərait və imkanlarla hesablaşmayan hikkəli-kinli boşboğazlıq "demokratiya"sına deyil, həqiqi demokratiyaya təminat verir.

Əlbəttə ki, qabaqcıl eilmi tədqiqatların (istər təbiətşünaslıqda, riyazi və texniki elmlərdə, istərsə də ictimai və humanitar elmlər sahəsində), sinergetik sosial idarəetmənin məhsuldarlığına, uğurlarına təminat verən "müxtəliflik vasitəsilə vahidliyin əldə olunması" prinsipi öz effektliyini monoprinsip halında göstərmir. Postneoklassik epistemologiyanın, müasir elmi paradiqmanın

atributu olan bu prinsip onunla qarşılıqlı əlaqədə, bir-birini şərtləndirmədə və törəmədə olan digər mühüm prinsiplərlə birgəfəaliyyətdə öz gücünü və qüdrətini ortaya qoyur. Burada, həmin prinsiplər və ümumən postneoklassik təsəvvürlər, üsul və ideyalar sistemi üzərində ətraflı dayanmaq mümkün olmadığından, yalnız belə bir təklifimi bildirmək istərdim:

Biz təbii sərvətlərimizdən və insani-intellektual potensialımızdan ağıllı istifadə edərək, innovasion iqtisadiyyat, informasiya cmiyyəti qurmaq, informasiya-kommunikasiya texnologiyalarının yalnız istehlakçısı yox, həm də yaradıcısı-ixtiraçısı olmaq, yeni dünyanın aparıcı aktorları səviyyəsində söz-əməl, nüfuz sahibliyinə yiyələnmək istəyiriksə, indidən prinsipal məsələləri,vəzifələri önə çəkməliyik, vaxt, enerji itkisinə yol verməməliyik! İlk növbədə çalışmalıyıq ki, yeni nəsillər, gənclərimiz məhz öz doğma Vətənimizdə müasir elmi bilikləri əxz etsinlər, yüksək intellektual mühitdə böyüsünlər, yeni epistemologiyaların srlərinə vara bilsinlər. Bu, məntiqi olaraq, o deməkdir ki, bir tərəfdən, elm-təhsil-mədəniyyət ocaqlarımızın, universitet və institutlarımızın fəaliyyəti köklü surətdə yeniləşməli, zəruri sistemli islahatlar həyata keçirilməli, digər tərəfdən, gənclərimizin xaricdə təhsil alması əsas-aparıcı hədəfə çevrilməməlidir. Əks halda, bizim öz elm-təhsil sistemimizin kimə və nəyə lazım olduğu şübhə altına düşür. Zərurət olduqda xaricdə mütəxəssis hazırlamaq lazımdır və vacibdir, lakin bu, kafi deyil və yeganə çıxış yolu ola bilməz. Nümunəvi innovasion cəmiyyətin, kamil millətin öz qüdrətli elmi, təhsil-mədəniyyət sistemi olmalıdır. Proqressiv təfəkkür iqtisadiyyatı da yalnız bu əsasda fəaliyyət göstərə bilər.

IV. Barəsində söhbət gedən müasir (postneoklassik) elmi paradiqmanın əsas məqsədi, qayəsi insanların dünyagörüşündə, təfəkkür tərzi və fəaliyyət üslubunda demokratik dəyərlərə həssaslığı, rəğbət hissini artirmaqdan, qarşılıqlı hörmət və tələbkarlıq, nizam və məsuliyyət vasitəsilə başlıca hüquq və azadlıqlardan istifadəni

reallaşdırmaqdan, lokal, regional və qlobal miqyaslarda tolerantlığı və humanizmi gücləndirməkdən ibarət olmuşdur.
Aydındır ki, universal təqdimatda nəzərdə tutulan bu möhtəşəm məqsəd yalnız xoşməramlı niyyətlər, arzular hesabına yox, ilk növbədə tarixən ictimai tərəqqinin fundamentini təkil edən Elmin, Fəlsəfənin özündə, onların epistemoloji durumunda əqli-ruhi, intellektual çevrilişə və bu zəmində əməli-praktiki sahədə, insanların "fəaliyyət düsturunda" köklü dönüşə nail olmaqla reallaşa bilər.
Söz yox, əksəriyyət bu məqsədin ənənəvi olduğunu, çox-çox əvvəllərdən də qoyulduğunu deyə bilər. Lakin burada xüsusi diqqət çəkən bir mühüm məqam var. Belə ki, məqsədin qoyuluşu ilə yanaşı, onun necə və nə cür reallaşmasının qeyri-ənənəvi, yeni fəlsəfəsi və epistemologiyası təqdim olunur, bir növ, məqsədin doğruluğu və realistikliyi məsələsi əvvəlcədən nəzərə alınır. Düzdür, zəngin tarixi təcrübədən məlumdur ki, böyuk məqsəd-idealiar qarşıya qoyulduqda, adətən, yeni, bəzən də, məsələn, K. Marksda və yaxud A. Hitlerdə olduğu kimi, fundamentallığa və son həqiqət statusuna iddia edən fəlsəfə, insana, təbiətə, cəmiyyətə və dünyaya münasibət konsepti, yeni düşüncə tərzi, hərəkət və fəallıq üslubu irəli sürülmüş, çox vaxt da,yeri gəldi-gəlmədi, zorən insanların beyninə yeridilmişdir. Belə olduqda, "bəşəriyyət üçün nəzərdə tutulan "yeni" məqsəd-idealın köklü fərqi, qeyri-ənənəviliyi nədədir?" sualı ortaya çıxır.
Hər şeydən əvvəl, bu fərq məqsəd və vasitələrin üzvi qovuşmasında, adekvatlığında, "məqsəd vasitələrə bəraət qazandırır!" prinsipinin yox, "təqdirəlayiq məqsəd öz fəzilətli vasitələrilə möhtəşəmdir!" ideyasının rəhbər tutulmasındadır. Məhz bu, ilkin olaraq, məqsədin doğruluğunun və realistikliyinin, insaniliyinin və hamı üçün humanistikliyinin qarantıdır. Gördüyümüz kimi, barəsində danışılan **məqsəd** və onun reallaşdırılmasına xidmət etməli olan **yeni fəlsəfə** və **müasir** (özündə klassik və neoklassik qazancları, dəyərləri ehtiva edən!) **postneoklassik epistemologiya** öncədən **aksioloji** tələblərin, **etik** komponentlərin vacibliyini nəzərdə tutur. Güclü aksioloji

tələblərə riayət etmək və, eyni zamanda, realliqla hesablaşmaq, gerçəkliyə həssas, qayğılı münasibət göstərmək naminə, yeri gələrsə, klassik elmdə ümdə sayılan qəti "dəqiqlik" və "müəyyənlik"dən də keçmək olar. Bu kontekstdə Lütfi Ə. Zadənin müasir elmi epistemologiyada fundamental yer tutan, müstəsna əhəmiyyət kəsb edən qeyri-səlis məntiq, neyrokompütinq,evolyusion kompütinq, xaos-kompütinq kimi intellektual paradiqmləri və onların koalisiyası əsasnda yaranmış, süni intellekt nəzəriyyəsi və texnikasının ənənəvi üsulları vasitəsilə həlli mümkün olmayan bir çox vacib real problemlərin həllinə imkan verən Soft Kompütinqi (nəzəriyyə və texnologiyası) xüsusi qeyd olunmağa layiqdir. (Burada hörmətli oxucuların diqqətini informatika, kibernetika və idarəetmə sahəsində görkəmli alim Rafiq Əliyev və professor Rəşad Əliyevin 2004-cü ildə azərbaycan dilində nəşr edilmiş "Soft kompütinq (nəzəriyyə, texnologiya və praktika)" adlı fundamental əsərinə yönəltmək istərdim. Əsərə "Ön söz"ündə L.Zadə yazır:"…Professorlar R.Ə.Əliyev və R.R.Əliyevin müəllif olduqları "Soft kompütinq" kitabının əhəmiyyətini qiymətləndirmək çətindir. Sistem analiz, qərar qəbuletmə və qeyri-səlis məntiq sahəsində iki məşhur alimin yazdığı "Soft Kompütinq" kitabı dərinliyi, əhatəliyi və yüksək anlaşıqlığı ilə seçilir və konsepsiya, nəzəriyyə və əməli üsullar da daxil olmaqla geniş materialı əhatə edir. Bütün bunlar müəlliflərin geniş elmi tədqiqat və təhsil təcrübəsini nümayiş etdirir." Necə deyərlər, şərhə ehtiyac yoxdur!).

Təsadüfi deyil ki, L.Zadə hələ vaxtilə öz intellektual məhsulunu "humanistik sistemlər nəzəriyyəsi" adlandırmışdı. Öz əsərlərinə, tədqiqat istiqamətlərinə münasibətdə analoji fikirlərə başqa tanınmış alimlərin yazılarında da rast gəlirik. Bu, ona dəlalət edir ki, söhbət müasir elmi epistemologiyalardan gedirsə, deməli, humanizmə, birgəyaşayış mədəniyyətinə, etibarlı sülhə, qarşılıqlı anlaşmaya, məhsuldar dialoqa xidmət edən nəzəriyyələrdən və onların üzvi koalisiyasından söhbət gedir. Burada "koalisiya" sözündən məqsədli surətdə istifadə edirəm – müasir elmi

paradiqmaların müəllifləri olan məşhur mütəxəssislərin öz idraki yönümlənmələrinə uyğun olaraq! Belə ki, onlar öz nəzəriyyə və konsepsiyalarının qüdrətini başqaları ilə birgəfaliyyətdə, hansısa vahid koalisiyada (konsorsiumda) iştirakında və ümumi yekun nəticədə görürlər. Bu, sadəcə olaraq, təvazökarlıq əlaməti deyil, **İnsan-Təbiət-Cəmiyyət-Dünya əlaqə və nisbətlərində harmoniyanın, ədalətin, tarazlığın qulluğunda dayanan Məntiqin tələbi və qayəsidir!**

Hal-hazırda fəlsəfədə intensiv tədqiqat dairəsinə alınmış qlobal və sosial ekologiya, genderologiya, qeyri-formal hərəkat və təşkilatlar nəzəriyyəsi, sərbəst agentlər şəbəkəsi konsepti, sülh mədəniyyəti və sivilizasiyaların dialoqu, sinergetika və sair müasir elmi-tədqiqat istiqamətləri də elə bu Məntiqin doğurduğu sahələrdi. Lakin, əfsuslar olsun ki, bu istiqamətlər üzrə həqiqi iş görənlərdən, dəyərli fikir ortaya qoyanlardan çox, sadəcə, aktual mövzulardan və yaranmış əlverişli situasiyadan geninə-boluna bəhrələnənlər, sui-istifadə edənlər, sosial-fəlsəfi, politoloji və sosioloji araşdırmalar adı altında primitiv halda toplanmış statistika, bayağı aparılmış "sosioloji sorğular", ikrah hissi doğuran "nəzəri ümumiləşdirmə"lər, layiq olmadan elmi dərəcə və adlar alanlar var. Bunun isə Azərbaycan elminə və cəmiyyətinə, ziyandan başqa, bir qəpiklik xeyri yoxdur. İstər-istəməz, məşhur fikir yada düşür: "İnqilabı dahilər fikirləşir, fanatiklər həyata keçirir, əclaflar ondan bəhrələnirlər"!

Postneoklassik epistemologiyanın Məntiqi **demokratiyanın** özünə yeni baxış və yanaşmalar formalaşdırmaqdadır. Demokratiya bir ideya-ideal, konsepsiya, ictimai praktika, təfəkkür və əməl tərzi, idarəetmə forması və üsulu kimi yeni səviyyədə və yeni kontekstlərdən müzakirə edilərək tətbiq olunmaqdadır. Böyük uğurlar da var, təəssüf doğuran səhflər və məğlubiyyətlər də. Azərbaycan da həmin universal dalğanın içində, hətta episentrində olmaqla bugününü və gələcəyini qurmaqdadır. Bu quruculuğun, ümumi gedişatın necə olmasını, hansı qazanclar əldə etməsini isə, ilk öncə, bizim intellektual potensialımızın, fəlsəfəmizin, elm, təhsil və mədəniyyətimizin,

alim və mütəxəssislərimizin səviyyəsi müəyyənləşdirir. Hər cür azadlıqların, demokratiyanin kökü zəkada və ondan qaynaqlanan fəaliyyətdədir. Demokratiya, Bernard Şou demişkən, cəmiyyəti təşkil edənlərin "insan materialı"ndan yuxarı ola bilməz!

Yekunda postneoklassikanın bəzi mühüm müddəalarını ümumiləşdirilmiş şəkildə hörmətli oxucuların nəzər-diqqətinə çatdırmaq istərdim: zəruri məhdudiyyətlərin gözlənilməsi şərtilə sistemin açıqlığı, alternativlər dialoqu, "tam"a və hər bir sanogen "hissə"yə xidmət edən özünütəşkil və sinergetik xassələrin mövcudluğu inkişafı daha təminatlı və mütərəqqi edir; müxtəliflik nisbətlərindən doğan ziddiyyətlərin mütləq təkzibetmə mövqeyindən həlli sistemi tənəzzülə və süquta aparır; vahidliyə (həmrəyliyə) xidmət etməyən müxtəliflik, sistemdaxili rəngarəngliyi, alternativliyi dəyərsizləşdirmək praktikasının nəticəsində olduğu kimi, sistemi məhfə aparan tənəzzülü səbəbləndirir; ifrat subyektivizmin və ehkamçılığın bariz ifadəsi olan fundamentalizm ("təkcə"yə, "xüsusi"yə istinadın, "postulativ nöqtə"lərə əsaslanmanın mütləqləşdirilməsi) demokratiya və harmoniyaya deyil, avtoritarizmə və totalitarizmə, anarxiya və durğunluğa rəvac veririr.

Mürəkkəb sistemlərin davranış və fəaliyyətində, özünükorreksiya və idarə olunmasında geridönməzlik, qeyri-düzyunktivlik, proseslərin kvantlanması və mərhələlənməsi, ehtimallıq və emercentlik, mərhələli optimallaşdırma, sosial entropiyanın ölçü daxilində saxlanılması, polibifurkasion vəziyyətlərdə imkanlar çərçivəsi daxilində optimal reallaş(dır)ma kanalının tapılması zərurəti, sistemyaradıcı və sisteməqovuşma xassələrinin variativliyi və mərhələli müəyyənləşməsi, təkamüli mürəkkəbləşmədə funksional zaman hökmünün vacibliyi və sair prinsiplər, həmçinin, son (yekun) hallar, müxtəlif bərəbərimkanlı sistem vəziyyətlər və onlar arasında qeyri-xətti keçidlər, zəif təlatümlər (başlanğıc şərtlərin kiçik dəyişmələri), spontan özünütəşkil və özünütənzimləmə, dinamik dayanıqlıq və ekstremallıq haqqında müasir elmdən qaynaqlanan bu kimi ideyalar həmin müddəalarla birgə koalisiyada siyasi, sosial,

iqtisadi, mənəvi-psixoloji varlıqların tədqiqində və idarə olunmasında müstəsna əhəmiyyətli rol oynaya bilər. Bu ideya və prinsiplərə əsaslanan, postneoklassikadan bəhrələnməyi bacaran peşə və ixtisas sahibləri, işçi və menecerlər, rəhbər kadrlar isə öz tədqiqat və praktiki fəaliyyət obyektlərini daha dərindən və müfəssəl surətdə anlamaq, öyrənmək, səriştəli idarə etmək imkanı əldə edərlər. Tam əminliklə deyə bilərik ki, yeni elmi paradiqma mürəkkəb qeyri-xətti dünyada xaosun, ehkamçılığın, fanatizmin, totalitar-direktiv düşüncənin qasısını almaq və sinergetik effektlərin sağlamlaşdırıcı imkanlarından istifadə etmək üçün şans verir, tolerantlığa və humanizmə etibarlı zəmin yaradır.

Зумруд ГУЛИЗАДЕ

НЕКОТОРЫЕ КОНЦЕПТУАЛЬНЫЕ ВОПРОСЫ ИССЛЕДОВАНИЯ И ПРЕПОДАВАНИЯ ГУМАНИТАРНЫХ НАУК

(с приложением концепции программы преподавания истории философии)

Статья рассчитана на внимание исследователей, преподавателей и студентов. Предлагая материал для размышлений она, по авторскому замыслу, должна ориентировать на осознанный выбор позиций и путей в процессе исследования и преподавания общественных дисциплин на современном этапе социокультурного развития Азербайджана и предлагает в качестве объекта обсуждения альтернативную концепцию программы преподавания курса истории философии.

Отказ от социализма как господствующей социально-экономической системы, естественно, обусловил и отказ от его господствующей идеологии – марксизма-ленинизма как единственной идеологии и марксистско-ленинской методологии как единственной концептуальной основы наук и,

прежде всего, гуманитарных наук в странах, отказавшихся от социализма.

Закономерно встал вопрос об отказе от старой методологии, ее замене новой или даже новейшими методологиями, характере последних. И тут перед специалистами постсоветского пространства, включающего и Азербайджан, возник ряд специфических проблем, на некоторых из которых мы и остановимся.

Проблема выбора концепции исследования и преподавания гуманитарных дисциплин особо актуальна для стран постсоциалистического региона, которые ранее следовали марксистско-ленинской методологии, а ныне обрели возможность критического переосмысления своих методологических позиций. Концептуальная переориентация связана, как известно, с рядом объективных и субъективных факторов.

Новая методология закономерно должна быть принципиально соотнесена с новой государственной идеологией (**1**), соответствовать ей и развивать ее или в той или иной форме и степени противостоять ей. Наличие же господствующей государственной идеологии органично связано с четкой фиксацией социально-экономических отношений, которые она должна представлять и защищать.

Поскольку в странах бывшего СССР, включая и Азербайджан, в первые годы т.н. перестройки не было ясно сформировавшегося представления о социально-экономическом строе, формированию которого призвана служить господствующая надстройка, включая и государственную идеологию, естественно, затруднялось и формирование новых направлений методологии культуры.

Сложность концептуальной переориентации была обусловлена и тем, что до последних лет и старшее, и подрастающее поколение ученых стран бывшего соцлагеря были четко ориентированы на марксистскую методологию; она не имела альтернативы ни в вузовском, ни в школьном образовании. Построенные на ней программы преподавания по настоящее

время практически либо не претерпели существенных изменений, либо они не до конца продуманы, а потому научно уязвимы.

Особую трудность в идеологической переориентации создает и то, что основную роль в формировании новой методологии играют гуманитарии, которые были, как правило, профессиональными специалистами в применении и пропаганде марксистской методологии.

В свете изложенного объяснимы определенная беспомощность и перегибы в идеологической перестройке и создавшаяся в настоящее время ситуация в области исследования и преподавания гуманитарных наук. Последние проявляются, прежде всего, в отношении к марксизму, оценке его методологии и философии, в затруднении противопоставить им научно разработанные альтернативы.

Многими представителями современной духовной культуры, в частности идеологии стран постсоциализма, марксистско-ленинская философия, ее методологические принципы либо огульно отрицаются, либо молчаливо игнорируются. Однако отрицание на словах марксистской методологии в публикациях последнего десятилетия нередко сочетается с, возможно, неосознанным либо невольным использованием диалектико-материалистического метода и принципов исторического материализма.

Существует и тенденция, когда основная проблематика марксистской философии как дисциплины, представляется несколько деформировано нередко подменяется надуманными проблемами, которые широко подхватываются «изголодавшимися» по новизне и «неортодоксальности» исследователями, создателями новых программ, учебников и пособий по философии и ее истории (см. хотя бы «Введение в философию» в 2-х частях. М., 1989).

Таковы на сегодня формы методологической перестройки во многих регионах бывшего соцлагеря, включая и Азербайджан, где, как и в других республиках бывшего СССР «новая

проблематика», кстати, изучается, как правило, на основе марксистской научной литературы прошлых лет (см. вузовские программы по философии и истории философии последних лет в Республике и за ее пределами).

Однако, современное глобальное развитие в экономической и социокультурных областях, безусловно, требует от гуманитариев четкого определения своих методологических позиций.

Особенно это актуально в условиях Азербайджана, где, ссылаясь на отсутствие «новой» методологии, десятилетиями было законсервировано издание готовившихся в НИИ АН Азербайджана фундаментальных многотомных трудов по истории Азербайджана и различным аспектам истории азербайджанской культуры: истории азербайджанской литературы, философии и т.д. В современных условиях, когда Республика наряду с политической независимостью обрела и духовную независимость, а названные «истории» являются наиболее действенными факторами формирования национального самосознания, определение новой методологии становится наиболее актуальной проблемой научного и идеологического развития.

Статьи в прессе известных азербайджанских философов – академика А.Асланова и академика Ф.Кочарли о необходимости новой методологии, к сожалению, ограничились в основном только постановкой вопроса о необходимости последней.

В сложившейся ситуации выход нам видится как в создании новой концепции культуры, новых общеметодологических принципов, так и конкретной новой методики научной трактовки культуры, ибо нам, ученым теперь уже в суверенной стране самим предстоит определять свои позиции, не дожидаясь пока эти позиции будут нам предложены.

Необходимо продуманно и критически использовать опыт предшествующего развития духовной культуры, включая и опыт марксистско-ленинской методологии, представляющей

ступень в идеологическом развитии общества; выявить в последней заимствования из культурно-философской традиции прошлого и новое, присущее только ей и с позиций нашего сегодня, сегодняшнего уровня наших научных знаний и, естественно, мировоззрения определить свое отношение:

1. к марксистско-ленинской философии как единственно верному научному мировоззрению;
2. к материализму как единственно верному научному миропониманию и попытке сведения всей истории философии к истории формирования, развития материализма и торжества материализма над идеализмом;
3. к проблемам движения, пространства и времени в диалектико-материалистической трактовке;
4. к диалектике как универсальному закону развития и методу познания и ее законам и категориям в трактовке марксизма;
5. к марксистской теории познания;
6. к социологии марксизма (формационной теории, пониманию взаимосвязи базиса и надстройки, классовой борьбе как закономерности истории и как движущей силе развития общества, учению о диктатуре пролетариата, экономике, политике и культуре социализма, теории коммунизма, к религии и т.д.);
7. к учению марксизма-ленинизма о партийности и классовой идеологии;
8. к ценностным критериям марксизма, типа «исторически прогрессивный», «исторически реакционный», «научный», «антинаучный» и т.д.

Игнорировать эти вопросы, в течение многих десятилетий составлявших концептуальную основу всей социалистической, в том числе и азербайджанской социалистической культуры, мы не можем, ибо это – проблемные вопросы почти любой философской концепции.

Необходимость определения и ясного выражения позиций по изложенным выше вопросам диктуется еще и тем, что вся

доступная современному читателю научная литература, создававшаяся исследователями в СССР, базировалась на марксистско-ленинской методологии и четкой альтернативы ей (как отмечалось выше) пока практически нет.

При формировании принципов новой методологии в регионе бывшего СССР целесообразно отреагировать на перечисленные выше узловые проблемы философии марксизма, аргументировать их научность либо несостоятельность.

Следует иметь в виду, что новая концепция, либо концепции культуры, которые пытается создать наша современная гуманитарная наука, являются творческим актом и как результат любого творческого процесса, будут сочетать в себе объективное с субъективным, соотношение которых будет зависеть от интеллектуального и этического уровня их создателей. В настоящее время новые модели концепций будут создавать отдельные ученые, в дальнейшем, в процессе творческих обсуждений на основе логической и конкретно научной аргументации представленных вариантов возможна и относительная координация позиций, которая особенно необходима при выработке программ и методик преподавания.

Будучи далеки от навязывания читателю каких-либо позиций, выразим свое отношение к ряду из перечисленных выше вопросов.

Прежде всего, нам хотелось бы подчеркнуть научную и этическую некорректность, долгие годы бытовавших в СССР в научном обиходе категоричных оценочных суждений о существующих философских концепциях, в частности т.н. «буржуазных» концепциях XX в., как «ненаучных», «исторически реакционных» и т.д.

С момента зарождения философии и по настоящее время, как свидетельствует история философии, существовало множество направлений и учений, претендовавших на истину и научность и в той или иной мере приближавшихся к последним. Среди них, известно, были и такие, которые догматически декларировали свою уникальность в системе существу-

ющих учений и неприкасаемость собственной истинности и научности.

Некоторые черты такой философской парадигмы и предполагаемые сроки ее формирования можно спрогнозировать уже сегодня. Так, И. Валлерстайн, опираясь на исследования исторического развития, полагает, что грядущие 25-50 лет станут временем распада существующей социальной системы (т. е. капитализма). Глобальный экономический кризис, разворачивающийся на наших глазах, порождает сильное искушение выдвинуть предположение, что прогноз И. Валлерстайна начинает осуществляться. Американский социолог считает, что эти годы сыграют исключительно важную роль для познания: «Системный кризис будет способствовать социальной рефлексии. Мне кажется реальным окончательное преодоление раскола между наукой и философией, причем обществоведение неизбежно окажется основой для воссоединенного знания» (**18**).

За этот же период, как представляется, должны произойти серьезные изменения в структуре и сути института демократии, способные детерминировать начало «четвертой волны» демократизации. Как отмечает Гидденс, необходима «демократизация демократии» (**19**), а это возможно в результате появления новых сфер социальной и политической активно-

сти самоорганизованных групп людей, новых сетей неиерархических общественных отношений.

Такое смещение ракурса обращает внимание на сложившиеся на Западе ценности демократии и справедливого общества. В среде западных исследователей новые вызовы современного мира, сложившиеся в результате событий 11 сентября 2001 г., диктуют необходимость трансформации стереотипов этой области. Например, отметим работу Амитаи Этциони, выдвигающего коммунитарную концепцию справедливого общества, опирающуюся как на автономию личности, так и на прагматические ценностные нормы (**20**). «Урок состоит в том, - пишет А. Этциони, - что Запад должен относиться к миру так, чтобы всем стало ясно, что он будет проявлять уважение как к западным, так и к восточным ценностям, как к светским, так и к мягким религиозным позициям, как к свободе, так и к общинности, и что такой синтезированный подход найдет отражение в определенных политических решениях» (**21**).

Переходя собственно к философии, отметим, что ее важнейшей задачей во все времена являлось доказательство единства и целостности человеческого бытия. Сегодня доказана принципиальная невозможность такого доказательства, поэтому познание обречено на формирование неполного и относительного знания. Так, в сфере *мировоззрения*, последовательно преодолевающего механистический детерминизм, вместо единой картины мира новейшее познание предлагает ряд вероятных сценариев, из которых необходимо делать выбор.

Началось складываться убеждение, что наш мир без человека лишен практического смысла, более того, если он и существует, то лишь благодаря наличию в нем заинтересованного наблюдателя. «Объективная» философия, сделав сальтомортале, вновь вернулась к «субъективизму», правда, обновленному, переосмысленному, гораздо более богатому и плодотворному. Его примером может служить «неочевидная со-

циология», разрабатываемая Рэндаллом Коллинзом: «Мы начинаем с центральной проблемы, которая отделяет социологический анализ от большинства других, более очевидных подходов к миру. Это проблема ограниченности рациональности. Она ведет к далекому от очевидности выводу о том, что мощь человеческого рассудка базируется на нерациональных основаниях и что общество соединяется воедино не рациональными соглашениями, а с помощью более глубоких эмоциональных процессов, которые продуцируют социальные связи доверия между отдельными типами людей» (**22**).

Рэндалл Коллинз, начиная с анализа такого фундаментального социального института, как религия, приходит к важному выводу о том, что и все остальные институты, подобно ей, формируются и поддерживают свое функционирование за счет двух факторов: определенных ценностей (верований), которых постоянно придерживаются большие группы людей (адепты или приверженцы), и связанных с ними ритуалов, неукоснительно исполняемых этими адептами. Если это верно, то становится понятным, почему в фундаменте тех или иных социальных институтов отсутствуют рациональные концепты: верования или ценности – всего лишь темпоральные остановки, отражающие специфику своего времени, они преходящи и обстоятельно субъективны. Тогда получается, что и мир, исследуемый посредством такой гносеологической установки – субъективен, многое из нашего знания – результат общественного развития. «В сущности, весь наш материальный и символический мир получен нами от общества. Институты, в которых мы обитаем – наша форма семьи, экономики, политики и чего бы то ни было, - пришли из накопленного опыта других, короче – из общества. *Бог – символ общества*» (**23**). – пишет Р. Коллинз.

Под воздействием изменений постепенно формируется новая культура познания, так называемая диалогическая культура (человек – мир: два субъекта или два объекта), направленная на формирование элементов нового мышления и сознания,

противостоящих прежней монологической культуре (человек–субъект – мир–объект). Диалогическая культура предлагает новые принципы познания, ее положения и выводы далеки от жесткого детерминизма, однозначных ответов, абсолютных истин. Это, скорее, культура поиска, для которой чрезвычайно важен сам путь формулирования задачи в многообразии точек зрения и концепций, в том числе прямо или косвенно противоречащих друг другу. Диалогическая культура также развивается в русле постмодернизма, однако она пытается ограничить его всеобщность за счет привлечения ценностных, нравственных оценок и ориентиров.

Современные социальные процессы, их сложная, преимущественно нелинейная динамика, перманентно выявляют ограниченность описательных возможностей не только формальной, но и диалектической логики, которые более приспособлены для исследования процессов линеарного мира.

Разворачивающиеся на наших глазах сценарии глобализации, претерпевающие разного рода бифуркации, также характеризуются "нелинейном геометрией" (логикой). Исходя из этого, современные социальные процессы, подверженные сильному влиянию глобализации, следуя синергетической терминологии, необходимо рассматривать как кооперативные процессы.

Вообще, необходимо отметить, что современная социальная реальность требует развития необычных для классической науки направлений, обладающих явно «нелинейным» характером. Кроме синергетики отметим близкое к ней направление – тетрасоциологию, исходящую из четырехмерного представления социального пространства-времени, ресурсами которого выступают люди, информация, организации и вещи. Если социальная синергетика занята выявлением механизмов самоорганизации социальной устойчивости, тетрасоциология выявляет типы социальной гармонии, способствующие социальной устойчивости.

Таким образом, современные реалии требуют как новой философии (мировоззрения), так и новой методологии, а в целом они ведут к пересмотру философии исторического процесса, поскольку данный процесс развития оказался «открытым» для будущего, а будущее - не детерминированным жесткими рамками прошлого и настоящего. В новой картине мира социальный порядок и продуктивный хаос взаимодополнительны, а не противостоят друг другу, эти два состояния стремятся к синтезу, способствующему устойчивости социальных систем.

В сфере интеграции процессов экономической, политической и социокультурной глобализации возникают новые *онтологические, гносеологические и аксиологические* проблемы, требующие трансформации основ старого здания философии.

Краткий обзор современного состояния познания показывает, что для дальнейшего развития и адекватного осмысления новейших направлений философия нуждается в неком новом проекте рефлексии, в так называемой метафилософии, способной дать новый толчок самой старой деятельности человека.

Как уже отмечалось, большинство научных направлений переходят от исследования явлений и предметов к исследованию отношений между ними, подверженных спонтанным изменениям и трансформациям. В этой связи вспоминается забытая традиция познания Востока. Можно приводить массу различий между философией и мыслительной традицией Востока, но главное отличие состоит в том, что философия, создавая "объективную" картину мира, старалась исключить из нее если и не самого человека, то его субъективность, считая ее фактором, искажающим процесс познания. Грубо говоря, Запад задавался вопросом: "каков этот мир в отсутствии человека?" – для мыслителей Востока такая постановка вопроса показалась бы упрощенной и бесплодной, т.е. неинтересной.

Вместе с тем подчеркнем, что практически все традиции со временем подвергаются эрозии, а часто и теряют свою актуальность, что обычно происходит в переходные периоды развития. Сегодняшний период развития Азербайджана как раз представляет собой сложный переходный этап как внутренней трансформации политической системы страны, так и радикальных изменений, связанных с процессом мировой глобализации. На наших глазах происходит ломка старых традиций как советского наследия, так и национально-конфессионального традиционализма, и мы видим с каким трудом и как драматично протекает этот болезненный процесс. Значительно возрастает личностный фактор, человек переходного периода подвержен большим рискам и вызовам своего времени, на него ложится бремя постоянного выбора модели жизнедеятельности и повседневного поведения. «Там, где традиции отступают, нам приходится жить в условиях большей открытости и самостоятельности. В обстановке автономии и свободы скрытую власть традиций заменяет более открытая дискуссия и диалог» - констатирует Гидденс (**24**).

Представленная статья является попыткой начать в среде научной общественности подобную открытую дискуссию и диалог.

Литература и примечания:

1. Вебер М. Избранные произведения. М., Прогресс, 1990, Протестантская этика и дух капитализма, с. 44 -344.
2. Фукуяма. Ф. Великий Разрыв. М., АСТ, 2003.
3. В этой связи следует обратить внимание на весьма содержательную книгу - Станислав Гроф, Эрвин Ласло, Питер Рассел. Революция сознания. Трансатлантический диалог. М., 2004, - представляющую собой совместные размышления трех крупнейших ученых-мыслителей современности о разворачивающемся глобальном духовном и материальном кризисе, породившем кризис ценностей и идентичности. Общий

итог дискуссии – преодоление кризиса заключено в изменении сознания, ответственного за сложившуюся ситуацию.
4. Ионин Л. Основания социокультурного анализа. М., 1995.
5. Ионин Л. Основания социокультурного анализа, с. 24-25.
Обратим внимание, что Ионин, представляя трехчленное деление культуры, ссылается на книгу (Kroeber A., Kluckhohn C. Culture. A critical review of concepts and definitions/ Cambridge, Massachusetts), вышедшую в США в середине прошлого века (1952 г.). Наше отставание, следовательно, равно примерно полувеку.
6. Фукуяма. Ф. Великий Разрыв, с. 29.
7. Наиболее последовательный и убедительный в своих доводах критик либерального капитализма И. Валлерстайн пишет в этой связи: «То, что мы называем демократией, на деле противоположно популизму правого толка, как противоположно оно и тому, что мы понимаем под либерализмом. Демократия определенно предполагает настороженное отношение к экспертам и специалистам, сомнения в их объективности, бескорыстии и гражданских чувствах. Демократы видят прикрытие для новой аристократии в либеральных рассуждениях, весьма пагубных тем, что они провозглашают универсалистские принципы, которые всегда имеют своим результатом сохранение существующих моделей иерархии. Поэтому либерализм и демократия, символизирующие сущностно различные тенденции, всегда были не в ладах друг с другом». Валлерстайн И. Конец знакомого мира. Социология XXI века. М., Логос, 2004, с.132.
8. Ахундов М. Ф. Избранные произведения. Азернешр. Б., 1987, с. 99.
9. Фукуяма. Ф. Великий Разрыв, с.21-22.
10. Фукуяма. Ф. Великий Разрыв, с. 28.
11. Фукуяма. Ф. Великий Разрыв, с. 30.
12. Там же.
13. «Все общества имеют некоторый запас социального капитала; реальные различия между ними связаны с тем, что

можно назвать «радиусом доверия»… Очевидно, что в любом случае семья – важный источник социального капитала». Фукуяма. Ф. Великий Разрыв, с. 31.
14. Фукуяма. Ф. Великий Разрыв, с. 270.
15. Фукуяма. Ф. Великий Разрыв, с. 303.
16. В этой связи позволю себе привести весьма большую цитату из книги Ф. Фукуямы: «Социальный капитал – это не какой-то редкий и драгоценный предмет, который был создан однажды в век веры и передавался по наследству в силу древней традиции. Он не имеет и постоянного источника, который сегодня уничтожается нами, современными светскими людьми. Однако хотя запас социального капитала постоянно пополняется, этот процесс не идет автоматически, легко и без затрат. То же самое изобретение, которое увеличивает производительность или создает новую отрасль промышленности, подрывает существующее сообщество или делает весь уклад жизни устаревшим. Общества, вставшие на эскалатор технологического прогресса, постоянно вынуждены играть в догонялки, поскольку социальные правила развиваются, чтобы соответствовать изменившимся экономическим условиям. Машинное производство перемещает людей из деревни в город и отделяет мужей от семей, в то время как информационные технологии возвращают их в сельскую местность и толкают женщин на работу. Нуклеарные семьи исчезают с появлением сельского хозяйства, появляются вновь с индустриализацией и начинают приходить в упадок с переходом к постиндустриальной эре. Люди могут со временем приспособиться ко всем этим изменившимся условиям, но скорость технологических изменений зачастую может превышать скорость социального приспособления. Когда производство социального капитала не способно удовлетворить потребность, обществам приходится платить за это дорогую цену.
В обществе происходят два процесса, развивающихся параллельно. В политической и экономической сфере история яв-

ляется прогрессивной и линейной, и в конце XX века кульминацией этого стала либеральная демократия как единственный жизнеспособный выбор для технологически развитых обществ. В социальной и моральной сфере, однако, история, кажется, является цикличной, и социальный капитал убывает и возрастает на протяжении жизни многочисленных поколений. Нет ничего, что гарантировало бы рост социального капитала в цикле. Единственное основание для надежды – это очень мощные внутренние человеческие способности к воссозданию социального порядка. От успеха этого процесса воссоздания зависит, будет ли стрела Истории направлена вверх» (с.383-384).

17. Ионин Л. Основания социокультурного анализа, с.5.

18. Валлерстайн И. Конец знакомого мира. Социология XXI века. М., Логос, 2004, с. 292.

19. Гидденс Э. Ускользающий мир. Как глобализация меняет нашу жизнь. М., Весь мир, 2004, с88-89.

20. Этциони А. От империи к сообществу: новый подход к международным отношениям. М., Ладомир, 2004, 384 с. Определяя основания такого общества, Этциони пишет: «Во-первых, оно опирается на тщательно выстроенный баланс между автономией и общественным порядком. (Под термином «автономия» подразумеваются индивидуальные права, демократическая форма правления и свободный рынок. Под «общественным порядком» - система, основанная как на государственном принуждении, так и на неформальном общественном контроле нормативного характера, то есть на так называемой жесткой и мягкой власти)…

Во-вторых, в справедливом обществе постоянно пересматривается соотношение между автономией и порядком…

Наконец, чем сильнее общественный порядок опирается на убеждение и неформальные средства (то есть на нормативный контроль), тем меньше он зависит от государства и чем уже спектр видов деятельности, контролируемых правитель-

ством, тем ближе общество к идеальному состоянию» (с. 31-32).
21. Этциони А. От империи к сообществу: новый подход к международным отношениям, с. 99.
22. Петер Л. Бергер, Бриджит Бергер, Рэндалл Коллинз. Личностно-ориентированная социология. М., Академический Проект, 2004, с. 400.
23. Петер Л. Бергер, Бриджит Бергер, Рэндалл Коллинз, с. 436
24. Гидденс Э. Ускользающий мир. Как глобализация меняет нашу жизнь, с. 62

Füzuli QURBANOV,

MODERNLƏŞMƏ FƏLSƏFƏSİ VƏ AZƏRBAYCAN

“Modernləşmə məktəbi” keçən əsrin 1950-1960-cı illərində ABŞ və Qərbi Avropa ölkələrində nəzəri sistemlərin ümumi adıdır. Geosiyasi mənada onun yaranması səbəbi üçüncü dünya müharibəsindən sonra “üçüncü dünya” ölkələri qrupunun meydana çıxmasıdır. Siyasi olaraq həmin qrup ölkələrinin sosialist inkişaf modelinə alternativ xətt üzrə inkişafını təmin etməsi nəzərdə tutulmuşdu. Nəzəri olaraq isə onları ənənəvi cəmiyyətdən industrial cəmiyyətə keçid dövründə inkişaf proseslərini izah etrmək və proqnozlaşdırmaq üçün yaradılan elmi konstruktlar kimi qiymətləndirmək olar. Bu elmi sistemlərin ümumi metodoloji əsası M.Veberin “ideal tiplər” haqqındakı təlimi, təkamülçülük və funksionalizm təşkil edir. Modernizasiya nəzəriyyəsinin qaynaqlarında ameriakn filosof və sosiloqları T.Parsons, S.Lipset və R.Bendiks dururlar [1, s.128]. Modernləşmə nəzəriyyələrini metodoloji aspektdə sistem-funksional (məsələn, M.Levinin nəzəriyyəsi), prosessual

(B.Hozelitsin nəzəriyyəsi) və komparativ-tarixi (S.Blek, A.Qerşenkronun nəzəriyyəsi), fənn aspektində isə sosioloji (N.Smelzerin nəzəriyyəsi) və iqtisadi (U.Rostounun nəzəriyyəsi) növlərə bölürlər. Fərqli klassifikasiyalar da ola bilər.

Modernizasiya paradiqmasının C.Hantinqton tərəfindən müəyyənləşdirilən əsas müddəaları aşağıdakılardır: "Modernləşmə - inqilabi, kompleks, sistemli, qlobal, uzunmüddətli, sürəkli, mərhələli, homogenizik (öncələr heç bir oxşarlığa malik olmayan cəmiyyətlərin ümumi keyfiyyətlərə malik olması), geridönməz və mütərəqqi prosesdir" [2, s. 28-31; 3, s.30-31].

Onu demək lazımdır ki, modernizasiya nəzəriyyələrinin müəllifləri bir müddəadan çıxış edirlər – cəmiyyətlər ənənvi və müasir növlərə bölünürlər. Onların mövqelərinə görə, ənənəvi cəmiyyətlərin müasir cəmiyyətlərə çevrilməsi ictimai-tarixi tərəqqinin əsasını təşkil edir. Ənənəvi cəmiyyətlər modernəqədərki mərhələ hesab olunur. Müasir (modern) cəmiyyətin isə əsas özəllikləri aşağıdakılar hesab olunur:

1) Hər bir fərdin mülkiyyət və ondan istifadə etmək hüququ vardır;
2) Müxtəlif iqtisadi və sosial maraqların və birliklərin azad formalaşması və leqallaşması;
3) İnsanın vətəndaş və siyasi hüquqlarının qəbul edilməsi və möhkəmlənməsi;
4) Hakimiyyətin nümayəndəli (seçkili) bölünməsi və idarəedilməsi;
5) Siyasi plüralizm;
6) Şaquli və üfüqi sosial mobillik;
7) Rasional bürokratiya.

Mütəxəssislərin dəyərləndirməsinə görə, bu cəhətlər toplu halında Qərb demokratiyasının "ideal tipini" (M.Veber yada düşür) təşkil edir. Deməli, müəyyən mənada modernləşməni cəmiyyətin bütün sahələr üzrə transformasiyalar nəticəsində yuxarıda sadalanan keyfiyyətlərə bu və ya digər dərəcədə malik olmasını təmin edən proses kimi təsəvvür etmək olar. Məsələ ondan ibarətdir ki, bu

“ideal tiplərə” malik olmaq mexanizmi universal deyil – cəmiyyətdən cəmiyyətə fərq vardır və bir yerdə effekt verən xətt digərində fəlakətlərə aparır. Latın Amerikası və Çinin təcrübəsi bunu təsdiq edir [bax: məs., 4 və 5]. Ona görə də modernləşmə ilə bağlı hər bir nəzəri sistemə mümkün variantlardan biri kimi baxmaq lazımdır. Eyni zamanda, bu, hər bir cəmiyyət üçün ayrıca nəzəri və metodloji sistem qurulması zərurətini qəbul etmək gərəkdir. 1) Modernləşmənin öncəki konseptual sxemlərlə müqayisədə daha böyük dəyər verilməsi;

Yuxarıda deyilənləri ümumiləşdirsək, modernləşmə fəlsəfəsinin Azərbaycana tətbiqi ilə bağlı aşağıdakı müddəaları irəli sürə bilərik:

1. Modernləşmə mürəkkəb və ierarxik quruluşa malik prosesdir. O, bütöv proses olaraq ümumi xarakteristikaya malik olduğu kimi, hər mərhələdə özəl fəlsəfi-metodoloji konstruktların hazırlanmasını tələb edir. İerarxiyanın bir səviyyəsindən digərinə keçid mexanizmləri və hər mərhələnin dinamikasının tədqiqi ilə proqnozlaşdırma paralel aparılmalıdır;

2. Modernləşmə prosesləri yeni strukturların formalaşması və fluktuasiyaların əhəmiyyətinin artması ilə xarakterizə olunan bifurkasiya fazasıdır. Başqa sözlə, modernləşmə yüksələn xətlə inkişaf edən proses deyil – o, təkamüllə bofurkasiya zonalarının (böhran mərhələsinin) vəhdətindən ibarətdir. Bu baxımdan modernləşməni bütövlükdə bifurkasiya fazası, yeni informasiyanın yaranması prosesi kimi təsəvvür etmək olar. Həmin mənada modernləşmə kommunikativ mahiyyətli avtopoyetik, yəni öz-özünüyaradan prosesdir. O, sosial sistemin ətraf mühitlə daimi təmasları şəraitində bütövlüyünü qorumaqla harmoniyaya nail olmasıdır;

3. Modernləşmə variativ və alternativliyin mövcud olduğu prosesdir ki, subyektiv faktorun əhəmiyyəti hiss ediləcək dərəcədə artır. Modernləşmə prosesinin taleyi həmin mənada bifurkasiya zonasında şəxslərin fəaliyyətindən asılıdır. Tarixi şəxsiyyətlər əsasən həmin məqamlarda formalaşır;

4. Modernləşmə çoxlu sayda faktorlarla şərtləndiyindən onun istiqaməti və nəticələri birmənalı deyil: sosial, siyasi, iqtisadi transformasiyaların nəticələri müsbət və ya mənfi ola bilər. Bu da modernləşmə prosesində risq faktorunun nəzərə alınmasını və proqnozlaşdırılmasını zərurətə çevirir;
5. Modernləşmə prosesinin aparılması cəmiyyətin islahatlarında müəyyən ardıcıllığın olmasını tələb edir; demokratikləşmədə "qabağa qaçmaq" siyasi modernləşməni yavaşıda və demokratiyanın uğurlarına kölgə sala bilər. Fəlsəfi-metodoloji aspektdə bu, sosial sistemin modernləşməsi zamanı onun altsistemlərinin yeniləşmə templərinin uyğunlaşdırılmasını zəruri edir. Yeniləşmə ritmlərinin uyğunsuzluğu çox müxtəlif fəsadlar verir, o cümlədən sosiomədəni parçalanma baş verir;
6. Dövlət və vətəndaş cəmiyyəti tərəfindən nəzarət olmadan modernləşmənin neoliberal modelinin həyata keçirilməsi, cəmiyyətin differensiasiyasının güclənməsinə, əhalinin həyat səviyyəsinin kəskin aşağı düşməsinə, iqtisadiyyatın monopolizasiyasının güclənməsinə və Transmilli Korporasiyaların nəzarətinin artmasına gətirib çıxarır. Bu məqam modernləşmə zamanı idarəetmədə risq faktorunun yerinin və rolunun elmi olaraq öyrənilməsini tələb edir. Əsas fikir modernləşmənin faktiki olaraq idarəetmə məsələsi olmasına gəlib çıxır;
7. Sosial sistemin modernləşməsinin effekti onun nə dərəcədə sivil əsaslarla uyğunlaşmasından və sosiumun ənənəsinin nəzərə alınmasından asılıdır. Yəni modernləşmə ənənə ilə innovasiyalılığın dialektikasının nə dərəcədə gözlənilməsindən birbaşa asılıdır. Bu isə sosial-mədəni həyatın çox müxtəlif aspektləri üzrə ənənənin yeniləşmə ilə optimal nisbətinin tapılmasını tələb edir. Tarixi, siyasi və sosiomədəni varisliyi aktuallaşdırır;
8. Modernləşmə mərhələsində milli ideyanın, siyasi və mənəvi dəyərlər sisteminin əhəmiyyəti artır. Bu məqam sosial-mədəni transformasiyaların yekun effektini sinergetik çərçivədə ifadə edir. Söhbət faktiki olaraq mikro səviyyədə baş verən

transformasiyaların makromiqyasda hansı effektləri yaratmasından gedir. Bu mənada sosial-mədəni transformasiyaların sinergizmi sosial sistemin bütövlükdə özünütəşkil keyfiyyətinə malik olmasını ifadə edir. Onun ayrıca tədqiq olunmasına və məxsusi fəlsəfi-metodoloji özəlliklərinin aydınlaşdırılmasına böyük ehtiyac vardır.

Təbii ki, bu məqsədlərə nail olmaq üçün ölkəmizin aparıcı elmi müəssisələri qüvvələrini birləşdirməlidir. Yuxarıdakı təhlildən də göründüyü kimi, bu, hər hansı bir sahə üzrə tədqiqatçıların işi ola bilməz. Azərbaycan üçün modernləşmənin elmi-nəzəri konsepsiyasını hazırlamaq üçün elmlərarası tədqiqatlar lazımdır. Bu tədqiqatların məqsədyönlü şəkildə aparılması vacib şərtdir. Onu reallaşdırmaq üçün isə AMEA-da tədqiqatları koordinasiya edən yaradıcı qrupun formalaşdırılması yaxşı olardı. Bu yaradıcı qrup modern cəmiyyətin qurulmasının fəlsəfi, metodoloji, elmi-nəzəri modellərini hazırlaya bilərlər. Humanitar və təbiət elmlərinin qarşılıqlı əməkdaşlığı şəraitində bu vəzifənin öhdəsindən gəlmək olar. Əslində bu vəzifə akademik Ramiz Mehdiyevin "Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq" adlı məqaləsində aşağıdakı şəkildə müəyyənləşdirilmişdir: "Hesab edirəm ki, Milli Elmlər Akademiyasının Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu (indiki Fəlsəfə, Sosilogiya və Hüquq İnstitutu – F.Q.) ölkənin inkişafının aktual problemlərinin araşdırılmasına, Azərbaycanda siyasi təsisatların indiki vəziyyətinin, habelə ölkənin modernləşməsinin uzunmüddətli planları kontekstində demokratiyanın milli (Azərbaycan) modelinin tədqiqinə rəhbərlik etməlidir. Qarşıdakı sosial və siyasi dəyişiklikləri nəzəri baxımdan müvafiq şəkildə əsaslandırmadan, həyata keçirilən tədbirlərin zəmininin varlığından danışmaq çətin olacaqdır" [6, s.4]. Bizim təhlillərimiz də bu vəzifənin yerinə yetirilməsi zərurətini tam başa düşməyimizdən irəli gəlib. Bizcə, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu bu tədqiqatlara rəhbərlik etməyə hazırdır.

Ədəbiyyat:

1.Согрин В.В. Теоретические подходы к российской истории конца XX века. // Общественные науки и современность. – 1998. – № 4. С.124-137.
2. Опыт российских модернизаций XVIII – XIX веков. / РАН УрО ИИИА; Отв. ред. В.В. Алексеев. – М. Наука. 2000. – 246 с.
3. Huntington S.P. The Change to Change: Modernization, Revelopment and Politics // Comparative Modernization: A Reader /Ed. by C.E. Black. N.Y.; L., 1973.
4. Шереметьев И.К. Латинская Америка: кризис неолиберальной модели. //Латинская Америка, 2003, №2.
5. Яковлев П.П. Аргентина цикл иллюзий и разочарований // Латинская Америка, 2002, №№ 5-6.
6. Mehdiyev R. "Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq" // "Xalq qəzeti", 30 dekabr 2008-ci il.

Нийази МЕЩДИ

A.F. LOSEVİN AZƏRBAYCAN FƏLSƏFƏSİNƏ TƏSİRLƏRİNDƏN

Aleksey Fyodoroviç Losev təkcə fəlsəfəsi ilə yox, yaşamı ilə də adi insanların şüurunu bürümüş qəliblərə qalib gəlmiş kəslərdəndir. «Adi insan» dedim, «adi şüur» və ya «gündəlik şüur», «gündəlik bilinc» yadıma düşdü. İlk dəfə Losevdən heyrətlə oxumuşdum ki, gündəlik şüur ən böyük ftilosoflarda da var. Bu deyim ona görə məni təəccübləndirmişdi ki, böyük filosoflardan «böyüklüyün» mistikləşdirilməsini, romantikləşdirilməsini gördüyüm və gözlədiyim bir durumda Losev mənim kimilərini ayıltmışdı ki, qavrayış darısqallığına

düşüb başına gələn olayları geniş kontekstdə götürə bilmədiyi üçün paxıllıq etmək, üzüntü keçirmək, yaxınlarının gün-dirriyini xırdaçıllıqla zəhərləmək böyük və hətta dahi filosoflarda, alimlərdə də olur. A.F. Losevin bu deyimi, beləcə, Martin Haydeqerin nasist partiyasında bulunmasına, Lev Tolstoyun kürlük edib arvad-uşağının başına min oyun açmasına, Dostoyevskinin nifrət etdiyi çarı birdən-birə sevməsinə (bununla bağlı Freydin ayrıca açımı var) öz işığını salmışdı.

Bəs yaxşı, indi ki bu haşiyəyə çıxdım, onun araçılığı ilə Losevin yaşam və yaradıcılığından nələr açılır? Birincisi, ondan başladım ki, bu yaşam, - indi isə yaradıcılığı da artırım, - gündəlik bilincimizin (şüurumuzun) qəliblərinə sığmır. Çünki həmin qəliblər deyir ki, fəlsəfə ilə geniş və dərindən məşğul olmaq riyaziyyata, musiqiyə və s.-yə macal qoymur. Losevsə özündə filosofu, riyasiyyatçını, skripkaçı-musiqiçini və poliqlotu (ən azı yunan, latın, alman dillərini bilməyi) birləşdirirdi. Bir də həmin qəliblər deyir ki, məşəqqətli günlər keçirmiş adamın sağlamlığı sınır və o çox yaşamır. Losev isə Stalin türməsini görmüş, İkinci Dünya Savaşının ağır günlərini yaşamış, görmə bacarığını, kitabxanasını, arxivini itirmiş adam olmasına baxmayaraq, düz 95 il ömür sürmüşdü (1893-1988). Ona 1930-cu ildə 10 il iş kəsib Belamorkanal tikintisinə göndərimşdilər. Ancaq 1933-cü ildə korlaşdığına görə və Belamorkanal tikintisində «əmək zərbəçiliyinə» görə onu azad edib, sonra da Moskvada yaşamaq və işləməyə icazə vermişdilər. Hərçənd Stalin ölənəcən Losevin icazəsi yox idi ki, kitablarını çap etsin. Bu icazə ona yalnız sonralar verildi və həməncə də korluğa görə bizim kimi oxuyub yaza bilməyən adamın möcüzəsi baş verdi. 1957-ci ildə o, «Antik mifologiya özünün tarixi gəlişməsində» kitabını çıxardı, 1963-dən başlayaraqsa çoxcildli «Antik estetika tarixi»ni çap etməyə başladı. Bu azman kitablar 70-ci illərdə aktiv elmi işə başlamış mənim kimi azərbaycanlıları düşüncə və faktlar bolluğuna görə mat qoymaya bilməzdi. Losevin «Antik estetika tarixi» ilə ilk tanşılıqda mən hələ bilmirdim ki, o çoxdandır görməsini itirib. Biləndə «gündəlik bilincin» yüksək intellektualları da öz

məngənəsinə aldığını söyləmiş bu adamın gündəlik şüura necə qalib gəldiyini görüb şaşırdım. Losev böyükləri bizə yaxınlaşdırmağa çalışsa da böyüklərin və böyüklyüyn mistikasını da bizə göstərmiş oldu.

Bu dəyərli tərcümənin girişində, məncə, çox yaxşı olardı belə bir məsələni açmaq: Losev Azərbaycan intellektuallarına nələri verib, nələrdə onları təsirləndirib? Məmləkətimizin çoxlu parlaq düşüncə adamları var, ancaq onlardan Rəhman Bədəlovun, Əli Abasovun, Aydın Talıbzadənin Losev «paradiqmalarında» dəyişdiklərini mən dəqiq bilirəm. Sadaladığım kəslərin özlərinin təsir çevrəsi var və Losev «paradiqmaları» onların araçılığı ilə bu çevrəyə də transformasiya edib.

Sözsüz, mən Losevşünas olmadığım üçün onun fəlsəfi yaradıcılığındakı novatorluğunu geniş biçimdə açа bilmərəm. Bu dərin filosofun kimlərdən nələri götürdüyünü də tam əhatə etmək mənim üçün imkansızdır. Onun üçün də bildiklərimlə yetərlənib Giriş tekstini onların üstündə qurum. Birinci tanışlıqda Losev tekstlərində mənə təsir edən onun yazılarındakı danışıq intonasiyası, danışıq tərzi idi. Artıq, 50-ci illərəcən Sovet marksizmində Marksın, Engelsin ifadəli düsturlarla oynayan dili, Leninin ekspressivlik üçün meydan çıxışlaprının qabalığında olan deyimlərlə «naxışqlanmış» tekstləri, Stalinin qafqazlı düşüncə tərzini danışığa çevirmiş manerası ortadan getmiş və bunun sonucunda marksist-leninçi fəlsəfənin dürlü sahələri üzrə yazılan kitab və məqalələri darıxdırıcı akademizm xəstələiyinə tutulmuşdu. Bax, belə bir durumda mənim kimi oxuculara Sokratdan, Platondan, Aristoteldən və başqa bu kimi böyük filosfolardan danışan Losevin incəlik və çalarlarla oynayan tekstlərinin bəzən ərkyana, bəzən, hətta qaba deyimlərə keçməsi çox təsir etmişdi. Bu dediyim ərkyanalığı və qabalığı belə formullaşdırmaq olar: «Platonda filan şeydən bir qırnıq da tapmaq olmaz», «Bu, Aristotel bacaran şey deyildi» və s. Losevin, beləcə, fəlsəfi üslubunda akademik yazı tərzi ilə ərkyana-loru danışığın leksikonu və intonasiyası çox təsirli şəkildə oyuna girmişdi. Həmin çağda Azərbaycan fəlsəfəsinin dili

rusca fəlsəfi yazıların dilindən daha darıxdırıcı, daha ölgün, çərənçi idi və bu fonda Losevə heyran olmaya bilməzdik.
Onun «Antik estetika tarixi» kitabında məni şaşırdan metodoloji prinsiplərdən biri irrelevant (dəxli olmayan) sayılanları relevant etmək idi. Fəlsəfənin bir çox problemləri, məsələn, Tanrı, materiya, kateqoriyalarla düşünmək və s. problemləri estetikaya irrelevant sayılır. Losevin kitabı isə fəlsəfənin nəyi varsa, hamısını estetika üçün relevantlaşdırdı. Öncə mənə elə gəlirdi və əslində, bunu eşitmişdim də ki, bu Sovet senzurasını və ideolojisini çaşdırmaq üçündür: yəni mənə fəlsəfə tarixindən yazanda nələrisə necəsə deməyi qoymayacaqsınız, ona görə də bütün bunları «etsetika tarixi» adı altında edəcəm.
Ancaq sonra gördüm ki, Losevin fəndi üzdən getmə, mexaniki əvəzləmə deyil, yəni sadə ad dəyişdirməsi deyil, dəyişdirəndə köklü dəyişdirmədir. Ən azı ona görə ki, irrelevant sayılmayanları irrelevant etmək fəlsəfəni ilginc, maraqlı edən maneralardandır. Fəlsəfə həmişə darıxdırmağa, əsnətməyə meyillənmək qorxusu altındadır və filosoflar onu ilginc etmək üçün «icadlar» etməyə məhkumdurlar. Düzü, Losevi bu icadın müəllifləri sırasına sala bilmərəm. Haydegerin bir deyimi, diskursu var: iki nəfər danışığında yüksək materiyadan söz edə bilər, fəlsəfənin bütün həşəmətli anlayışlarını, kateqoriyalarını oynada bilər. Ancaq dərindən baxsan, görərsən ki, bu söhbətdə bir qırnıq da fəlsəfə yoxdur. Başqa iki nəfər söhbətlərində heç bir fəlsəfi kateqoriyadan istifadə etməyə bilər, ancaq buna baxmayaraq görərsən ki, söhbət fəlsəfə bolluğuna tutulub. Haydegerin özü «Nəsnə» («Şey») adlanan bir məqalə yazmışdı, orada dolçadan danışırdı və yazar bu nəsnəni fəlsəfə üçün relevant etmişdi. A.F. Losev, bax, bu anlamda özünün estetikasına estetikaya irrelevant sayılan çoxlu nəsnələri, çoxlu məsələləri qatmaqla marksizmin fonunda onu çox ilginc etmişdi.
Estetikanı yayımlı, tutumlu etmək üçün estetiklik anlayışını elə etmək gərəkdir ki, genişlənməkdən çat verməsin. Losev mənim üçün ilk dəfə bu işi yüksək səviyyədə görən alimdir. O, Antik estetika üzrə araşdırmalarında anladır ki, estetik nəsnə bütün

ifadəli olanlardır və deməli, esetiklikdə ekspressivlik göstəriciləri önəmlidir. İfadəli olan elə nəsnə və olaydır ki, onun içi dışından, məzmunu formasından gur, bol, maksimum və təsirli bilinir. Eybəcər adam da, qurbağa və ilan da, ceyran da ifadəli olduqları üçün estetik olurlar. Götürün gözəl, eybəcər, ucaman, alçaq (rəzil) nəsnələri, komik, faciəvi hadisələri - onların hamısı ifadəli olduqları üçün estetik hadisələrdir. Deməli, onların hamısına bir ad - «estetik hadisə», «estetik nəsnə» adını verməyimizin səbəbi bir əlamətdə birləşmələridir. Onları birləşdirən odur ki, hamısı ifadəli hadisələr kimi güclü, təsirli bilintidədirlər. Elə-belə görünüş eybəcər olmur, çünki eybəcər olan da bizə güclü təsir etməlidir. Elə-belə görünüş gözəl olmur, çünki gözəl olan da bizə güclü etgi, təsir göstərməlidir.

O ki qaldı gözəlliklə eybəcərliyin fərqinə, gözəl nəsnələrdə, hadisələrdə bizim yaxşı saydıqlarımız, müsbət hesab etdiklərimiz güclü, təsirli şəkildə bilinməlidir. Bəs insan üçün müsbət olanlar hansılardır? Bilikdə doğru, əxlaqda yaxşı, ərənlik, yanımcıllıq, dində möminlik, həlimlik, siyasətdə azadlıq, demokratiya və s. Uyğun olaraq eybəcərlikdən, çirkinlikdən, bizə onlara tərs olan mənalar, yəni böyük mənfiliklərdən doğmuş mənalar yağmalıdır («yağmaq» elə şiddətli bilinməyi anladır). Bilikdə yalan, əxlaqda xainlik, paxıllıq, amansızlıq və s., mənfi olanlardır. Dində küfr, siyasətdə fəndgirlik kim üçün pisdirsə, onu güclü bildirən davranışlar, hadisələr, adamlar eybəcər olacaq. Kim üçün müsbətdirsə, tərsinə, belə dindara, belə siyasətçiyə gözəllik qavrayışındla tamaşa edəcək. Ortaçağ Azərbaycanında gözəlin üzünün, xalının «Kəbə» adlanldırmsını küfr sayanlar Füzuli şeirlərini gözəl sayammmazdıldar. Ancaq sufi «küfrlərindən» sonra bəzən küfrün dərində ibadət olduğunu bilənlər o şeilərə valeh olurdular. Eləcə də çağımızda, kimə sürtülmüş cins şalvarlardan yağan köhnəlik, səliqəsizlik mənfidirsə, həmin şalvar çirkin görünəcək. Və tərsinə, kim cinsdən gur şəkildə yağan əskilikdə, səliqəsizlikdə yaradıcı, sərbəst adamın azadlığını görəcək, o şalvarı gözəl sayacaq. Bax, Losevin estetiklik düsturunun belə anlatma gücü var.

Mən demirəm ki, bu deyilənlər tam orijinaldır. Əslində Losev orijinallığa elə də iddia etməyərək özünün estetikliklə bağlı açımına Sokratda, Platonda, Aristoteldə, Plotində, Hegeldə yetərincə «əcdadlar» axtarırdı. O, nəyi irəli sürürdüsə, onu ünlü filosofların söylədiklərində bulunan ideyalar kimi bizə verirdi. Ona görə də Losevin açımları titrəntilər verir, yəni donub qalmır, səndə qaldıqca, başqa filosofları oxuyub düşündükcə vibrasiya edir. Onun kitablarına girişəndə dünya estetikasını və fəlsəfəsini yaxşı bilmirsənsə və ya yaxşı yadında saxlamırsansa, yazısının ovsununa düşərək tam yeni ideylar almış kimi özünü duyursan. Ancaq sonra kimisə oxuyanda və ya yadına salanda görürsən ki, Losevin hansısa ideyasının çıxış nöqtəsi buradandır. Maraqlıdır ki, bu zaman özünü aldanmış da saymırsan. Çünki bu gözəl rus filosofu, axı, ideyalarının çıxış nöqtələrini gizlədən plagiatlar və kompilyatorlar manerasında yazmır. O biri yandan, yazdıqlarını elə yazır ki, hətta nədən çıxmışdısa, onun yanına qoyanda onun quru təkrarı, eşi, ekizi kimi görünmür.

Mən gəncliyimdə yalnız sonralar gördüm ki, Losevin estetikliyin nəliyi ilə bağlı söylədikləri Hegelin gözəllik formulasına yaxındır. Böyük alman filosofu «nə üçün nəsə bizə gözəl görünür?» sorusunun cavabında göstərirdi ki, ondan bizim qavrayışımıza həqiqət dolğunluğu axır, ona görə. Hegel, sözsüz, demirdi ki, gerçək, həqiqət nəsnədən, olaydan **ifadəli, yəni güclü (təsirli) bilinəndə** gözəllik alınır. Deməli, həqiqətin elə-belə bilinməsi hələ gözəllik vermir. Bunu Losev deyirdi. Ancaq hər halda Hegeldə, ondan qabaq isə Şellinqdə gözəlliklə ilişgidə iki plan, iç və dış plan, məzmun və forma, birincinin ikincidən bilinməsi, ikincidə təcəssüm etməsi vardı. Losev isə bütün bunlara bircə şeyi - ifadəli bilinməyi artırmış, sonra isə ifadəlilik əlamətində təkcə gözəlliyi yox, eybəcərliyi, komikliyi, faciəviyi də bildirmişdi.

Estetikliyin bu açımına görədir ki, Losevin əlinizdə tutduğunuz kitabı, - «İntibah estetikası» Dirçəlik kültürü ilə bağlı hər şeydan danışır, çünki hər şeydə içəri və dışarı var, eləcə də hər nəsnədə içəridə olanın dişarıda olandan necə bilinməsi var. Əgər kitabda

Neoplatonizmdən danışılırsa, axı, o, Dirçəliş mədəniyyəti üçün nəsnə və olayları özünə uyğun biçimdə semantikləşdirirdi, mənalandırırdı. Bəs Neoplatonizmin ierarxik pillələri, bəyəm, onlar içindəkiləri güclü, təsirli bildirən biçimlər, formalar deyildimi?!

Losevdə estetikliyin genişliyinə görədir ki, İntibah estetikası titanizmin astar üzündən tutmuş, İntibahın məişət tipinəcən ən gözlənməz davranış varipantlarını, ən gözlənməz psixoloji halları, ən gözlənməz əşyaları estetikanın faktı edir.

Görürsünüzmü, necə olurdu, Losevin Klassik Alman fəlsəfəsindəki «içərinin dişarıdan» necə bilinməsi düsturu ilə bağlı təkrarından təkrarçılıq alınmırdı, necə olurdu, Losevin filosofları açması bizi təkcə o filosofların dünyasında yox, həm də Losev dünyasında gəzdirirdi?!

Dediyimi bir materialda da sınağa çəkim. Losevdən götürüb indiyənəcən saxladıqlarımdan biri «eydos» ideyasıdır. Əslində, «eydos» «ideya»nın ilkin yunan deyilişidir, sonradan ikinciyə transformasiya etmişdir. Yanılmıramsa, «ideya»dan «eydosa» doğru qayıdışdan çoxsonuclu fəlsəfə yapmağa Husserl girişmişdi (Losevə bərk təsir edənlərdən biri də odur). Bizim gözəl rus filosofu isə «eydetiçnost» («eydetiklik») kimi morfoloji ruslaşdırma ilə önəmli bilgilər ortaya çıxarır. Məsələn, göstərir ki, əski yunanlarda «eydos» nəsnələrin nəliyini tipik görünüş planında göstərməyi bildirirdi. Doğrudan da, uaşqalar baş çevrəsinə düz cızıqlarla qaşlar, burun, ağız qoyanda adamın, yunansayağı desək, eydosunu verirlər. Və ya başqa örnək gətirək: suyun nəliyini H_2O formulasında açılan mahiyyətlə anlatmaq olar. Eləcə də su üçün xarakterik görünüş olan yumşaqlıq, duruluqla göstərmək olar. Bunlardan ikincisi suyun eydosudur, birinci isə suyun ideyası, anlayışıdır. Avropa düşüncəsi, beləcə, eydosdan ideyaya keçərək mahiyyəti, dərinliyi mənimsəmişdir. Ancaq bu zaman eydetiklyin fəlsəfədə itməsinə cavab olaraq incəsənət eydetikləşdirmək axtarınşında bulunmuş, Husserl kimi filosoflarsa eydetiklik məsələsini qoymuşlar.

Əslində Losevin bizim hətta ağıllılarımızda da adi bilincin olması ilə bağlı söylədiklərini indi biz belə çevirə bilərik ki, gündəlik şüurun sözlərinin çoxu özündə ideyanı yox, eydosu daşımaqla komunikasiya işini görə bilir. Hətta kimyaçı da mətbəxdə arvadı ilə su üstündə dalaşanda «suyun» arxasında H_2O-nu yox, eydosu, tipik görünüşü görür.

Losev rusca «eydosu» anlatmaq üçün deyirdi ki, o, nəsnənin «çtoynostunu» (nəliyini) bildirir. Bu «çtoynost» Azərbaycan türkcəsinə də yardım edə bilər. Ərəb ağırlığında olan «şeyin mahiyyəti» deyimindən qurtulmaq istəsək, «nəsnələrin nəliyi» deyə bilərik.

Mən Losevin eydos üstünə yazdıqlarından sözün semantikasına çıxdım və bunun özü rus filosofunun adama necə yaradıcı, verimli düşüncələr aşılamasına tanıqdır. Eydetiklik Losevdə çox yönümdə özünü göstərir. Axı, plastiklik də eydetiklikdir. Losevdə yunanlarla bağlı məni duyğulandıran düşüncələrdən biri o idi ki, bu ulusun dünyagörüşündə kosmos sonlu, skulptur, yəni heykəl kimi qabartıları, plastikliyi olan düzümdür. Beləcə, Losev yunanların mentalitet özəlliyini söyləmək istəyəndə eydetiklik ideyası onun dadına çatırdı. Düzdür, ondan öncə XVİİİ-XİX yüzil alman düşünərləri (Lessinq, Vinkelman, Hegel) yunan dünyaduyumunun plastikliyini bilmiş və hətta bunun üçün Laokoonda tipik örnək tapmışdılar. Losevdə isə bu plastiklik eydetikliklə birləşir. Beləcə, çox ilginc ideyalar tarixi, yəni bir düşüncədən başqasının doğub çıxması tarixi alınır. Yeri gəlmişkən, Losev təkcə yunanlarda eydetik plastikliyi görmürdü, yunanlardan bunu götürüb öz fəlsəfəsinin paradiqmasına çevirirdi, çünki onun fəlsəfi söyləmləri əvvəl-axır eydetik düsturlarada qurtarır.

Mən öz timsalımda görürəm ki, Losevlə oxucu ilişgilərində sinxron səs-səsə verməkdən tutmuş, sonradan sonuclar verməyəcən bir çox cızıqların trayektoriya oynartısı baş verir. Məsələn, bir vaxtlar ondan oxumuşdum ki, monotesit dinlərdəki tək Tanrı ilə Platon, Aristotel, Plotin kimilərinin yapdığı fəlsəfədəki tək Tanrı arasında fərq odur ki, birincidə Tanrı şəxsiyyət biçimindədir. O zamanlar bu dşüncə mənə maraqsız və

mübahisəli görünmüşdü, yəni bəyəm Zevs, Prometey şəxsiyyət biçimində deyillər?!
Ancaq neyçünsə bu «maraqsız» düşüncə içimdə düz 35 il qalmışdı. Görünür qalmışdı ki, 35 ildən sonra birdən sonuc versin. Zevsin (Prometeyi demirəm, onda məsələ bir az müşküldür) şəxsiyyət biçimində olmasını Hegelin estetikası danır, göstərir ki, Romantizmdən öncəki dönəmdə şəxsiyyətdən danışmaq olmaz, çünki şəxsiyyətin dramatik dərinliyi olmalıdır. Əsas məsələ isə odur ki, Platonun Yaxşı (Fəzilət) biçimində açılan tək Tanrısı, Platonun Nus (Ağıl kimi açılan) tək Allahı, Plotinin Təkcəsi doğrudan da İisus Xristosda təcəssüm edən şəxsiyyət biçimlərində deyillər. Onlar sırf fəlsəfi anlayışlardır, duyğusallaşmamış, insanın psixolojisinə doğmalaşmamışlar. O filosoflarda dünya və Tanrı ilişgisi də fəlsəfi dildə açılan münasibətlərdə verilir. Halbuki İudaizmdə Tanrı başlayır özünü insanın anladığı duyğusallıqda, psixolojilikdə anlatmağa. Tanrı belə danışanda qaçılmaz olaraq personlaşır. Eləcə də Tanrı əgər Qurani-kərimi insana nazil etmək düşüncəsinə gəlirsə, personlaşmalıdır ki, bu kitabın müəllifi olsun. Yəni Losevdən sonra biz söyləyə bilərik ki, İslamda Allahın şəxsiyyət biçimində açılması Quranı bizə söyləməsindədir və Quranın tekstinə həm də Tanrı personlaşmasının manifestasiyası, bilintisi kimi baxmaq gərəkdir. Belə baxanda və ya yanaşanda isə biz İslamın bir özəlliyinə çıxırıq: o yeganə dindir ki, Allah-təalanın böyük, bir kitab boyda olan monoloji tekstindən çıxıb. Burada «böyük» sözü Qurani-kərimin həcmini bildirsə də təkcə say deyil, həm də keyfiyyətdir, ən azı «böyük kitab» anlamında keyfiyyətdir. Görürsünüzmü, Losevdən daşıdığımız bir diskurs sonralar necə cana gəlib ideya verir və hətta bu ideya bizə də dinimizin hansısa özəlliyini anladır.
İndiyənəcən Losevdən bir düşüncə də daş yazısı kimi bilincimə yazılıb. Bir məqaləsində irəlidə söylədiyim loruluqla o soruşur: bilirsən necə aydın edərsən ki, yazdığın iri tekst axmaq şey deyil? O tekstdən keçən başlıca ideyalarını yarım səhifəyə yaz. Əgər bu yarım səhifəlik mətn informativ, bilgili olsa, deməli, böyük teks-

tin də axmaq şey deyil. Losevin söylədiyi bu prinsipi indi mən dissertasiya avtoreferatlarının «Giriş»indəki «Yeniliklər» bölməsində görürəm. Bu bölmə dissertasiyaların «iç üzünü» dəhşətli bir sərtliklə açır. Yüzlərlə avtoreferat görmüşəm ki, iddiaçılar elmi rəhbərləri ilə birlikdə ora nə yazmağı bilmirlər. Ona görə də «birinci dəfə filan problemi hərtərəfli araşdırmışdır» kimi təsirsiz, ölüvay cümlələr yazırlar.

Biz yazanların hamısının elmdə böyük xidməitlərə iddisı var. Hamımıza təklif edərdim ki, yapdıqlarımıza Losev testindən yanaşaq: onları sıxıb yığcamlaşdıranda, ağıllı və təzə şeylər alınırsa, deməli, nəsə tapmışıq və yapmışıq.

Axırda deyim ki, Losevdən danışanda onun marksizmə baxışına toxunmamaq düz olmaz. Çünki o baxış da bu rus filosofunda nələrisə açır. İdealist fəlsəfi məktəbi keçib onun içində formalaşmış Losev Sovet markusizmi ilə uyğunsuzluğuna görə təbliğatda düşmənə çevrilmiş və bunun da üstündə türməyə düşmüşdü. Həbsxanadan qayıdandan sonra o, fəlsəfədə yaşamaq hüququnu almaq üçün yerli-yerində Marksdan, Lenindən sitatlar gətirməliydi və gətirdi də. Onun kitabları ilə ilk tanışlığımda gözləyirdim ki, Marksa, Leninə tərəf reveransları «ət tökəcək». 70-ci illərin erkənində bizlər yaxşı bilmirdik ki, Marks ən azı Almaniya Federativ Respublikasında yüksək tutulan fəlsəfi nüfuzdur. Adorno, Markuze, Fromm, Sartr kimi ünlü filosoflarda marksizmin dürlü transformasiyaları var, ancaq biz bunları da bilmirdik. Əvəzində bizim üçün Marksizmin bayağılaşmış Sovet variantı vardı və bu variantdakı eyni cümlələrin sitat verilməsindən, sözsüz, özünə görə parlaq düşüncəsi olan Leninin dahi filosof səviyyəsinə qaldırılmasınıdan Marksizm bizi bezdirmiş, bıkdırmışdı. Bax, bu durumda birdən gördüm ki, Losev tekstlərindən bilinən marksizm, hətta leninizm də məndə ikrah oyatmır. Sözsüz, Losev hamımızdan yaxşı bilirdi, Marks hara, Platon, Hegel hara. Ancaq həbsxananın, ideolojinin qorxusundanmı, ya kitablarını çap etmək istəyindənmi, o Marksizmə yer verəndə də çalışırdı ki, bunu fəlsəfə üçün təhqirə çevirməsin, sitat verəndə də ağıllı düşüncələri versin, bu sitatlara açım

verəndə də dərin açım vıersin. Bu səbəbdən də Losev tekstlərindəki Marksizm mənə mane olmadı, həmin tekstlərin qavrayışına ləkə gətirmədi.
Mən Losevdən iri həcmli nə oxumuşumsa, 20 il bundan qabaq oxumuşam. Sonralar nəyisə vərəqləmişəm, hansı məqaləsinə isə baxmışam. Hərçənd rastıma onun haqqında yazılmış nəsə çıxanda boş buraxmamışam. Elə bu axırıncı fakt və bir də 20 il sürəsində içimdə daşıdığım Losev ideyaları onun mənim timsalımda 70-ci illər nəslinə necə təsir göstərdiyini yaxşı açır. Bizdə mən «Losevin şinelindən çıxmış» filosof tanımıram. Ancaq A.F. Losev, SS. Averinsev, M. Baxtin, Y. Lotman ideyaları 70-ci illərdən paradiqmalara çevrilərək həmin və sonrakı onnilliklərin bir çox azəri intellektuallarına axtarış yönümləri, düşüncə düsturları verimşlər.

Əhməd QƏŞƏMOĞLU

MİLLİ, MÜSTƏQİL DÖVLƏTİN FƏLSƏFƏSİNİN QARISINDA DURAN MÜHÜM VƏZİFƏLƏR

İndiki vaxtda dövlətimiz milli inkişaf, mənəvi intibah məsələlərinə diqqəti xeyli artırmaqdadır. Hormətli prezidentimiz İ. Əliyevin hər bir çıxışında bu məsələlərə mühüm yer ayrılır. Prezident Adminstrasiyasının rəhbəri, akademik R. Mehdiyevin ardıcıl olaraq çıxan kitabları, məqalələri bu sahədə mühüm addımlardır və filosoflarımız, sosioloqlarımız qarşısına da mühüm vəzifələr qoyur. Təqdim etdiyim məqalədə bu istiqamətdə bəzi mülahizələrimi diqqətinizə çatdırmaq istəyirəm.
İndi Yer üzünü vahid, alt sistemləri arasında güclü əlaqələri olan bir sistem halına gətirən, sürətlə gedən qloballaşma prosesi özünün üç cəhəti ilə xarakterikdir: 1) qlobollaşma zəruri tarixi prosesdir- nəqliyyatın, rabitə, informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi indiki vaxtda qlobollaşmanın günü gündən

daha da böyük təcil alması labüddür; 2) bu tarixi prosesə nəhəng güc mərkəzlərinin təsir edərək öz maraqları yönündə istiqamətləndirmək marağı; 3) qlobollaşma prosesinin özünün ortaya cıxardığı problemlər. Sistem nəzəriyyəzi, sistemli yanaşma prinsipləri baxımından belə bir dövrdə hər bir milli, müstəqil dövlətin qarşısında iki mühüm vəzifə dayanır: 1) bir alt sistem kimi özünün daha da güclənməsi, tərəqqi etməsi ücün zəruri olan işlərin görülməsi; 2) vahid sistem kimi formalaşmaqda olan Yer üzünün daha da stabil vəziyyətə malik olması, tərəqqi etməsi üçün zəruri fəaliyyətin göstərilməsi. Hər iki vəzifənin lazımi şəkildə yerinə yetirilməsi üçünsə hökmən ciddi elmi araşdırmalara, ilk növbədə fəlsəfi təhlillərə, tövsiyyələrə olduqca böyük ehtiyac var.

İndiki dövrdə Yer üzü dövlətlər şəkilində bölünmüşdür və bu dövr dövlətlərin daha çox öz maraqlarına uyğun fəaliyyət göstərməsi ilə xarakterikdir. Təəsüf ki, bu fəaliyyətlər hələlik fəlsəfi baxımdan lazımi şəkildə əsaslandırılmamışdır. Yer üzündə indiki qlobollaşma prosesinin ciddi münaqişələr, dərin böhranlar, fəlakətlərlə getməsinin ən əsas səbəblərindən biri də məhz həmin bu elmi, fəlsəfi təminatın lazımi şəkildə olmamasıdır. Fəlsəfi təminatın arzu olunan səviyyədə olmamasınınsa əsas səbəbləri aşağıdakılardır:

1) İndi ortada olan mövcud elmi, fəlsəfi sistemin özü mükəmməl – reallığı lazımi şəkildə təhlil edə biləcək bir vəziyyətdə deyildir;

2) Fəlsəfə elminə, fəlsəfi təhlillərə lazımi şəkildə əhəmiyyət verilmir, onlardan istifadənənin nə dərəcədə zəruri olduğu aydın şəkildə təsəvvür olunmur;

3) Öz maraqlarına daha çox aludə olan nəhəng güc mərkəzlərinə fəlsəfi təhlil əl vermir, əksinə, mane olur.

4) Müasir siyasətşünaslığın fəlsəfi bazası zəifdir. Siyasətçilərin bir çoxu iqtisadi və siyasi amilləri daha vacib hesab edirlər və s.

Hər bir milli, müstəqil dövlət Vahid Yer Üzü Sisteminin(VYÜS) formalaşmasında öz imkanlarından asılı olaraq bu və ya başqa dərəcədə iştirak edir. Beləliklə, indiki vaxtda hər bir dövlətin qarşısında özünün möhkəmlənməsi, tərəqqi yolunda olması ilə yanaşı VYÜS – nin stabil olması, tərəqqi etməsi üçün konkret, tarixi, təbii bir missiya, təyinat vardır. Hər bir milli, müstəqil dövlətin öz missiyasını lazım olunan şəkildə yerinə yetirməsi üçün həmin dövlətdə fəlsəfənin aşağıdakı məsələlərinə diqqət yetitrilməsi vacibdir:

1. Yer üzündə, tarixdə, indiki tarixi mərhələdə həmin dövlətin qarşısında duran əsas missiyanın fəlsəfi olaraq dərki, təhlili. Ölkənin inkişaf strategiyaları, qarşısına qoyduğu hədəflər, milli ideologiyası məhz bu missiyanın tələblərinə uyğun olduqda daha uğurlu alınır.
2. Yer üzündə gedən qloballaşma prosesinin mahiyyətinin elmi təhlili; bu prosesin mahiyyəti siyasətçilər, elm adamları, iqtisadçılar, mədəniyyət xadimləri, KİV nümayəndələri tərəfindən düzgün olaraq dərk olunmaması həm ölkə daxilində, həm də xarici aləmlə münasibətlərdə bir çox münaqişələrin üzə çıxmasına səbəb olur.
мы или две матрицы принципов, которые способны предоставить нам амбивалентные представления о Кавказе, расширяющие наши знания о нем и корректирующие иллюзорные феномены.

Итак, возобновим поиск "архетипичной пракультуры Кавказа", которая, как показывают познавательные фильтры голографии и психоанализа, локализована в глубинах подсознания в форме импликативно свернутого феномена - в виде архетипичной голограммы. Поскольку согласно голографии "прошлое действует в настоящем в виде импликативного порядка" и если в нашем подсознании может находится в свернутой форме вселенная, то в памяти может наличествовать как все наше прошлое, так и прошлое всего человечества... вопрос лишь в том как развернуть все эти импликативные феномены в экспликативный порядок (**8, с. 229**). Голографический подход вместе с теорией архетипов заметно облегчает стремление расширить понимание архетипичного Кавказа, экспликативным проявлением которого является многообразие кавказских этносов. Все экспликативные голограммы (этносы) выступают в качестве призраков или фантомных изображений импликативно свернутого оригинала (архетипичного Кавказа). И, согласно принципу "pars pro toto", в голограммах-призраках содержится (свернутая и упрятанная в подсознании) полная информация о кавказской культуре, которая в доисторическое время коллапсировала в голограммные феномены - гетерогенное этномногообразие.

Современные кавказские народы вытупают в статусе голограм-представителей, которые возникли в ходе коллапса объекта-оригинала "архетипичного Кавказа".

Информация о доисторической пракультуре по неизвестной причине вложена в образовавшиеся импликативные структуры и затем они были вытеснены в глубины подсознания. Так что проблема адекватного восстановления образа архетипичного Кавказа предполагает разработку процедур обнаружения и извлечения информации, которая локализована в глу-

бинах подсознания современных кавказцев. Для этого нам придется, наверно, выявить прежде всего менталитеты кавказских народов и на их основе построить таблицу их сходных и специфичных черт. Впоследствии путем сравнительного анализа такой таблицы можно обнаружить необходимую информацию об общих чертах кавказской пракультуры (кавказского менталитета). Понятно, что построение образа единого Кавказа потребует от нас проведения кропотливой и трудной работы по воссозданию менталитетов кавказских народов, что само по себе является сложной задачей. К этому надо еще добавить наличие кавказских "комплексов и иллюзий", а также учесть фактор многомерности менталитетов.

Так что на пути освоения каждым народом своей ментальности, неизбежно возникнут когнитивные и, как ни странно, чисто ментальные трудности, которые к тому же могут содержать в себе реальные угрозы. На это обращал внимание сам Юнг, проводя аналогию между физикой элементарных частиц и психоанализом - постижение сущности архетипа, как и расщепление микрообъекта может вызвать спонтанный "выброс" специфичной разрушительной энергии.

В нашем случае речь идет об "имплицитивной психической энергии", которая виртуально свернута в архетипах, и в процессе постижения их сущности мы можем вскрыть "ящик Пандоры", содержащий подлинную информацию о каждом народе, ужасную для благополучия. Экспликативно иллюзорные кавказцы не очень предрасположены своей культурой к восприятию таких "откровений", являющихся нормативными продуктами для сциентистских культур. В этом отношении кавказцы предпочитают такую стратегию жизни, которая способна заполнить их ареал бытия иллюзорным настоящим и ограничить этот миропорядок определенным прошлым и будущим. Видимо, кавказцы наделены специфичными ментальностями, в которых минимизирована потребность в рациональном (научном) устранении неопределенностей. Их стратегия жизни предусматривает различные

модели продуцирования иллюзий и гармоничное с ними сосуществование, что подразумевает адаптацию к неопределенностям.

Такая стратегия может стать серьезной помехой для кавказцев, если они пожелают преодолеть неопределенности, составляющие имманентную сущность архетипов подсознания. Здесь обнаруживается некая взаимосвязь между индифферентным отношением кавказцев к неопределенностям и их чрезмерной избыточной тягой к иллюзиям: видимо, дефицит в освоении неопределенностей каким-то образом компенсировался избыточной утилизацией иллюзий. В этом отношении кавказцы явно не входят в то сообщество народов, стратегия жизни которых отвечает формуле "лучше изучать неопределенности, связанные с
важными проблемами, чем быть окончательно уверенными в тривиальных фактах" (**8, с.349**).

Колоритным индикатором типично кавказского отношении к иллюзиям и неопределенностям выступают популярные ритуалы гостеприимства с тостами, напичканными иллюзиями на любой вкус. Иллюзорными тостами воображение одурманивается до такой степени, что реальность воспринимается только как тотальная иллюзорность, полностью очищенная от неопределенностей. Сильное влечение кавказцев к таким ритуалам можно объяснить их гипервлечением к таким нирванным формам существования, когда из жизни и сознания хоть на миг полностью вытесняются в глубины подсознания все неопределенности и "ужасы истории" (Элиаде). В их тяготении к пирам и тостам скрывается архетипичное желание погрузиться в стерильную атмосферу иллюзий, которая только и способна обезопасить их традиционное бытие от ужасов истории и давления неопределенностей. Поскольку типичный их образ жизни предполагает индифферентное отношение к неопределенности (которое способно блокировать освоение истин), то оно формирует особое чувство или тип некоей "болезни" (невроза), которая не поощряет задейство-

вание рационального познания. Эта болезнь нередко проявляет себя как мистический страх, погружающий их в атмосферу иллюзий и дистанциирующий от неврозов неопределенности. В целом типичная стратегия сосуществования с неопределенностями не содействует формированию должного уровня научной культуры и когнитивной компетенции, что может стать дополнительной помехой на пути освоения каждым кавказским народом имманентной сути менталитета. В понимании роли фактора "неопределенности" в формировании своеобразных черт кавказской стратегии жизни плодотворными могут оказаться и синергетические представления о взаимосвязи хаоса и неопределенности. Принципиально новая трактовка хаоса заключается в признание особой его роли в самоорганизации любой системы - ее трансформации к новому порядку. В ходе трансформации прежний порядок коллапсирует в бифуркационное хаотическое состояние, которое постоянно продуцирует новые неопределенности и тем самым заполняет все переходное бытие новыми неврозами, надеждами, иллюзиями. Пользуясь синергетическими концептами можно представлять современное хаотическое существование кавказцев с их индифферентным отношением к неопределенностям как специфичное поисковое состояние с вектором движения к новой парадигме самоорганизации, в которой заметно доминируют компоненты хаотического и иллюзорного существования. Видимо, именно таким самодостаточным образом жизни можно объяснить и типично кавказское развертывание импликативного порядка (например, таких как наука, демократия, рынок) в экспликативные реальности с влечением к иллюзиям и индифферентным отношением к хаосу, неопределенности. Поскольку ценностное меню типично кавказской стратегии жизни в основном заполняется иллюзорными феноменами, то это оказывает на поисковое поведение такое корректирующее влияние, в результате которого происходит минимизация вероятности нахождения эффективных конструктивных компонент для

построения парадигмы кавказского единства. Кавказский образ жизни заряжен на аккумуляцию иллюзорных явлений и не поощряет освоение неопределенностей с трансформированием их в устойчивые компоненты новой самоорганизации на основе подлинной интеграции.

Такая стратегия жизни может быть выражена формулой "лучше не замечать неопределенности и довольствоваться иллюзиями, чем выявлять ужасные истины о самом себе и своей культуре". Кавказцы по стратегии инстинктивно более последовательны, по сравнению с западными рационалистами; они справедливо полагают, что если нечто когда-то было вытеснено в подсознание, то не стоит тратить усилия на их "высвобождение". Отношение к неопределенности и иллюзии заметно специфицирует их образ жизни и позволяет пролить свет на своеобразие их ментальности. Кстати, зависимость стратегии жизни народов (культур) от их отношения к неопределенности специально рассматривается в этнометрической модели Герта Хофстеда. Он включает это представление в класс пяти важных критериев "культурного измерения" специфичности обществ и классификации национальных культур. Автор вводит в модель фактор "неприятия неопределенности", который позволяет выделять общества либо с сильным, либо слабым неприятием неопределенности (**14**). Согласно данному подходу, кавказские общества (культуры) относятся к классу традиционных патерналистских обществ с слабым неприятием неопределенности, в котором люди подготавливаются жить в условиях адаптации к неопределенностям и они предпочитают "не замечать" их негативное влияние на образ жизни. И с такой стратегией кавказские народы могут без проблем адаптироваться к требованиям культурной глобализации - они не озадачивают себя проблемами, которые другие народы ассоциируют с неопределенностями и угрозами постглобализационного бытия; кавказцы, напротив, готовы с жадностью освоить иллюзорные сюрпризы макдоналдизации.

Резюмируя рассмотрение проблематики кавказской культуры и ментальности, обратим еще раз пристальное внимание на современные реалии. Современные кавказские народы по аналогии с "расширяющейся вселенной" продолжают или пытаются радикально преобразовывать свое социокультурное пространство - оно подвержено дезинтеграционному развитию, первичным импульсом к которому послужил доисторический коллапс импликативного порядка в экспликативное голограммное многообразие. Можно допустить, что своеобразие "пракультуры Кавказа" и ее коллапса, генетически предопределило зарождение множества самобытных этнокультур с виртуальными субкультурами, которые подвержены дальнейшей фрагментации и сепарации, дезинтеграционному и дивергентному развитию, продуцированию противоречий и конфликтов и т.д. Именно такая сверхдинамичная ситуация релятивизирует как рассматриваемые феномены, так и наши представления, что значительно затрудняет поиск кавказскими народами своей ментальности. Специфика современной кавказской культуры дает основание говорить о необходимости и плодотворности включения в понятийный аппарат представление о многомерном, многослойном менталитете.

Данное представление ввел в оборот Курт Хюбнер для адекватного понимания своеобразных черт европейской идентификации (**13, с.381-395**).

Можно утверждать, что задача выявления каждым кавказским народом имманентной сущности своего менталитета - как необходимое условие построения общей матрицы - потребует от всех нас принять в расчет многомерность каждой ментальности. Так, например, опыт предварительного анализа особенностей менталитета азербайджанцев дает основание говорить о значительной роли архетипа "харалысан" (грубо говоря: «где ты родился, откуда родом») в организации традиционного образа жизни, а также влиянии этого архетипа на мышление, социальное поведение и т.д. (**15**).

Исключительная менталообразующая роль этого архетипа дает достаточное основание говорить о структурной сложности менталитета и выделять как минимум два аспекта организации - общинный (родовой) и трансобщинный (национальный). Такое же двухуровневое структурирование менталитета наблюдается и в функционировании традиционной жизни чеченцев (тейповое и этническое). Наличие субэтнических (общинных) компонент в структурировании общественного уклада жизни характерно для большинства кавказских народов, что признается и большинством исследователей. С учетом актуальности
проблемы поиска архетипичного Кавказа, можно подчеркнуть плодотворность акцентуации внимания и на таком феномене как трансэтнический уровень организации менталитета - своеобразный (пока еще в иллюзорном проявлении) идентификационный индекс "всех лиц кавказской национальности". Именно этот менталитет архаичных кавказцев был, наверно, в процессе коллапса свернут в импликативный порядок (архетип) и волнами культурной трансформации вытеснен в подсознание и локализован в его глубинах. Вполне возможно, что такой общекавказский (трансэтнический) менталитет сформируется и в будущем, если все современные кавказские народы в контексте глобализации интегрируются в единое сообщество, которое гармонично локализуется в зарождающемся мегаобществе.
Таким образом, решение проблем поиска "единого Кавказа" и восстановления менталитета кавказцев актуализирует тему многомерности в контексте выявления менталитета каждого кавказского этноса. Полную картину можно получить лишь на основе учета всех аспектов (уровней) проявления ментальности - общинного, национального и кавказского.

Литература:

1. Гаджиев К.С. Геополитика Кавказа. "Межд. отношения", М., 2001.
2. Чиковани Н. Единый Кавказ: исторически обусловленная реальность или политические иллюзии.// Центральная Азия и Кавказ. 5(41), 2005, С.52-63.
3. Садовский В.Н. Парадоксы системного мышления.//Системные исследования. Ежегодник. Наука. М., 1972, С. 133-146.
4. Шеллинг Ф. Система трансцендентального идеализма. М., 1936.
5. Поппер Карл. Логика и рост научного знания. Прогресс. М., 1983.
6. Хоштария-Броссе Э. Кавказский политический узел в прошлом и настоящем. // Центральная Азия и Кавказ. 5(17), 2001, С. 80-86.
7. Дашдамиров А. Идеологические противоречия этнической политики на Кавказе. // Центральная Азия и Кавказ. 5(17), 2001, С. 59-68.
8. Талбот Майкл. Голографическая вселенная. "София". М., 2004.
9. Прибрам К. Языки мозга. "Прогресс". М., 1975.
10 Ernst Cassirer. The philosophy of symbolic forms. Vol.2. London , 1952. pp 49-50.
11 Юнг Карл Густав. Архетип и символ. М., 1991.
12 Моаканин Радмила. Психология Юнга и буддизм. "Катарсис". М.,-П., 2004.
13 Хюбнер Курт. Нация от забвения к возрождению. "Канон+". М., 2001.
14 Hofstede G. Cultures and Organizations (Software of the Mind). Harper Collins Publishers. 1994.
15 Кулиев Гасан. Архетипичные азери; лики менталитета."Ени несил". Баку, 2000.

Zümrüd QULUZADE

XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ VƏHDƏT ƏL-VÜCUD FƏLSƏFƏSİNİN TƏFSİRİNƏ DAİR BƏZİ MƏQAMLAR

Allahın Vahid və Xaliq olmasını qəbul edən, Onu yaratdığı varlıqlarla vəhdətdə görən vəhdət əl-Vücud dünyagörüşü və fəlsəfəsi dünya mənəvi mədəniyyətinin universal fenomenlərindəndir.

Tarixən müxtəlif milli və bölgə mədəniyyətləri və dünya dinləri ilə üzvü surətdə bağlı olan bu hadisənin mənəvi mədəniyyətdə əbədiliyinin mühüm səbəblərindən biri - onun ideya məzmununun daşıdığı insanpərvərlik, dini tolerantlıq, ümumbəşəri humanist əxlaq normalarının tərənnümü, təbliğinin yüksək bədii təzahür formaları və genişliyi olub.

Məhz buna görə üçüncü minilliyin başlanğıcında insanpərvər bəşəriyyət eşqi varlığın təməli, Mütləq Həqiqət və Allah səviyyəsində görən vəhdət əl-Vücud fəlsəfəsinin dünya miqyasında ən parlaq nümayəndələrindən olan Cəlaləddin Ruminin 800 illiyini sevgi və ehtiramla yad edir.

Şərq və Qərb fəlsəfəsindən ayrılmaz və İslam Şərqində İbn Sina, Əttar, Rumi kimi dahi mütəfəkkirlər tərəfindən qəbul və təbliğ edilən mistik eşq «qiyafəli» vəhdət əl-Vücud təlimi daxili məntiqi və humanizmi baxımından dünya mənəvi mədəniyyət və fəlsəfə tarixinin tapıntısı və nailiyyətidir desək, yanılmarıq.

Təbiidir ki, Rumi yubileyinə həsr olunmuş elmi təntənələrdə mütəxəssislərin diqqətini bilavasitə fəlsəfi poeziyanı təmsil edən filosof-şairin yaradıjılığının təhlili xüsusi cəlb edir.

Bununla əlaqədar, Rumi irsinin bünövrəsində duran mistik vəhdət əl-Vücud fəlsəfəsinin bəzi məqamlarının müasir təfsirinə nəzər yetirək.

Qədim dövrlərdən ayrı-ayrı adlar altında mövcud olmuş «vəhdət əl-Vücud», yəni mövcudatın vəhdəti haqqında olan ideya, anlam

və mistik fəlsəfi nəzəriyyələr, müxtəlif dövr və mədəniyyətlərdə fərqli tərif, təfsir və dəyərləndirmələrlə seçiliblər.
Vəhdət əl-Vücud təliminin mistik səciyyəsini nəzərə alaraq, dünya mənəvi mədəniyyətində universallığa malik olan mistika fenomeninin mahiyyəti və mövcud tərifl ərinə diqqəti yönəltmək istərdim.
Elmi və elmi-arayış ədəbiyyatında mistikaya verilən tərifl ər bir-birinə oxşarlığı ilə seçilərək, hadisənin mahiyyəti və onun praktiki və nəzəri formalarının qeydi ilə kifayətlənirlər: mistikanı yaradan və onun sosial-mədəni həyatın universal hadisəsi kimi daimiliyini təmin edən səbəblər göstərilmir, bu da mistika haqqında ən yaxşı halda natamam təsəvvürə, hadisənin mahiyyətini açmağa, adekvat təhlil və qiymətləndirilməsinə imkan vermir.
Məlumdur ki, düşünən insan («homo sapiens») öz «Mən»inin «qeyri-Mən»dən fərqini dərk etdiyi və onu əhatə edən mühitin hadisələri qarşısında acizlik və qorxu hisslərinə qapıldığı zamanlardan, o, qeyri-iradi, intuitiv yolla özünü psixoloji təsdiq və müdafiə naminə ətraf mühitin hadisələrinə, zənnimcə, onu bəlalardan qoruya biləcək fövqəltəbii xassələr şamil edir. Bu xassələr tarixin ilk və bir çox hallarda sonrakı çağlarında da səma, cəmad, bitki və heyvanat aləminin ayrı-ayrı fenomenlərinə, şüur və mənəviyyat inkişaf etdikcə isə - qeyri-maddi, İlahi başlanğıca aid edilir.
Başqa sözlə, insan imkan və iradəsini müəyyən mənada özgələşdirərək taleyini - həyat və əmin-amanlığını - fövqəltəbii bildiyi başlanğıca, İlahi qüvvəyə tapşırır, inam və ümidlərini bu qüvvə ilə, onun himayəsi ilə bağlayır. Lakin insan fərd kimi şəxsi təşəbbüsündən ayrılaraq real həyatda acizliyə məhkum olduğunu gördükdə o, yenə də psixoloji özünütəsdiq və real yaşamaq naminə əvvəl fövqəltəbii və İlahi qüvvəyə «həvalə etdiyi» imkan, iradə və təşəbbüsünü bu və ya digər şəkil və dərəcədə yenidən özününküləşdirməyə cəhd edir. Bu səbəbdən mistikanın müxtəlif praktiki formalarının - rəngarəng magiya növləri, falçılıq, cadu, şamanlıq və s. yollar ilə insanın onu əhatə edən sirli və qorxunc

aləmə müdaxiləsi və bu aləmə təsir göstərmə təşəbbüsləri peyda olur.
Mistikanın həmin praktiki formaları şüurlu və ya şüuraltı surətdə öz zəifliyindən imtina etmək istəyən və imtina edən insanın imkan, iradə və bacarığına inamı ilə bağlı olaraq yaranır və yayılırlar.
Psixoloji özünümüdafiə və özünütəsdiq nəticəsində reallıq kəsb edən mistikanın nəzəri formaları isə əksər hallarda müxtəlif dinlərin Allah təsəvvürü ilə bilavasitə bağlıdır. Dini-mistik fəlsəfi cərəyanların dini təfsir etdikləri təlimlər, bir qayda olaraq, dövr və şəraitə müvafiq bu və ya digər tərzdə müxtəlif yollarla insanın Allahdan ayrılığını aradan qaldırmağa, onları birləşdirməyə çalışıblar, kimi Allahın İlahi sifatlarını (atributlarını) kamala yetmiş insana şamil, kimi - kamil insanın Allahla zat etibarilə eyniliyini təsdiq etmişdir. Bu cərəyanlar adətən yəhudi, xristian, İslam və s. dinlərin batini (ezoterik) təfsirindən çıxış edərək, Xaliqlə məxluqu birləşdirən varlığın vəhdəti (Şərqdə «vəhdət əl-vücud», Qərbdə analoji təməl ideyadan çıxış edən və XVIII əsrin əvvəlindən «panteizm», XIX əsrdən isə «panenteizm» adıyla da məşhur olan) nəzəriyyəsini yaradırlar ki, bu nəzəriyyə də prinsip etibarilə və ideya köklərilə oxşar hilozoizm və panpsixizm (mövcudatda bütün varlıqların canlı həyat və psixika daşıyıjısı olması) nəzəriyyələri ilə bağlı idi.
Dini-mistik görüşlər əksər hallarda fəlsəfi nəzəriyyələr şəklində çıxış etmiş və mənsub olduqları dini-mədəni bölgələrdən asılı olmayaraq, bir çox hallarda rəsmi dinlərin ideoloqları tərəfindən bidət kimi qəbul edilib və təmsilçiləri təqibə məruz qalıblar.
Lakin müxtəlif təqiblərlə mistikaya son qoymaq mümkün olmadığı üçün mistika praktiki və nəzəri formalarında bu gün də yaşayır və o vaxta qədər yaşayacaqdır ki, insan həyatda və həyat sirrlərinin dərkində öz acizliyini hiss edəcək.
İdrak prosesinin sonsuzluğu rasional idrakın bir çox hallarda acizliyi, insanın yaşadığı dünyada iztirab və ölümə məhkum olması onun irrasional şüura müraciətini və həyat uğrunda zəka

və iradəsini birləşdirən mübarizəsinin təzahürü olan mistikanın əbədiliyinin zəminidir.
Deyilənlərə müraciət ***Cəlaləddin Ruminin*** təmsil etdiyi təsəvvüfün əsasında məhz mistik vəhdət əl-Vücud təliminin durması ilə bağlıdır.
Bu təlimlə əlaqədar bir necə düşünməyə ehtiyajı duyulan məqamları sual şəklində təklif edirəm:
1. İslam Şərqində, təsəvvüf də daxil olmaqla, vəhdət əl-Vücud təliminin və eynilə Qərbdə mistik panteist fəlsəfi təlimlərin bəlkə də düşünülməmiş, şüuraltı məqsədi insanı Allahla birləşdirərək, bu və ya digər şəkildə onun (insanın) əbədiliyini, qüdrətini, həllediji iradəsini, müdrikliyini və s. yenidən özünə qaytarmaq deyilmi?
2. Hazırda postsovet ölkələrindən olan tədqiqatçılar da daxil olmaqla, bəzi müəyyən məlum səbəblərə görə təsəvvüf fəlsəfəsinin İslam ilahiyyatı ilə eyniliyini sübut etməyə çalışırlar. Belə bir sual meydana çıxır: bu tədqiqatçılar İslamın zahiri və batini təfsiri arasında fərq görürlərmi? Və ya bu təfsirləri eyniləşdirmək mümkün olsaydı, İslam aləmində vəhdət əl-Vücud fəlsəfəsini qəbul edən çoxsaylı batini təriqətlərdən bəhs edilərdimi?
3. Tarixən yüksək səviyyəli zəngin və mürəkkəb İslam mədəniyyətinə xas qeyri-ortodoksal, bidətçi sosial-mədəni cərəyanların nəzəri baxışlarının rəsmi islam ilahiyyatçıları tərəfindən inkarını, onların nümayəndələrinin təqib və qətllərini həmin ilahiyyatçıların nadanlığı, «dargözlüyü», siyasi intriqaları ilə izahı mədəni hadisə kimi rəsmi ilahiyyatı ehtiva edən İslam bölgəsi mədəniyyət tarixinin təhrifi deyilmi?
4. Azərbaycanlı tədqiqatçılar da daxil olmaqla, hazırda bir sıra mütəxəssislərin təsəvvüf təməlinə dayanan vəhdət əl-Vücud fəlsəfəsini panteizmlə eyniləşdirməsinin qəti inkarını qəbul etmək olarmı? Məsələyə aydınlıq gətirmək üçün bu inkarın əsasını təşkil edən səbəb və dəlillərdən ikisinə nəzər yetirək.
Birinci səbəb və dəlil:

Panteizm - onu adətən Spinozanın adıyla bağlayırlar - ateizm və materializmə aparır. Qeyd etməliyik ki, Spinoza fəlsəfəsi haqqında xüsusən sovet mütəxəssisləri tərəfindən müəyyən maraqlara müvafiq olaraq geniş yayılan bu cür fikir Spinoza irsini təhrif edir.

Bütün varlığı Allahla birləşdirən və eyniləşdirən nəzəriyyənin Allahı inkar etməsini söyləmək məntiqdən kənardır (Plotinin «Enneada»larına, Spinozanın «Etika»sına və panteizm mövqeyində duran filosofların əsərlərinə və həmin əsərlərdə Allahın yerinə nəzər yetirin).

Lakin bu da məlumdur ki, ontoloji görüşlərində panteizmdən, eynilə vəhdət əl-Vücuddan çıxış edən təlimlər konkret məsələlərin şərhində tarixən həm materializm və ateizmə, həm də din və idealizmə təmayüllü olmuşlar.

İkinci dəlil: «vəhdət əl-Vücud» və panteizm anlamlarının eyniləşdirilməsi, guya, Şərq fəlsəfə və mədəniyyətinin özünəməxsusluğunun inkarı və hazırda bir sıra mütəxəssislər tərəfindən qəbul edilməyən Şərq mədəniyyətini Qərb mədəniyyətində «əritmə» təmayüllü qloballaşmaya aparan yoldur.

Qeyd etməliyik ki, varlığın (Xaliq və məxluqun) vəhdətindən çıxış etmək, müxtəlif tərzlərdə bu vəhdətin qəbul edilməsi mahiyyəti etibarilə eynilə Şərq və Qərb dünyagörüşünə xas olduğu üçün vəhdət əl-Vücud təlimi dəfələrlə Şərq və Qərb elmi ədəbiyyatında panteizm anlamı ilə ifadə edilmişdir.

Biz, əlbəttə, vəhdət əl-Vücud təlimini panteizm adlandırmaya da bilərik, lakin onların mahiyyətini təşkil edən Xaliqlə məxluqun bir olması, varlığın vəhdəti müddəasını inkar edə bilməyəcəyik.

Zənnimizcə, ədəbiyyatda rastlaşdığımız «panteizm»lə «panenteizm» anlamlarının fərqi də olduqja nisbidir. Çünki ***«Allah hər şeydir»*** və ***«Hər şey Allahdır»*** tənliyinin hər iki tərəfi bərabərdir. Görünür, bu səbəbdən də biz vəhdət fəlsəfəsini təmsil edən və regionundan asılı olmayaraq bütün mütəfəkkirlərin əsərlərində göstərilən hər iki mülahizənin dönə-dönə təkrarına rast gəlirik.

Qloballaşma məsələsinə gəldikdə isə, deyə bilərik ki, dünya mədəniyyəti tarixən qloballığın ən bariz təzahürüdür. Qarşılıqlı əlaqə və zənginləşmədən qaynaqlanan Qədim Şərq, yunan, Orta əsr Şərq, Qərb İntibahı, Yeni və Ən Yeni dövr Şərq və Qərb fəlsəfə mədəniyyətləri və bu mədəniyyətlərin özünəməxsusluqları ilə bərabər ümümi qanunauyğunluqlarının olması onların daxili vəhdətini sübut etmirmi? Və bu ideya vəhdəti «vəhdət əl-Vücud», «panteizm» adı ilə tanınan dünyagörüşündə öz əksini tapmayıbmı?

Yenə də fəlsəfənin mövzusu ***bütövlükdə götürülmüş vahid varlığın*** əsas ümumi prinsiplərinin tədqiq və şərhi deyilmi?

Nəhayət, dini, irqi tolerantlığı və ümumbəşəri humanizmi tərənnüm edən, Şərq və Qərbi birləşdirən və hər iki region tərəfindən bu il yubileyi təntənə ilə qeyd olunan Cəlaləddin Rumi irsi deyilənləri sübut etmirmi?

Göstərilən mülahizələr 40 ildən artıq Şərq və Qərbdə vəhdət nəzəriyyəsinə əsaslanan müxtəlif fəlsəfi cərəyan və məktəbləri təmsil edən irsin tədqiqinə əsaslanır və hazırda tərəfimizdən müzakirə üçün təqdim olunur.

Yazımızın axırında qeyd etməliyik ki, bir sıra hallarda, xüsusən son zamanlar Azərbaycanda qeyd edilən Mövlanə günlərində Cəlaləddin Rumi fəlsəfəsinin türk təfəkküründün təzahürü olması haqda mülahizələrlə rastlaşırıq.

Rumi irsinin Türkiyə ilə bağlılığı inkaredilməz həqiqətdir.

Lakin Rumi təsəvvüf fəlsəfəsinin əsas prinsipial mövqelərinin İslam Şərqi bölgəsinin təsəvvüf fəlsəfəsinin prinsipial nəzəri-fəlsəfi mövqeləri ilə oxşarlığı və eyniliyi də inkar edilməzdir.

Digər tərəfdən, Rumi fəlsəfi poeziyasında nəzəri təzahürünü tapmış mevleviyyə sufi cərəyanı orijinallığı baxımından dünya fəlsəfi fikrində özünəməxsusluğu ilə seçilərək yaşayır.

Bu özünəməxsusluq türk etnik dünyagörüşüdən deyil, bəlkə özünü türk sayan Rumi dühasının yaratdığı vəhdət əl-Vücuda əsaslanan təsəvvüf fəlsəfəsinin yeni təfsirindədir ki, həmin təfsir ilk növbədə Türkiyədə yaranaraq dünyaya yayılmış və türk mənəvi həyatında xüsusi yer tutub və tutmaqdadır.

Məlum olduğu kimi, Şərq və Qərb mənəvi mədəniyyətindən tarixən ayrılmaz olmuş və müxtəlif formalarda təzahür etmiş varlığın vəhdəti nəzəriyyələri bu vəhdətin əsasında müxtəlif amilləri görüblər.

Təsəvvüf fəlsəfəsi dünyagörüşünü qəbul edən çoxsaylı təriqətlər vəhdətin əsasında Allaha yönəlmiş məhəbbəti görməklə seçiliblər. Lakin Allaha aparan yolları, Ona qovuşma üsullarını kimi tənhalığa varmaqla, kimi orujluq günlərinin artırılmasında, kimi dayanmadan uzun zaman zikrdə - Allahın adının və ya müəyyən duaların çoxsaylı təkrarında görürdü. Mevlevi cərəyanı bu yolu səmada - musiqi, rəqs, ritmik hərəkətlərdə görürdü.

Güman etmək olar ki, bu, cərəyanların fəlsəfəsinin bəlkə də daxili məntiqindən gəlirdi. Varlığın vəhdət və ahənginin əsasında bu nəzəriyyələrin bəziləri maddi ünsür, hərf, nöqtəni görürdüsə mevleviyyə nəzəriyyəsi - səs-musiqi və ritm-rəqsi görür və məhz bu səbəbdən İlahi eşqi ki, Allaha apran yolu, rəqs və musiqilə bağlayırdılar.

Bir sıra ilahiyyatçı və təriqətçilər tərəfindən qəbul edilməyən rəqs və musiqi vasitəsilə zikr mevleviyyə fəlsəfəsinin ontoloji görüşlərilə bağlıdır.

Hər halda bu fərziyyə, zənnimizcə, tədqiq edildikdə Türkiyədə yaranmış, türk aləmi və təfəkkürü ilə üzvü bağlı olaraq dünyaya yayılan Rumi fəlsəfəsinin orijinallığı haqqında bəhs etməyə imkan verər.

Könül BÜNYADZADƏ

MÜASİR AZƏRBAYCANDA DİNİ TƏFƏKKÜRÜN İNKİŞAF İSTİQAMƏTLƏRİ HAQQINDA

Giriş

Son 10-15 il ərzində yazılan elmi tədqiqatlarda və publisistik məqalələrdə tez-tez Azərbaycan xalqının uzun müddət öz dinindən aralı düşməsi barədə müxtəlif səpgili məlumatlar və şərhlər verilir. Son dövrlərdə baş verən hadisələrə qısa bir nəzər salsaq İslamla bərabər, hətta demək olar ki, ondan daha sürətlə xristianlığın, müxtəlif dini sektaların da təbliğatının getdiyinin, onların üzvlərinin günü-gündən çoxaldığının şahidi olarıq. Belə olan halda Azərbaycan xalqının uzun illər ayrı düşdüyü və indi tanımaq istədiyi din hansı imiş? Əgər bu gün Azərbaycana İslam Türkiyədən, İrandan, Ərəbistandan import edilirsə, bunun Azərbaycan xalqının mənəviyyatına hansı müsbət və ya mənfi təsiri var? Uzun müddət qaranlıqda kor kimi qalan Azərbaycan qəfil işığa çıxıb gözləri qamaşmaqla yenidən kor olmaq təhlükəsi qarşısında deyilmi?

Bu suallara cavab verməzdən əvvəl bir şeyə də aydınıq gətirək ki, dini təfəkkür deyəndə insanların mənən ehtiyac duyduqları və etiqad etdikləri din haqqında aldıqları düzgün məlumatlar sayəsində formalaşmış təfəkkür və bu təfəkkürdən yaranan azadlığa, saflığa və kamilliyə meyli nəzərdə tuturuq. Düzgün istiqamət deyəndə isə insanın ilk növbədə özünü Allah tərəfindən azad və kamil şəkildə yaradılmış, ruh və maddi bədənin vəhdəti olan bir fərd, ikincisi isə bir sosial varlıq, yaşadığı cəmiyyətin bir üzvü olduğunu dərk etməsidir. Beləliklə, müasir azərbaycanlının dini dünyagörüşünün formalaşmasında, gələcək inkişafının təyin edilməsində əhəmiyyətli rol oynayan bir neçə vacib faktı vurğulayaq.

İlk fakt kimi Azərbaycanın coğrafi mövqeyinə görə iki bölgənin – Şərq və Qərbin qovşağında yerləşməsini göstərmək olar. Kökləri

ilə Şərqə bağlı olub bu günkü inkişafını Qərbə istiqamətləndirən azərbaycanlı vətəndaş bu parcalanmanı sosial həyatında olduğu kimi dini dünyagörüşünün formalaşmasında da yaşamaqdadır.
İkinci vurğulanmalı olan fakt, bu gün Azərbaycanın elmi, siyasi və iqtisadi baxımdan dünyanın aparıcı dövlətləri ilə əməkdaşlıq və təcrübə mübadiləsi etməsi (daha doğrusu, həmin ölkələrin təcrübəsini mənimsəyib tətbiq etməsi), yəni qloballaşma prosesinə qoşulmasıdır. Artıq kifayət qədər geniş vüsət almış bu prosesin təsir dairəsinə düşən sahələrdən biri də mənəviyyat və dini dünyagörüşdür.
Nəhayət, üçüncü fakt kimi, dini maariflənmənin Azərbaycanda zəif, hətta bəzən ümumiyyətlə yox dərəcəsində olmasını qeyd etmək olar. Bunun nəticəsidir ki, məlumatsız, bir çox hallarda inancı hələ də mövhümat səviyyəsində olan azərbaycanlı asanlıqla xarici missionerlərin, müxtəlif dini qruplaşmaların təsiri altına düşür, onlar üçün potensial «xammal» rolunu oynamalı olur.
Bir-birilə məntiqli şəkildə əlaqəli olan və bir-birini şərtləndirən bu faktların kifayət qədər geniş və aktual, ən əsası isə bu günkü azərbaycanlının dini dünyagörüşünün formalaşmasında və inkişafında müstəsna rola malik olmaqlarını nəzərə alaraq onların hər birinə ayrıca izah verək.

Azərbaycanda dini təfəkkür Şərq-Qərb kontekstində

Fəlsəfə tarixinə nəzər salınsa, belə qənaətə gəlmək olar ki, insan təfəkkürünün məkana görə bölgüsü əsasən Yeni Dövrdə ortaya çıxmış və müasir dövrdə qətiləşib sabitləşməkdədir. Maraqlıdır ki, istər qədim dövrdə, istərsə də orta əsrlərdə uzaq ölkələrə gedib elm öyrənməkdən danışırlanda, əldə edilən elmi o məkanla bağlamırdılar. Elm Çində də olsa, onun ardınca getməyi tövsiyə edən Məhəmməd peyğəmbər (s.) məkanı səciyyələndirən bir məfhumdan deyil, həqiqi elmdən danışırdı. Avropalılar İbn Sinanın, Əbu Hamid Qəzalinin fəlsəfəsini nə şərqlinin təfəkkürü, nə də Qərbə məxsus elmin Şərq interpretasiyası kimi öyrənmirdilər, həqiqətə aparan bir hikmət kimi mənimsəyib

ondan yararlanırdılar. Şərq və Qərb fəlsəfəsinin orta əsrlərdə ümumi qanunauyğunluqlarını araşdıran Z.Quluzadə yazır: «Şərq və Qərb ölkələrində müşahidə edilən spesifiklik bəşəriyyət tarixinin rəngarəngliyinə baxmayaraq onun vahid bir şey kimi öyrənilməsinə, bu vahid prosesin ümumi qanunauyğunluqlarını açıqlamaq cəhdlərinə maneə ola bilməz…» (**1**). Tədqiqatçı onu da əlavə edir ki, bu qanunauyğunluğu dünyanın iqtisadi inkişafı ilə yanaşı, onun mədəni inkişafına da şamil etmək mümkündür.

İqtisadi və siyasi hakimiyyət həlledici amilə çevrildikcə, dünya mənzərəsi dəyişib xalqlar təbəqələrə ayrıldıqca, güclü-gücsüz yarandıqca, insanlar da ona uyğun təsnifatlaşdırıldılar və bu dəyişiklik təbii olaraq onların düşüncə tərzlərinə də sirayət etdi. Bu günün danılmaz faktıdır ki, həqiqətən Şərq və Qərb mütəfəkkirlərinin öz düşüncələrini ifadə etmələrində, hətta düşüncə obyektlərində belə müəyyən fərqlər mövcuddur. Məsələn, S.Xəlilov bildirir ki, «Şərqdə insanın dünyaya münasibəti əsasən aksioloji xarakter daşıyır, fərdi mənəviyyat prizmasından kənar hadisəyə ancaq qiymət verilir, ona yaxşı və ya pis münasibət bəslənir, sonra isə bu münasibət ya poetik yolla vəsf edilir (mədhiyyə və ya həcv yazılır), ya da daha sistemsiz və daha impulsiv yolla adi şüur səviyyəsində büruzə verilir» (**2**).

Deməli, şərqli hər şeyə bir seyrçi mövqeyindən kənardan baxmağı üstün tutur, həm də o qədər kənardan ki, Şərqin öz əyninə dar gələn Qərb libasına bürünməyə çalışmasını, Qərbin isə Şərqin ruhunu əlindən alıb özünü inkar etməsini görmür.

Bəs Qərbdə mənzərə necədir? Vilfrid C.Smitin qeyd etdiyinə görə, Məhəmməd İqbalın Avropada heyran qaldığı üç faktdan biri burada insanlığa laqeydlik, dehumanizləşmə (insanlıqdan uzaqlaşma) olmuşdur (**3**). Müasir Qərb filosoflarının düşüncələrindən nəticə çıxaran A.Öztürk isə: «Bəşəriyyətin problemini həll edəcəyini vəd edən, dünyaya iqtisadi və sosial rifah gətirəcəyini iddia edən və bunu bir tərəfdən yerinə yetirmiş olan Qərbin materialist və liberalist anlayışı, digər tərəfdən acgöz, məqsədsiz, doyumsuz bir insan tipini də ortaya çıxartmışdır» (**4**), – deyə bildirir.

Göründüyü kimi, hər iki məkanın insanı sürətlə əks qütblərə çəkilməkdədir: şərqli insan ifrat fərdiliyə, qərbli insan isə ifrat liberalizmə, postmodernizmə və s. izmlərə. Şərqli heç cür ruhi aləmdən ayrılıb ictimailəşə bilmir, ruhu daşıyan maddi bədənin problemləri ilə məşğul olmağa lüzum görmür. Qərbli isə o dərəcədə sosiallaşır ki, bədəninin bir ruhla əlaqəli olduğunu, mahiyyətini təşkil edən ilahi həqiqəti unudur. Ən təəssüfedici hal isə budur ki, ortaq nöqtə bütün coğrafi məkanların «qərbləşməsində» və ya «avropalaşmasında» aranır.

Bəs Azərbaycanda vəziyyət necədir?

Azərbaycan qədim tarixə və mədəniyyətə malik, bütövlükdə bir Şərq, xüsusilə İslam Şərqi bölgəsi mədəniyyətinin inkişafında, çiçəklənməsində əhəmiyyətli rol oynamış bir ölkə olmuşdur. Onun bir çox görkəmli filosof və mütəfəkkirləri yalnız bir xalqın sərvəti olmaqdan çıxmış, dünya fəlsəfə tarixində öz izini və adını yazmış, Qərb fəlsəfəsi üçün ideya mənbəyi olan Şərq hikmət dəryasına öz töhfəsini vermişdir. Bununla belə, deyilənlər keçmişdə qalmış bir tarixdir. Bu gün Şərq geriliyin, cahilliyin rəmzinə çevrilməkdə və ona verilən bu adla günü-gündən daha artıq «doğmalaşmaqdadır». Çıxış və ya inkişaf yolu isə məişətdən tutmuş akademik səviyyəyə qədər qərbləşməkdə görülür: qərbli mədəniyyət, qərbli ünsiyyət, qərbli ailə, …qərbli təfəkkür. İlk üçü artıq müxtəlif yollarla həyata keçirilməkdə, hətta müəyyən mənada uğur belə qazanmaqdadır: musiqilər, filmlər, tikililər, sabit ailə normalarının daha «azad» prinsiplərlə əvəz edilməsi və s. Sonuncu, yəni qərbli təfəkkür əslində əvvəlkilərin kökündə duran və onu təyinləşdirən bir amildir. Lakin bu təfəkkürün yaranmasına nə dərəcədə nail oluruq? Əhəmiyyətli bir fakta diqqət yönəldək: nə qədər qərbli libasına bürünsək də, qərblinin dilində danışsaq da, biz qərblinin gözündə şərqliyik, üstəlik öz şərqliliyindən xəcalət çəkən və qarşısındakına kor heyranlıqla baxan şərqli.

Bu gün Azərbaycanda yenicə formalaşmaqda olan və artıq öz səslərini kütləvi informasiya vasitələrilə eşitdirə bilən postmodernistlər Şərqin (xüsusilə Azərbaycanın) fəlsəfi

təfəkkürünün Qərbdən geri qalmasının səbəbini İslam dinində, tək Allaha inanmaqda axtarır və gəldikləri bu qənaəti əsaslandırmağa çalışırlar. Alternativ sual çıxır: uzaq Şərq ölkələrinin (Çin, Yaponiya, Koreya və s.) İslam dininə sitayiş etməməklərinə və tətbiqi elmlərdə, xüsusilə texnika sahəsində, dünya bazarının aparıcı qüvvəsinə çevrilməklərinə baxmayaraq, nə üçün eyni uğurun fəlsəfi sahədə olmasını demək çətindir?

İslama müraciət edək. Artıq dəfələrlə öz təsdiqini tapmış bir faktdır ki, bir çox elmi kəşflərə dair Qurani Kərimdə ayətlər və işarətlər vardır. Biz Qurani Kərimin elmi kitab olması fikrindən qəti şəkildə uzağıq. Bununla belə, bu fakt başqa bir şeyə dəlalət edir: İslam elmin inkişafı ilə nəinki ayaqlaşan, hətta bu inkişafın zəruriliyini vurğulayan bir dindir və ona elmin düşməni damğasını vurmaq cəhdi sadəcə dini savadsızlıqdır.

Qurani Kərimdə buyurulduğuna görə, Allah Təala insana özündən başqa heç kimin bilmədiyi adları (elmləri) öyrətdi və onu Özünün yer üzərində xəlifəsi olaraq yaratdı (Quran 2/30). İnsan Allah Təalanın bir çox sifətlərini (alim, adil, rəhimli, arif və s.) özündə daşıyan bir məxluqdur. O, Allahın əmanətinə sahib duran yeganə yaradılmışdır: «Biz əmanəti göylərə, yerə və dağlara verdik, onlar onu daşımaq istəmədilər, ondan qorxdular. İnsan onu götürdü (yükləndi), o (insan), zalım və cahil idi» (Quran 33/72). Yalnız insana düşünmək, öz düşüncəsi sayəsində mənən kamilləşmək, kamilləşdikcə öz cəmiyyətinə, xalqına yardım etmək imkanı verilib. Bunu az qala hər ayətində xatırladan Allah Təala: «Bunu heç düşünmürsünüzmü?» – deyə insanlara müraciət edir. İslam kor-koranəlik və fanatizm tərəfdarı olmayan bir dindir. Başqa sözlə desək, Qurani Kərim hər insana düşünməyi və bu təfəkkür işığında öz inkişaf yolunu tutmağa, öz dinini tanımağa və onu də dərk edərək yaşamağa çağırır: «Hər toplumdan (firqədən) dini anlayan və öz xalqına yol göstərən bir tayfa [olmalıdır]» (Quran 9/122).

Diqqət yönəltmək istədiyimiz digər məsələ Qərbin İslama neqativ münasibətidir. Bir çox hallarda Azərbaycanda məhz qərbləşmənin vacib bir ünsürü kimi İslama neqativ mövqedən

yanaşır, İslam və Qərbi qarşı-qarşıya qoyurlar. Qərbin təfəkkür aləminə nəzər salsaq maraqlı bir ziddiyyətlə qarşılaşmış olarıq. Bir tərəfdən müəyyən durğunluq yaşayan Qərb yenidən Şərqə, əsasən də İslam Şərqinə müraciət etməkdədir. Qərblilər İslam filosoflarını, Qurani Kərimi, xüsusilə İslamın sevgi və kamilləşmə prinsiplərini özündə ehtiva edən təsəvvüfü dərindən öyrənməkdə və mənimsəməkdədirlər.* Digər tərəfdən həqiqətən Qərbdə İslama və onun peyğəmbərinə qarşı ciddi narazılıqlar mövcuddur və artmaqdadır. Müasir hadisələrin (istər siyasi və hərbi, istərsə də iqtisadi və mədəni) gedişatını, eyni zamanda İslam dövlətlərinin özündə bu dinə münasibəti təhlil edəndən sonra belə bir nəticəyə gəlmək olar ki, qərblilər İslamı öyrəndikcə, onun üstünlüklərini, gözəlliklərini özləri üçün kəşf etdikcə, müsəlmanların öz dinlərinə münasibətdə kor-koranəliklərini, əllərindəki kamil vəsaitin düzgün istifadəsini heç cür dərk edə bilməməklərini, hətta buna can atmamaqlarını tənqid edir, bunu gülüş hədəfinə çevirirlər. Burada yada bir vaxtlar Amerika qitəsinin yeganə sahibləri olan hinduların əllərindəki qızıl və cəvahiratların dəyərsiz xırdavat (kibrit, düymə, eynək şüşəsi, saat və s.) müqabilində avropalılara verməkləri və minnətdar qalmaqları düşür. Bu gün Amerika qitəsində hindular yalnız muzey eksponatı kimi qalmaqdadırlar.

Azərbaycanda dini təfəkkür və qloballaşma

Avropalaşmanın vacib faktorlarından və şərtlərindən biri də qloballaşma prosesinə qoşulmaqdır. Azərbaycan da bu axına düşənlərdən və ya bu şərt qarşısında duranlardandır. Burada iki sual (əslində belə suallar daha çoxdur) yaranır: bizim məqalənin kontekstindən baxanda qloballaşma nədir? Azərbaycanda bu proses dini təfəkkürə hansı təsiri göstərir?

Ensiklopedik lüğətlərdən, bir sıra tədqiqat və araşdırmalardan alınan nəticələrdən belə məlum olur ki, insanın əsasən bir cəmiyyət üzvü kimi həyatının müxtəlif sahələrini – siyasəti, iqtisadiyyatı, mədəniyyəti – əhatə edən qloballaşma və universallaşmanın təsir dairəsi təbii bir hal olaraq daha da

genişlənməkdədir. S.Xəlilov yazır: «Qloballaşma prosesi elm, texnika, texnologiya ilə – ümumbəşəri dəyərlərlə yanaşı milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də sirayət etməyə cəhd göstərir» (**5**). Deməli, qloballaşma yalnız insanın zahiri həyatına təsir etməklə kifayətlənməyərək, həm də onun şəxsiyyətinin formalaşmasında əhəmiyyətli rol oynayan amil kimi onun mənəvi dünyasına da «girir», hətta onu idarə etməyə belə iddialanır. Lakin burada nöqsanlı bir hal müşahidə olunur: insanın maddi, sosial, siyasi durumundan çıxış edilərək onun mənəviyyatına təsir göstərilir, yəni yenə də maddiyyat aparıcı faktora çevrilir.

Bu gün dünya böyük bir bazara çevrilməkdədir. Alınıb satılanlar arasında sözün məcazi və hərfi mənasında insan da var. İqtisadiyyat və maddi rifahla güclənən hegemon dövlətlər kiçik və zəiflər timsalında mənəviyyatı, insanlığı udur, tapdalayır, ya da qarşıdakının özünü «könüllü şəkildə» alçalmağa, insani sifətlərdən çıxmağa məcbur edirlər.

Danılmaz bir faktdır ki, qloballaşma, universallaşma qarşısıalınmaz bir prosesdir və biz onunla mübarizə etmək, yaxud onun yalnız mənfi xüsusiyyətlərini göstərmək fikrindən çox uzağıq. Lakin bu prosesin unudulmuş vacib bir faktorunu xatırlatmaq istəyirik: cəmiyyətin maddi və sosial tərəfləri ilə yanaşı, bu cəmiyyətin bir üzvü və yaradıcısı da var: INSAN. Bu o deməkdir ki, insan bir tam, yəni ruh və maddi olaraq qloballaşma prosesinə gətirilməlidir, insanlıq və mənəviyyatın universal idealları axtarılmalıdır və qloballaşma prosesinin özünə bu zirvədən baxılmalıdır.

Bəs qloballaşma Azərbaycanda insanların mənəviyyatına və dini təfəkkürünə hansı təsiri göstərməkdədir?

Əvvəla, yuxarıda da qeyd etdiyim kimi, bu gün biz dünyanın müxtəlif ölkələri ilə (aparıcı və inkişafda olan) təcrübə mübadiləsi adı altında onların təcrübələrini mənimsəməkdəyik (hər hansı bir xarici dövlətin Azərbaycan təcrübəsindən istifadə etməsi məlumatı əlimizdə yoxdur). Bunun nəticəsidir ki, millilik, mentallıq mənfi xüsusiyyətlər kimi təqdim olunmaqdadır. Yenə

uzaq Asiya ölkələrinə – Cinə, Yaponiyaya, Malayziyaya nəzər salsaq görərik ki, burada milli köklər heç də hər hansı geriliyin səbəbi deyil, əksinə həmin xalqın səciyyəvi xüsusiyyətlərinin, orijinallığının qorunmasında ilk səbəb kimi çıxış edir. Yəni xalq başqa bir xalq içərisində əримədən, öz mənini itirmədən inkişafdadır.

İkincisi, qloballaşma prosesinin tələblərinə uyğun olaraq Azərbaycan öz vətəndaşının probleminə içdən yox, çöldən yanaşmaq məcburiyyətindədir. Yəni istənilən problemin yerli xüsusiyyətlərinə göz yumaraq qloballaşmanın tələblərinə cavab verir. Bu o deməkdir ki, diqqətdən kənarda qalmış hər hadisənin əsasında neçə insanın durması nəzərə alınmır və onlara göstərilən etinasızlıq, tam dərk etmədikləri bir şərtə tabe edilmələri onların mənəvi dünyasında böyük sarsıntıya səbəb olur və kor-koranə təqlidçiliyə gətirib çıxardır. Deyilənlərin nəticəsidir ki, bu gün Azərbaycanın tarixini və fəlsəfəsini bilməyən və buna baxmayaraq onları qəti şəkildə inkar edən postmodernistlər, nihilistlər, kosmopolitlər artmaqdadır. Bunun nəticəsidir ki, yenicə müstəqillik qazanmış Azərbaycanın vətəndaşı hazırda içində olduğu problemlərdən daha çox, artıq inkişafının yüksək səviyyəsində olan dövlətlərin problemlərini öz ölkəsinə şamil edib onların həllinə çalışır. Bunun nəticəsidir ki, Avropanın şüurlu şəkildə imtina etdiyi ideya və idealları azərbaycanlılar (xüsusilə cavanlar) şüursuz şəkildə mənimsəyib inkişaf etdirmək iddiasındadırlar.

Yüksək inkişafın göstəricisi kimi qəbul olunan bu şərtlər dini dünyagörüşün formalaşmasına da güclü təsir göstərməkdədir. Bu təsirlərlə yanaşı bilavasitə dinin özü də qloballaşma prosesindən kənarda qala bilməz və dinlər arası dialoqu bunun bariz nümunəsi kimi göstərmək olar. Lakin burada əhəmiyyətli bir faktı vurğulayaq: dialoq iki eyni səviyyəli tərəflər arasında baş verməlidir, əks təqdirdə bu yenə də bir tərəfin digəri içərisində əriməsinə gətirib çıxara bilər. Səviyyə deyəndə biz dinin və ya onu təmsil edən dövlətin özünü deyil, onun təqdimatını və İslam

dininin, xüsusilə Azərbaycanda, bu sahədə digər dinlərdən geri qaldığını nəzərdə tuturuq.

Azərbaycanda dini maariflənmə

Yuxarıda qeyd etdiyimiz kimi, dini dünyagörüşün düzgün formalaşması və inkişafında maariflənmə ilk şərtdir. Azərbaycan kimi qədim tarixə malik, eyni zamanda müstəqilliyini yenicə qazanmış cavan bir respublikada bu sahədə də bir sıra işlər görülməkdə və planlaşdırılmaqdadır. Bizim təhlilimiz son dövrləri və yaxın gələcəyi əhatə edən bəzi ziddiyyətli məsələlərə aiddir.

Azərbaycanda dini maariflənmə prosesini üç istiqamətə ayırmaq mümkündür:

1. Qeyri-islami təşkilatların fəaliyyəti.
2. Ayrı-ayrı islami təşkilatların fəaliyyəti.
3. Akademik səviyyədə İslam haqqında məlumatlandırma.

Bunların hər birinə dair təhlil verməzdən qabaq onu da bildirək ki, bu fəaliyyətlər müxtəlif şəkildə və səviyyədə aparılır və onları belə qruplaşdırmaq mümkündür:

1. Qeyri-leqal fəaliyyət.
2. Başqa ad və missiya altında aparılan sistemli fəaliyyət.
3. Sistemsiz və fərdi şəkildə fəaliyyət (əslində bu ayrı-ayrı fərdlərin arxasında daha böyük sistemin durması da istisna deyil).
4. Leqal, sistemsiz və akademik səviyyədə.

Dediklərimizə şərh verək.

Bu gün hər kəsə məlumdur ki, Azərbaycanda çoxlu sayda qeyri-islami təşkilatlar, sektalar rəsmi və qeyri-rəsmi şəkildə fəaliyyət göstərməkdədirlər. Vicdan azadlığı olan sivil bir ölkədə bu normal hal sayıla bilər. Məqsədimiz onların xeyri və ziyanı haqqında deyil, fəaliyyət formaları və insanların dini təfəkküründə oynadıqları rol haqqında məlumat verməkdir.

Qeyd etdiyimiz kimi, hal-hazırda qeyri-islami sektalar Azərbaycanda islamdan daha sürətlə və geniş miqyasda yayılmaqdadır. Bəzən qeyri-leqal şəkildə, bəzən isə fərqli adlar altında fəaliyyət göstərən bu təşkilatların fəaliyyət proseslərini və insanların təfəkkürünə təsir göstərməklərini bir neçə mərhələyə bölmək mümkündür.

İlk növbədə maliyyə dəstəyi göstərməklə həmin təşkilatlar lazım olanda əhəmiyyətli qüvvəyə çevrilə bilən kütlə arasında özlərinə potensial dəstək toplayırlar. Nəzərə alsaq ki, onlar özlərinə əsasən kasıb, işsiz və ya imkanlı ailələrin heç cür öz həyat yolunu, cəmiyyət arasında öz yerini tapa bilməyən övladları, yəni əhalinin narazı və narahat təbəqəsi arasında tərəfdar toplayırlar, onda onların necə təhlükəli bir silah hazırladıqlarını təsəvvür etmək çətin olmaz.

İkinci mərhələdə onlar öz təbəələri arasında güclü maariflənmə işi aparırlar: kitablar paylanır, filmlər göstərilir, mühazirələr və fərdi söhbətlər aparılır, təşkilatın hər üzvünə onun lazımlılığı, əvəzedilməzliyi aşılanır. Bununla onlar həm maliyyə bağlarını mənəvi bağlarla möhkəmləndirir, həm də yerli əhalinin öz içindən çıxan və daha sıx əlaqə yarada bilən təbliğatçılar yetişdirirlər. Bu isə onların fəaliyyət istiqamətlərinin bir növ həm eninə-uzuna, həm də dərinə, içə doğru irəliləməsi deməkdir.

Üçüncü mərhələ daha gizli və yalnız seçilmiş, bir sıra sınaqlardan çıxmış təbəələr üçün nəzərdə tutulur. Burada artıq təşkilatın əsl məqsədi və fəaliyyət istiqamətlərinin bəzi faktları açıqlanır, konkret tələblər və tapşırıqlar qoyulur. Bu mərhələni ilk ikisinin bəhrə verdiyi bir mərhələ də adlandırmaq olar.

Onu da əlavə edək ki, qeyd etdiklərimiz hər hansı dini dünyagörüşün və təfəkkürün, dinə rasional münasibətin formalaşmasına deyil, daha çox fanatizmə və müəyyən qüvvələr üçün alətə çevrilməyə xidmət edir.

Azərbaycanda hazırda mövcud olan dini maariflənmənin ikinci istiqaməti kimi müxtəlif islami təşkilatların – şiəliyin, vəhhabiliyin, nurçuluğun, müxtəlif sufi təriqətlərin fəaliyyətlərini göstərmək olar. Bu təşkilatların fəaliyyət istiqamətləri müəyyən

baxımdan qeyri-islami təşkilatlarla eyni olsa da (cəlb etmə, məhz müəyyən məzmunlu kitabların təbliği, vahid şəxs ətrafında toplanma və s.) bəzi spesifik cəhətlərə də malikdirlər. Belə xüsusiyyətlərdən ilki və ən əhəmiyyətlisi isə onların mərkəz ideyaları kimi İslam və islami əxlaqın olmasıdır. Bu təşkilatların əsasında siyasi hakimiyyəti ələ keçirmək, siyasi çevriliş hazırlamaq və s. olsa belə məqsəd İslami dövlət qurmaq və İslamı hakim din olaraq bərqərar etməkdir. Müəyyən mənada deyilənlərdə heç bir mənfi cəhət yoxdur rəyi yarana bilər, lakin faktlar belə bir qənaətə gəlməyə əsas verir ki, islami təşkilatlar Azərbaycan vətəndaşına hər hansı qeyri-islami təşkilatdan daha artıq zərər vurur.

Əvvəla, bu təşkilatlar İslamın universal ideyalarını çərçivəyə salaraq müəyyən bir şəxsin mənafeyinə və ya ideyasına xidmət edir. Bu isə İslamın təhrifi və onu siyasi, hərbi və digər məqsədlərin silahına çevrilməsi deməkdir.

İkincisi, İslam haqqında ancaq birtərəfli və məqsədyönlü məlumatın verilməsidir, yəni İslamın müəyyən bir prinsipi daha qabarıq şəkildə təqdim və təlqin edilir, onun (prinsipin) digər mümkün şərhləri kəskin şəkildə rədd edilir. Bu, İslama xas azaddüşüncəliliyin, seçim azadlığının məhdudlaşdırılmasına, yəni dolayısı ilə yenə də İslamın təhrifinə gətirib çıxarır. Məsələn, məlum hədisə görə Məhəmməd peyğəmbər (s.) insanın öz nəfsi ilə mübarizəsini böyük cihad adlandırsa da və sonralar bu ideyaya görkəmli İslam mütəfəkkirləri tərəfindən geniş şərhlər verilsə də, hazırda kiçik cihad (İslamın düşmənləri ilə mübarizə) böyük cihadı kölgədə qoymaqdadır.

Üçüncü zərər kimi belə təşkilatların müsəlman ümməti arasında parçalanmaya, başqa ifadə ilə desək, İslamın vahid bir qüvvə halına gələ bilməməsinə səbəb olmaqlarını göstərmək olar. Məhz dediklərimizin səbəbidir ki, bu gün islami dövlətlər xarici zərbələrə qarşı zəif və həssasdırlar. Maraqlıdır ki, hər hansı bir azərbaycanlı mömin başqa bir islami təşkilatın üzvü ilə mübahisəyə, mübarizəyə (istənilən şəkildə) daha hazırlıqlı və meyllidir, nəinki qeyri-islami təşkilatların üzvləri ilə. İşin təəssüf

edici tərəfi isə belə şəxslərin qeyri-islam dininə qulluq edənləri yox, məhz digər islami təşkilatın üzvünü «islama dəvət etməsidir», İslam isə onun aləmində onun qulluq etdiyi təşkilatdan və oxuduğu kitablardan ibarətdir.

Bu təşkilatların sonuncu (bizim fikrimizə görə) zərəri kimi onların İslamı müəyyən terror hərəkətləri üçün əlverişli zəminə çevirməkləridir. Bunun ən bariz nümunəsi kimi, İslamın müdafiəsi adına yaranmış lakin sonralar İslamın özü üçün də bir təhlükəyə çevrilən assosinləri göstərmək olar. Əslində sonuncu təhlükə Azərbaycanda nisbətən çox şaxələnib kök atmasa da, ayrı-ayrı azərbaycanlıların müxtəlif terrorlarda adlarının çəkilməsi faktları, təəssüf ki, artıq mövcuddur.

Nəhayət, onu da qeyd edək ki, ilk baxışda bu təşkilatlardan hər biri İslam üzərində qurulmuş, cavanlara islami əxlaqı aşılayan təşkilatlar olsalar da, dərin və dəqiq təhlil başqa bir cəhəti aşkarlayır: bu təşkilatlar İslamı bütövlükdə yox, ayrı-ayrı prinsip və tələblər daxilində öyrədirlər. Bu isə kamil bir ideyanın naqis şəkildə çatdırılması deməkdir.

Göründüyü kimi, istər qeyri-islami, istərsə də islami təşkilatların məqsədi insanların dini təfəkkürünün inkişaf etdirilməsi, onların İslamı dərindən tanıması, İslamın universal ideyalarını mənimsəməsi deyil, bu insanların yalnız müəyyən çərçivə daxilində və müəyyən məqsəd naminə maariflənməsidir.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda dini maariflənmənin üçüncü istiqaməti akademik səviyyədə aparılan proseslərdir. Leqal, sistemsiz, ayrı-ayrı şəxslər tərəfindən həyata keçirilən bu prosesə elmi tədqiqatları, yazılan dissertasiyaları və kitabları aid etmək mümkündür. Onu da əlavə edək ki, qeyri islami və islami təşkilatların da bu səviyyədə maariflənməsi güclüdür və daha da güclənməkdədir. Belə ki, həmin təşkilatların üzvləri öz ideyalarını daha sistemli və yüksək səviyyədə təbliğ və təqdim etmək məqsədi güdürlər və artıq ilk məhsullar mövcuddur. Bundan başqa, nəzərə alsaq ki, orta və ali məktəblərdə din haqqında məlumatlar verilmir, yalnız ali məktəblərin ilahiyyat fakültələrində din tarixi, sosiologiyası, psixologiyası fənləri tədris

olunur, onda İslamın akademik səviyyədə maariflənməsinin nə qədər ağır və dar çərçivədə aparıldığı aydın olar.
Bu istiqamətin ən böyük çətinliyi və nöqsanı mütəxəssislərin çatışmamazlığı və də bu sahədəki fəaliyyətin sistemsizliyidir. Başqa sözlə desək, bir çox elmi işlər, tədqiqatlar heç də qarşılarına əhalinin dini maarifləndirilməsi məqsədini qoymurlar və ya bu yazılan işlərin səviyyəsi adi oxucular üçün nəzərdə tutulmur.

Nəticə

Beləliklə, deyilənlərdən belə məlum olur ki, dini təfəkkürün formalaşması və düzgün istiqamətdə inkişaf etməsində başlıca rol maariflənməyə aiddir və akademik səviyyədə dini maariflənməni sistemli şəkildə aparmaq üçün bizim fikrimizə görə görüləcək bir sıra vacib və zəruri işləri aşağıdakı kimi qruplaşdırmaq olar:

– Dini maariflənməni uşaq yaşlarından başlamaq və bunun üçün cizgi filmlərindən, ayrıca kitab kimi nəşr olunan Quran rəvayətlərindən istifadə etmək. Burada onu da xüsusi olaraq vurğulayaq ki, biz məhz hər hansı başqa bir ölkənin deyil, Azərbaycanın nəşri olan vəsaitləri nəzərdə tuturuq.

– Orta və ali məktəblərdə tədris üçün başqa ölkələrin dərsliklərindən deyil, yerli müəlliflərin kitablarından istifadə etmək. Təbii ki, burada ilk növbədə həmin vəsaitləri yazan mütəxəssislərin yetişdirilməsi də xüsusi əhəmiyyət kəsb edir. Onu da xüsusi olaraq qeyd edək ki, bu heç də başqa ölkələrin vəsaitlərinin yalnış və ya nöqsanlı olması demək deyil. Burada iki amil xüsusilə əhəmiyyətlidir: əvvəla, dil. Oxucu hansı dildə oxumasından asılı olmayaraq öz ana dilində düşünüb qavramağa çalışır və terminlərin, məfhumların anlaşılmasında, adekvat qarşılığının tapılmasında çətinlik yarananda xarici dil üstünlük əldə edir və bu getdikcə təfəkkürə də öz təsirini göstərməyə başlayır. Məsələn, dinlə məşğul olan şəxslərin bəzən digərləri üçün anlaşılmaz olan sözlər işlətməsinə artıq hər kəs adət edib, halbuki bu sözlərin Azərbaycan dilində tərcüməsi mövcuddur. İkincisi isə milliyyət məsələsidir. Məsələn, başqa bir millətin

nümayəndəsinin din haqqında əsərini oxuyan azərbaycanlı təbii ki, nüfuz olaraq onu qəbul edir. Burada onu da xüsusilə qeyd edək ki, oxucu hansı müəllifin əsərini oxumaq üçün seçim edəndə məhz daha anlaşıqlı dildə yazılanı, dini ona daha səviyyəli və bu günü ilə səsələşən şəkildə təqdim edəni seçir.

– Bir sıra qiymətli mənbələri – hədis və fiqh kitablarını, Quranın bəzi təfsirlərini, İslam mütəfəkkirlərinin əsərlərini Azərbaycan dilinə tərcümə etmək. Nəzərə alsaq ki, həm qeyri-islami, həm də islami təşkilatların əhali arasında yaydıqları ədəbiyyatlar məhz Azərbaycan dilində olur, onda bu tərcümələrin əhəmiyyətinin böyüklyü də aydın olar.

– Müəyyən İslami prinsipləri xüsusi tədqiqat mövzusu olaraq aspirant və dissertantlara vermək və ya bu prinsipləri şərh edən kitablar yazmaq.

– Qurani Kərimin Azərbaycan dilində şərhli tərcüməsi ilə yanaşı təfsirlər yazmaq. Bu, həm sıravi oxucu üçün Qurani Kərimi daha anlaşıqlı edər, onun yalnız orta əsrlər üçün deyil, bütün dövrlər üçün nəzərdə tutulan bir ilahi kitab olmasını aydınlaşdırar, həm də məhz müasir dövrün prizmasından Qurani Kərimə yeni bir baxış ola bilər.

Ədəbiyyat:

1. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı, 2005. s. 411.
2. Fahri M. İslam felsefesi tarihi / Terc. K.Turhan. İstanbul, 1998. s. 352.
3. Mevlana‘nın düşünce dünyasından. Derleyen: N.Şimşekler, Konya, 2005 (türk dilində). s. 227.
4. Bu müraciət bir çox hallarda ekzotik xarakter daşısa da, fəlsəfi tədqiqatların, elmi araşdırmaların da sayı get-gedə artmaqdadır.
5. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı, 2005. s. 406.

Ağalar MƏMMƏDOV

FƏLSƏFƏMİZİN DİLİNDƏ BƏZİ DÜZƏLİŞLƏR VƏ TƏKLİFLƏR

Fəlsəfi-terminoloji aparatımızda bir sıra məqamlarda dolaşıqlıq hökm sürür. Bu araşdırmamda mən onlardan bəzilərinə diqqəti cəlb etmək, dəqiqləşdirmələr aparmaq və öz təkliflərimi irəli sürmək istəyirəm. Bununla məqsədim əsla konkret olaraq kiminsə səhvini çıxarmaq deyildir; məqsəd sadəcə olaraq, Azərbaycan fəlsəfəsinə az da olsa faydalı olmaqdır. Mövcud terminoloji dolaşıqlığın əsas səbəblərindən biri odur ki, sovet dövründə filosof və tədqiqatçılarımız öz tədqiqatlarını uzun müddət ilkin mənbələrə müraciət etmədən aparmışlar. Ona görə də, terminoloji aparatımızdakı bir sıra qeyri-dəqiqliklər, təbii olaraq, bizə daha çox rus dilindən keçmişdir.

***

1. Çox yayğın bir dolaşıqlıq "maarifçilik" termini ilə əlaqədardır. Məlumdur ki, bu fəlsəfə teosentrist və teoloji səciyyə daşıyan Orta əsrlər fəlsəfəsinə və dünyagörüşünə antitetik reaksiya kimi XVII əsrdə meydana gəlmişdir. Orta əsrləri qaranlıq, özünü isə aydınlanma, işıqlanma kimi xarakterizə edən də elə bu məktəbin filosofları olmuşlar. İstər fransızca (Éclairement), istər ingiliscə (Enlightment), istərsə almanca (Aufklärung), istərsə də rusca (Просвещение) bu termin hərfən aydınlanma, işıqlanma, nurlanma, ziyalanma deməkdir. Osmanlıcada da həmçinin bu fəlsəfə "tənəvvür", yəni nurlanma adlanırdı (**1**). Müasir Türkiyə türkcəsində indi ona "aydınlanma" fəlsəfəsi deyilir.

Lakin nədənsə bu termin bizdə "maarifçilik" kimi tərcümə edilmişdir və edilir. Bizim fikrimizcə, bu, doğru deyildir. İzah edim.

Bu fəlsəfənin iki əsas qolunu – fransız və alman qollarını bir-birindən ayırd etmək lazımdır (**2**). Bu məktəbin fransız qolu dedikdə, 29 il ərzində böyük tirajlarla 28 cild ensiklopediya nəşr etdirən məşhur ensiklopedistlər – D. Didro, D'Alember, Helvetsi,

Holbax və b. nəzərdə tutulur. Onların fəaliyyət kursu, yuxarıda da qeyd edildiyi kimi, dinə, irrasionallığa, feodal dünyagörüşə qarşı çevrilmişdi. Bu anti-dini fəaliyyət dini-mövhumi izahlara qarşı elmi-məntiqi izahlar çıxarmaq və bunu xalq arasında yaymaq, cəhaləti maarifləndirməkdən ibarət idi. Maarifçi fəlsəfənin fransız qolu Volterin devizi ilə xülasə edilə bilər: "Vurun yaramazı!" (Ecrasez l'infame!). Volterin yaramaz adlandırdığı dindir, daha doğrusu Kilsə. Onlar belə hesab edirdilər ki, dinin qaranlığı cəhalətdən yaranmışdır və bu qaranlığı elmi dünyagörüşlə, maarifçilik vasitəsilə qazanılmış elmi savadla aydınlatmaq olar.

Beləliklə, maarifçilik aydınlatma işidir, maariflənmə aydınlanmadır. Kütləvi ensiklopediyalar nəşr etmək maarifçilik idi, çünki son nəticədə elmi-rasional biliklə işıqlanmaya xidmət edirdi. (Lakin bir az sonra göstərməyə çalışacağam ki, hər aydınlatma və yaxud işıqlandırma fəaliyyəti maarifçilik deyil).

"Maarif" sözü, doğrudan da, ərəbcə "arəfə" babından törəmiş olub, savadlandırmaq deməkdir. Ona görə də, bizdə M.F.Axundzadə, H.b.Zərdabi kimi şəxsiyyətlər fransız məktəbindən gəlmə tipik maarifçilərdir. Onların ictimai görüş və fəaliyyətlərini maarifçilik adlandırmaq olar.

Lakin bu fəlsəfənin o biri qolu – alman fəlsəfəsi sosial fəaliyyət kursu götürməmişdi. "Maarifçi" fəlsəfənin nəinki alman qolunun, bütövlükdə maarifçiliyin" zirvəsi, məlumdur ki, Kantdır. Kant Orta əsrlər qaranlığını insan ağlına avtonomluq qazandırmaq, onu dinin heteronomiyasından çıxarmaq yolu ilə yarmaq istəyirdi. Kant kritisizmi fransız ensiklopedistləri kimi heç də dar mənada maarifçilik, elmi savadlandırma yolu deyildi. Ensiklopedistlərdən fərqli olaraq, Kant kütlələrə yox, filosoflara səslənirdi. Onun simasında alman məktəbinin devizi belə idi: "Cəsarətli ol!" (Sapere aude!).

Beləliklə, Qərb aydınlanma fəlsəfəsi "maarifçi fəlsəfə" kimi səciyyələndirilə və adlandırıla bilməz. "Maarifçilik" "aydınlanma" fəlsəfəsinin sadəcə bir qolunun (ensiklopedistlərin) sosial fəaliyyətinin adıdır. Aydınlanma fəlsəfəsinin və aydınlanma əsri sayılan bütövlükdə XVIII əsrin zirvəsi və rəmzi

olan Kant bizim təsəvvürümüzdəki maarifçi qəlibinə girmir. Bu, təbiidir. Çünki Kant maarifçilik etməmişdir, o, aydınlanmaçı olmuşdur.
"Ziyalı" və ya "münəvvər" (nurlanmış) terminləri "aydın" yaxud da "aydınlanmaçı" deməkdir. Əgər bu sonuncu terminlər yaraşıqlı səslənmirlərsə, onda onu "aydınlanma" kimi yox, ənənəvi sözlərlə "ziyalanma", "nurlanma", "işıqlanma" kimi də ifadə etmək olar. Amma ona maarifçilik demək olmaz!
Mən bu sahənin birbaşa tədqiqatçısı olmasam da, просвещение-nin azərbaycan dilinə maarifçilk kimi daxil olmasını səbəblərindən birini görə bilirəm. Belə demək olar ki, Çar Rusiyasının Cənubi Qafqazda, o cümlədən də Azərbaycanda başlatdığı iş aydınlanma yox, məhz elə maarifçilik olmuşdur. Çünki o dövrdə bu regionda xalqların kütləvi savadsızlığını və filosofların hələ olmadığını nəzərə aldıqda, lazım və mümkün olan da elə kütləvi elmi savadlandırma, yəni maarifçilik olmuşdur. Amma təəssüf ki, sonrakı dövrdə, ta indiyədək bu terminin tərcüməsinə düzəliş edilməmişdir.
2. Azərbaycan dilində başqa bir terminoloji xəta "renessans" termini ilə əlaqədardır. Məlumdur ki, "renessans" azərbaycan dilinə "intibah" kimi tərcümə edilir ki, bu, mənim fikrimcə, bir neçə səbəbdən çox ciddi səhvdir! Arqumentlərim aşağıdakılardır:
Birincisi, fransız dilində "re-nessans" hərfi tərcümədə "yenidən-doğulma" deməkdir; ərəb dilində "intibah" isə güc-bəla ilə oyanış, inkişaf, dirçəliş, çiçəklənmə kimi mənalar daşıyır.
İkincisi, tarixi periodizasiya (dövrləşdirmə) kimi Renessans Antik yunan sivilizasiyasından, Ellinizmdən (əslində Hellenizmdən) və xristian Orta əsrlərdən sonra gələn və öz ardından Yeni dövrü hazırlayan, təxminən 250 illik bir dövr kimi sırf Qərb tarixinə aiddir. Ümumiyyətlə, tarixin Antik dövr, Orta əsrlər və Yeni dövr kimi dövrləşdirilməsi (ilk dəfə XVI əsrdə J. Bodin tərəfindən), Fransız tarixçisi və filosofu L.Halkinin də dediyi kimi, sırf Qərb tarixinə baxılaraq müəyyən edilmişdir (**3**) və başqa sözlə Şərqə tətbiq edilə bilməz. Belə ki, Renessansda yenidən doğulan qədim yunan mentalitetidir. Renessans Qərbin XIV-XVI əsrlərdə epoxal

təfəkkür dəyişikliyini, onun xristianlıqdan əvvəlki mədəniyyətə re-interpretativ qayıdışını ifadə edir. Qərb tarixinə çox mühüm bir aralıq dövr kimi daxil olan Renessans Orta əsrlərin teosentrizmindən və teizmindən, Yeni dövrün antroposentrizminə və humanizminə keçiddir. İntibahdan fərqli olaraq o, kəmiyyət dəyişikliyi yox, keyfiyyət dəyişməsidir.

Üçüncüsü, İslam Şərqində hesab edilmişdir ki, Məhəmməd peyğəmbərdən (əsri-səadətdən) o yana Cahiliyyədir, vəhşilikdir, küfrdür. Məsələnin belə qoyuluşunda nəyin re-interpretasiyasından, qayıdışından söhbət gedə bilərdi?! Qədim Şumer sivilizasiyası kimi alternativlərdən isə İslam dünyası çox gec, yalnız XIX əsrdə xəbər tuta bildi... Mən qəti olaraq bu fikirdəyəm ki, ümumiyyətlə, İslam Şərqində (bəlkə ancaq Türkiyə dövləti sərhədləri daxilində Atatürk inqilabları istisna edilməklə) Qərb Renessansına oxşar bir keçid və ya çevrilmə baş verməmişdir, baş verə də bilməzdi.

Yekun olaraq, humanist ideallar baxımından Renessans çevrilişi intibah (inkişaf, dirçəliş, çiçəklənmə) kimi xarakterizə edilə bilər. Lakin əksinə, Qərb tarixinin Renessans dövrünü İntibah adlandırmaq olmaz. Digər tərəfdən, Şərqin analoji tarixi dövründə müşahidə edilən intibaha da renessans demək doğru deyildir. Beləliklə, Renessans terminini ya olduğu kimi saxlamaq, yaxud da "yenidən-doğulma" (возрождение) kimi hərfi tərcümə etmək daha məqsədəuyğun olardı.

3. Son vaxtlar bəzi filosoflarımızın yazılarında Türkiyə türkcəsindən alınma fəlsəfi terminlərə də təsadüf edilir. Məsələn, bunlardan biri F.Nitsşenin "fövqəlinsan" termininin Türkiyə türkcəsindən götürülmüş "üstinsan" termini ilə əvəzlənməsidir (**4**). (Burada yeri gəldiyi üçün deyim ki, adətən baza təhsilini rus dilində almış olanlar türkiyəlilərin elmi dilinə bir çox hallarda xüsusi simpatiya ilə yanaşırlar. Səbəb psixolojidir. Lakin hər bir halda azərbaycan dilinin fəlsəfi aparatı ilə kifayətlənməyib, onun imkanlarını artırmaq istəyən müəlliflərin bu dəyərli cəhdləri alqışlanmalıdır; yanlışlar isə həmişə gözləniləndir).

Nitsşe "Übermensch" (oxunuşu: übermenş) dedikdə, bugünkü insanın daha üstün, parametrləri artırılmış davamını yox, "son insan" hesab etdiyi müasir insanın aşılmasından (transsendensiyasından) yaranan "o tay"ını nəzərdə tutur. Başqa sözlə, Übermensch super-insan yox, trans-insandır (**5**). Ona görə də, "üst-insan", zənnimcə, uğursuz əvəzləmədir. Çunki "üst" komponentində davamiyyət, təmas mənası gizlənmişdir. Halbuki Nitsşeye görə, mövcud insan fövqəl-insan (Übermensch) ilə təhtəl-insan (Unmensch), yəni heyvan arasında körpü rolunu oynayır. Heyvan altinsan olmadığı kimi, fövqəlinsan da üstinsan və yaxud da insanüstü ola bilməz. Söhbət qəti inkardan, keyfiyyət sıçrayışından gedir, islahlı inkişafdan, yaxud kəmiyyət fərqindən deyil.

Bu mübahisəli terminin düzgün tərcüməsinə gəldikdə isə, bizim fikrimiz bundan ibarətdir ki, "insan" sözü onsuz da bizim deyil, ərəbindir və bizimkiləşdirmək üçün də indilik variantımız yoxdur. Amma "fövqəlinsan" sözünü, heç olmasa, yarısınacan özümüzünküləşdirmək, bir sözlə "fövq"ü tərcümə etmək istəyiriksə, onda mən "insanüzəri" variantını təklif edə bilərəm. Almanca "über" sözü də elə məhz "üzərində, üzərinə" mənalarını bildirir. "Üst" isə almanca "auf" deməkdir. (Bizim "üstinsan" deyə bilməyimiz üçün gərək Nitsşe "Aufmensch" deyəydi). Yox, şayəd dilimizə artıq yerləşmiş olan "fövqəlinsan" sözünü qoruyub saxlayacağıqsa, onda "fövq" tərkibini "super" mənasında yox, "trans" mənasında başa düşməliyik.

4. Alınma terminlərin tərcümələrində də problemlər vardır. Məsələn, Kantın məşhur "Ding an sich" (oxunuşu: dink an zih) termini azərbaycan dilində "özündə şey" kimi tərcümə olunur ki, bu, çaşdırıcı tərcümədir. Məsələ ondadır ki, Kant bu termini insan ağlına biryolluq qapalı olan şeyin əslliyini (numeni), yəni özündəliyini, onun insan ağlındakı fenomenindən (təsəvvüründən), yəni bizdəliyindən ayırd etmək məqsədilə ortaya atmışdı. O, bununla özündə olanın şeyliyini yox, əksinə, şeyin özündəliyini, yəni bizdə olmamağını, müstəqilliyini ifadə etmək istəyirdi. Elə buna görə də, onu "özündə şey" kimi tərcümə

etmək olmaz. Çünki "özündə şey" dedikdə, sıralama pozulur, vurğunun yeri dəyişik düşür və anlaşılmazlıq əmələ gəlir. Düzgün variant rusca tərcümədə olduğu kimi («вещь в себе») "şey özündə" olmalıdır.

5. Yayğın yanlışlardan biri də ellinizm dövrünün fəlsəfəsi olan stoa fəlsəfəsinin "stoik fəlsəfə" kimi səslənməsidir. Bu məktəbin orijinal adı "stoa"dır. E.ə. IV əsrdə kiprli Zenon öz fəlsəfə məktəbini "stoa poikile"də (yəni şəkillərlə bəzədilmiş sütunlu qalereyada) qurduğu üçün, təsirləri indiyə qədər gəlib çıxmış bu fəlsəfə "stoa" (sütunlu qalereya) fəlsəfəsi adı ilə məşhur olmuşdur (**6**). İngilis dilinin "stoik" sözü isə stoaya aid, stoaya mənsub, stoaya daxil olan deməkdir. Doğru variant şübhəsiz ki, "stoa fəlsəfəsi"dir.

6. Başqa bir problem də latın mənşəli sözlərin həm orijinal latın formasını, həm də müasir Qərb dillərindəki formasını işlətməkdən yaranan qarışıqlıqdır. Bir terminin mənşə formasını, başqa bir terminin isə müasir formasını götürmək ciddi dolaşıqlığa gətirib çıxarır. Məsələn, "substantia" hal-hazırda Qərb dillərində işlədilən "substans" sözünün latınca əslidir. Bizdə isə bu terminin həm əslinə yaxın "substansiya" variantı işlədilir, həm də müasir forması olan "substans" variantı. Halbuki bir anlayışı bu şəkildə iki terminlə ifadə etmək olmaz. Eyni sözləri "evidens"-"evidensiya", "transsendens"-"transsendensiya", "ekzistens"-"ekzistensiya" və s. haqqında da demək olar. Bu nizamsızlıq da aradan qaldırılmalıdır: ya latınca əslinə yaxın "-siya"lı variant, ya da müasir formaya uyğun "-ns"lı variant vahid terminoloji norma kimi seçilməlidir. Yaxşı olardı ki, belə hallarda terminin Qərb dillərində işlənən müasir forması norma kimi seçilsin.

7. Başqa bir problem də əcnəbi şəxs adlarının yazılışı ilə əlaqədardır. Bu sual hələ də açıq olaraq qalır: biz xarici adları öz dillərində oxunduğu kimi yazmalıyıq, yoxsa bizə göründükləri kimi, yəni bizim onları oxuduğumuz kimi? Bu məsələdə də qanunauyğunluq yox, qarmaqarışıqlıq var. Məsələn, "Henri Bergson"u Anri Berqson (öz dilində oxunduğu kimi), "Fouceault"nu Fuko (öz dilində oxunduğu kimi), "Berkeley"ni

Berkli (öz dilində oxunduğu kimi), “Locke”u Lokk (öz dilində oxunduğu kimi), “Dilthey”ı Diltey (bizim oxuduğumuz kimi), “Wittgenstein”ı Vitgenşteyn (bizim oxuduğumuz kimi) yazırıq.
Adları misal üçün verilmiş bu filozofların ilk cütü (Berqson, Fuko) fransız, sonrakı cütü (Berkli, Lokk) ingilis, sonuncu cütü (Diltay, Vitqenştayn) isə almandillidir. Belə məlum olur ki, biz fransız və ingilis adlarını onların öz dillərində səsləndiyi (oxunduğu) kimi səsləndiririk və elə bu şəkildə də yazırıq, alman adlarını isə gördüyümüz kimi oxuyuruq və elə bu formada da yazırıq. Belə bir ənənə isə linqvistik qanunauyğunluq sayıla bilməz. Ona görə də, vahid prinsip müəyyən olunmalıdır.
Bu məsələdə vahid prinsipə gəldikdə, mənim fikrimcə, bir şəxsin adının istər yazılışında, istərsə də oxunuşunda orijinal variantı əsas götürmək lazımdır. Ən əsası ona görə ki, internetdə xarici dildə axtarış apararkən və yaxud xarici alimlərlə yazışarkən adların (və terminlərin) orijinal yazılışını bilmək lazım gəlir.
8. Buddhanın adında da səhvə yol veririk. Məlumdur ki, bu böyük şəxsiyyətin əsl adı Qautama Siddhartadır. “Buddha” onun ikinci adı, təxəllüsüdür. “Buddha” sanskrit dilində “budh” sözkökündən əmələ gəlmişdir. “Buddha” – mənası oyanmaq, gözü açılmaq, aydınlanmaq demək olan “bodhi” felindən əmələ gəlmiş feli sifətdir, mənası da oyanmış, gözü açılmış, aydınlanmış deməkdir. Bodhi (zen-buddhizmdə “satori”) buddhizmdə buddhistlərin əsas məqsədlərindən birini təşkil edir (7). Ona görə də, “Buddha”nı “Budda” kimi yazaraq “h” hərfini ixtisara salmaq, sanskrit dilində bir feli sifəti yanlış yazmaq deməkdir. Düzgün yazılış belə olmalıdır: Buddha, buddhizm.
9. Qərblilər üçün də qələti-məşhurlar vardır, amma onlar yanlışlarını düzəldirlər. Məsələn, onlar Çin filosofu Konq (Fu) Tseni əvvəlcə Konfutsi(us) kimi latıncalaşdırmışlar. Necə ki, İbn Sina Avisenna, İbn Rüşd Averroes kimi tanınmışdır. Xatırladım ki, latın dili Qərbdə erkən Yeni dövrədək elmi dil olaraq qalmışdır. Lakin son illərin nəşrlərində qərblilər bu adı Konq Fu Tse və yaxud Konq Tse kimi yazmağa başlayıblar. Çünki əgər ənənəvi latın formasını saxlayacağıqsa, onda gərək Dekarta da

Yeni dövrdən qalma ənənəyə əsasən, Hegelin yazdığı kimi Kartezi(us) deyək. Başqa misallar da vermək olar. Məsələn, böyük Hind şairi R.Thakur fransız dilinə Tagore yazılışı ilə daxil olmuş və Taqor kimi oxunaraq, dünya dillərində bu tələffüzlə tanınmışdır. Əsli isə Thakurdur.

10. Ayrı-ayrı adların yazılışında açıq uydurmalara da təsadüf edilir. Məsələn, XV əsrdə Almaniyanın Kuza (Kusa, Cusa) vilayətində doğulan, əsl adı Nikola(us) Chrypffs və yaxud Nikola(us) Krebs olan, latındilli Orta əsrlərdə "Nikola(us) von Kuez", yəni doğulduğu yerin adı ilə Kuzlu və yaxud Kuzanlı Nikola(us) kimi məşhurlaşan, müasir almandilli kitablarda isə Nikolaus von Kuez kimi təqdim edilən bu alman filosofunun adını "Nikolay Kuzanski" kimi yazmaq isə artıq komikdir! Ya Kuzlu Nikola(us), ya Kuzanlı Nikola(us) və yaxud da Nikola(us) Kuzanus variantlarından biri norma kimi seçilməlidir.

11. Qədim yunan filosofu Epikur(os) bizdə Epikür kimi tanınır. Yəni son heca (-kur) "Kür" çayının adı kimi tələffüz edilir. Halbuki qədim yunan dilində "k" kar samiti yoxdur, "k" cingiltili samiti var (**8**). Ona görə də, bu adı "konkret", "klub" sözlərindəki "k" kimi oxumalıyıq: Epikur(os).

12. Buna bənzər bir iş başqa bir qədim yunan filosofu "Qorqi"nin adına gəlib. Bu filosofun adı yunan dilində belə yazılır: Γοργιας; oxunuşu: Qorqias. Qamma hərfi (γ) yunan orfoepiyasına görə, heç vaxt "g" səsi vermədiyinə görə, onu Qor*g*i(as) kimi yazmaq və oxumaq olmaz. Düzgün yazılış və oxunuş belə olmalıdır: Qorqi(as).

13. Bəzi alınma terminlərdə və xüsusi adlarda "s"lərin daim "z" kimi oxunması da yayğın yanlışlardan biridir. Xarici sözlərdə "s"lərin "z"ləşdirilməsi nitqimizə nəinki rəvanlıq gətirmir, əksinə, onu daha da çətinləşdirir. Məsələn, "esoterik" sözünü "ezoterik", "e*x*istentia"nı "e*k*zistensiya", "e*x*istensializm"i "e*k*zistensializm", "Erasm(us)"u "Erazm" və s. kimi oxumaq düzgün olmamaqla yanaşı, praktiki də deyil. Düzgün variantlar təbii ki, belə olmalıdır: esoterik, eksistensiya, eksistensializm, Erasm(us).

Üstəlik, eksistensiya sözünün mənşəyi, bəzilərinin səhvən hesab etdiyinin əksinə, heç də latın dilində yox, qədim yunan dilindədir: εξίστασυαι. (Mənası mövcud-olmamaq deməkdir) (**9**). Sözün ikinci hərfi olan "ξ" – qədim yunan əlifbasının 14-cü hərfi olub, "kz" səsini deyil, "ks" səsini verir. Ona görə də, bu termini e*kz*istensiya kimi yox, e*ks*istensiya kimi yazmaq lazımdır.

14. Alman dilində "ch" konsonantı həmişə "x" kimi oxunmur: incə vokaldan sonra o, "h" kimi, qalın vokaldan sonra isə "x" kimi oxunmalıdır. Amma biz onu rus dilinin təsirilə daim "x" kimi oxuyuruq. Bu, səhvdir. Məsələn, "Friedri*ch* Nietzsche"ni "Fridri*x* Nitsşe", "Fi*ch*te"ni "Fi*x*te" və s. Bu konsonant incə "i" vokalından sonra gəldiyi üçün əslində belə olmalıdır: Fridrih, Fihte və s. Amma "Holbach"ın "Holbax", "Bach"ın "Bax" kimi oxunması düzgündür, çünki "ch" konsonantı son iki adda qalın vokaldan, yəni "a"dan sonra gəlmişdir.

15. Yunan mənşəli sözlərin və xüsusi adların sonuna əlavə edilən -os, -us, -es, -as, -is kimi şəkilçilər bizdə, bir qayda olaraq, saxlanmır, atılır. Ancaq burada da qarışıqlıq var. Məsələn, tezis və antitezis (və yaxud hipnoz, ikarus və s.) sözləri orijinala uyğun yazılır, amma sintez və hipotez sözlərində -is şəkilçisi atılır. Halbuki sintez iki tezin yox, iki tezisin qovuşmasını ifadə edir; hipotez tezisin əsasını ("hipp-os"unu) ifadə edən tez yox, tezisdir. Ona görə də, ya gərək tez, antitez, sintez variantları, ya da tezis, antitezis, sintezis, hipotezis variantları seçilib saxlanmalıdır. Mənim fikrimcə, orijinal variant əsas götürülməlidir.

Xüsusi isimlərə gəldikdə, Falesin (əslində Talesin) adında da eyni qanunauyğunsuzluq hökm sürür. Belə ki, sondakı -es şəkilçisi bizə naməlum səbəbdən Falesin adında saxlanılır, atılmır. Çünki əgər Aristoteles yox, Aristotel, Sokrates yox, Sokrat, Pifaqoras yox, Pifaqor, Qorqias yox, Qorqi (və yaxud Qorgi) və s. deyiriksə, bəs görəsən, nə üçün eyni məntiqlə Fal yox, Fales deyirik? Əlbəttə, yaxşı olardı ki, fəlsəfə kitablarımızda təkcə Falesin deyil, qədim yunan filosoflarının hamısının adları orijinaldakı kimi yazılaydı.

Bu yaxınlarda xristian dininin ilk dövrlərinin tarixi haqqında dilimizdə çap olunmuş kitabda belə bir cəhd artıq edilmişdir. Amma bu kitabda Platonun adı "Plato" kimi yazılmış və bu variantın guya orijinal variant olduğu qeyd edilmişdir (**10**). Təəssüf ki, müəllif burada yanılmışdır. Platonun adını bəzi müasir Qərb müəllifləri də Plato formasında yazsalar da, bu, doğru variant deyildir. Məlumdur ki, Platonun əsl adı babasınınkı kimi Aristokl(es) olmuş, lakin rəvayətə görə, o, geniş sinəli olduğu üçün gimnastika müəllimi ona "platon", yəni "geniş, enli" adını vermişdir. Yunan filosoflarının adlarını qısaldıb yazmaq isə latındilli xristian fəlsəfə ənənəsidir. Orta əsrlərdə Herakleitos Heraklit kimi, Plotinos Plotin kimi, Aristoteles Aristo kimi və nəhayət Platon Plato kimi qısaldılmışdır (**11**).

16. Xarici adlarda və terminlərdə eyni bir "h" hərfi dilimizdə üç cür oxunur ("x", "g", "q" kimi). Məsələn, "White*h*ead" "Uayt*x*ed" kimi; "a*h*imsa" "a*x*imsa" kimi; "*H*erzen" "*G*ertsen" kimi, "*h*ilezoizm" "*g*ilezoizm" kimi; "*H*usserl" "*Q*usserl" kimi və s. Bəzən də daha əcaib orijinallıqlar edilir. Məsələn, alman filosofu Qadameri Hadamer şəklində yazmaq kimi. Hesab edilir ki, rus dilində "Qusserl"ə çevrilmiş Husserl kimi yəqin "Qadamer"in birinci hərfi də rus dilində "q"ləşmiş "h"dir. Doğru yazılış belə olmalıdır: Uaythed, ahimsa, Hertsen, hilezoizm, Husserl, Qadamer.

17. Qədim Çin kosmologiyasının orijinalda "yin-yanq", daoizmin "vu-vey" anlayışları rus dilinin təsirilə dilimizə müvafiq olaraq "in-yan" və u-vey kimi daxil olmuşlar. Orijinaldakı variantlar əsas götürülməlidir: yin(q)-yanq, vu-vey.

18. Hind fəlsəfəsinin bəzi terminlərinin yazılışında da səhvlər mövcuddur. Məsələn, "Krşna" səhvən "Krişna" kimi, "Rqveda" (və yaxud Rq Veda) səhvən "Riqveda" kimi, "mimamsa" səhvən "mimansa" kimi, "samsara" səhvən "sansara" kimi, "maya" səhvən "mayya" kimi yazılır və s. Bu yazılışlar sanskrit dilində orijinala uyğun olmadıqları üçün doğru deyildirlər. Düzgün yazılış əlbəttə ki, belə olmalıdır: Krşna (krşnaizm), Rqveda (və yaxud Rq Veda), mimamsa, samsara, maya.

19. Dilimizdə bir sıra alınma terminin sonuna “a” hərfi əlavə edilir. Məsələn, “hermeneutik” olur “hermenevtika”, “elektronik” olur “elektronika”, “kultur” olur “kultura”, “natur” olur “natura”, “kast” olur “kasta”, “kritik” olur “kritika”, “praktik” olur “praktika” və s.

Rus dilindən götürülmüş ənənə kimi bunu müəyyən qanunauyğun hal saymaq olar. Həm də nəzərə alsaq ki, bəzi alınma terminlərə “a” artırılması ilə onlar dilimizə yatımlı hala gəlirlər. Məsələn, “Haydeggerin hemenevtiki” deməkdənsə, “hermenevtik*a*sı” demək, “Kantın kritiki” deməkdənsə, “kritikası” demək, əlbəttə ki, dil üçün daha rahatdır. Lakin məsələ burasındadır ki, “a” artırma əməliyyatı bəzən kor-koranə adət halını alır və yeri gəldi-gəlmədi icra edilir. Məsələn, “monad*e*” olur “monad*a*”, “maieutik*e*” olur “mayevtik*a*”, “Kiren*e*” (yunanca orijinalı “Kurene”, κυρηνη) olur “Kiren*a*”, “Ariadn*e*” olur “Ariadn*a*” və s. Bu isə artıq sözlərin təhrif edilməsidir və düzəldilməsi lazımdır.

Bu xüsusda başqa bir problem də bəzi alınma sözlərə “a”nın bəzən əlavə edilməsi, bəzən də edilməməsidir. Məsələn, bəzən prosedur, bəzən də prosedura; bəzən kataklizm, bəzən də kataklizma; bəzən mexanizm, bəzən də mexanizma və s. işlədirik. Verilən misallar fəlsəfənin terminləri olmasalar da, amma hər halda vahid normanı gözləmək lazımdır.

20. Bəzi alınma terminlərə “y” hərfi artırma ənənəsini dilə rəvanlıq gətirməsi, rahatlıq verməsi baxımından anlamaq olar. Məsələn, deyək ki, “maskulin” əvəzinə “maskul*y*in”, “sekular” əvəzinə “sekul*y*ar” və s. tələffüzə asanlıq gətirir. Bu, aydındır. Bəs, görəsən, “elea”nı “ele*y*a”ya, “idea”nı “ide*y*a”ya, “materia”nı “materi*y*a”ya, “maya”nı “may*y*a”ya və s. çevirmək nə üçündür? Belədə ideya ilə idealizm, materiya ilə materializm arasındakı əlaqələr də görünməz olur, itir.

Digər tərəfdən, onu da nəzərə almaq lazımdır ki, sonralar terminoloji status almış bir sıra kəlmələr vaxtilə müvafiq dillərdə konkret mənaları olan sözlər kimi işlədilmişlər. Məsələn, “idea” (eidos) qədim yunan dilində şəkil deməkdir, amma Platon ona “mahiyyət” mənası verərək, fəlsəfi terminə çevirmişdir.

Hilezoizm termininin əsas komponenti kimi tanıdığımız "hile" (əslində "hüle"; ərəbcədən bizə keçən "həyula" sözü də buradandır) qədim yunan dilində odun, ağac, taxta deməkdir, amma Aristotel onu "maddə" mənasında işlədərək terminləşdirmişdir. Sonralar hinduizmin əsas anlayışlarından birinə çevrilən "maya" sanskrit dilində illüziya, xəyal, aldanış deməkdir. Misalların sayını çoxaltmaq olar. Demək istədiyim odur ki, "idea"nı "ideya" kimi, "maya"nı "mayya" kimi, yəni bəzi sözlərə "y" artıraraq yazmaqla, müvafiq dillərdə müəyyən bir sözün yazılışını təhrif etmiş oluruq.

21. "Ei" və "ey" diftonqları alman dilində "ay" kimi oxunur. Biz isə onu "ey" kimi oxuyaraq, adları təhrif edirik. Məsələn, "H*ei*senberg"i "H*ey*zenberq", "Schl*ei*ermacher"i "Şl*ey*ermaxer", "*Ei*nstein"i "*Ey*nşt*ey*n", "Wittgenst*ei*n"ı "Vitgenşt*ey*n", "R*ei*henbach" "R*ey*xenbax", "L*ei*bniz"i "L*ei*bnits", "Dilthey"ı "Diltey" və s. Diftonqun düzgün oxunuşu "ay" olduğuna görə, bu alman adları belə oxunmalıdır: Hayzenberk, Şlayermaxer, Aynştayn, Vitgenştayn, Rayhenbax, Laybnits, Diltay.

22. "Eu" diftonqunu biz iki cür (gah e*v*, gah da e*y* kimi) oxuyuruq. Diftonqun "ev" kimi oxunuşuna misallar: "*eu*daimonia" "*ev*demonia" kimi, "mai*eu*tike" "may*ev*tika" kimi, "h*eu*ristik" "*ev*ristika" kimi, "hermen*eu*tik" "hermen*ev*tika" kimi, "L*eu*kipp" "L*ev*kipp" kimi və s. oxunur. Diftonqun "ey" kimi oxunuşuna aid misallar: "Fr*eu*d" "Fr*ey*d" kimi, "F*eu*erbach" "F*ey*erbach" kimi və s. oxunur.

Eyni diftonqun azərbaycan dilində iki cür oxunmasının səbəbinə gəldikdə, mənim bu haqda bəzi elmi gümanlarım olsa da, amma burada dəqiq fikir söyləməyə tələsmirəm. Amma hər bir halda vahid normanın müəyyənləşdirilməsi məqsədəuyğun olardı. Əks halda, məsələn, aşağıdakı tipdə problemlər yaranır: Foyerbaxçı olduğu vaxtlarda gənc K.Marks yazırdı ki, biz hamımız "Feuerbach"dan keçməliyik. "Feuer" alman dilində od-alov, "Bach" isə xırda çay deməkdir. "Feuerbachdan keçmək" od-alov çayından keçmək deməkdir, yəni Marksa görə, hamımız bu filosofun əsərlərini öyrənməliyik. Əgər oxunduğu kimi

yazacağıqsa, onda “Feyerbax” yox, “Foyerbax” yazmalıyıq. Alman dilində “Feyer” kimi nə bir yazılış, nə də bir tələffüz vardır. Göründüyü kimi, linqvistik təhriflər fəlsəfi mətnlərdə bəzən belə incə məqamların nəzərdən qaçmasına səbəb olur. Buna görə də, eyni bir diftonqun oxunuşunda vahid qaydanın müəyyənləşdirilməsi vacibdir.

23. Adı bizim fəlsəfi ədəbiyyatda “Dionisiy Areopaqit” kimi yazılan, təqribən V əsrdə yaşamış neoplatonçu-xristian müəllifin adı orijinalda “Dionysius Areopagit(a)”, bəzən də “Dionysios Areopagit(a)” kimi yazılır. Məlumdur ki, bu ad müəllifin psevdonimidir və onun əsl şəxsiyyəti hələ də mübahisəli olaraq qalır. Elə buna görə də, ədəbiyyatda bəzən “Psevdo-Dionysi(us) Areopagit(a)” yazılışına da təsadüf edilir. Amma hər bir halda bizə ruslardan keçmiş “Dionisiy” variantı yanlışdır və düzəldilməsi lazımdır: “y” artıqdır. Doğru variant belə olmalıdır: Dionisi(us) Areopaqit(a).

24. İngilis dilində də mövcud olan, tələffüzündə diş ilə dilin təması iştirak etdiyinə görə, adi “t”dən fərqləndirmək üçün dental “t” (diş “t”si) adlandırılan “th” konsonantını bizim səhvən iki cür (t və f kimi) oxumağımız da qarışıqlığa səbəb olur. Bu konsonantın “t” kimi oxunduğu hala aid bəzi misallar: theos *t*eos kimi (a*t*eizm, pan*t*eizm və s. sözlərdə olduğu kimi), theoriya *t*eoriya kimi, method me*t*od kimi, pathologiya pa*t*ologiya kimi, Thomas Kuhn *T*omas Kun kimi, Thomas Hobbes *T*omas Hobs kimi oxunur. İndi də bu konsonantın “f” kimi oxunduğu hallardan bir neçəsi: mithos mi*f* kimi, pathos pa*f*os kimi (patologiya sözünün kökü), Thales *F*ales kimi, Pithagor(as) Pi*f*aqor kimi, Thomas von Aquin(as) *F*oma Akvinski kimi səslənir. Beləliklə, haqqında danışdığım bu konsonantı “th” kimi oxuya bilməsək də (buna heç ehtiyac da yoxdur), amma onu “f” kimi də oxumamalıyıq. Eyni bir konsonantı heç bir prinsip olmadan bəzən “t”, bəzən isə “f” kimi oxumaq isə yolverilməzdir. Düzgün oxunuş “t”dir.

25. Fəlsəfi-konseptual aparatımızda yanlış orfoepik ənənələr də yox deyil. Azərbaycan əlifbasının hərflərini, rus oxunuşu ilə, son

vaxtlar isə ingilis dili ilə oxumaq dilimizdə baş alıb gedən zərərli tendensiyalardan biridir. Məsələn, nitqdə adətən "problem"i "prablem", "konkret"i "kankret", "ontologiya"nı "antologiya" kimi eyni tələffüz edirlər. "Problem", "konkret" kimi sözlərdə problem ciddi olmasa da, "ontologiya"nın tələffüzdə "antologiya" ilə eyniləşməsi qarışıqlıq törədir. "Ontologiya" qədim yunanca "einai" (olmaq, var olmaq) sözünün feli sifəti olan "on" (olan, var olan) sözündən əmələ gəlmiş termin olub, fəlsəfənin varlığı öyrənən sahəsini bildirir. "Antologiya" isə qədim yunanca "antos" (buket, yığma) sözündən əmələ gəlmiş olub, ədəbi toplu deməkdir. Lakin azərbaycan dilində "o" hərfinin rus dilinin orfoepiyasına görə "a" oxunması nəticəsində "ontologiya" tələffüzdə "antologiya"ya çevrilir. Amma azərbaycan dilində "o" hərfi heç vaxt "a" kimi oxuna bilməz!

Göründüyü kimi, mən daha çox Qərb mənşəli terminlərin və adların analizi ilə məşğul oldum. Amma ərəb-fars terminlərinin və adlarının yazılışında da problemlər yox deyil. Məsələn, bəzən Xəldun, bəzən isə Xaldun ilə; bəzən Qəzzali, bəzən də Qazzali, Qazali, Ğəzzali kimi variantlarla; bəzən Fərabi, bəzən də Farabi ilə; bəzən bəhailik, bəzən də bahailik ilə rastlaşırıq. Orijinal mətnləri tanıyan mütəxəssislər bu məsələlərə aydınlıq gətirməyə başlasalar sevindirici olardı.

Ədəbiyyat və qeydlər:

1. Hançerlioğlu O. Felsefe sözlüğü. Remzi Kitabevi, İstanbul, 1989, s. 22.
2. Schupp F. Geschichte der Philosophie im Überblick: Neuzeit: in 3 Bände, III B. Hamburg Felix Meiner Verlag, 2003, S. 289.
3. Halkin Léon-E. Tarih tenkidinin unsurları. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989, s. 46.
4. Mehdi N. Çətin və dolaşıq durumların kulturolojisi (Qərb və Şərq mədəniyyətlərində virtual örtüyün "kosmoqoniyası"). Bakı: Qanun, 2001, s. 22 və Mehdi N., Mehdi D. Fəlsəfə tarixində

fəlsəfə: Nə və necə deyilənlər haqqında kitab (Fəlsəfə üzrə dərs vəsaiti). Bakı: Qanun, 2005, s. 159.
5. Nietzsche F. Der Antichrist, Ecce Homo, Dionyos-Dithyramben. Goldmann Verlag, Erläuterungen S. 255.
6. Gökberk M. Felsefe tarihi. İstanbul: Remzi Kitabevi, 2000, s. 102.
7. Lexikon der Religionen. Verlag Herder Freiburg im Breisgau, 1987, S. 76-87.
8. Bu yazıda qədim yunan dilində ad və terminlərin izahında mənbə göstərilmədiyi hallarda, bu mənbədən istifadə edilmişdir: Schäfer K.-H., Zimmermann B. Altgriechisch-Deutsch Wörterbuch. Berlin, München, Wien, Zürich, New-York: Langenscheidt, 2000.
9. Heidegger M. Einführung in die Metaphysik. Tübingen: Max Niemeyer Verlag, 1953, S. 49
10. Əli-zadə A. Xristianlıq: tarix və fəlsəfə (ilk çağlar). Bakı: "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı, 2007, səh. 26, 144 və s.
11. Schulte G. Philosophie (Schnellkurs). Köln: DuMont Buchverlag, 2006, S. 53.

Aydın ŞİRİNOV

SOSİAL ZAMAN VƏ ONUN RELYATİVLİYİ

Bizim işimiz yalnız insanlara onların
diqqətini cəlb edə biləcək şeylərin
mahiyyəti haqqında köməkçi biliklər verməkdən ibarətdir. Nəyi
seçmək isə onların öz işidir.
M.Veber

Anlaşıqlı olmaq naminə sosial zaman və onun relyativliyini araşdırmaq üçün, çıxış nöqtəsi kimi, ümumiyyətlə zaman probleminin özünün araşdırılmasına yığcam bir nəzər salmaq lazım gəlir. Məlumdur ki, fundamental fəlsəfi problemlər heç vaxt özünün birmənalı həllini tapa bilməyən, həmişə yeni-yeni axtarışlar tələb edən və haqqında yeni biliklər əldə edilən problemlərdir. Hər bir dövr bu problemlərə aid hansısa yeni biliklərin əldə olunmasına gətirib çıxarır. Zaman problem idə belədir. Bu problemin öyrənilməsində Aristotel, Avqustin, İbn Haldun, C.Viko, İ.Kant, A.Berqson, A.Eynşteyn, H.Reyhenbax, A.Toynbi, M.Haydegger, K.Yaspers, E.Toffler kimi alimlərin böyük rolu olmuşdur. Onların zaman haqqındakı ideya və nəzəriyyələrinə həsr olunmuş külli miqdarda tədqiqatlar mövcuddur. Yalnız Eynşteynin nisbilik nəzəriyyəsi haqqında dünya miqyasında beş minə qədər kitab və məqalə nəşr olunmuşdur. Məlumdur ki, nisbilik nəzəriyyəsinin də əsas prinsiplərindən biri zamandır. Lakin hələ də bu fenomenin məzmun və mahiyyəti haqqında konkret və birmənalı fikir olmadığı kimi, onun hansısa müəyyənləşmiş modeli və instrumental ölçüsü də yoxdur. Çünki zaman varlığın müxtəlif tiplərində müxtəlif cürə axır və dəyişir. Müəyyənləşmiş bir model və instrumental ölçü olmadan dünyanın quruluşu və mövcudluğu haqqında nə isə birmənalı fikir söyləmək də çətinləşir. Məhz bu nöqtədə müxtəlif dünyabaxışları, dünyaduyumları bir-birindən az və ya çox dərəcədə fərqlənməyə və hətta əks mövqelərə bölünməyə başlayır. Əlbəttə, burada

fərqlilik daha üstünlük təşkil edir. Fərqlilik ontoloji mənada sadəcə olaraq şeylərin, hadisələrin, proseslərin bir-birindən fərqlənməsini (məsələn qarpız və pamidor hər ikisi bostan bitkisi olduğu halda bir-birindən keyfiyyətcə fərqlənir və onları eyniləşdirmək olmaz) göstərir. Qnoseoloji mənada isə bu, yanaşmaların, fikirlərin, dəyərlərin bir-birindən fərqliliyidir. Fərq isə heç də həmişə əksliyə çevrilmir. Əgər çəmənlikdəki otla onu yeyən inək arasında fərq, həm də çox böyük fərq varsa, bu o demək deyildir ki, onların arasında olan fərq sonradan hansısa bir əksliyə, ziddiyyətə gətirib çıxarmalıdır. İnəklə ot arasındakı əlaqə və asılılıq birtərəflidir. Otun olması üçün inəyin olub-olmaması şərt deyildir. İnəyin olması üçün isə otun olması başlıca şərtdir. Buna görə də fərqlilik həm ontoloji, həm də qnoseoloji cəhətdən universal qanunauyğunluqdur. Ziddiyyət və əkslik isə heç də universal qanunauyğunluq olmayıb xüsusi hal kimi özünü göstərir. Bu, olsa-olsa dünyagörüşünə və bəzi hallarda isə sosial proseslərə aid ola bilər. Burada hərəkət, dəyişkənlik və inkişaf heç də həmişə triada yolu ilə deyil, daha çox diada yolu ilə gedir. Əlbəttə, burada tanınmış ingilis filosofu Ayerlə razılaşmamaq mümkün deyildir. O, göstərir ki, dialektikanın qanunları heç də universallıq xassəsinə malik deyildir. Fərqliliyə gəldikdə isə o, hətta eynilikdə də ehtiva olunur. Çünki eynilk olsa-olsa müxtəlif kəmiyyətli və müxtəlif keyfiyyətli şeylər arasında eyni olan xüsusiyyətlərin müqayisəsinə əsaslanır, yaxud hərəkət və dəyişkənlikdə olan bir şeyin keçici olan bir anına, hansısa tarazlıq məqamına əsaslanır. Başqa sözlə, eynilikdə implisit olaraq fərq də iştirak edir. Əlbəttə, burada daxili və xarici əlaqələri, birtərəfli və qarşılıqlı təsir və s. əlaqələri də nəzərə almamaq olmaz.

Əlaqələrin belə müxtəlifliliyi bəzi hallarda obyektin rasional müstəvidə başa düşülməsi üçün çətinlik yaradır və məntiqi-qnoseoloji labirintə çevrilir. Belə halda yanaşma və fikir müxtəlifliyi meydana çıxır. Haqqında bəhs olunan zaman da belədir. Zaman materiyaya xas olan dördüncü ölçü kimi obyektiv halda mövcuddur. Lakin bunun başa düşülməsində müxtəliflik yaranır. Elə bil ki yenidən Zenon aporiyaları ilə qarşılaşırıq. Ze-

nonda bu, hərəkətlə bağlı idi. Lakin hər hansı bir hərəkət özlüyündə zaman daxilində olan hərəkətdir, prosesin nəticəsi isə hansısa bir kəmiyyət, yaxud keyfiyyət göstəricisi ilə müəyyənləşir.

Zamanın müxtəlifliyi ontoloji baxımdan başlıca olaraq varlığın müxtəlifliyi, çoxtipliliyi ilə əlaqədardır. Onun başa düşülməsi isə sosial-mədəni mühit və subyektin beyin potensialının istiqamətlənmiş gücü və fəallığı ilə yanaşı ictimai praktikadan doğan ehtiyacla bağlıdır. Buna görə də varlığı hansısa bir fiziki-astronomik mövqedən, yaxud subyektin ruhi-psixi durumundan izah etmək, yaxud da təfəkkür prosesini yalnız beynə məxsus olan immanent bir keyfiyyətlə izah etmək məsələyə birtərəfli yanaşmadan irəli gəlir.

Problemin öyrənilmə tarixi yuxarıda deyildiyi kimi, ayrı-ayrı filosofların bu barədə apardıqları tədqiqatlarla bağlıdır və bu tarix e.ə. VIII-VII əsrlərdə formalaşmağa başlayan qədim yunan fəlsəfəsinə gedib çıxır. Lakin çoxlu faydalı fikirlərin, ideyaların söylənilməsinə baxmayaraq bu günə qədər mövcud olan tədqiqatların heç birində bu problem özünün birmənalı həllini tapa bilməmişdir. Azərbaycan filosofları da zaman (və məkan) probleminin öyrənilməsinə aid xeyli tədqiqatlar aparmışlar. Bunlardan C.Əhmədli və İ.Feldmanın, Ə.F.Abbasovun, Ə.S. Abasovun, S.Xəlilovun, Z.Məmmədəliyevin və digərlərinin apardıqları tədqiqatları göstərmək olar. Zaman probleminə diferensial yanaşma baxımından və öz fikirlərini kifayət qədər əsaslandırmaya görə Z.Məmmədəliyevin tədqiqatı diqqəti daha çox cəlb edir. Çünki bü cür yanaşma bütövlükdə varlıq və zaman haqqındakı metafizik fikirləri konkretləşdirməyə, onlara pozitiv istiqamət verməyə imkan yaradır. Bu pozitiv istiqamət isə, hər şeydən əvvəl, hadisələrin başvermə səbəbləri ilə yanaşı prosesin gedişinə nəzarət etməyə, lazım gəldikdə və mümkünlük dərəcəsindən asılı olaraq ona təsir etməyə, istiqaməti korrektə etməyə, dəyişdirməyə imkan verir. Qarşısıalınmaz olan hadisənin isə gücünü, miqyasını əvvəlcədən hesablayaraq ona hazır olmağa şərait yaradır. Beləliklə, zaman probleminin öyrənilməsi hətta

təbiət hadisələrinin öyrənilməsi, onlardan istifadə və zərər çəkməmək, yaxud daha az ziyanla qurtarmaq üçün ciddi əhəmiyyət kəsb edir.

Zaman, artıq qeyd edildiyi kimi, heç də hər yerdə, varlığın bütün struktur səviyyələrində, tiplərində eyni axın sürətinə, yalnız indidən keçməklə keçmişdən gələcəyə doğru istiqamətlənmiş vahid zaman oxuna malik olan bir hadisə deyildir. Burada dövrələnmə də, gələcəyə, yaxud sona istiqamətlənmə vektoru da, ləngimə də, geriyə qayıtma və s. hamısı vardır. Buna görə də zaman bir ölçülüdür fikri yalnız şeylərin konkret mövcudluğuna aid ola bilər. Yəni mövcud olan hər bir konkret predmet yalnız konkret zaman hüdudunda mövcud ola bilər və bu mövcud olma müddəti böyük astronomik rəqəmlərdən tütmüş mikron saniyələrlə də ölçülə bilər. Buna görə də hansısa ümumi bir zamandan yalnız teologiya, yaxud teosofiya müstəvisində danışmaq olar. Bu isə nə klassik, na qeyri klassik, nə də postneklassik elmdə qəbul olunmur. Çünki gerçəklik onu öyrənən subyektin ruhi dürümü, etiqadı ilə deyil, analiz və sintez, induksiya və deduksiya yolu ilə, rasional yolla öyrənilir. Burada subyektin, obyektə olan aksioloji münasibəti heç bir əhəmiyyət kəsb etmir. Əgər belə olsaydı, şəkər xəstəliyi, qanköçürmə hadisəsi, öyrənilə bilməz, daxili xəstəliklər üçün analizlər əsasında diaqnoz qoyula bilməzdi. Aksioloji münasibətə gəldikdə isə, bu, subyektin, yaxud qrupun daxili mənəvi durumü, etiqadı və iradəsi ilə bağlı olan məsələdir.

Zaman varlığın müxtəlif səviyyə və tiplərində özünü müxtəlif cürə biruzə verildiyinə görə onun qeyri üzvi, üzvi, sosial və fərdilikdən ibarət olan səviyyələrini göstərsək burada zaman axınının da müxtəlif olmasına rast gələrik. Göründüyü kimi, belə yanaşma zamana klassik yanaşmadan fərqlənir. Bu yanaşma keçən XX əsrin 60-cı illərindən formalaşmağa başlamışdır. Belə ki, 1966-cı ildə Nyu-Yorkda elmlərarası əlaqələrlə məşğul olan tanınmış alim Culius Freyzerin rəhbərliyi altında «Zamanın öyrənilməsi üzrə beynəlxalq cəmiyyət» (MOYB) təşkil olunmuşdur. 1984-cü ildə isə Moskva Dövlət Universitetində bu problem üzrə xüsusi seminarlar təşkil olunmağa başlamış və 2000-ci

ildə bu seminarların bazasında zamanın təbiətini öyrənmək üçün ayrıca Veb-İnstitut yaranmışdır. Burada zaman probleminə aid tədqiqatlar aparılır və elmi seminarlar təşkil olunur.

XX əsrin 60-cı illərindən başlayaraq zaman probleminin daha dərindən və hərtərəfli öyrənilməsi nəticəsində məlum olmuşdur ki, zaman heç də hər yerdə, bütün sahələrdə eyni məzmuna malik olan universal səciyyəyə malik deyildir. Onun məzmunu da, axını da varlığın müxtəlif növlərində müxtəlif cürədir. Buna görə də fiziki zaman, bioloji zaman (bioloji saat), sosial zaman, bədii-estetik zaman, virtual zaman və nəhayət fərdi zaman kimi anlayışlar yaranır və bunların hamısı varlığın və ona yanaşmanın, onun öyrənilməsinin, şərhinin müxtəlif istiqamətləri kimi meydana çıxır. Burada söhbət heç də zamana indi hamıya məlum olan mexaniki ölçülərdən (era, epoxa, əsr, il, ay, gün, saat, dəqiqə, saniyə və s.) deyil, kəmiyyət və keyfiyyət ölçülərinin dəyişməsi ilə yeni kəmiyyət və keyfiyyət vəhdətinin yaranmasından gedir. Buna görə də zaman axını, zaman daxilində zaman, zamanda həyəcanlanma və s. kimi hələ də birmənalı olaraq dəqiqləşdirilə bilməyən və müxtəlif cürə şərh edilən irrasional anlayışlardan istifadə olunur. Bu sonuncu xüsusilə V.Diltey, A.Berqson, O.Şpenqler, M.Haydegger və bu istiqamətə mənsub olan digər filosofların fəlsəfi konsepsiyalarını səciyyələndirən ümumi cəhətlərdir. Hərçənd onların fəlsəfi konsepsiyaları heç də eyni deyildir. Ümumi cəhət isə bundan ibarətdir ki, onlar zaman anlayışını daha çox sosial müstəvidə, fərdin həyatı, onun ruhi durumu, düşüncəsi prizmasından nəzərdən keçirirlər.

Hər bir dildə onun leksikologiyasına əsasən işlədilən zaman anlayışı ilə yanaşı bütün dillərdə eyni məna daşıyan xronologiya anlayışından da istifadə olunur. Xronos qədim yunan mifologiyasında daima yaradan və yaratdıqlarını məhv edən, yox edən allahın adıdır. Doğrudan da zaman (xronos) heç nəyə əbədi mövcudluq imkanı vermir. Hər şey zaman daxilində yaranır, zaman hüdudunda mövcud olur və məhz həmin şey kimi məhv olur, onun mövcudluğu yoxa çıxır. Buradan da «zamanın hökmü» an-

layışı meydana gəlir. Lakin bu anlayış daha çox təbii varlığa aiddir.

Sosial varlığa gəldikdə isə vəziyyət dəyişir. Çünki sosial zaman bütövlükdə insanların ruhi vəziyyəti, psixoloji durumu, şüur səviyyəsi, həyata baxışı, həyat tərzi, iradə möhkəmliyi (fərdi və kollektiv halda), öz istəklərini reallaşdırma bacarığı, pasionarlıq və s. ilə bağlı anlayışdır. Buna görə də sosial zaman həmişə konkret halda müəyyən sosial məkanla bağlıdır. Sosial zamanla sosial məkan vəhdətdə olan vahidliyi təşkil edir və onların heç biri artıq nəyinsə atributu rolunu oynamır və həm də hansısa birinci, hansısa ikinci, yaxud törəmə rolunda çıxış etmir. Rus estetiki M.M.Baxtin sosial zamanla sosial məkanın vəhdətini xronotop adlandırır. Artıq bu anlayış elmi dövriyyəyə daxil olmuş və ondan gen-bol istifadə olunur.

Sosial zaman sosial məkanla birlikdə insanların yaratdığı, onların şüurunun, mənəviyyatının və iş qabiliyyətlərinin məhsuludur. İnsanların düşüncə səviyyələri, mənəvi aləmi, iş bacarıqları necədirsə, sosial zaman və sosial məkan da o keyfiyyətdədir. Buna görə də sosial zaman və məkanlar müxtəlif keyfiyyətli, müxtəlif inkişaf səviyyələrinə malik olurlar. Sosial zaman və məkan üçün ümumi zaman ölçüsü isə formal səciyyə daşıyır. Məsələn, Amazonka cəngəlliklərində, And-Aman adasında yaşayın qəbilələr üçün formal zaman indiki 2010-cu il olsa da, əslində onlar üçün bu zaman 20-30 min il bundan əvvəlki zamandadır. Çünki burada zaman sanki dayanmışdır. Hər şey, bütün həyat sadəcə təkrarlanmalar yolu ilə getdiyi üçün hər şey daşlaşmışdır və onlar bu çərçivədən çıxa bilmirlər. Şüurun bəsitliyi və ətraf aləmdən təcrid olunma buna imkan vermir.

Cəmiyyət tarixi təbiət tarixindən köklü şəkildə fərqlənir. Cəmiyyət tarixinin hər bir mərhələsi bütün xüsusiyyətləri, cəhətləri, bu və ya digər cəmiyyətdə yaşayan adamların düşüncəsi, həyatı, kədər və sevincləri, antipatiya və simpatiyaları ilə bir yerdə sosial zamanı (və məkanı) verir. Buna görə də nə tarixi zaman, nə də tarix fəlsəfəsi ayrı-ayrılıqda sosial zamanı verə bilmirlər. Çünki onlar ümumi olandan, ümumi düşüncə səviyyəsində olandan bəhs

edir və olsa-olsa bu istiqamətdə nə iləsə fərqlənən adamlar: dövlət başçıları, siyasi xadimlər, sərkərdələr, elm və mədəniyyət xadimləri haqqında söhbət açırlar. İstər tarix, istərsə də fəlsəfə tarixində sosial zamanın məzmunu tam halda açıla bilmir. Buna görə də K.Yaspersin bəşər tarixinin böyük hissəsi bizim yaddaşımızdan silinmişdir fikrini daha çox sosial zamana (və həm də sosial məkana) aid etmək olar.

Görünür, tarixin gedişinin bütün məzmununu, onun ruhunu dəqiq vermək mümükün olmadığı üçün ona münasibətdə aqnostisizm, irrasionalizm meylləri, tarixdən nəyi isə öyrənməyin mümkün olmaması, ümumiyyətlə tarixdə hansısa qanunauyğunluqların olmaması, tarixin onu yazanların subyektiv anlamlarından, mövqe və maraqlarından asılı olması və buna görə də onun həmişə mübahisələr doğurması, hansısa ideoloji və siyasi konyuktura əsasında yazılması və s. fikirlər də buradan meydana çıxır. Qeyd etmək lazımdır ki, göstərilən məqamların bu və ya digər dərəcədə olmasını heç kim inkar edə bilməz. Lakin bunlarla yanaşı tarixdə qanunauyğunluqların da olmasını heç kim inkar edə bilməz və belə inkarlarla, tutalım, XX əsrin tanınmış filosoflarından olan R.Aron, K.Popper və bu qəbildən olan digər filosofların fikirləri ilə də razılaşmaq mümkün deyildir. Tarixdə qanunauyğunluqların olmasını cəmiyyətlərin və mədəniyyətlərin ardıcıl olaraq dəyişməsi, elmin və texnikanın ardıcıl olaraq inkişafı və digər faktlar sübut edir. Buraya qlobal kommunikasiya vasitələrini də əlavə etmək olar. Məhz bu qlobal kommunikasiya yer kürəsinin bütövləşməsinə, birliyinə gətirib çıxarmışdır. Müxtəlif coğrafi məkanlar arasındakı məsafə qısalmağa, yaxınlaşmağa, yer kürəsi isə vahid sosial məkana çevrilməyə başlamışdır.

Sosial zaman bu və ya digər ərazidə gedən mənəvi-ruhi və dərketmə prosesi ilə bağlı olduğu üçündür ki, biz tarixin müxtəlif dövrlərində istər dünyanın bir hissəsində, istərsə də ayrı-ayrı xalqlarda və ölkələrdə elmi, texniki, siyasi, mədəni və s. Yüksəlişlə yanaşı tənəzzül və geriləmə halları ilə də rastlaşmalı oluruq. Hərçənd bu deyilənlərin hamısını öz mürəkkəbliliyində sistemli halda tam açıqlamaq o qədər də asan deyil. Elə bu

səbəbdəndir ki, tarixin müxtəlif dövrləri üçün səciyyəvi olan sosial zaman və onun öncülləri haqqında müxtəlif fikirlər söylənilir, mübahisələr aparılır. Buna görədir ki, rus alimi A.Y.Qureviç tarixi sonu olmayan mübahisələr meydanı adlandırır. Böyük rus yazıçısı L.N.Tolstoy isə «tarix dənizi, yaxud tarixin dənizi» ifadələrindən istifadə edir. Bu isə o deməkdir ki, burada üzməyi bacaran hər bir adam istədiyi istiqamətdə üzə bilər. Başqa sözlə, hər bir adam ona məlum olan faktlar əsasında tarixə öz baxış bucağını yarada bilər. Əgər bunun üstünə hər bir dövrün özünə məxsus konyukturasını da gəlsək onda belə bir absurd nəticəyə gəlmək olar ki, tarix tarixi həqiqətləri üzə çıxarmaqdan daha çox tarixin təhrifinə əsaslanır. Sovet dövründə yazılan tarix kitabları əsasən belə məzmun daşıyırdı. Burada hər şey sinfi mübarizə, əzənlər və əzilənlər, istismarçılar və istismar olunanlar arasındakı düşmənçilik münasibətləri əsasında qurulurdu. Bəzən də müxtəlif quldur dəstələrinin quldur əməliyyatları hakim sinfə və onun dövlətinə qarşı mübarizə kimi qələmə verilirdi. Məsələn, Stepan Razinin hərəkatı belə təqdim olunurdu. Tarixçiləri adi mülki cəmiyyət, onun həyatı və s. kimi məsələlər isə az maraqlandırırdı. Buna görə də tarix sinfi konfliktlər, üsyanlar, inqilablar, müharibələr, basqınlar, qarətlər üzərində qurulurdu. Sovet tarixçiləri daima burjua tarixçilərinin fikirlərini tənqid etməklə məşğul olurdular. Çünki burjua tarixçiləri öz əsərlərində daha çox mülki cəmiyyətdən bəhs etməyə çalışırdılar. Tarixin dolğunluğu üçün yeri gəldikdə bu tarixdə bu və ya digər rol oynamış şəxsiyyətlərdən də bəhs edirdilər. Lakin onların xidmətlərini şişirdərək nə onları bütə çevirir, nə də heçə endirirdilər. Yəni tarix istər Sovet dövründə olan, istərsə də onun dağılmasından sonrakı dövrdə 180 dərəcə dönərək karikatura vəziyyətinə düşmürdü.

Kütlə şüuru ilə manipulyasiya etmək, saxta, primitiv vətənpərvərlik, konyuktura yolu ilə qabağa çıxmaq həvəsi tarixçi və ümumiyyətlə cəmiyyətşünas alim üçün yolverilməz hal olmalıdır. O, çalışmalıdır ki, böyük şair M.Ə.Sabir demişkən düzü düz, əyrini əyri yazsın. Bu sətirləri oxuyan həmkarlarımın və oxucuların hətta bir qədər sərt halda verə biləcəkləri sualı duyuram. O,

deyir ki, a kişi, sən nə danışırsan. Yanımızda ermənilər heç nədən özlərinə az qala üç minillik tarix, ən qədim mədəniyyət, dövlətçilik və s. düzəldiblər. Hətta buna dünyanın bir qism sadəlöhv adamlarını inandıra da biliblər. Cavab verirəm: onlar elə özləri üçün uydurduqları tarixin də qurbanı olublar. Özləri özlərindən iyrəndikləri, bir-birilə yaşaya bilmədikləri üçün dünyanın hər yerinə səpələniblər. Dünyanın istər indiki mərhələsi, istər gələcəyi üçün dəyərli bir şey yaratmaqdansa, boş hay-küylə öz qədimliliyindən bəhs etməyə çalışmaq mənasız və boş bir işdir, ucuz küçə məzhəkəsidir. İndisi olmayan xalqın keçmişi də yoxdur və ola da bilməz. Ermənilərin isə indisi yoxdur. Onlar iki əsrdən artıqdır ki, rusların himayəsinə sığınmış və bununla da müstəqil yaşaya bilmədiklərini sübut etmişlər. Tarixən də müxtəlif ərazilərdə yaşamış və həmişə də bir tərəfdən yaltaqlanaraq quyruq bulamış, digər tərəfdən isə xainlik və satqınlıqla məşğul olaraq ərazisində yaşadıqları dövləti zəiflətməyə və yaşadıqları ərazini öz əllərinə keçirməyə, öz adlarına yazmağa çalışmışlar. XX əsrin ilk onilliklərində yaşamış yazıçı Qurban Səid yazır ki, bir Şuşa ermənisi inandırmağa çalışırmış ki, Şuşadakı Marati erməni kilsəsinin beş min ildən artıq yaşı var. Bu gülməli faktın izaha ehtiyacı yoxdur. Erməni tarixinin bütün məzmun və mahiyyəti bundan ibarətdir. Əsasən Suriya, Türkiyə, İran, qismən də Azərbaycan ərazisində yaşayan ermənilərin xristian dinini qəbul etməsi (IV əsr) də bununla bağlıdır. Onlar bununla ərazisində yaşadıqları və qonşuluqda olan ölkələrə qarşı çirkin niyyətlərində xristian qüvvələrdən istifadə etməyə çalışmışlar. Sonradan isə islam və xristian qarşıdurması yaratmağa çalışmışlar və indi də türklərə və azərbaycanlılara qarşı xristianlıqdan troya atı kimi istifadə etməyə çalışırlar.

Qədim yunanlar ümumi təbii, yaxud formal zamanla (xronos) yanaşı kayros anlayışından da istifadə edirdilər. Bu anlayış bilavasitə cəmiyyət tarixinə, yaxud sosial tarixə aiddir. Məlumdur ki, tarix anlayışı çoxşaxəli anlayışdır. O, təbiət və onun yaranmasından tutmuş, təfəkkürün özünün inkişafı tarixinə qədər bütün sahələri əhatə edir və bu mənada hər şey tarix anlayışına

daxil olur. Əlbəttə, bu, tarix anlayışının geniş mənada götürülməsidir. Dar mənada isə tarix xüsusi elm sahəsi kimi cəmiyyət həyatının müəyyən bir xroniki ardıcıllıqla öyrənilməsidir. Lakin bu xroniki ardıcıllıqla, biz, cəmiyyətlərin dəyişən, yüksələn və ətalətli həyatla yaşayan dövrlərinə rast gəlirik. Kayros bütövlükdə tarixi və sosial zamanla bağlı olan anlayışdır. Kayros zamanın irəliyə doğru sürətli axınıdır ki, bu da bütövlükdə cəmiyyət həyatının, yaxud hər hansı bir tarixi dövrün ciddi dəyişikliklərlə, yeniliklərlə irəliyə doğru sürətli inkişafını verir. K.Yaspers belə yanaşma əsasında hər şeydən əvvəl, e.ə. VIII-II əsrlərdə baş vermiş elmi-mədəni hadisələri nəzərdə tuturdu. Bu dövrdə bir-birindən asılı olmadan Asiyada və Avropanın cənubi şərqində (Yunanıstanda) böyük mədəniyyətlər yaranırdı. Bu mədəniyyətlər bütövlükdə dünya elminin və mədəniyyətinin inkişafına güclü təsir göstrmişdir. Bütövlükdə bəşəriyyətin o zamankı mifoloji şüur müstəvisindən elmi şüur müstəvisinə keçməsinə səbəb olmuşdur.

E.ə. VIII əsrdən başlayaraq xüsusilə Yunanıstanda dünya elminin sonrakı inkişafına da istiqamət verən və bəzən alimlər tərəfindən «yunan möcüzəsi» kimi qiymətləndirilən elmi-mədəni hadisələr silsiləsi də elə budur. Beləliklə dünyanın bir hissəsində sosial zaman axını sürətlənmiş, sıxlaşmış, digər hissələrində isə təbii axar, yaxud formal zaman (xronos) olaraq qalmaqda davam etmişdir. Ruslar sosial zamanın belə sürətli axınına aid K.Yaspersin işlətdiyi anlayışı «osevoe vremə» kimi tərcümə etdikləri üçün azərbaycanlı alimlər də bunu «ox zaman» kimi tərcümə edirlər. Rusların tərcüməsi müəyyən qədər uğurludur və başa düşülür. Yəni zaman bütün sosial varlığı irəli aparan bir mexanizmi hərəkətə gətirən ox kimi çıxış edir. Əlbəttə, bu, daha çox metaforadır. Azərbaycan dilinə bunun «ox zaman» kimi tərcüməsi isə müəyyən dolaşıqlıq yaradır. Çünki Azərbaycan dilində ox omonim sözdür. Məlum olmur söhbət atılan oxdanmı, yaxud hər hansı bir mexanizmi hərəkətə gətirən oxdanmı gedir. Kayros isə müəyyən bir sosial zaman (və məkan) daxilində tarixin, daha doğrusu düşüncə, təfəkkür tarixinin (fəlsəfə tarixi və məntiq) yeni

bir mərhələyə daxil olması və bunun nəticəsində müəyyən bir sosial məkanda sosial zamanın sürətlənməsidir. Başqa bir şəraitdə 10 və 100 illərlə olan sosial dəyişikliklərin tarix baxımından qısa bir müddətə baş verməsidir. Məsələn, keçən əsrin 70-ci və 80-ci illərinin əvvəlində heç bir filosof, politoloq və siyasi xadim təsəvvürünə belə gətirə bilməzdi ki, cəmi bir neçə ildən sonra kommunist sovet dövləti çökəcəkdir. Hərçənd bunun tərəqqi olduğunu söyləyənlərlə bərabər geriləmə olduğunu söyləyənlər də var. Bu haqda istər elmi, istərsə də kütləvi ədəbiyyatda və eləcə də KCV də və xalq arasında mübahisələr səngimək bilmir.Kayros anlayışı öz məzmunu və mahiyyəti etibarilə tarix və sosial zamana aid olduğu üçün və burada hərəkətverici qüvvə şüur, təfəkkür və ağıl olduğu üçün o xalis qnoseoloji anlayışdır. Ox isə bütün hallarda maddiliklə bağlıdır və buna görə də yuxarıda göstərildiyi kimi, yalnız metaforadır.

E.ə. II əsrdən başlayaraq XIV əsrə, renessansın başlandığı dövrə qədər olan Avropa tarixinə isə heç cür kayros demək mümkün deyildir. Çünki bu tarix demək olar ki, xronos, yaxud təbii, formal zaman hüdudunda gedir. Hərçənd formal, yaxud təbii zaman məsələsi də son dərəcə mübahisəlidir. Aristotel, Avqustin, Berqson, Reyhenbax kimi filosofların bir-birindən köklü surətdə fərqlənən konsepsiyaları buna misal ola bilər. Ümumiyyətlə, zamana münasibətdə istər xronos, istərsə də kayrosa aid konkret hadisələr hüdudundan kənarda hər hansı bir konstantanı, postulatı mütləq halda qəbul etmək hələlik mümkün deyil.

Eranın VII əsrindən başlayaraq islam dininin meydana gəlməsi və yayılması isə bütün islam ölkələri üçün xronosu kayrosa çevrilir. Əlbəttə, bu kayrosu avropalılar ya fəhmsizlikdən, ya da özünə aludəçilikdən qəti halda qəbul edə bilmirlər. Bəlkə də bu , daha çox ikinci səbəbdən irəli gəlir. Çünki Qərb ümumiyyətlə Şərqə qədim elm və mədəniyyət mərkəzindən daha çox ekzotik bir aləm, nağıllar dünyası kimi baxmışdır. Buna görə də VII əsrdən başlayan islam dini, onun ölkələri, xalqları bir-birinə yaxınlaşdıran, bağlayan əlaqələr ypratması, yunan elmini və mədəniyyətini yenidən dirçəltməsi, daha da inkişaf etdirməsi və

onu avropaya təqdim etməsi kimi faktları Qərb hələ də lazımınca qiymətləndirməmişdir. Qərb birmənalı olaraq yalnız özünü elm və mədəniyyət mərkəzi kimi görməkdə davam edir.

Əlbəttə, sosial zaman düşüncənin və praktikanın, fəaliyyətin məzmunundan asılı olaraq inersional (ətalət) halında olmaqla xroniki zamandan geri də qala bilər. Belə olduqda, artıq qeyd edildiyi kimi, onilliklərin, yüzilliklərin keçməsinə baxmayaraq sosial zaman dayanmış halda olur, hər şey təkrarlanma yolu ilə gedir. Lakin düşüncə və fəaliyyətin məzmununda yeniliklər yaranmağa başladıqda sosial zaman da dəyişməyə, sürətlənməyə başlayır. Belə olduqda cəmiyyət on illərlə keçdiyi yolu qısa bir müddətə keçir və öz perspektivi üçün də yol açır. Burada bir tərəfdən cəmiyyətin, onun vətəndaşlarının daxili potensialı hərəkətə gəlir, digər tərəfdən ətraf cəmiyyətlərdə gedən proseslər də bu və ya digər dərəcədə təsir göstərir. Burada daxili əlaqələrlə xarici əlaqələr vəhdət təşkil etməyə başlayır. İndiki qloballaşma şəraitində, dünya əlaqələrinin daha da inkişafı şəraitində xarici təsirlər daha da genişlənir və güclənir. Demək olar ki, cəmiyyət həyatının strukturuna daxil olan bütün sahələr üzrə müxtəlif istiqamətli beynəlxalq təşkilatlar yaranır və bu təşkilatlar müəyyən hesablamalar apararaq qismən də olsa dəqiq proqnozlar verməyə çalışırlar. Bu isə yalnız dünyanın müəyyən bir hissəsi üçün (məsələn, Avropa və ABŞ) deyil, bütövlükdə dünyanın inkişafı üçün şans yaradır. Əlbəttə bu proqnozların reallaşması bu gündən daha çox gələcəyin işidir. Lakin dünyanı kortəbiilikdən, gözlənilməz hadisələrin baş verə bilməsi qorxusundan xilas etməyin hansısa başqa bir yolu hələlik tapılmamışdır. Müəyyən dairələr tərəfindən irəli sürülən və müdafiə olunan liberalizm və liberal iqtisadiyyat isə dünyanı sosial qəzaya doğru aparmaqdadır. Çünki indi dünyanın iyirmi ən varlı ölkəsinin gəliri ilə ən kasıb ölkələrin gəlirləri arasındakı fərq 330 dəfədən çoxdur. Bu isə daha çox dünya miqyasında aparılan müxtəlif variantlı siyasi və iqtisadi ekspansiyanın nəticəsidir. Bolluca xam mal və eyni zamanda satış bazarı əldə etmək üçün müxtəlif adlar altında aparılan siyasətin nəticəsidir. Buna görə də güclü dövlətlər

hegemonluq siyasətindən əl çəkib liderlik siyasətinə keçməli və zəif, öz iqtisadiyyatını və iqtisadi siyasətini qura bilməyən ölkələrə hər cür yardım və kömək etməlidirlər. Bunlar isə həmin ölkələrin ümumi mədəni, təsərrüfatçılıq və idarəçilik ənənələri bazasında olmalıdır. Çünki başqa bir ölkədə effektli olan standartları digər bir ölkəyə sırımaq gözlənilən nəticələri verməyə də bilər.

Hegemonluq siyasəti isə bütövlükdə dünyanın məhv olmasına da gətirib çıxara bilər. Çünki dünya zaman və məkanda lokallaşmadan ümumiləşməyə getdiyi üçün indi lokal fəlakətlər öz lokallığından asılı olmayaraq dünyanın ümumi ovqatına bu və ya digər dərəcədə təsir göstərməkdədir. Təsadüfi deyirdir ki, siyasi fəlsəfə ilə məşğul olanların bir qismi dünyanı vahid bir sistem kimi araşdırmaq üzərində işləyirlər. Amerika alimi İmmanuil Vallerstaynın və digər alimlərin tədqiqatları buna misal ola bilər.

Dünya tarixinin müəyyən dövrlərə bölünməsi, yaxud dövrlənməsi məsələsi son dərəcə mübahisəli məsələ olaraq qalır. Sovet tarixşünaslığında və tarix fəlsəfəsində mütləq halda qəbul olunan formasion bölgü indii artıq tarixə yanaşmanın variantlarından biri olaraq qalır. Aparılan mübahisələr əsasən dörd istiqamətdə gedir:

1) Dünya tarixinin müəyyən dövrlərə bölünməsinin xronikası düzgün qurulmayıb və hazırda işlənən xronikanın özü düzgün deyildir. Buna görə də tarixi hadisələrin özü baş-ayaq düşüb. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu, əsasən qədim dövr və orta əsrlər tarixinə aiddir. Əlbəttə, uzun müddət tarix sahəsində çalışan nüfuzlu tarix alimlərinin böyük əksəriyyəti tətbiqi riyaziyyat sahəsində mütəxəssis olan akademik Fomenko və onun yaratdığı qrupun fikirləri ilə razılaşmır və bu fikirləri qəti rədd edirlər. Qeyd edək ki, tanınmış rus filosoflarından A.A. Zinovyev isə Fomenko qrupunun tarixə baxışlarını qəbul etmiş, digər filosoflar isə bu məsələyə hələlik münasibət bildirməmişlər.

2) Tarixi dövrlər mövcud sərvətlərin bölgüsünə görə bir-birindən fərqlənir. Burada təbii sərvətlərin və istehsal vasitələrinin sahibləri istismarçılar, muzdlu əməkçilər isə istismar olunanlar hesab olunur. İstismarçı siniflərlə muzdlu əmək haqqı proletar

sinfi arasında həmişə antaqonist ziddiyyət vardır. Lakin müxtəlif tarixi dövrlərdə, yaxud formasiyalarda istismarçılar və istismar olunanlar müxtəlif rollarda çıxış edirlər. Bu antoqonizm beş formasiyadan üçü daxilində baş verir. Birinci formasiyada ibtidai, beşinci, yaxud sonuncu formasiyada isə inkişaf etmiş, təminatlı sosial bərabərlik mövcuddur. Artıq göründüyü kimi, bu, marksizm nəzəriyyəsidir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, marksizmin tarix nəzəriyyəsi, həm də hər bir formasiya daxilində sosial zamana da aiddir. Bu nəzəriyyənin başlıca qüsuru ondadır ki, sosial zaman da sosial məkan da ümumiləşdirilir və bütün dünya üçün vahid və mütləq düstura çevrilir. Bu isə bu nəzəriyyə daxilində, bütün tənqidi məqamlara baxmayaraq, Hegelin mütləq ruhunun məntiqdən çıxarılaraq tarix antologiyasına tətbiqi idi. Real gerçəklikdə isə istər sosial zamanlar, istərsə də sosial məkanlar müxtəlifdir. Əgər belə olmasaydı artıq XVII-XVIII əsrlərdən başlayaraq Avropa Afrikada, Amerikada, Asiyada, Avstraliyada zəbtetmə və müstəmləkə siyasəti apara bilməzdi. Tarixə marksist yanaşmanın mahiyyəti mövcud cəmiyyətin siyasi, iqtisadi və sosial quruluşunu tamamilə dağıdaraq yeni cəmiyyət qurmaqdan ibarət idi. Beləliklə, sosial dünya hamı üçün eyni olan universal prinsiplər əsasında qurulmalı idi. Bu isə daha çox inqilabi donkixotluq idi.

3) Tarixi dövrlərin maddi sərvətlərin bölgü münasibətlərinə görə deyil, istehsal vasitələrinin, texniki vasitələrin və texnologiyanın inkişafına görə bölünməsi keçən XX əsrin 60-cı illərində ABŞ filosofu U.Rostou, sonradan isə yenə ABŞ filosofu E.Toffler tərəfindən aparılmışdır. Onların bölgülərində müəyyən fərqlər olsa da, ümumi cəhətlər daha çoxdur. Bu bölgülərə görə tarix üç tip cəmiyyət mərhələsindən keçmişdir: 1) aqrar mərhələ. Bu mərhələ ən qədim dövrlərdən başlayaraq XVII-XVIII əsrə qədər davam etmişdir. 2) İndustrial mərhələ. Bu mərhələ hələ indi də davam etməkdədir. 3) Postindustrial mərhələdir ki, bu da XX əsrin ortalarından başlayırr və bunun əsasında yüksək biliklər durur.

4) Sivilizasiya nəzəriyyəsi. İlk dəfə ərəb filosofu İbn Haldun tərəfindən elmə daxil edilən bu anlayış hələ də öz vahid məzmununu tapa bilməmişdir. Lakin məlumdur ki, sivilizasiya cəmiyyətin sosial -siyasi təşkili, dövlətin özünü və cəmiyyəti qanun və ədalət əsasında idarə etməsi, elmi-texniki inkişaf, vətəndaşların öz həyat tərzlərində qanuna və mənəvi- əxlaqi dəyərlərə əsaslanması və s. xüsusiyyətlərlə əlaqədardır. Bütün bunlar mədəniyyət anlayışına daxil olan komponentlərlə də eyniləşməyə başlayır. Buna görə də sivilizasiya anlayışını mədəniyyət anlayışı ilə eyniləşdirənlər də vardır. Lakin qanunla işləyən dövlət və onun ümumi hüquqi normaları (konstitusiya), eləcə də elmi və texniki tərəqqi olmayan yerdə sivilizasiyadan danışmaq o qədər də yerinə düşmür. Mədəniyyətə gəldikdə, bu, ümumiyyətlə insanların fəaliyyət və yaşayış tərzi ilə bağlı olduğu üçün daş dövrünün də mədəniyyətindən danışmaq olar. Çünki insan varsa, deməli o yaşayır və nə iləsə də məşğul olur. Beləliklə, bütün xalqların mədəniyyətindən və bu mədəniyyətin tarixindən danışmaq mümkündür. Lakin bütün xalqların sivilizasiyasından və onun tarixindən bəhs etmək bir qədər çətin məsələdir. Buna görə də təsadüfi deyil ki, bu gün də sivilizasiyalı xalqlar və ölkələr dedikdə ilk növbədə Avropa ölkələrini və xalqlarını nəzərdə tuturlar. Çünki onlar həm cəmiyyətin təşkili və idarə olunması baxımından, həm də elmi-texniki və texnoloji inkişaf baxımından dünyaya müəyyən nümunələr verə bilirlər. Hərçənd bu ölkələrin özləri də istər ümumi mədəniyyət, istərsə sivilizasiya baxımından hələ də kamil deyillər və tez-tez müxtəlif tipli böhranlarla qarşılaşırlar. Şübhəsiz ki, bu, hər şeydən əvvəl, Avropa həyatının dinamikliyi ilə bağlıdır. Lakin avropalıların üstünlüyü ondadır ki, onlar bunu vaxtında görə bilir və bəzən hadisələri qabaqlamağı bacarırlar. Hadisələrin isə bəzi hallarda onların proqnozlaşdırdığı kimi deyil, başqa istiqamət alması daha çox elmi elitanın deyil, siyasi elitanın, hakimiyyət elitasının iradəsi ilə baş verir. Məsələn, ikinci dünya müharibəsi heç də alman filosof və alimlərinin ideyaları və arzuları əsasında deyil, Hitler və onun ətrafındakıların sərsəm ideyaları nəticəsində baş ver-

mişdir. Çünki Hitler və dəstəsi cəlbedici populist vədləri ilə alman xalqının böyük əksəriyyətini aldada bilmiş, başqa bir hissəsini isə hakimiyyət vasitəsilə zorla tabe olmağa məcbur etmişdilər. Təsadüfi deyildi ki, alman elmi elitasının bir qismi Almaniyanı tərk edərək başqa ölkələrə üz tutmuşdu. Bununla da alman xalqı öz elmi və mədəni elitasının bir qismindən məhrum olmuşdu. Elmi elita ilə, səmimiyyətlə işləyə bilməyən hakimiyyət isə zəif və qorxaq hakimiyyətdir. Bu zəiflik və qorxaqlıq isə çox vaxt hakimiyyətin ekstremist siyasətində özünü göstərir. Faşizm siyasəti bütün parametrlərdə ekstremist siyasət idi. Buna görə də sivilizasiya ilə siyasi hakimiyyət və onun yeritdiyi siyasətin birbaşa əlaqəsi olmalıdır. Lakin uğursuz hakimiyyət sivilizasiyanı da korlaya bilər.

Sivilizasiyanın texnika ilə bağlılığını göstərən amillərdən biri də son illərdə «texniki sivilizasiya» anlayışının işlədilməsidir. Bu anlayış daha çox texnika və texnologiyanın sürətli inkişafı ilə mənəviyyat arasında uyğunsuzluğun yaranması, mənəvi böhranın baş verməsi kontekstində işlədilir. Doğrudan da texniki cəhətdən çox irəli getmiş olan qərb tez-tez mənəvi problemlərlə qarşılaşmalı olur. Buna görə də qərb indi sivilizasiyaların alyansı ideyasını irəli sürür və bu anlayışda daha çox qərb (xristian) sivilizasiyası ilə şərq (islam) sivilizasiyasının alyansı nəzərdə tutulur. Müasir avropa sivilizasiyası daha çox xarici aləmə, təbiətə və ondan istifadəyə yönəldiyi üçün insanın daxili aləmi bu sivilizasiyanın diqqət mərkəzindən kənarda qalır. İslam sivilizasiyası isə daha çox insanın daxili, mənəvi, ruhi aləminə yönəldiyi üçün indi avropada, yuxarıda haqqında bəhs olunan alyans məsələsini qoyurlar. İslam aləminə mənsub olan filosof və alimlər isə təkcə öz sivilizasiyalarını tərifləməklə yox, onu akademik R.Mehdiyevin göstərdiyi kimi modernləşdirmək, qərb texniki və texnoloji bilik və bacarığı ilə, qərb demokratiyasının pozitiv ənənələri ilə birləşdirməlidirlər. Əslində bu məsələləri hələ XIX əsrdə M.F.Axundov nəzərdən keçirmişdir. Akademik R.Mehdiyev isə Axundov irsindən qidalanaraq onları müasir dövrə uyğun olaraq araşdırır və inkişaf etdirir.

Müasir sivilizasiya cəmiyyətin demokratiyaya, modernləşməyə doğru gedişindən və bu gedişin məzmun və sürətindən asılıdır. Bu isə heç də bu və ya digər siyasi birləşmənin özünü demokratiya ilə əlaqələndirilməsi ilə deyil, real halda apardığı siyasət və onun nəticələri ilə ölçülür. F.Engelmin sovet dövründə şüurlu surətdə nəzərdən qaçırılan, əhəmiyyət verilməyən belə bir fikri var ki, həqiqi hərəkatın hər bir addımı, yəni görülən işin real nəticəsi qəbul olunan bir dücin proqramdan daha əhəmiyyətlidir. Bu fikir bu və ya digər formada müasir politoloq və sosioloqlar tərəfindən də söylənilir. Lakin yaddan çıxarmaq olmaz ki, sivilləşmə, mədəniyyətlərin yaxınlaşma prosesi mədəniyyət, sivilizasiya libası altında mənəvi-mədəni mutantlıq da yarada bilər. Bu mutantlıq zahiri cəhətdən bu və ya digər səviyyədə parlaq olsa da mahiyyət etibarilə heç nədir. Belə mədəniyyətin daşıyıcıları üçün ölkə, xalq, onun problemləri, qayğıları anlayışı çox azdır və ya yoxdur. Onlar yaşadıqları ölkənin iqtisadi imkanları, xalqın ümumi yaşayış səviyyəsi ilə deyil, özlərinin həddi bilməyən izafi tələbatları, sağlam düşüncəyə sığmayan dəbdəbəli həyat arzusu və iddiası ilə yaşayırlar. Özlərinin peşə, fəaliyyət sahəsində nə isə edə bilmək qabiliyyətlərindən dəfələrlə artıq həyat səviyyəsi qurmaq və yaşamaq iddiası ilə yaşayırlar. Bu, sözün əsl mənasında idraki və mənəvi boşluqdur. Təəssüf ki, Azərbaycanda belə adamlara daha çox iş adamları, məmurlar və dırnaq arası mədəniyyət xadimləri arasında rast gəlmək mümkündür. Xalqın arasında tanınan, populyar olan bu adamlar xalqa çox pis nümunələr verirlər.

Sivilizasiyanın, tarixə sivilizasion yanaşmanın ən böyük üstünlüyü ondadır ki, o cəmiyyət miqyasında insanları bir-birindən ayıran cəhətləri deyil (formasion yanaşmada olduğu kimi), insanları birləşdirən cəhətləri (iqtisadiyyatda, sosial həyatda, dövlət siyasətində, məişətdə, düşüncədə və s.) axtarır. Çünki cəmiyyətin birliyi nəticə etibarilə onun inkişafının mənbəyini təşkil edir. Burada özgələşmə, yadlaşma olmur. Özgələşmə, yadlaşma və biganəlik kimi hadisələrin baş verməməsi üçün istər hüquqi, istərsə də iqtisadi qanunlarla yanaşı əxlaqi-mənəvi meyarlar də işləyir.

Yalnız praqmatik iqtisadi qanunlar əsasında qurulan iqtisadiyyat gəlirin əldə edilməsində və bölüşdürülməsində çox ciddi çətinliklər yaradır. Bir tərəfdən milyon və milyardçılar, digər tərəfdən isə yoxsullar kütləsi yaranır. Bu isə özlüyündə iqtisadiyyatın tənəzzülünə, böhranına gətirib çıxarır. Təsadüfi deyil ki, 2008-ci ildə yaranan və indiki 2010-cu ildə də davam edən iqtisadi böhranın bilavasitə iqtisadiyyatda mənəvi-əxlaqi normaların gözlənilməməsi səbəbindən baş verdiyini söyləyənlər də var. Onlar bu böhranı daha çox mənəvi böhran kimi qiymətləndirirlər. Alimlərin bir qismi cəmiyyətin inkişafında intellektual və mənəvi-əxlaqi dəyərlərin həlledici rolunu yüksək qiymətləndirir. Onlar göstərirlər ki, kortəbii davranış, ideya-nəzəri əsası olmayan fəaliyyət insana yox, başqa canlılara xas olan keyfiyyətdir. İnsan fəaliyyəti fikrin və mənəviyyatın övladıdır. Burada psevdodemokratiya adı ilə fəaliyyətə başlayan yırtıcı işbazlar cəmiyyətin iqtisadi və mənəvi həyatına heç bir xeyir vermədən öz sərvətlərini artırmaqla məşğul olurlar.

Beləliklə, müxtəlif dövrlərə bölünən tarixi zamandan fərqli olaraq sosial zaman istər cəmiyyət həyatı, istərsə də konkret insan üçün həmişə bütün məzmunu ilə birlikdə real halda yaşanılan zamandır. Buna görə də hər hansı bir dövrü onun bütün tərəfləri ilə götürmək, təhlil etmək tarix elmi üçün həddən artıq çətindir. Çünki tarix həmişə əldə olan faktlara (arxeoloji tapıntılar, yazılı mənbələr və s.) əsaslanır. Dövrün ümumi ovqatı, insanların kədər və sevincləri, hansı ideallarla yaşamaları, onların etik və estetik münasibətləri isə tarixə aid yazılan əsərlərdə öz əksini tapa bilmir və nə tarix elmi, nə də tarixçi öz qarşısına heç belə bir məqsəd də qoymur. Burada baş vermiş hadisələrə sadəcə olaraq konkret bir fakt kimi yanaşılır. Bunun elmi təhlilini sosial fəlsəfə verə bilər və bir elm sahəsi kimi bu, onun başlıca vəzifəsidir. Konkret bir tarixi dövrə və ya hadisəyə aid bədii əsər yazan yazıçı da öz qarşısına belə bir məqsəd qoya bilər. Onun buna nail olub-olmaması isə tamamilə başqa bir məsələdir. Məsələn, L.N.Tolstoy «Hərb və sülh», M.A.Şoloxov «Sakit Don» romanlarında buna nail ola bilmişlər. Ç.T.Aytmatov isə «Əsrdən də uz-

un çəkən gün» romanında Sovet dövrünün mənasız ideoloji təbliğatının insanları necə küt və düşüncəsiz etdiyini (Sabitcan və Manqurt paraleli), postsovet dövründə isə hər şeyin alınıb-satılmasından ibarət olan və əslində əsl bazar iqtisadiyyatı ilə heç bir əlaqəsi olmayan liberal (demokrat) münasibətlər sistemində insanların necə də öz şərəf və ləyaqətlərini itirməsindən bəhs edən «Dağlar uçan zaman» romanında məhz indiki sosial zamanı tədqiq etmişdir.

Sosial zamanın relyativliyi yalnız onun yerində sayması, yaxud sürətlə irəli getməsində deyil, həm də geriyə qayıtmasıdır. Yəni sosial zaman yalnız ardıcıllıqla irəliyə doğru gedən xətti zamandan ibarət olmayıb geriyə, artıq keçilmiş olan dövrə də qayıda bilər. Postsovet dövrü də belə olmuşdur. Keçən əsrin 90-cı illərinin əvvəlində demokratiya, insan hüquqları, bazar iqtisadiyyatı və s. kimi dekorativ bəzək-düzəyi kənara qoysaq, postsovet ölkələrində, o cümlədən Azərbaycanda da tarixdə heç bir analoqu olmayan hibrit bir cəmiyyət ortaya çıxmışdı. Bu cəmiyyəti kapitalizm, bazar iqtisadiyyatı cəmiyyəti, demokratik cəmiyyət, hüquqi dövlətə malik olan cəmiyyət kimi səciyyələndirənlərin əksəriyyəti bu anlayışların əks etdirdiyi hadisələrin nə tarixini, nə onların məzmun və mahiyyətini, nə də bu anlayışların özlərinin nisbi məzmuna malik olduqları haqqında aydın bir təsəvvürə malik deyildilər. Onlar sadəcə olaraq, el arasında deyildiyi kimi, nəyin hansı qazanda bişdiyini bilmədən, elə bir çömçə də mənə tök deyənlər idilər. Buna görə də dəbdə olan ibarələri işlətməklə yanaşı əllərinə keçənləri mənimsəməklə məşğul olurdular. Dəbdə olan sözləri işlətməklə məşğul olmaq isə bizə sosializm dövründən miras qalıb. Keçən əsrin 70-ci illərində «L.C.Brecnev şəxsən demişdir» ifadəsi hər yerdə gecə və gündüz hamının qülaqlarını deşir və az qala adam qulaqlarına tıxac qomaq, heç nə eşitməmək istəyirdi. Brecnevin hansısa bir əhəmiyyətli söz deməsi isə heç kimə məlum deyildi. Çünki onun dedikləri adi ritorikadan kənara çıxmırdı. O vaxtlar məşhurlaşdırılan «Çörək olsa, mahnı da olar» ifadəsi isə müasir dünyadan və onun gedişindən xəbəri olmayan geridə qalmış Afrika tayfalarının ocaq yandıranda da, onun

üzərində nə isə bişirdikdə də, yeyəndən sonra da və elə bütün günü çalıb oynamalarını xatırladırdı... Sosial zamanı (və məkanı) düzgün əks etdirməyən qeyri səmimi fikir isə yalnız ritorikadır. Ya kütlük əlamətidir, ya da riyakarlıqdır. Sosial obyektə aid söylənilən fikir reallığı düzgün əks etdirmirsə, bu fikir əsasında aparılan siyasət də gec-tez uğursuzluğa düçar olur və istər yaxın, istərsə də uzaq tarixdən buna istənilən qədər misal gətirmək olar.

Keçən əsrin 80-ci illərinin sonu və 90-cı illərində dəbə düşən demokratiya və digər anlayışlar Sorosun dediyi kimi, daha çox quldurluq və özbaşınalığa, ictimai xaosa gətirib çıxarmışdı. Məlumdur ki. demokratiya heç də birmənalı və hamı üçün eyni olan vahid kriteriyalara malik anlayış deyildir və istənilən sosial, sosial-siyasi hadisəyə demokratiya donu geyindirmək mümkündür. Çünki demokratiya özü aydın və konkret halda nəyi isə əks etdirməkdən daha çox olmayan bir şeyi əks etdirən dəbdəbəli ifadədir. Buna görə də hər cür rejimi və onun idarə etdiyi cəmiyyəti demokratik cəmiyyət kimi qələmə vermək mümkündür.

Əlbəttə, bir tarixi dövrdən başqa bir dövrə keçən cəmiyyət hələ heç də müəyyənləmiş, sabit bir istiqamət götürmüş cəmiyyət olmur və ola da bilməz. Burada pozitiv və neqativ istiqamətli proseslər gedir. Çünki mövcud qaydalar pozulur, yenilər isə birdən-birə formalaşıb möhkəmlənə bilmir. Buna görə də sosial zaman az və ya çox dərəcədə kəsgin dəyişikliklərə məruz qalır və bu dəyişkənliklər bütövlükdə insanların şüurunda, cəmiyyət həyatında gedən təbəddülatlarla bağlı olur. Bu tədqiqatları akademik R.Mehdiyev hələ SSRİ vaxtında başlayan perestroyka ilə əlaqələndirir. Azərbaycanda gedən ictimai-siyasi prosesləri isə beş dövrə bölür və bu bölgü ilə razılaşmaq olar. Çünki hər bir dövrün özünə məxsus səciyyəsi də göstərilir. Bunlar aşağıdakılardır:

1) Yenidənqurma dövrü 1985-1989;

2) 1988-1991-ci illəri əhatə edən ciddi dəyişikliklər dövrü (tanınmış rus filosofu A.A.Zinovyev perestroykanı katastroyka adlandıranda yəqin ki, daha çox bu dövrü nəzərdə tutur);

3) Konfrontasiya dövrü. Hakimiyyətə demokratiya adı altında ümumiyyətlə dövlətçilik (intellektual-mənəvi kateqoriya kimi)

haqqında təsəvvürü olmayan, yaxud çox bəsit təsəvvürü olan təsadüfi adamlar gəlir;
4) Sabitləşmə dövrü 1993-2003. Bu dövrdə özbaşınalıq edən müxtəlif silahlı dəstələr ləğv edilir. İdarəetmədə müəyyən səliqə-səhman yaranır. İqtisadiyyatda dirçəliş prosesi gedir;
5) Demokratik konsolidasiya dövrü (2003-2008). İdarəçiliyə əsasən gənclərdən ibarət yeni kadrlar cəlb olunmağa başlayır. Yeni siyasi elitanın hazırlanmasına başlanılır. Bu proses indiki 2010-cu ildə də davam etməkdədir.
Təxminən iyirmi beş ili əhatə edən bu dövr öz gərginliyinə görə doğrudn da sıxılmış sosial zaman dövrüdür. Burada baş verən hadisələr, xüsusilə birinci, ikinci və üçüncü dövrdə gözlənilməyən istiqamətlər alır, burulğan yaradır, hərəkətin vektorunu müəyyənləşdirmək çətinləşir. İnsanların düşüncə tərzləri, dəyərlər sistemi dəyişməyə başlayır. Bir növ çəkisizlik şəraiti yaranır. Belə halda bütövlükdə cəmiyyət həyatı geriləməyə başlayır. Dünya ölkələri arasında yaranan əlaqələr isə bəzi hallarda bu ölkələrdə olan bəsit, zövqsüz, həmin ölkələrin özündə belə yaxşı qarşılanmayan, mübahisə doğuran şeylərin yayılmasına gətirib çıxarır. Məsələn, xüsusilə internetlə bağlı olaraq parnoqrafiyanın, homoseksualizmin, əslində incəsənətlə heç bir əlaqəsi olmayan müxtəlif kokofonik musiqilərin yayılması buna misal ola bilər. Müxtəlif əyləncələr, şoular adamları istər şəxsi, istərsə də cəmiyyət miqyaslı problemlərin həlli istiqamətində düşünməkdən, hansısa bir məqsədyönlü fəaliyyətdən çəkindirir, onları yüngülməcaz edir. İstehsalla maraqlanmaq, texnoloji bilik və bacarıqları öyrənmək yaddan çıxır, arxa plana keçir. Adamları daha çox ən yaxşı şeyləri istehlak etmək və əylənmək maraqlandırır. Yaddan çıxır ki, ən yaxşı şeyləri istehlak etmək və əylənmək üçün bu yaxşı şeyləri istehsal edə bilmək bacarığına malik olaraq, zəhmətə qatlaşmaq, tər tökmək lazımdır. Adamlar sanki real aləmdə deyil, nağıl aləmində yaşayırlar. Elə bil ki, hazır şeyləri almaq üçün əməklə, zəhmətlə deyil, hansı yollarla isə sadəcə olaraq pul əldə etmək lazımdır. Bu adamlarda pulun dəyər ölçüsü olması haqqında elementar iqtisadi təsəvvür yoxdur.

Onlar hələ də bilmirlər ki, pulun olması üçün hansısa dəyərlri, sərvətləri yaratmaq lazımdır.
Beləliklə, sosial zaman, onun dəyişməsi yaxşı, yaxud pis məzmuna malik olması insanların özündən, onların şüur və mənəvi durumundan, əmək fəaliyyətlərindən və bu fəaliyyətin məzmunundan asılıdır.

Füzuli QURBANOV

MÜASİR ELMİ YANAŞMALARDA RİSK FAKTORU

Risk anlayışının mənşəyi və onun haqqında ilkin təsəvvürlər

Risk anlayışının mənşəyi dəqiq məlum deyil. Risk haqqında ilkin təsəvvürlər Qədim Şərqdə formalaşmışdı. Burada dəniz ticarətinin inkişafı ilə əlaqədar gəminin sahibi ilə orada çalışanların qarşılıqlı təminat razılaşması vardı. Bu qarşılıqlı razılaşmada müxtəlif gözlənilməz situasiyalarda tərəflərin öhdəlikləri tənzimlənirdi. Yəni indi bizim "risk" adlandırdığımız məfhum konkret hüquqi məzmun kəsb etmişdi. Bununla yanaşı, belə bir izah da var ki, Orta Əsrlərdə gəmiçilər latınca "risigio" sözündən istifadə ediblər. Bu sözün mənası "qaya sıldırımları" deməkdir. Gəmi bir neçə tərəfdən sıldırımlı qayalarla əhatə olunan su ərazisinə daxil olanda "risiqoya" getdiklərini (yəni sıldırımlı qayalar olan yerə) deyirmişlər ki, bu da mümkün ola biləcək daş düşməsinə qarşı ehtiyatlı davranmağı nəzərdə tuturmuş. Yəni indi bizim adi ifadə kimi işlətdiyimiz "riskə gedirəm" ifadəsinin gəmiçiliklə bağlı konkret tarixi varmış. Beləliklə, Qərbdə "risk" anlayışına yalnız Orta Əsrlərdən Yeni Dövrə keçid mərhələsində rast gəlinir. Hər bir halda tədqiqatçılar Avropa üçün Yeni Dövrün başlanğıcında bu anlayışın istifadə edilməyə başladığı qənaətindədirlər (**bax: məs., 1**). XYI əsrdə Covanni Botero indi də məşhur olan belə bir fikir söyləmişdi: "Chi non risica non guadagna" ("kim risk etmirsə, heç nə ala bilməz"). Bunlar onu göstərir ki, risk Yeni Dövrün başlanğıcında problem situasiyalarda durumu istənilən dəqiqliklə ifadə edə bilməmək çətinliyi ilə bağlı olub. Blez Paskalın məşhur kəlamını bu bağlılıqda vurğulamağa dəyər: "inancsızlıq riski (hasard) çox böyükdür, çünki masa üzərinə ruhun xilası məsələsi qoyulub".

Göründüyü kimi, bəşəriyyət tarixində risklə bağlı mürəkkəb və xeyli dərəcədə dolaşıq təsəvvürlər yer almışdır. Riski yaxşı və pislə, xeyir və şərlə əlaqələndirən insan şüuru çox keçmir ki, özü yaratdığı məntiqi və dünyagörüşü dolaşığına düşür. Çünki əsas

məsələ onda deyil ki, xeyiri şərdən, pisi yaxşıdan birmənalı ayıran meyar və ya anlayış tapasan. Real həyatda bu mümkün deyil. Həyat mənfi və müsbətin vəhdətində mövcuddur. Ona görə də riski hər hansı bir və ya bir neçə faktorla birmənalı bağlamaq və ondan insan həyatı üçün yalnız müsbət aspektdə yararlanmaq istəyi real həyatda daha çox problemlər yaratmış olur. Rişelyenin çox maraqlı bir qeydi var ki, insanlar əslində nadir hallarda ola biləcək zərər barədə düşünməsinlər, çünki onlardan qaçmaq xatirinə hərəkət edirlər və özləri üçün yeni zərərlərlə qarşılaşırlar ki, sonucu doğurdan da daha ziyanlı olur. Bu da riskin hesablanması məsələsini müasir dünyanın reallıqları baxımından xeyli dərəcədə düşündürücü etməkdədir. Ancaq bu günə qədər keçilən yolda fərqli anlayışlar da meydana çıxmışdır.

Risk haqqında elmi təsəvvürlərin formalaşması

Niklas Luman risk anlayışına həsr etdiyi əsərində vurğulayır ki, "elmi iddialara cavab verə biləcək risk anlayışı yoxdur" (**1, s.138**). Risk haqqında ciddi elmi araşdırmalar aparan demək olar ki, bütün müəlliflər bu fikirdədirlər (**bax: məs., 2**). Amerikan tədqiqatçısı Meri Duqlas yazır ki, risk anlayışı elmi müstəvidə Avropada XVII əsrdən başyalaraq işlənir (**3, s. 243**). O dövrdə risk azart oyunlarla bağlı işlənirdi. Bir bankir məşhur riyaziyyatçı B.Paskala bu tip oyunlarda uğur qazanmağı təmin edən riyazi nəzəriyyə işləməyi tapşırır. B.Paskal Fermiyə müraciət edir. Bununla iki məşhur riyaziyyatçı bu elmdə inqilabi yenilik edərək, ehtimal nəzəriyyəsini yaradırlar. Ehtimal nəzəriyyəsi riski uğur (və ya səmərə, gəlir) əldə etmək şansı bağlılığında ifadı edir. XVIII əsrdə risk daha çox dəniz sığortası məsələlərində işləndi. XIX əsr isə riskin "iqtisadiyyatda rolu erası" kimi tanındı. Qərb alimləri iqtisadi sahədə mümkün itkilərdən qaçmağın elmi əsaslarını hazırlamaqla məşğul oldular. Paralel olaraq, riskin psixoloji aspektlərdə araşdırılmasına rast gəlinirdi. Burada daha çox fərdi səviyyədə psixoloji amillərdən söhbət gedirdi. Yəni bu sahələrdə riskə daha çox subyektiv qiymətvermə, dəyərləndirmə və qərar qəbuletmə aspektlərində yanaşıblar. XX əsrin

əvvələrindən risk anlayışı yeni məna çalarları kəsb etməyə başladı. Bu dinamikaya Qərbdə çoxlu sayda tədqiqat həsr olunub. Risk artıq daha geniş və sosial, siyasi, mədəni, texnoloji sahələrlə sıx bağlılıqda nəzərdən keçirilirdi. Onun bu gün fəlsəfi və elmi prizmada aktuallığının başlanğıcı həmin proseslərdən qoyuldu. Beləliklə, müasir anlamda riskin sosioloji dərki məsələsi meydana çıxdı. Bu istiqamətdə daha geniş imkanların olduğu dərhal hiss edildi. Çünki sosioloji yanaşmada riskin texnoloji və ekoloji bağlılıqda anlamına ehtiyac yaranırdı. Yəni burada risk termini insanın sosial fəaliyyətinin mümkün nəticələri prizmasında dərk edilməsi ilə əlaqədar işlənməkdədir. Bu da fərdi subyektiv keyfiyyətlərlə yanaşı, sosiallaşma və kollektiv fəaliyyətin nəticələrinin ümumi mövqedən qiymətləndirmək zərurətini meydana çıxarırdı. Ona görə də N.Lumanın ayrı-ayrı fənlər daxilində riskin öyrənilməsinin az səmərəsiz ola biləcəyi ilə bağlı fikrini qəbul etməli oluruq. Bu anlayış daha çox fənlərarası yanaşma prizmasında səmərəli öyrənilə bilər. N.Luman bu keyfiyyətdə ümumi sistem nəzəriyyəsinin və kibernetikanın adını çəkir. Bunlarla yanaşı, sinergetika və autopoyezisin daha pozitiv rol oynaya biləcəyinə şübhə yoxdur. N.Lumanın özü də autopoyetik yanaşmadan geniş istifadə edir. Beləliklə, riskin ümumelmi yanaşma əsasında dərki məsələsi aktual olaraq qarşıda durur.

"Risk" anlayışını mütləq mənada subyektiv və ya onu klassik elmi meyarlarla obyektiv adlandırmaq müasir elmi tələblərə cavab vermir. Çünki burada elmi müşhaidəçi ilə dərketmə obyekti arasında daha mürəkkəb bir münasibətin olduğunu qəbul etmək lazımdır. Yəni özlüyündə ətraf aləm risk nədir bilmir - ona fərqləndirmə, qiymətləndirmə, ölçmə keyfiyyəti aid deyil. Risk anlayışı sistemin digər sistemi müşahidəsi zamanı özünün gəldiyi nəticələrin müqayisəsi əsasında məna kəsb edir. Ona görə də tədqiqatçı üçün həmişə elə obyektiv situasiyalar (yəni öncədən hansı dərəcədə dəqiqliklə və meyarlarla elmi fəaliyyətə başlamasından asılı olmayaraq, işin gedişində meydana çıxan gözlənilməz məqamlar, nəzərə alınmayan faktorlar, mənası tam

aydın olmayan proseslər və s.) yaranır ki, onları birmənalı qiymətləndirə bilmir. Belə situasiyalarda alınacaq qərarın ehtimali ölçülməsindən söhbət gedə bilir. Ehtimali ölçülmə əslində verilən şərtlər daxilində tədqiqatçının qarşısına qoyduğu məqsədə daha çox əminlik, dəqiqlik və səmərə ilə çatması dərəcəsindən gedir. Burada gözlənilənin başvermə ehtimalının ölçülməsi ilə, ölçənin onu duyma dərəcəsi və bu iki faktorun müqayisəsi əsasında situasiyanı qiymətləndirmə üsulu vəhdətdə çıxış edir. Bu üç aspektin sintezi fənlərarası anlamda riski dərk etməyə istiqamət verir, lakin bunlarla məhdudlaşmır. Eyni zamanda, əsas olaraq risk anlayışının tərifi ilə bağlı ortaq bir fikrin olmadığını nəzərə almaq lazımdır. Hətta bu məsələ ilə fundamental məşğul olan tədqiqatçılar fərqli tərifl ər verirlər ki, orada anlayışın məzmunu ilə riskin ölçülməsi səviyyələri arasında tərəddüdlər özünü göstərir. Bəzi müəlliflər risk anlayışını onun ölçülməsi ilə eyniləşdirirlər. Bunların sırasında Qrattın verdiyi tərifi qeyd etmək olar. O yazır ki, "risk – insan həyatı, sağlamlığı, mülkiyyəti və ya mühiti üçün arzu olunmayan, xoşagəlməyən nəticələrin reallaşma potensialıdır" (**1, s.139**). Kates və Kasperson isə risk anlayışını "gözlənilməz təhlükə" anlayışı ilə bağlılıqda izah edir. Gözlənilməz təhlükə insanlara və onlar üçün dəyər kəsb edən amillərə (mülkiyyət, ətraf mühit, gələcək nəsil və s.) olan qorxu kimi mənalandırılır. Risk isə gözlənilməz təhlükənin ölçüsüdür (**1, s. 139**). Hər iki tərifin üstün və zəif tərəfləri vardır. Qrattın tərifi daha əhatəli görünür. Riskin arzu olunmayan nəticələrin reallaşma potensialı kimi dərk edilməsi onun apriori subyektiv və obyektiv aspektlərin sintezi olaraq başa düşülməsinə əl yeri qoyur. Həm də burada riskin ölçülməsinin riskin özü ilə eyniləşdirilməsi ehtimalı yoxdur. Müxtəlif situasiyalarda risk neqativ (insan üçün bu anda, bu bağlılıqda və konkret məqsəd müstəvisində) mümkün nəticənin təzahür dərəcəsi kimi çıxış edir. Biri üçün bunun dərəcəsi çox, digəri üçün az ola bilər. Lakin bu tərifdə sosial mühitlə bağlı məqamlar əhatə olunmayıb. Məsələn, insanın prestijini itirməsi riskini necə başa düşmək olar? İkinci tərifdə isə subyektiv məqam üstünlük

təşkil edir. Riskin ölçülməsi riskin özünü tam açmır – bu, artıq konkret subyektin malik olduğu imkanlar çərçivəsində ölçmək bacarığına (ölçmə səhvi) aiddir. O da bütövlükdə risk anlayışı ilə onun ölçülməsi prosedurunu eyniləşdirmək deməkdir.

XYII əsrdən başlayaraq risk anlayışını etibarlılıq anlayışı ilə bir cütdə nəzərdən keçiriblər. Etibarlılıq öncədən müəyyən edilmiş meyarlar əsasında hər hansı hərəkətin bütün situasiyalarda bir nəticə verə biləcəyinə əsaslanır. Bu öncədən müəyyən etmənin baş verməsində hər hansı sapmaları ifadə etmək üçün isə risk anlayışından istifadə edilib. Ona görə də "risk/etibarlılıq" bağlılığında yanaşma öncədən bütün mümkün variantları nəzərdə tutan qərar qəbuletməni nəzərdə tuturdu. O aspektdə də riskin etibarlılıqla bir cütdə götürülməsinin həm də müasir elmi yanaşma baxımından əhəmiyyəti vardır. Məsələ ona əsaslanır ki, hətta alternativlər sahəsinin özü belə riski zəruri edir. Riski ən optimal düzgün qərar qismində qəbul etsək belə, alternativlər sahəsi risk faktorunu inkar etmir. Çünki istənilən seçimdən sonra "bəlkə başqa seçim daha effektiv nəticə verərdi" mülahizəsi gəlir. Bunun da səbəbi adətən alınan nəticə ilə öncədən nəzərdə tutulan arasında fərqin olmasındadır. Elə incə məqamlar olur ki, gec və ya tez alternativlər sahəsindən optimal adı ilə seçilən variantda "nələrinsə nəzərdə tutulmadığını" ortaya çıxarır. Xüsusilə, son illər insanların əsrlərlə norma kimi qəbul etdiyi "etibarlı reseptlərin" formal fiksiya olduğunu təsdiqləyən məlumatlar yayılır. Deyək ki, "sağlam qidalanma"nın nə demək olduğu indi də bəlli deyil. Müasir tibb bu anlayışla bağlı standartları dağıdan faktlar əldə edir və s.

Riskin ümumi rasional səviyyədə belə bir tərifini də vermək olar: risk qaçınılması lazım gələn ziyana görə sonradan peşmançılıq çəkməməyi təmin edən qərarın öncədən necə görülməsi ilə bağlıdır (**1, s. 142**). Risk istənilən rasional variantda onun sonradan hesablanmasına və bu hesabın öncədən qəbul edilmiş rasionallıq meyarlarına nə dərəcədə uyğun gəlməsinə bağlıdır. Əgər fərq çox olursa, daha böyük risklərdən danışılır. Bu zaman birmənalı olaraq yalnız təhlükə hesab edilən məqamlar üzrə riski

hesablayırlar. Bununla da elmi rasionallıq çərçivəsində riskin başa düşülməsi həm onun məna yükünü məhdudlaşdırır, həm də öncədən sonrakı uğursuzluğa görə təminat istəyən meyarlar tələb edir. Bu cür yanaşmada riskin təhlükə ilə əlaqələndirildiyini aydın görürük. Ümumiyyətlə, qədimdən bu yana bu iki anlayışı yan-yana qoyublar. Risk əslində dilə təhlükə ilə müqayisədə daxil olub. Bu anlayışlar arasında daxili əlaqəni inkar etmək olmaz. Lakin onları eyniləşdirməyi də müasir elmi yanaşma mövqeyindən doğru saymaq olmaz. Bu prizmada müasir dünyanın problemlərinin həllində risk faktorunun nəzərə alınması işində təhlükə amili müəyyən problemlər yarada bilir. Elmin ümumiyyətlə, bu paradoksdan yaxa qurtara biləcəyini demək çətindir. Həm də müasir mərhələdə çoxlu sayda yanaşmalar var, elmi tədqiqatlarda risklərin təsnifatını aparır, onların təsir əhatəsini müəyyənləşdirirlər. Məsələn, indi qlobal risklərdən danışmaq dəbdədir və s. Bütün hallarda risk anlayışı müasir elmi idrak və elm üçün olduqca cəlbedici məsələdir. Və söhbət təkcə təfəkkürün özünə sığal çəkməsindən getmir, praktiki aspektdə risklərin dərk edilməsi, nəzərə alınması həyati əhəmiyyət kəsb edən məqama çevrilmişdir. Yəni risk indi insanın fərd və cəmiyyət olaraq (həm də bəşəriyyət olaraq) həyatına immanent aid olan faktordur. Lakin risklə təhlükə anlayışını fərqləndirməyə cəhdlər vardır. N.Luman belə bir adım atır. Risklə təhlükənin müqayisəsi mümkün ziyanların olması əminliyinə əsaslanır. Bu isə iki aspektdən özünü göstərə bilir. Bir aspekt qəbul edilən qərarların kifayət qədər etibarlı olmadığını hesab etməkdən qaynaqlanan inamsızlıqdır. Digər aspekt isə ətraf mühitin öz təbiətindən qaynaqlanan gözlənilməz halların mövcudluğuna əsaslanan inamdır. Birinci halda biz qərar riskindən danışırıq, ikinci halda isə təhlükə mənbəyindən. İkinci halda riskin özünün qaynağı təhlükə olur. O səviyyədə təhlükə ilə risk bütövləşir, bir monetin iki üzü olur. İnsanların təhlükəni risklə bu mənada eyniləşdirməsinin praktiki əsasları vardır. Ona görədir ki, bir çox tədqiqatçılar risklə təhlükəni eyniləşdirən təriflər veriblər. Məsələn, Lopez yazır ki, “özündə təhlükə elementi daşıyan

qərarlar risklidir" (**1, s. 150**). Əntoni Hiddens də hesab edir ki, "risk elə gələcək zərərin özüdür" (**1, s. 150**). Ancaq N.Luman qeyd edir ki, burada başlanğıcda metodoloji olaraq elə faktorlar seçirlər ki, özlüyündə riskin ontoloji mövcudluğunu təsdiq edən təsəvvürlər daşıyır. Yəni metodologiyanın özü riski bəri başdan nəzərə almaq üzərində qurulur. Ona görə də hansı variantda baxılsa da risklə təhlükə "eyni qabda" olacaq. Beləliklə, "risk/etibarlılıq" cütü ölçmə probleminə işarə verirsə, "risk/təhlükə" cütü qərarların qəbul edilməsində riskin müəyyən rol oynadığını göstərir. Ancaq qərar Lumana görə kontingensiyadır (bu söz başqasının zəruriliyi və ya mümkünlüyü mənasında işlənir). Yəni istənilən qərar kontingensiya kimi öncədən fərqli məfhumların (variantların, nəsnələrin, keyfiyyətlərin, proseslərin, məzmunların, bir sözlə, özgənin) olduğunu qəbul etməyi nəzərdə tutur. Ona görə də qərar apriori özündə risk faktoru daşıyır. Risklə təhlükənin fərqləndirilməsinin daha çox psixoloji mənası vardır. Riski göz önünə alanda təhlükə unudulur. Daha doğrusu, riskli davranışla uğurlu nəticə əldə etmək məqsədə çevrilir. Təhlükənin bu formada "kölgədə qalması" müasir düşüncəyə xasdır, çünki indi fəaliyyətin əsas məqsədi xeyir əldə etməkdir. Məhz buna görədir ki, müasir elmdə təhlükədən çox risk faktorundan danışırlar. Hərçənd təhlükə də daha etibarlı gələcək naminə risk anlayışı ilə bağlılıqda nəzərdən keçirilir. O mənada məsələnin təhlükəsizlik tərəfinin qabardılması başa düşüləndir. Təhlükənin o biri üzü təhlükəsizlikdir. Təhlükədə təhlükəsizliyin təmin olunması yönündən dərk edilməsi optimist yanaşmadır. Bu, şüuraltı insanın qorxu sindromunu qəbul etmək istəməməsi və dünyanın xilası üçün çalışmağa üstünlük verməsinə bağlıdır. Belə isə risk faktorunun təhlükəsizlik məsələsi müstəvisində təhlili də maraqlı görünür. Təhlükəsizliyin yüksək olması riskin minimum olmasına bağlıdır. Minimal risklə minimal təhlükə eyni mənamı daşıyır? Bir çox hallarda eyni məna daşıyırlar. Lakin risklə təhlükə eyni anlayışlar olmadığından onlar bu bağlılıqda da fərqlənirlər. Minimal təhlükə olan yerdə də təhlükəsizlik baxımından ciddi

risklərlə xarakterizə olan qərarlar qəbul edilə bilər. Bu cür qərarlardan sonra təhlükə faktoru arta bilər. Yəni risk bu aspektdə təhlükəni stimullaşdıran rolu oynaya bilər. Deyək ki, Dağlıq Qarabağla bağlı real təhlükənin olmadığı dövrlərdə yanlış qəbul edilən qərarlar təhlükə faktorunu artırdı və nəticədə bölgənin və bütövlükdə Azərbaycanın təhlükəsizliyi böyük risk altına düşdü. İndiki mərhələdə də Güney Qafqazın taleyi bir çox mənalarda Dağlıq Qarabağla bağlı hansı qərarların qəbul ediləcəyindən çox asılıdır. Bunlar onu deməyə əsas verir ki, risk-təhlükə-təhlükəsizlik münasibətlərində qeyri-xətti məqamlar vardır. Bu da bütün hallarda risklərin ölçülməsi və onların dəyişmə dinamikasının formallaşdırılması məsələsində çətinliklərin mövcudluğundan xəbər verir.

Müasir dünya üçün xarakterik olan bu yanaşmada potensial bir paradoks vardır. Belə ki, qərar qəbul edən üçün risk varsa, qərara tabe olanlar üçün təhlükə vardır. Çünki qərar qəbul edən risk etdiyini anlayır və bu da şüuraltında qərarı həyata keçirənlərin təhlükə qarşısında qalmasını qəbul etmək deməkdir. Lakin hadisə baş verəndən sonra qərar qəbul edən getdiyi risk üçün məsuliyyət daşımağı qəbul etmir və ya bilərəkdən bunu etmir. Qərarı yerinə yetirənlər isə bilavasitə təhlükənin içərisində olduqlarından onlar başqa cür fikirləşirlər. Bu məqam risklə təhlükənin müasir dövrdə bir-biri ilə çox mürəkkəb qarşılıqlı təsirdə olduqlarını göstərir. Müasir dünyada qlobal ziddiyyətlərin məzmununda bu əlamətin əsas yer aldığını qəbul etmək lazım gəlir. Xüsusilə, siyasət, geosiyasət, iqtisadiyyat və sosial infrastrukturun formalaşmasında həmin bağlantı daha aktual özünü göstərir. Deyək ki, hər hansı layihəni modernləşmə adı altında həyata keçirmək istəyən idarəçilər, yekunda təhlükələrlə üz-üzə qalanları bir çox hallarda qəbul etmək istəmirlər. Məsələn, Gürcüstan rəhbərliyi Abxaziya və Güney Osetiyada hərbi əməliyyatlara başlamaq kimi riskli bir qərar verdilər, nəticədə minlərlə insan təhlükəyə düşdü. Lakin rəhbərlik bu riskin bədəlini ödəməyə hazır olmadılar və qərarlarını doğru saymaqdadırlar. Eyni fikri ABŞ-ın İraqa, Rusiyanın da Gürcüstana müdaxiləsi ilə bağlı deyə bilərik. Bu

misallarda riskli qərarla təhlükənin paradoksal münasibətlərinin cəmiyyətləri uyğunsuz bir vəziyyətə saldığını görməkdəyik.
rəqabət qabiliyyətinin artırılması məqsədilə infrastrukturu genişləndirməklə və onlar üçün əlverişli vergiqoyma şəraiti yaratmaqla korporasiyanın fəaliyyətinə kapital qoyuluşunu həyata keçirirlər. Məsələn, korporativ mədəniyyətin təsir vasitəsi kimi, Böyük Britaniyada, Hollandiyada, İsveç və Norveç krallıqlarında, ABŞ-da təhsil müəssisələrində çalışan müəllim-professor heyətinin tələbə-magistr və doktorantlardan fərqli olaraq daha böyük məbləğdə vergi ödəmələrinin əyani sübutu onların fərqli qiymətləri (tələbələr üçün nəzərdə tutulan yeməkxanalardakı qiymətlərdən 3-5 dəfə baha olan) olan kafe və yeməkxanalarda nahar etmələri, alış-veriş üçün qiymətdə fərqli olan mağazaları seçmələridir (**12**). Əgər kim isə bundan yan keçirsə o, korporativ qınaq obyektinə çevrilərək latent ictimai sıxıntılara və qınaqlara məruz qalırlar. Bunun ətrafdakılara necə təsir etməsini ABŞ üniversitetlərində praktikada olan müəllim soydaşlarımız çox gözəl müşahidə etmişlər. Ərazilərində təşkilatın fəaliyyət göstərməsində birbaşa maraqlı olduqları üçün onlar belə hərəkət edirlər. Bundan əlavə, bu təşkilatlar ərazinin həyatına əhəmiyyətli dərəcədə təsir (həm müsbət və həm də mənfi) göstərirlər. Məsələn, bu əraziyə daha çox sayda xarici turistlərin ziyarət maraqlarını artırdıqları üçün yerli infrastrukturun inkişafını stimullaşdırırlar, əhalinin məşğulluğunu təmin edirlər.

Həqiqətən də, korporativ idarəetmə sistemi kifayət sayda maraqlı qruplar - səhmdarlar, kreditorlar, qulluqçular, təchizatçılar, alıcılar, yerli əhali üçün əhəmiyyətlidir. Bütün bu maraqlı şəxsləri korporasiyanın əmlakında «həmiştirakçı» adlandırmaq olar. Bu anlayış altında investisiyaları tam və ya qismən yaradan və beləliklə də, korporasiyanın işinin keyfiyyətində maraqlı olan şəxslər nəzərdə tutulur. Korporativ idarəetmədə hansı qrup «həmiştirakçılar» təmsil olunmalıdır sualı təşkilat qarşısında duran fundamental məsələdir. Bu mənada, korporativ idarəetmənin nə cür həyata keçirilməsi məsələsinin mühümlüyü ayrıca təşkilatın, yaxud ayrıca inzibati vahidin çərçivəsindən kənara çıxır və bu da iqtisadi baxımdan səviyyəcə daha ümumi kateqoriyaların nəzərə alınmasını tələb edir (**12**).

Bir çoxları üçün maraqlı olan «nəzarətçiyə kim nəzarət edə bilər?» sualının qismən cavabı korporasiya xaricindəki idarəetmə dairələrində axtarmaq lazımdır. Təşkilatın idarəedilməsinin səviyyəsində və keyfiyyətində maraqlı olan sifarişçinin sərəncamında bir neçə kənar mexanizm var. Təşkilat menecmentinin fəaliyyətini nəzarətdə saxlamağa yardım edən fond və sifarişlər bunlara aiddir. Korporasiyaların idarə edilməsinin müxtəlif sxemlərində bu mexanizmlərin rolu hər bir ölkədə, xüsusi tədbirlərin görülməsindən və tarixi yaranmış şəraitdən asılı olaraq müxtəlifdir.

Təsəvvür edək ki, Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətinin nəticələrindən ümidsizliyə qapılan həm sifarişçi qismində iştirak edən dövlət orqanı (nümunə kimi ölkə rəhbərliyinin elm sahəsində islahatların zəruriliyini əsaslandıran məlum sərəncamını qeyd etmək olar və c.) həmin təşkilata maliyyə dəstəyini dayandıra və ya sifarişi digər təşkilata ötürür. Narazı sifarişçi öz maliyyə yardımını səhm formasında satışa çıxartdığı zaman nüfuzdan düşmüş təşkilatın səhmlərinin kurs qiymətinin enməsi digər təşkilatlara (məsələn, hotel və utilizasiya təsərrüfatı ilə məşğul olan hər hansı bir şirkətə) həmin səhmləri satın almaq və beləliklə də AMEA-nı qeyri-peşəkarlar tərəfindən qəsb edilməsi (udmaq) təhlükəsi yaranır. Bu hadisə o zaman baş verə bilər ki, digər təşkilat səhmlərin qiymətinin enməsinin AMEA-nın keyfiyyətsiz idarəedilməsi səbəbindən baş verdiyinə və onların əsl dəyərini əks etdirmədiyinə əmin olsun. Belə halda, səhmləri satın almış şirkət keçmiş təşkilat rəhbərlərini bu elm ocağının potensialını tam gerçəkləşdirməyə qadir olan menecerlər ilə əvəz edir və beləliklə, ballast olanların işdən qovulmaq təhlükəsi inzibatçı menecerlər üçün əsas təsir vasitəsinə çevrilir. Belə olan halda, onlar (keşmiş, müxtəlif titullara malik olan və olmayan rəhbərlər) nəinki dövlət büdcəsindən nə isə tələb etməyə, hətta belə öz vəsaitlərini (müxtəlif yollarla bəziləri tərəfindən qeyri-leqal və leqal formada yaratdıqları təsərrüffatlar vasitəsilə əldə etdikləri gəlirləri) xərcləməkdən çəkinmirlər.

Müasir dövrdə, əslində bir çoxları qəsb etməni, menecmentin fəaliyyətinin səhmdarların maraqlarına uyğun təmin edilməsi üçün yeganə mexanizm sayır. Qəsbetmə mexanizmi investorları idarəedici heyətin fəaliyyətinə nəzarətin edilməsində fəal iştiraka sövqləndirmək əvəzinə, bu funksiyanı şirkətin səhmləri üçün daha yüksək qiymət təklif edənin öhdəsinə buraxır. «Korporativ nəzarət bazarı» adlanan və azad fəaliyyətdə olan qəsbetmə bazarı şirkətin aktivlərinin daim fəaliyyətdə olan hərracını təşkil edir: əgər şirkət aktivlərinin dəyəri müəyyən səviyyədən aşağı enirsə və «kənardakı» digər şirkət bunu özü üçün məqbul sayırsa, o, uğursuzluğa uğrayan «bəxtsiz» şirkəti özünə birləşdirərək gəlir əldə edir (**15**). Elə buna görə də, qəsb edilmə təhlükəsi şirkətin menecmentini nəinki səhmdarların maraqları üzrə fəaliyyət göstərməyə və hətta səhmdarların nəzarəti olmayanda belə, səhmlərin kurs dəyərinin maksimal yüksək səviyyəsinə nail olmağa məcbur edir.

Həqiqətən də, qəsb edilmə bazarında alıcının bir sıra daha xırda şirkətlərə bölmək üçün iri şirkəti alması kimi sövdələşmələrin əksəriyyət təşkil etməsi, udulma təhlükəsinə pis idarə olunan şirkətlərin yox, yüksək diversifikasiya edilmiş korporasiyaların daha çox məruz qalmasından xəbər verir.

Belə halda isə, qəsb edilmə idarə etmənin heç də ən yaxşı forması deyildir.

O, idarəedici heyətin dəyişdirilməsi üçün (Məsələn, AMEA-nın Rəyasət Heyətinin gəlir gətirən işgüzar menecerlərlə əvəz edilməsi) çox səmərəli üsul olduğu üçün hələ də sovet dövrünün ətaləti ilə yaşayan, özünə "sərfəli" olan bir çox strukturların fəaliyyətini iflic vəziyyətinə salaraq geniş narazılıqlara səbəb ola bilər. Onda çıxış yolu necə olsun? Artıq hamıya məlumdur ki, AMEA-nın indiki fəaliyyəti qənaətbəxş deyil. Yeni idarəetmə sisteminə keçmək üçün sovet dövründə elmi dərəcə almış əməkdaşların dünyalarının dəyişməsini gözləmək isə real imkanların itkisi deməkdir (**19**).

Təkilif olunan çıxış yollarından biri kimi müxtəlif sahə problemlərini əhatə edən, mobil, işgüzar (bazar münasibətlərinin

şərtləri nəzərə alınmaqla) alternativ strukturun yaradılmasıdır. Onun müvafiq səhmlərinin satışa çıxarılması, payçıların müvafiq Direktorlar Şurasının (xarici ədəbiyyatda bu Direct Board adlanır) formalaşdırılması və nəhayət səmərəli nəticələrin yaxın müddətdə əldə olunmasına nail olmaq (**15**). Bu zaman, alternativ struktur tərəfindən köhnə strukturdan tədricən rəqabətqabiliyyətli mütəxəssislərin öz tələbatına müvafiq cəlb edilmələrinin həyata keçirilməsi davamlı proses olmalıdır.

Belə olan halda altenativ strukturun işlərinin tezliklə yaxşılaşacağına ümüd etmək sadəlövhlük olardı. Buna baxmayaraq, yaradılmış struktur, zamanın tələblərinə müvafiq fəaliyyət göstərən, cəmiyyətdə nüfuz qazanan sahibkar kimi fəaliyyət göstərəcəkdir. Bundan əlavə, Amerika və İngiltərə mütəxəssisləri belə bir şübhələrini də söyləyirlər ki, korporativ nəzarət bazarlarının mövcud olması uzunmüddətli investisiya layihələrinin şirkətin səhmlərinin kurs dəyərinə mənfi təsir göstərəcəyindən ehtiyatlanan menecerləri yalnız qısamüddətli proqramlar çərçivəsində işləməyə sövq edəcək (**15**). Bu müddəa (halbuki, onun özü də mübahisə mövzusu ola bilər) və onunla yanaşı həm qəsb edilmənin və həm də birləşdirilmənin korporasiya ilə onun təchizatçıları, alıcıları, qulluqçuları və digər «həmiştirakçılar»ı arasındakı əlaqələri nəzərə almadan yalnız səhmdarların maraqlarına xidmət etməsi fikri də Amerika və İngiltərənin təcrübəli menecerləri arasında geniş formada şərh edilir (**15, 16**).

Başlanğıcda göstərildi ki, korporativ idarəetmə sisteminə olan tələblərdə açıq tipli korporasiya çərçivəsində sahiblik və nəzarət funksiyalarının bir-birindən ayrılması nəzərə alınmalıdır. İdarəetmə problemi mülkiyyətin əhəmiyyətli dərəcədə «xırdalanması» şəraitində xüsusilə kəskin olur. Bunula yanaşı, nə açıq tipli korporasiyaların əhəmiyyətli sayda olması, nə də mülkiyyətin geniş «xırdalanması» bazar iqtisadiyyatının ümumi cizgilərinə məxsus deyildir.

Bununla yanaşı, əslində açıq tipli korporasiyalar inkişaf etmiş bütün ölkələrin «tacındakı almazdır»: bir qayda olaraq, bunlar

nəhəng korporasiyalardır və ölkə iqtisadiyyatındakı əhəmiyyətli payları onların azsaylılığını üstələyir. Hüquqi statuslarının oxşarlığına baxmayaraq, belə korporasiyalar müxtəlif ölkələrdə müxtəlif təşkilati və idarəetmə problemləri ilə rastlaşırlar və onların hər biri bu problemlərin müxtəlif həllərini tapır. Həll isə əsasən mülkiyyətin quruluşundan asılıdır, yəni korporasiyanın sahiblərinin kimliyindən və sayından asılıdır.

Böyük Britaniya və ABŞ-da adi korporasiyaların hər biri korporativ kapitalın nisbətən kiçik payına malik olan çoxlu sayda mülkiyyətçini öz ətrafında birləşdirir. Digərlərindən üstün yeganə səhmdarın olmadığı şəraitdə onlardan, eləcə də səhmdar qruplarından heç biri özünün xüsusi hüquqlarının, o cümlədən idarəetmədə təmsilçilik hüququnun tanınmasını tələb edə bilməz. Digər sənaye ölkələrinin əksəriyyətində (Almaniya, Fransa, İtaliya, Yaponiya, Koreya, İspaniya, İsveç, İsveçrə və bu siyahını davam etdirmək olar) mülkiyyət təmərküzlüyünün yüksək dərəcəsi ilə səciyyələnir. Səhmlərin iri zərfinin az səhmdarın əlində toplandığı ölkələrdə korporativ idarəetmənin rolu səhmdar kapitalın yüksək dərəcədə «xırdalandığı» ölkələrdəki rolundan olduqca fərqlənir. Bir səhmdarın səhmlərin 25, 50 və daha çox faizinin sahibi olduğu korporasiyada səhmdarların şirkətin idarəedilməsində iştirak edib-etməməsi problemi faktiki olaraq yaranmır. Səhmlərin iri sahiblərini korporasiyanın işləri ilə fəal məşğul olmağa, idarəetmə orqanında birbaşa təmsilçiliyə nail olmağa, lazım gəldikdə idarəetmə aparatını yenisi ilə əvəz etmək üçün hakimiyyət vasitələrini əlində saxlamağa vadar edən əsaslar vardır. Bu halda yarana biləcək idarəetmədə iştirak problemi «minib ödənişsiz getmək» probleminin əksidir: azsaylı səhmdarların korporasiyanın yerdə qalan digər sahiblərinin böyük kütləsinin zərərinə öz maraqlarını həyata keçirmələridir (7).

Müxtəlif investorlar qruplarının korporasiyanın işinə nəzarət üzrə fəaliyyətlərinin müqayisəli xüsusiyyətləri problemi də geniş müzakirə edilib. Böyük Britaniya və ABŞ-da korporasiyaların idarə edilməsində investorların fəal iştirakı üzrə imkanları barədə şübhələr qeyd edilib. Amerikalılar hesab edirlər ki, Böyük

Britaniyada iri investor təşkilatlar idarəetmə işində daha fəaldırlar. Bu isə onların investisiyalarının həcminin ABŞ-dakına nisbətən bir qədər yüksək olması ilə bağlıdır. Eyni zamanda, Britaniya investorları da korporasiyaların fəaliyyətindəki öz iştirak səviyyələrinin, Almaniyada alman banklarınınkı qədər olmasını istəyirlər. Alman mütəxəssisləri isə bankların sərt nəzarətindən narazıdırlar və nəzarətin daha liberal sistemini yaratmış ingilislərə və amerikalılara qibtə edirlər. Bu məkanda «Müftə mal həmişə dadlı olur» məsəlinin aşkar hökm sürdüyü iqtisadiyyat sahəsi çətinki tapılsın (**14**).

Ədəbiyyat:

1. Abbasov Ə. F. Yeniləşən cəmiyyət. Müasir elmi paradiqma və idarəetmə. B., 1998, 56 səh.
2. Abbasov Ə., Əsgərov İ. Keçid dövrü və yeni iqtisadi təfəkkür. Bakı, Nafta-Press, 2001, 142 səh.
3. Quliyev T.Q. İdarətetmənin əsasları. Bakı, 1993, 238 s.
4. Hüseynov T.H. Azərbaycanda bazar sisteminin iqtisadi problemləri (monoqrafiya). Bakı, «Elm», 2004, 227 səh.
5. Mehdiyev R. Ə. XXI əsrdə milli dövlətçilik. Bakı, Yeni nəşrlər evi, 2000, 288 səh.
6. Xəlilov S.S. Qloballaşma, «ikili standart» və elmi - texniki tərəqqinin meyarları. Fəlsəfə və sosial siyasi elmlər, № 1 - 2., B., 2003, səh.73 - 79.
7. Şükürəliyev A.S. Keçid iqtisadiyyatı və dövlət., B., 2000, s.54.
8. Абдеев Р.Ф. Философия информационной цивилизации. – М., 1994.
9. Анохин М.Г. Политические системы: адаптация, динамика, устойчивость (теоретико-прикладной анализ). – М., 1996.
10. Ансофф И. Стратегическое управление. -М.: Экономика, 1989.
11. Афанасьев В.Г. Общество: системность, познание и управление. – М., 1981.

12. Боувен Р. Организационные инновации и пути их реализации. -Проблемы теории и практики управления, 1991, №4, с. 45-50.
13. Бочаров М.К. Наука управления. Теоретические основы и практика. – М., 1996. – с.42.
14. Гончаров В.В. в поисках совершенного управления: Руководство для высшего управленческого персонала. Опыт лучших промышленных фирм США, Японии и стран Западной Европы.- М.: МП "Сувенир", БГ. 1993.
15. Друкер П. Труд и управление в современном мире. - США: ЭПИ, 1993.
16. Обри Б. Создать европейскую модель управления. - Пробл. теории и практики управл. 1991, №3, с. 4-8.
17. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər);
18. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər).
19. Gövhər Baxşəliyeva: Elmlər Akademiyası bağlana bilərmi? 525-ci qəzet. 30 aprel 2008.

Adil AXUNDOV

QƏRB SİVİLİZASİYASINDA BÖHRAN VƏ AZƏRBAYCAN

Qloballaşma prosesi siyasi, iqtisadi sahələrdə olduğu kimi mədəniyyət sahəsində də müəyyən problemlər doğurmuşdur. XX əsrdə Qərb sivilizasiyasmda meydana çıxıb dərinləşən böhran Qərb filosoflarını, sosioloqlarını bu gün də düşündürməkdə, həyəcanlandırmaqdadır. Heç təsadüfi deyil ki, tanınmış müasir Amerika politoloqu S.Hantinqton öz kitablarmdan birini «Sivilizasiyaların toqquşması» kitabının dördüncü fəslini «Avropanm tənəzzülü» adlandırmışdır.
XX əsrin əvvəlində alman filosofu O.Şpenqlerin «Qərbin süqutu» əsəri ilə qaldırılan Qərb sivilizasiyasmm böhranı problemi bütün əsr boyu Qərb mütəfəkkirlərinin əsərlərində müzakirə obyektinə

çevrilmişdir. O.Şpenqlerdən sonra bu problem fenomenologiya fəlsəfəsinin banisi, alman filosofu G.Qusserlin (1859-1938) diqqətini cəlb etmiş və o, bu problemi araşdırıb təhlil edərək öz tövsiyyəbrini vermişdir (**1**). Onun fikrincə, «Avropa insanlığının», onun bütün mədəni həyatınm və bütün mövcudluğundakı böhranm əsas səbəbi elm və fəlsəfənin insan problemindən, onun həyatınm, mövcudluğunun mənası və mənasızlığı məsələlərindən uzaq düşməsindədir. Bunun nəticəsində insanlar həyat oriyentasiyasını və özünə inamı itirirlər. O, bu vəziyyətin günahını xüsusilə elm və fəlsəfədəki pozitivist istiqamətin məhdudluğunda görürdü (**2, s. 113**).

Çox maraqlıdır ki, Qusserl elm, nəzəriyyə ilə insanm praktik təcrübə sahəsi arasındakı münasibət məsələsini qaldıraraq şüurun iki tipi, mənəvi oriyentasiyanın iki formasından bəhs açmışdır. Nəticədə o, elm, nəzəriyyə ilə insanların praktik həyat təcrübəsi arasındakı qarşılıqlı münasibətdə ikincinin əhəmiyyəti məsələsini diqqət mərkəzinə çəkmişdir. O, insanların praktik həyat təcrübəsinin və ona əsaslanan şüurun, davranışın elmdən əvvəl mövcud olduğunu bildirərək onu «həyat dünyası» adlandırmışdır. «Həyat dünyası» praktikada yoxlanmış, hamıya məlum olan, qeyri-şərtsiz qəbul olunan inamlar dairəsidir. Buna görə də o, hər bir obyektiv idrakın əsasıdır (**3**). Fenomenologiyanm vəzifəsi məhz bu «həyat dünyasının», insan, şəxsiyyət amilinin əhəmiyyətini nəzərə almaqdadır. Avropa mədəniyyəti böhranından çıxış yolu da bundadır (**4, s. 115**).

G.Qusserl ilə eyni zamanda (20-ci illər) fransız filosofu Rene Qenon (1886-1951) özünün «Müasir dünyanın böhranı» (**5**) adlı əsərində Avropa sivilizasiyasının böhranından geniş bəhs etmişdir. Onun fikrincə, müasir dünyanın böhranı artıq heç kəsdə şübhə doğurmur. Bəziləri artıq dumanlı şəkildə olsa da Avropa sivilizasiyasının donub duracağının, və ya hətta müəyyən katastrofa nəticəsində məhv olacağını görürlər (**5, s. 152**). Belə ki, sivilizasiyanm indiki taleyi məhv olmuş əvvəlki sivilizasiyaların taleyini təkrarlaya bilər. Çünki həqiqətən böhran kritik həddə çatmışdır. Elə bil ki, həqiqətən dünyanm sonuna

yaxmlaşırıq (**5, s. 153**). Sual meydana çıxır: Şərq bu müasir böhrana davam gətirə biləcəkmi, yaxud, Qərb bütün bəşəriyyəti öz uçurumuna qərq edəcəkmi?. Bu gün buna cavab vermək çətindir. Ancaq, ənənəvi Şərq ruhu ölməyəcək, çünki, o mahiyyət etibarilə ölümü üstələyir (**5, s. 276**).

R.Qenon Qərb sivilizasiyasının böhranı ilə əlaqədar olaraq Qərb-Şərq münasibətləri məsələsinə xüsusi əsər həsr etmişdir. «Qərb və Şərq» adlı bu əsərdə, o bildirir ki, bütün münasibətlərdə başqasmdan üstün olan bir sivilizasiya yoxdur. Bir münasibətdə aşağı olan sivilizasiya, şübhəsiz, başqa münasibətdə yüksəkdədir. Qərb sivilizasiyası Şərq sivilizasiyaları ilə müqayisədə bu, məhz belədir (**6, s. 24**). Qenona görə, Şərqə qərəzli və ədalətsiz münasibət əsassızdır, ziyanlıdır və məhz bu, Qərb-Şərq razılaşmasına mane olur. Halbuki, Qərb-Şərq razılaşması ikiqat faydalıdır və Qərbi gözləyən katastrofa təhlükəsinin qarşısmı ala bibr (**6, s. 26**). Qərb-Şərq münasibətbri məsələləri son dərəcə ciddi məsələlərdir (**6, s. 27**). R.Qenon həmin bu əsərində bildirir ki, Qərb sivilizasiyası tarixdə əsl anomaliya kimi meydana çıxır... Bu reqressiya o qədər dərinləşmişdir ki, bu gün Qərb adamları saf intellektuallığın nə olduğunu bilmirlər... Onların yalnız Şərq sivilizasiyalarına qarşı deyil, hətta özlərinin uzaqlaşdıqları Avropa orta əsrlərinə də nifrəti buradandır (**6, s. 35**). Şərq sivilizasiyalarınm müxtəlifliyinə baxmayaraq (Hind, Çin, Misir və s.), onlar mahiyyət etibarilə ənənəvi xarakterə malikdirlər. Öz ənənələri ilə effektiv əlaqənin olmaması Qərb sapmasınm başlanğıcıdır. Buna görə də Qenon ənənəvi sivilizasiyaya, məsələn, orta əsrlər sivilizasiyasına qayıtmağı təklif edir, ancaq onu yamsılamaq deyil, ondan ruhlanmaq və zəruri məqamlarda istifadə mənasında. Danışıq, prinsiplər etibarilə Şərq sivilizasiyası ilə razılaşmadan gedir, bu isə heç bir eyniləşməni nəzərdə tutmur. R.Qenon öz kitabmın dördüncü fəslini Şərq sivilizasiyası ilə «birləşmə deyil, razılaşma» adlandırır (**6, s. 200**).

XX əsrin ortalarında dünya və avropa sivilizasiyasındakı böhrana alman ekzistensialist filosofu K.Yaspers (1883-1969) də öz münasibətini bildirmişdir. Onun fıkrincə, dünya texniki və

iqtisadi problemlərin planetar xarakter aldığı uzun müddətli böhran mərhələsinə daxil olmuşdur. Böhranın səbəbləri hər dövlətin öz üstünlüyünü nümayiş etdirmək istəyənlərin arasında zəruri hərbi toqquşmalardır. Bunların nəticəsində həyat xaosa çevrilir ki, burada hər kəs zorakılıqla özünütəsdiqə çalışır və kor-koranəliklə qaranlığa qərq olur (**7, s. 152-154**). İnsanlar «əzici köməksizlik» vəziyyətindədirlər. Onlar atılmış vəziyyətdən çıxıb cəmiyyətə qovuşmalıdırlar, bir-birinə yaxınlaşmalıdırlar. Xalq yenidən doğulmalıdır. K.Yaspersə görə «dalan vəziyyəti»ndən çıxış yollarından biri, ola bilər ki, bütün dünya sivilizasiyalarının ənənəvi əsaslarının formalaşdığı tarixi «Ox zamanı»nın dəyərlərinə yeni səviyyədə qayıtmaqdadır (**7, s. 145-147**).

Avropa sivilizasiyasmdakı böhrana Niderland alimi, tarixçi və mədəniyyətşünası Xeyzinqa Yoxan (1872-1945) da öz münasibətini bildirmişdir. O, Qərb sivilizasiyasının böhranı səbəbini əxlaqi dəyərlərin nisbiləşməsində, kollektiv eqoizmdə, ifrat millətçilikdə (faşist Almaniyası timsalında) görürdü. Bu böhrandan qurtuluşu isə mədəniyyətin beynəlmiləlləşdirilməsində, yəni milli mədəniyyətlərin qorunması, eqoist maraqların ümumbəşəri rifaha qurban verilməsində, yer kürəsində sülhün, əminamanlığın qorunmasında görürdü (**8**).

Bəzi digər Qərb alimləri də (məsəbn, Markuze N., Fromm E., Fukuyama F.) Qərbi Avropa sivilizasiyası böhranına öz münasibətlərini bildirmişlər. Məsələn, H.Markuze (1998-1979) Avropadakı sosial gərginliyin bəzi problemlərini aydmlaşdırmağa çalışmışdır. Onun fıkrincə mövcud sosial problemlər insanları «birölçülü» vəziyyətə salmışdır. «Birölçülü» insanlar cəmiyyətə öz münasibətlərini tamamilə itirmiş insanlardır. Müasir cəmiyyətdə bu tipli insanlar kütləvi hal almışdır. Belə insanlar (işsizlər, tələbələr, milli azlıqlar və s.) təşəbbüskarlığı itirib «autsauder» vəziyyətindədirlər (**9**). Markuze kimi alman-amerikan fılosofu, sosioloqu E.Fromm da (1900-1980) Qərb sivilizasiyasını sağlamlaşdırmaq yolları haqqında, - istehlak dəyərlərinin hökm sürdüyü cəmiyyətdə insanların öz şəxsiyyətini

itirməsi, «özgələşməsi» problemləri ətrafında axtarışlar aparmış, humanist etikalı cəmiyyət arzulamışdır (**10**).

Amerika sosioloqu Fr. Fukuyama da elmi-texniki tərəqqinin formalaşdırdığı informasion cəmiyyətdə sivilizasiya problemini tədqiq edərək aşağıdakı nəticələrə gəlmişdir: XX əsrin 60-cı illərindən başlayaraq artıq sənayeləşmiş dünyanın çox hissəsində (əsasən Avropa, Amerikada) sosial şəraitin ciddi şəkildə pisləşdiyi görünür. Bu özünü cinayətkarlığın artımında, evlənmə və uşaq doğumunun çox az rast gəlinməsində (ABŞ və Skandinaviya ölkələrində hər üç uşaqdan biri nigahdan kənar doğulur), ailə-nəsli əlaqələrin pozulması və s. hallarda göstərir. Əxlaqi tənəzzüldən bəhs edən konservatorlar, (məsələn, Uilyam C. Bennet, bir sıra hallarda tənqidə məruz qaldıqlarına baxmayaraq mahiyyət etibarilə onlar haqlıdırlar (**11, s. 13-14**). Heç təsadüfi deyil ki, o, informasion cəmiyyətdəki sivilizasiya böhranını «böyük dağılma» adlandırmışdır.

Amerika sosioloqu A.Toffler də özünün «Üçüncü dalğa» adlı əsərində «super industrial cəmiyyətdə» ailələrin parçalanmasından, mənəvi dəyərlərin dağılmasmdan şikayətlənir (**12, s. 28**).

Qərb sivilizasiyasmdakı tənəzzülün göstəricibrindən biri də «kütləvi mədəniyyət» deyilən əyləncə mədəniyyətinin geniş yayılmasıdır. Hər hansı ciddi ideyadan uzaq «bulvar» ədəbiyyatmdan, qətl hadisələrini təsvir edən reklam filmlərindən, seks təbliğ edən hay-küylü musiqidən, mənasız komikslərdən və s. ibarət «kütləvi mədəniyyət»in məqsədi ictimai şüuru kütləşdirmək, gənc nəslin sadəlövhlüyündən sui-istifadə edərək onu mənəviyyatsızlıq səmtinə yönəldərək, zorakılıq təbliğ etmək kimi məqsədlər güdür.

Beləliklə, Qərb sivilizasiyasmda mövcud olan mənəvi əxlaqi böhrandan qorunmaq dünya ölkələri, o cümlədən Azərbaycan üçün böyük aktualhq kəsb -etmişdir. Burada qarşıya çıxan ağır problem ondan ibarətdir ki, mənəvi-əxlaqi deqradasiya halının yayılması infeksion xəstəliklərin yayılması təhlükəsinə bənzəyir. Bu təhlükəni reallaşdıran müasir kütləvi informasiya vasitələridir

(KİV- teleradio sistemi, internet və s.). Akademik S.Xəlilovun «Şərq-Qərb» adlı iri həcmli kitabının bəzi paraqrafları məhz bu problemin həllinə həsr orunmuşdur (**15, s. 4-7, 4-8**). O, bu problemi yüksək səviyyədə, genişliyi ilə araşdıraraq öz tövsiyyəbrini təqdim edir (**13, s. 274**). Lakin buna baxmayaraq, Qərb mənəvi-mədəni böhranı və onun Azərbaycan həyatına mənfı təsiri bütün çılpaqlığı ilə mövcuddur. Seks təbliğ edən yarıçılpaq qadın estrada müğənniləri, qəddarlıq və parnoqrafiya təbliğ edən gecə fılmləri, narkotik və qadın alveri və s. buna misal ola bilər. Görünür, bu sahədə daha ciddi vasitələrə ehtiyac vardır.

Bəzi Şərq ölkəbrində milli dirçəliş sahəsində əldə edilmiş nailiyyətlər nümunə əhəmiyyətinə malikdir. Yaponiyanm sürətlə tərəqqisi, Çin, Malaziya, Tailand və İndoneziyanın bu yolda müvəffəqiyyətbri diqqəti cəlb edir. İndi bu proses Hindistan, Filippin və Vyetnamda gedir (**16, s. 150-151**). Çinlilər və Yaponiyalılar öz milli mədəniyyətbrində yeni dəyərlər tapmaqla kifayətlənməyib, ümumiyyətlə Asiya mədəniyyəti dəyərbrinin Qərb mədəniyyətindən üstünlüyünü təsdiq etməkdədirlər (**14, s. 157**). İslam dirçəlişi - Səudiyyə Ərəbistanı, Misir, Iran, Pakistan, Türkiyə, Əl-Cəzair və s. ölkələrdə, - dövrümüzün əlamətdar sosial hadisələrindəndir. Bu, islami ideya və mənəvi-əxlaqi dəyərlərin bərpası, müasir Qərb mənəvi mədəniyyətindən imtina edilməsi deməkdir. Bu, geniş məcralı intellektual, mədəni, sosial və siyasi hərəkatdır (14, 162).

Qərb-Şərq mənəvi-mədəni, iqtisadi qarşıdurmasında Azərbaycan özünəməxsus mövqeyə malikdir. Xəzər neft strategiyası sayəsində respublika iqtisadi dirçəliş yoluna çıxmaqdadır. Bu, milli mənəvi-mədəni dirçəliş üçün imkanlar açacaqdır.

Azərbaycan, - klassik ədəbiyyat və incəsənətimiz, zəngin folklor xəzinəmiz, elmi-fəlsəfı ədəbiyyatımız kimi çox zəngin mənəvi-mədəni irsə malikdir. Avropa sivilizasiya böhranının mənfı təsirindən qorunmaq işində zəngin mədəni irsimiz yardımçı olacaqdır.

Azərbaycan həm də zəngin müasir mədəniyyət xəzinəsinə malikdir. Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev,.. Arif Məlikov musiqisi, Toğruol Nərimanbəyov, Tahir Salahov rəngkarlığı, Səməd Vurğun, Şəhriyar, Xəlil Rza poeziyası sağlam milli mədəniyyət quruculuğunda, gənc nəslin mənəvi-mədəni formalaşmasmda güclü potensial əhəmiyyət təşkil edir. Qeyri neft iqtisadiyyatı yarandıqca, maddi həyat şəraiti yaxşılaşdıqca Azərbaycanın iqtisadi və milli-mədəni dirçəliş yoluna düşməsi reallaşacaqdır. Zəngin tarixi mənəvi-mədəni ənənələrimiz və müasir mədəniyyətimiz buna tam təminat verir.

Ədəbiyyat:

1. Гуссерель Э. Кризис европейского человечества и философия // «Вопросы философии», 1986, № 3.
2. «Вопросы философии», 1986, № 3.
3. Yenə orada.
4. Yenə orada.
5. Генон Рене. Кризис современного мира, Беловлдье, 2004.
6. Генон Рене. Восток и запад, Беловодые, 2005.
7. Ясперс К., Бодрияр Жан. Призрак толпы. М., 2007, 272 с.
8. Хейзинга И. Осень средневековья.М., 1988.
9. Marcuse H. One dimensional man. Boston, 1964.
10. Фромм Э. Бегство от свободы. М., 1990.
11. Фукуяма Фр. «Великий разрыв», М., Ермак, 2004.
12. Toffler A. «Üçüncü dalğa», «Altın kitablar», 1981.
13. Xəlilov S. Şərq-Qərb. Bakı, «Nurlan», 2004.
14. Хантингтон С. Столкновение цивилизаций. М., Аст, 2006.

Qərib ALLAHVERDİYEV

AZADLIĞIN İNSANIN MƏNƏVİ ZƏNGİNLƏŞMƏSİ İLƏ QARŞILIQLI ƏLAQƏSİ

İnsanın mənəvi zənginləşməsində azadlığın böyük rolu onun mənəvi ideal, əxlaq normaları, mənəvi dəyərlər ilə

münasibətlərinin təkmilləşməsindən asılıdır. Ona görə də mövcud cəmiyyətdəki əxlaq normaları, mənəvi dəyərlər, mənəvi ideal insanın mənəvi zənginlik səviyyəsinin əsil göstəricisi olmaqla azadlıq ilə çox tərəfli qarşılıqlı əlaqədə və təsirdə olurlar.

Azadlığın insanın mənəvi zənginləşməsi kontekstində təhlili öncə onunla mənəvi ideal arasındakı münasibətlərin açılmasını tələb edir. İnsanın spesifik irsi mahiyyətini ifadə edən mənəvilik, mənəvi ideal cəmiyyətin sivil səviyyəsinin çox mühüm meyarlarındandır. Ondan kənarda ictimai inkişafın normal gedişi qeyri-mümkündür. Bu mənada bütövlükdə mənəvilik və mənəvi ideal ictimai tərəqqinin ayrılmaz tərkib hissəsidir.

Mənəvi ideal və şəxsiyyətin öz davranışında əldə rəhbər tutduğu əxlaq normaları bir-birilə vəhdətdə çıxış edərək, azad seçimə müsbət təsir göstərir. Bu mənada Z.Göyüşov haqlı olaraq qeyd edir ki, azad olmayan xalqlar və millətlər arasında əxlaqi qəbahətlər artır. Çünki, şəxsən azad olmayan insanların əsl əxlaqi məsuliyyətindən danışmaq həqiqətən böyük mənasızlıqdır. «Həqiqi azadlıq olmayan yerdə şəxsiyyətin formalaşması çətinləşir. Əsl şəxsiyyətin formalaşması və təşəkkül tapması üçün, birinci növbədə azadlığı təmin etmək lazımdır»(**1, s.147**).

Mənəvi ideal ilə azadlığın sıx əlaqəliliyi həm də onların hər ikisində yaradıcılığın çox böyük yer tutmasından irəli gəlir. Yaradıcılıq məqamı, onların vəhdətini daha da möhkəmləndirir. Mənəvi ideal həmişə gerçəklikdən qabağa və uzağa yönəlmiş olduğundan, burada insanın yaradıcılıq təxəyyülü üstün rol oynayır. Öz növbəsində azadlıq və azad seçim də mahiyyətinə görə yaradıcı xarakterlidir, çünki azadlıq insanın nəinki təkcə fəaliyyətində, həm də özündə yenilik, fərqlilik yaratmaq prosesi kimi çıxış edir. Bu mənada C.Şartr haqlı olaraq göstərirdi ki, öz cismani varlığından kənara çıxmayan, yəni öz-özünə bərabər olan insanda yaradıcılıq stimulu yoxdur, o obyektə bərabər mövcudluqdur (**2, s.150-151**).

Bu fikirdən də aydın olur ki, insan təkcə obyekt kimi mövcud olduqda, yəni öz maddi varlığının hüdudlarından kənara çıxa bilmədikdə, onun həqiqi azadlıq idealına və duyğusuna malik

olması qeyri-mümkündür. Belə insanın öz azadlığının yaradıcı mahiyyətini anlaya bilməsi və azad seçim etməsi ağlasığmazdır. Lakin bu məsələdən danışarkən belə bir incə məqam unudulmamalıdır: insanın cismani və sosial varlığı ilə onun yaradıcılıq mahiyyəti, mənəvi-psixiki təxəyyülü arasında uçurumun deyil, müəyyən normal həddlərin olması gərəklidir. Əks halda, yəni həmin tərəflərin heç bir uyğunluğu olmadıqda, azad seçim real olmur. İdealın obyektiv reallıqları təmizlənmiş halda götürməsi, bu sosial fenomenə xüsusi özünəməxsusluq gətirir. Başqa sözlə deyilsə o, insanın öz daxili subyektiv reallığı kimi təcəssüm edir. V. Barulin haqlı olaraq yazır: «İdeal insanın mənəvi-intim dünyasına qovuşmaqla və onun həyatının tərkib hissəsi kimi çıxış etməklə, insana tabe olur, bu dünyanın onun tərəfindən subyektivcəsinə yenidən işlənilməsinin predmeti olur» (6, s. 466).

Mənəvi ideal və onun əsasında cəmiyyətdə qərarlaşmış və əksəriyyət tərəfindən qəbul olunmuş əxlaq normaları, azadlıq ilə daha sıx bağlıdır. Bu onunla izah edilməlidir ki, ümumilikdə insanın dünyagörüşünün formalaşması və inkişafı həmin amillərdən ayrılmazdır. Nəzərdə tutulmalıdır ki, əxlaq normaları və qaydaları özü-özlüyündə mücərrəd xarakter daşıyır. Onlar yalnız real fərdlərin iradəsi ilə əlaqələndirildikdə, öz tənzimləyici funksiyalarını yerinə yetirməyə qadir olur. Belə ki, bu məqamda onlar insanın xarakterinə daxil olaraq, onun azad seçimini şərtləndirən amil kimi çıxış edir.

Mənəvi idealın azad seçimə təsirindən danışarkən, burada dini idealın və ümumilikdə dini təsəvvürlərin əhəmiyyətini unutmaq olmaz. Doğrudur, fəlsəfi fikirdə, xüsusilə də qərb mütəfəkkirlərinin əsərlərində xristianlığın cəmiyyətin inkişafında və azadlığın həyata keçirilməsində mənfi rol oynadığını göstərən baxışlar geniş yayılmışdır. Məsələn, B.Rassel yazırdı ki, dini konsepsiyalar azad insanlar üçün yararsızdır. Yaxşı dünya yaratmaq üçün ehtirassız soyuq baxış və azad idrak lazımdır. İnsanın öz idraki ilə yarada biləcəyi bu gələcəyə inamın olması vacibdir (**10, s. 113**).

Müasir dövrdə mənəvi idealın azad seçimə təsiri mexanizmində milli maraqların təmsilçisi olan dövlət və dövlətçilik böyük yer tutur. Bu mənada ölkəmizdə milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən əsaslı tədbirlər müstəsna əhəmiyyətə malikdir. S.Xəlilov haqlı olaraq qeyd edir ki, «milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit, milli dövlətçilik şəraitində yaranır. Milli dövlət yalnız ərazinin, maddi nemətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir və bu zaman milli ruh həyat tərzinə çevrilir» (**4, s. 380**).

Mənəvi ideal ilə azadlığın vəhdətini təmin edən bir mühüm məqam aşağıdakından ibarətdir. Onların hər ikisi cəlbedici xarakter daşımasına və gözəl arzuları, saf humanist niyyətləri ifadə etməsinə baxmayaraq, real həyatda tam dolğunluğu ilə həyata keçirilmir, bir növ xəyal olaraq qalır. Belə ki, ən kamil mənəvi ideal, ən mükəmməl və hərtərəfli azadlıq kimi real həyatda təcəssüm olunmaq imkanından məhrumdur. Lakin bu fakt insanın və cəmiyyətin mənəvi zənginləşməsində onların müstəsna dərəcədə böyük rolunu və əhəmiyyətini inkar etmir.

İnsanın mənəvi zənginləşməsində azadlığın böyük rolu, onun əxlaq ilə münasibətlərinin təkmilləşməsindən ayrılmazdır. Əslində fərdin və bütövlükdə cəmiyyətin fəaliyyəti və inkişafını azadlıq prizmasından mənalandırarkən, onun əxlaq ilə münasibətləri birinci yerdə durur. Bu, onunla bağlıdır ki, məhz mövcud cəmiyyətdəki əxlaq normaları, sosial subyektin mənəvi zənginlik səviyyəsinin əsl göstəricisi olmaqla, azadlığın mahiyyətinə və ruhuna daha çox yaxındır.

Azadlıq ilə əxlaq normaları arasında əlaqələrin təhlilinə belə bir müddəadan başlamaq məqsədəuyğundur: hər bir şəraitdə fərdin hərəkət və davranışı, şəxsi məqsəd seçiminin və onu əldə etməyin vasitələrinin müəyyənləşdirilməsini tələb edir. Lakin bu seçim və müəyyənetmə, özbaşına, tam iradə azadlığı vasitəsilə olmur. Burada onların, digər insanların və bütövlükdə cəmiyyətin maraqlarına toxunmaması əsas götürülür. Başqa sözlə deyilsə, hər bir fərdin öz məqsədinə və iradəsinə uyğun davranışı, digər

insanların istək və maraqları ilə sıx əlaqəlidir. Onların uyğunlaşdırılması üçün fərdi davranışın tənzim edilməsi, yəni onun hüdudları və ölçülərinin müəyyən normalar çərçivəsinə salınması vacibdir. Cəmiyyətdə bu funksiyanı həyata keçirən son dərəcə müxtəlif normalar (hüquqi, dini-ayinlər, şərti qaydalar və s.) sırasında əxlaq normaları özünəməxsus yer tutur. Məhz onlara arxalanmaqla, davranış və hərəkətin xeyir (fəzilət) və ya şər (qəbahət) olduğunu müəyyən etmək mümkündür. Bununla yanaşı, əxlaq normaları, insanların mənəviyyatının nüvəsini təşkil etməklə, onların davranış və hərəkətlərinin azad xarakterinə güclü müsbət təsir göstərir.

Deyilənlərdən aydın olur ki, cəmiyyətdə insanların azadlığının təmin olunmasında sosial normaların çox mühüm növü olan əxlaqi tənzimləyicilər müstəsna rol oynayır. Bu onunla şərtlənir ki, əxlaq normalarının aşılamağa çalışdığı əxlaqilik (mənəvilik) insanın mənəvi mahiyyətinə daha çox uyğun gəlir. Qeyd olunan keyfiyyətə malik olan insan öz cismani və maddi tələbatı, hissləri üzərində nəzarət funksiyası yerinə yetirməyə qadirdir. Sözügedən cəhət isə azadlığın həqiqi anlamı baxımından çox mühümdür.

Qeyd etmək lazımdır ki, əxlaq normaları insanların həyatında ikitərəfli rol oynayır: bir tərəfdən konkret situasiyada onları düzgün səmtləşdirən vasitələr kimi çıxış edir, digər tərəfdən isə onların hərəkət və əməlləri üzərində nəzarəti həyata keçirir. Bu keyfiyyəti, onların azadlıq ilə əlaqələrinə stimullaşdırıcı təsir göstərir. Hər bir cəmiyyətin əxlaqı şüurunda insanların davranış və hərəkətlərinin ümumi tərəfindən qəbul olunmuş normaları və qiymətləndirici mühakimələri əsas yer tutur. Əxlaq normalarının tətbiqi dairəsi universal olub, sosial həyatın bütün sferalarını, insanın fəaliyyəti və davranışının hər bir sahəsini əhatə edir. Onlar insanların davranışının tənzimlənməsində, fərdi və ictimai maraqların əlaqələndirilməsində müstəsna rol oynayır. Lakin insanların davranışının sosial normalar vasitəsilə tənzim olunması, fərdin şəxsi azadlığının təzahür sferasını daraltmamalıdır.

Azadlığın əxlaqla münasibətlərində özünü göstərən əsas spesifiklik sonuncunun digər sosial normalardan fərqli olaraq

ictimai rəyə arxalanması ilə bağlıdır. Bu o deməkdir ki, əxlaq normaları ictimai rəyin gücü ilə qorunur, yəni onların pozulması bu rəyin qınağı vasitəsilə mühakimə olunur, pislənilir. Lakin bu fakt əxlaq normalarının gücünü və təsir dairəsini azaltmır. O həm də əxlaqın azadlıq ilə münasibətlərində mənfi rol oynamır. Belə ki, cəmiyyət üzvlərinin əksəriyyətinin marağı və iradəsini ifadə edən ictimai rəy azadlıqla sıx bağlıdır. Bu məqama xüsusi diqqət yetirərək Hegel yazırdı: «ayrı-ayrı fərdlərin öz rəyindən, onların ən ümumi məsələlər barəsində mühakimə yürütməsindən və məsləhətlər verməsindən ibarət olan subyektiv azadlıq, ictimai rəy adlanan ümumidə təzahür edir» (**7, s. 336**).

Azadlıq ilə əxlaqın vəhdəti, mənəvi borc anlayışında daha qabarıq ifadə olunur. Sonuncu, fərd tərəfindən digər insanlar və cəmiyyət qarşısında, onların maraqlarını qorumaq naminə müəyyən öhdəliklər daşıdığını hiss etməsi və başa düşməsi deməkdir. Borcun dərk olunması əxlaqi zərurət kimi çıxış edir. Mənəvi borcun mühüm bir səciyyəvi cəhəti, onun qəti və imperativ xarakterli olmasıdır. Bununla belə mənəvi borcun yerinə yetirilməsi prosesində fərd müəyyən maneələrlə və müqavimətlərlə rastlaşır və onları aradan qaldırmalı olur. Sonuncular, bəzən şəxsin öz istəyi və arzularını da ifadə etdikdə belə, şəxsiyyət onları dərk olunmuş borca qurban verir. Böyük alman filosofu İ.Kant öz etikasında mənəvi borc anlayışına geniş yer ayırır, onun şəxsi arzulardan üstün olduğunu vurğulayırdı. Bununla yanaşı o, borcu şəxsiyyətin özündən, müstəqil təbiətindən və azadlığından ayrılmaz hesab edirdi. Kanta görə borcun mənbəyi şəxsiyyətin özündən başqa bir şey deyildir, yəni bütün təbiət mexanizmindən azad və müstəqil olmaqdır, bununla birlikdə o, xüsusi, məhz öz zəkasının verdiyi xalis praktiki qanunlara tabe olan varlığın qabiliyyəti kimi nəzərdə tutulur (**5, s. 414**).

Ümumfəlsəfi baxımdan yanaşdıqda, azadlıq zərurətin dərk olunması və ifadə forması olduğu kimi, mənəvi əxlaqi həyatda da şəxsiyyətin azadlığı, onun ictimai borcunun ifadəsi hesab olunmalıdır. Azadlıq və əxlaqın münasibətlərində mənəvi borcun

böyük rolunu qeyd etməklə yanaşı, onun şişirdilməsinə də yol vermək olmaz. Əks halda, belə yanlış təsəvvür yaranır ki, insan öz borcunu avtomatik yerinə yetirir. Əslində isə şəxsiyyət, vacib olanla, arzu olunan, zəruri ilə məcburi arasında azad seçim imkanına malik olur və onu həyata keçirir. Bu halda seçim, qərar və real hərəkət könüllü yerinə yetirildiyindən, əsl əxlaqi azadlıq statusu kəsb edir. Əlbəttə əxlaqi azadlığı tam surətdə insanın öz şəxsi arzularına qarşı çevrildiyini güman etmək yanlış olardı. Əslində burada söhbət borcda ifadə olunan obyektiv (fərdin özündən kənar mənasında) tərəflər ilə insanın öz arzularının mümkün olan qədər əlaqələndirilməsindən gedir. Yalnız nadir hallarda şəxsi istək və arzular borca qurban verilir. Əsl azadlığın mövcud olması üçün, borcun insanın daxili varlığına və tələbatına çevrilməsi tələb olunur. Qeyd olunan məqam vicdan anlayışını ifadə edir. Sonuncu, insanın davranışına, onun öz nəzarətinin ecazkar qüvvəsi rolunu oynayır. Vicdan, insanın hərəkətləri üçün özü və cəmiyyət qarşısında öhdəliklərini əks etdirməklə, azadlığa daha yaxındır. Belə ki, o göstərir ki, insan borca nə isə kənar təhdidedici qüvvə kimi yanaşmır. Onu dərk etməklə, daxili zərurət kimi reallaşdırır.

Şəxsiyyətin azadlığı və əxlaqı (mənəviyyatı) arasında qarşılıqlı təsir və əlaqələrin mexanizmində vicdan ilə yanaşı, xoşbəxtlik də əhəmiyyətli yer tutur. Sonuncu, öz məzmununa görə genişdir. Onun nüvəsini fərdlərin bütün fəaliyyət sahələrində öz yaradıcılıq qabiliyyətlərini tam dolğunluğu ilə reallaşdırması təşkil edir. Xoşbəxt insan öz hərəkətinin və davranışlarının, bütövlükdə həyatının düzgün təşkilindən, xeyirxah niyyətliliyindən, başqalarına sevinc gətirməsindən böyük mənəvi ləzzət duyur. Bu məqamlar onların azad və əxlaqı xarakter daşıdığını açıb göstərir.

Bütövlükdə azadlıq ilə əxlaq normaları bir-birinə uyğun gəlir. Yəni hər bir cəmiyyətdə onun ümumi inkişaf səviyyəsi kontekstindən yanaşdıqda, həm azadlığın mövcud miqyası, həm də ona qoyulan əxlaqi qadağalar mütənasib xarakter daşıyır. Bununla yanaşı, insanın azadlığı ilə əxlaq normaları arasında müəyyən hallarda ziddiyyətlər də özünü göstərə bilir. Belə

vəziyyət cəmiyyətdə insanların azadlığına və onlar arasındakı münasibətlərin əxlaqi baxımdan tənzim olunmasına mənfi təsir göstərir. Bu qəbildən olan halların baş verməməsi baxımından aşağıdakı məsələlərin həlli çox mühümdür: a) fərdi səviyyəli əxlaq və azadlıq haqqında təsəvvürlər ilə ümumi ictimai səviyyəli göstəricilər arasında əsassız fərqlərin aradan qaldırılması və onların uyğunluğunun təmin edilməsi; b) ictimai əxlaq normaları ilə ictimai azadlıq həddlərinin bir-birinə mütabiqliyinin əldə olunması.

Yuxarıda qeyd olunan iki tərəf arasında ziddiyyətlərin mövcudluğuna yol verməmək, onlar yarandıqda isə vaxtında aradan qaldırmağa cəhd göstərmək, ictimai münasibətlərin stabilliyinin təmin olunmasında və səmərəli idarəçiliyin həyata keçirilməsində mühüm əhəmiyyətə malikdir. Bu, onunla şərtlənir ki, cəmiyyətdə istər hər bir fərdi, istərsə də ümumi ictimai miqyasda əxlaqi keyfiyyətlərin formalaşması ilə azadlıq qarşılıqlı təsirdə çıxış edir.

Beləliklə, insanın varlığı və fəaliyyətinin başlıca keyfiyyəti olan azadlıq, eyni zamanda müsbət mənəviyyatın, əxlaq normalarının və düzgün qiymətləndirmənin də mühüm əsası kimi çıxış edir. Onların ayrılmaz vəhdəti məhz bu təməl üzərində qərarlaşır. Bu vəhdət əxlaqi azadlıq anlayışında ifadə olunur. Əxlaqi azadlığın əsas məzmunu, fərdin bu qəbildən olan normaları öz şüurunda əks etdirərək, onu başa düşməsi, ona qiymətləndirici münasibət bəsləməklə həyata keçirməsi deməkdir. Onun əsas qayəsi, fərdi və ictimai maraqları optimal həddlər daxilində uzlaşdırmaq üçün real imkanlar yaratmaqdır. Şəxsiyyətin həmin imkanları xeyirxahlıq mövqeyindən, könüllü surətdə reallaşdırması, onun əxlaqi azadlığının əsas meyarı və göstəricisidir. Yalnız bu halda davranışın əxlaqiliyi, onun əxlaqi qiymətləndirilməsi və əxlaqi məsuliyyət haqqında danışmaq mümkündür. Şəxsiyyətin konkret situasiyadakı mövcud alternativlər arasında kənar amillərin və məcburiyyət normalarının təhriki ilə deyil, öz daxili inamı, əxlaqi düşüncəsi və mənəvi hissləri üzrə seçim etməsi, müəyyən qərara gələrək, onu yerinə yetirməsi mənəvi azadlığın məğzini təşkil

edir. Bu halda davranış və hərəkət mexaniki stereotiplər üzrə getmir, daxili inama, şüurlu seçimə və əxlaqi qiymətin dərk olunmasına arxalanır.

Müasir dövrdə şəxsiyyətə verilən azadlıqların miqyası durmadan artır, bununla birlikdə onun üzərinə düşən vəzifələr, habelə onun öz ictimai borcuna əməl etmək zərurəti də çoxalır. Hazırda cəmiyyətin intellektual inkişafı gedişində biliklərin xüsusi növü olan əxlaqi baxışlar və nəzəriyyələr də yeniləşir və təkmilləşir. Bununla yanaşı təlim, tərbiyə və mədəniyyət sistemləri vasitəsilə onların kütlələr içərisində yayılması, yəni cəmiyyətin geniş təbəqələrinin onları mənimsəməsi də sürətlənir. Qeyd olunan proses cəmiyyətin hər bir üzvünün düzgün və əxlaqi oriyentasiyalı azad seçim etməsi və fəaliyyət göstərməsi baxımından çox böyük əhəmiyyətə malikdir. İndi ölkəmizdə azadlığın inkişafı ilə yanaşı, onun əxlaqi əsaslarının möhkəmləndirilməsi məsələsi xüsusilə zəruri hal alır. Bu onunla izah edilir ki, açıq, demokratik quruluşun əsaslarının yaradılması vəzifələrini, təkcə məcburi vasitələrlə həyata keçirmək mümkün və məqbul deyildir. Burada ictimai borcun dərk edilməsinə əsaslanan azad və şüurlu fəaliyyət başlıca yer tutmalıdır. Sonuncu həm də mütəşəkkillik, dəqiqlik, intizam və məsuliyyətlilik kimi yüksək mənəvi keyfiyyətlərin aşılanmasında əvəzsiz rol oynayır.

Azadlığın insanın mənəvi zəginləşməsinə təsirinin çox mühüm istiqamətini, onun mənəvi dəyərlər ilə qarşılqlı əlaqələrinin möhkəmlənməsi təşkil edir.

Azadlıq ən yüksək dəyər olmaqla, daim digər mənəvi dəyərlər ilə ayrılmaz vəhdətdə mövcud olur. Onların qarşılıqlı münasibətlərinin təhlili, sosial fəlsəfədə çox mühüm yer tutur. Bu, hər şeydən əvvəl onunla izah edilir ki, geniş fəaliyyət azadlığı ilə yüksək mənəvi dəyərləri özündə birləşdirən insanın formalaşdırılması müasir cəmiyyətin qarşısında duran ən vacib problemlərdəndir. Hazırda onun həll edilməsi üçün əlverişli siyasi, iqtisadi, sosial və mənəvi şərait qərarlaşmaqdadır. Bununla birlikdə həmin istiqamətdə müəyyən obyektiv və subyektiv xarakterli çətinliklər də özünü göstərir ki, onların aradan

qaldırılmasında elmi araşdırmaların köməyinə ehtiyac duyulur.
Başqa sözlə deyilsə, cəmiyyətdə azadlığın miqyası nə qədər genişlənirsə, onun ali mənəvi dəyərlərə uyğun olmasına zərurət də bir o qədər artır. Qeyd olunan vəziyyət fikrimizcə, bununla izah edilir ki, insanların həyat fəaliyyətinin azadlıq dairəsi artdıqca və dərinləşdikcə, onların cəmiyyətə təsir imkanları da güclənir. Buna görə də həmin təsirin müsbət və yaxud mənfi istiqamətdə olması, onların ümumi dəyərlər ilə münasibətlərindən asılı olur. Həmin münasibətlərə müvafiq olaraq cəmiyyət fərdlərin davranış və hərəkətlərinə müsbət və ya mənfi cavab reaksiyası verir. Eynilə də fərdlər öz azad seçimini və hərəkətlərini edərkən, cəmiyyətdə mənəvi dəyərlərin tələblərinə müsbət və ya mənfi reaksiya verə bilirlər: birinci halda fəaliyyət onlara uyğunlaşdırılır, ikinci halda dəyərlərə məhəl qoyulmur. Buradan aydın olur ki, cəmiyyət öz üzvlərinə verdiyi azadlığın dəyərlər baxımından xarakterinə biganə qala bilmir. Bütün ictimai təsir vasitələri əhalinin geniş təbəqələrinin mənəvi dəyərləri mənimsəməsi və azad fəaliyyətində əldə rəhbər tutması istiqamətində məqsədyönlü və ardıcıl iş aparır. Həmin prosesin uğurları təlim və tərbiyə sisteminin təkmilləşdirilməsindən, demokratiyanın genişləndirilməsindən və əhalinin mənəvi səviyyəsinin yüksəlişindən asılıdır. Hazırda bu məsələ öz mahiyyətinə görə daha geniş miqyas alır: söhbət insanların fəaliyyətinin bütün sferalarında və həyat tərzində ictimai və şəxsi tərəfləri üzvi əlaqələndirərək, yüksək mənəvi dəyərlərin əsas yer tutmasına nail olmaqdan, bu prosesin idarə edilməsinin təkmilləşdirilməsindən gedir. Fərdin azad seçimi və fəaliyyətinin mənəvi dəyərlərə uyğun olması səviyyəsi bir sıra amillər ilə müəyyən olunur. Burada insanın dünyagörüşü, təhsil səviyyəsi və həyat təcrübəsi də mühüm yer tutur.
Müasir dövrdə mənəvi dəyərlərin çox mühüm tərkib hissəsini təşkil edən milli dəyərlərə qayıdılması, cəmiyyətimizin üzvlərinin hərəkət və davranışlarında azadlığın inkişafına müsbət təsir göstərir. Belə ki, milli dəyərlər milli maraqların tam dolğunluğu ilə və azad surətdə dərk olunmasını stimullaşdırır. Milli birliyin

yaranmasında və millimənlik şüurunun formalaşmasında da milli dəyərlər müstəsna rol oynayır. Bunlarla yanaşı, siyasi dövlətçiliyin möhkəmləndirilməsi və hüquqi dövlətin yaradılması da milli dəyərlərdən kənarda ola bilməz. Milli-mənəvi dəyərlərin inkişafında milli dövlətçiliyin və fəlsəfi fikrin böyük rol oynadığını vurğulayaraq S.Xəlilov haqlı olaraq yazır: «Milli-mənəvi dəyərlərin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması davam etdirilməsi üçün mədəni abidələrin, bədii ədəbiyyatın, milli fəlsəfi fikir tarixinin rolu böyükdür. Lakin milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırılmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir» (**3, s. 39**).

Azadlıq və onun inkişafı ilə mənəvi dəyərlərin sıx əlaqəsi və vəhdəti onların hər ikisinin ictimai həyatda öz funksiyalarını dolğun yerinə yetirməyə və cəmiyyətin inkişafında artmaqda olan rolunu təmin etməyə yönəlir. Bəzən belə fikirlərə rast gəlinir ki, guya mənəvi dəyərlər və keyfiyyətlər sivilizasiyanın inkişafında müəyyən yer tutsa da, əslində bu proses məhz insanların hərisliyinin artması sayəsində baş verir (**9, s. 216**).

Azadlıq, onun mahiyyəti, əldə olunmuş səviyyəsi və inkişafı ilə bağlı məsələlər, mövcud cəmiyyətin mənəvi dəyərləri ilə son dərəcə müxtəlif istiqamətli münasibətlərdə çıxış edir. Bu geniş əlaqələr spektrində bəzən müəyyən uyğunsuzluqlar və problemlər də özünü göstərə bilir. Qeyd olunan baxımdan sosial münasibətlərin təşkili və təkmilləşməsində mənəvi dəyərlərin yerində və rolunda baş verən dəyişikliklər, onların insanların azadlığına təsiri səpgisində mənalandırılması diqqəti çəkən mühüm cəhətdir. Məsələnin mahiyyəti bundadır ki, müasir cəmiyyətin sosial-iqtisadi və mənəvi dəyərlər sistemində özünü göstərən ciddi dəyişikliklər, yuxarıda qeyd olunan sahədə müəyyən problemlər doğurur.

Milli müstəqillik əldə olunduqdan sonra, cəmiyyətimizdə həyata keçirilən əsaslı dəyişikliklər, azadlıqların genişləndirilməsi ilə yanaşı onun mənəvi dəyərlər ilə yaxınlığını daha da

möhkəmləndirir. İnsanlar öz azad seçimi və fəaliyyətində yüksək mənəvi dəyərlərə daha çox arxalanırlar. Bu prosesdə həm azadlıq yeni məzmun kəsb edir, həm də mənəvi dəyərlər təkmilləşir. Əlbəttə, birincidə yeniləşmələr daha intensiv gedir, dəyərlər isə bu münasibətdə daha dayanıqlı olub dəyişikliklərə nisbətən gec məruz qalır.

Müasir şəraitdə insanların azad seçimi ilə dəyərlərin yaxınlaşması üçün əlverişli şərait qərarlaşmışdır. Bu, aşağıdakılar ilə izah edilməlidir. Hər şeydən əvvəl, insanların öz fəaliyyətinin predmetinə dair bilik və məlumatları sürətlə artmışdır ki, bu idraki azadlığın təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Digər tərəfdən, hazırda dəyərlərin yenidən mənalandırılması adlı dərin və hərtərəfli proses gedir. O, insanlara konkret situasiyada davranış istiqaməti seçərkən, öz tələbat və maraqlarını ümumi mənəvi dəyərlər ilə üzvi əlaqələndirə bilmək imkanları yaradır. Bu işin ona uğur gətirəcəyinə əmin olur. Sonra, insanların mənlikşüuru və mədəniyyəti yüksəldiyi üçün, onlar öz azad fəaliyyəti və dəyərlər seçiminin törədə biləcəyi sosial nəticələri irəlicədən görə bilir, buna görə onlar seçimdə və dəyərlər tətbiqində daha məsuliyyətli olurlar.

Bütün bunlar yüksək mənəvi dəyərlərə əsaslanan azad fəaliyyətin miqyaslarını daha da genişləndirir. Müasir dövrdə azadlıq ilə mənəvi dəyərlərin qarşılıqlı əlaqələrində baş verən yenilikləri səciyyələndirərkən, qeyd olunmalıdır ki, indi bu münasibətləri ifadə edən sosial determinizm prinsipi müəyyən özünəməxsusluqla çıxış edir. Belə ki, onlar arasındakı əlaqələr sərt asılılığa və birbaşa qəti şərtlənməyə əsaslanmır. Digər tərəfdən, təkcə azadlıq sosial zərurət ilə şərtlənmir, həm də insanların azad fəaliyyəti sosial zərurətin reallaşmasının mühüm amilinə çevrilir. Azadlıq ilə sosial zərurətin münasibətlərində özünü göstərən bu yeniliklər, onların hər ikisinin dəyərlər ilə olan əlaqələrinə də gücləndirici təsir göstərir. Əvvəla, azad fəaliyyətdə mənəvi dəyərlərə meyil artır. Digər tərəfdən, dəyərlər seçimi getdikcə daha çox fərdin daxili zərurətinə əsaslanmağa və onun dərki olan mənəvi borcu ifadə etməyə başlayır.

İndi azadlıq ilə mənəvi dəyərləri bir vəhdət halına gətirən zərurətin öz məzmununda təsadüflərin sayı və rolu artır. Bu onu göstərir ki, bəzən fərd cəmiyyətdəki yüksək mənəvi dəyərləri kifayət qədər öyrənmədən, azad seçim və fəaliyyət göstərir. Belə halda onun azadlığının dəyərlərə uyğun gəlib gəlməməsi, konkret şəraitdən və hərəkətin nəticələrindən asılı olaraq müəyyənləşdirilir. Ardıcıl və hərtərəfli demokratiyanın həyata keçirildiyi müasir cəmiyyətdə, mənəvi dəyərlərə münasibət dəyişilməkdədir. Əslində indi onların bütün dolğunluğu ilə yenidən mənalandırılması prosesi intensivləşir. P.Qureviç haqlı olaraq yazır: «Ənənəvi dəyərlərin coşğunluqla rədd olunması, yeni dəyərlər oriyentasiyasının meydana gəlməsi, insanın öz əməlləri üçün məsuliyyətlilik ölçüsünü gücləndirir. Biz indi əsrlərdən bəri davam edən dəyərlər oryentasıyasının kökündən dağılması dövründə yaşayırıq» (**8, s. 342**).

Azadlıq ilə mənəvi dəyərlərin qarşılıqlı əlaqələrini araşdırarkən, belə bir cəhətə də diqqət yetirmək vacibdir. Real həyatda bəzən elə olur ki, fərd konkret şəraitdəki alternativlərdən heç biri ilə razılaşmır, onlara yaradıcı yanaşmaqla öz məqsədlərini həyata keçirməyə çalışır. Analoji vəziyyət mövcud dəyərlərə münasibətdə də özünü göstərə bilir, yəni fərd ümumi mənəvi dəyərləri olduğu kimi, mexaniki surətdə qəbul etmir, onlara müəyyən yaradıcılıqla yanaşır. Başqa sözlə deyilsə, dəyərləri müəyyən qədər yeniləşdirməyə və təkmilləşdirməyə cəhd göstərir. Əgər bu səy müsbət istiqamətə yönəlirsə, yəni ümumi inkişafa xidmət edirsə, onda səmərəli görünür, fərdin mənəvi yetkinliyinin yüksəlişi meyarı kimi çıxış edir. Lakin bu cəhd əks istiqamətə də yönələ bilir, yəni fərd azad seçimində mənəvi dəyərləri öz maraqlarına uyğun dəyişdirməyə və ona tabe vəziyyətə salmağa da cəhd göstərə bilir. Təbiidir ki, bu halda onun tərəfindən mənəvi dəyərlərin təkmilləşdirilməsi deyil, onların mənasının təhrif edilməsi baş verir. Deyilənlərlə yanaşı, aşağıdakı məqam da nəzərə alınmalıdır. Şəxsiyyətin azadlığı nisbi olduğu kimi, onun dəyərlər seçimi də nisbidir. Bu o deməkdir ki, insanın azad fəaliyyəti, cəmiyyətin buna imkan verdiyi hüdudlar

daxilində reallaşır. Eynilə də dəyərlərin seçilməsində tam müstəqillikdən söhbət gedə bilməz. Fərdin hətta mövcud dəyərləri qəbul etməməsi də yalnız müəyyən həddədək mümkün olur.

Ədəbiyyat:

1. Göyüşov Z. Fəzilət və qəbahət. Bakı: Azərnəşr, 1972, 470 s.
2. İsmayılov F. İnsan və dünya. Bakı: Azərbaycan Dövlət Kitab palatası, 1994, 252 s.
3. Xəlilov S. Fəlsəfə: tarixi fəlsəfi komporativistika və müasirlik. Bakı: Azərbaycan Universiteti, 2006, 418 s.
4. Xəlilov S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Fəlsəfi etüdlər. Bakı: Azərbaycan Universiteti, 2004, 624 s.
5. Алексеев П.В., Панин А.В. Философия. М.: Проспект, 1997, 547 с.
6. Барулин В.С. Социальная философия. М.: Фаир-Пресс, 2002, 558 с.
7. Гегель. Энциклопедия философских наук. Т.3. М.: Мысль, 1977, 511 с.
8. Гуревич П.С. Философская антропология. М.: Нота Бене, 2001, 513 с.
9. Гурина М. Философия. М.: Республика, 1998, 540 с.
10. Рассел Б. Почему я не христианин. М.: Политиздат, 1987, 334 с.

Kamran MƏMMƏDOV

MİLLƏT VƏ MİLLƏTÇİLİK MƏSƏLƏLƏRİ SİYASİ ELMİN AKTUAL PROBLEMİ KİMİ

Bəşəriyyət XXI əsrə bir çox xalqların milli-siyasi oyanışı, milli özünüdərkietmənin təşəkkülü və milli dövlətçilik ənənələrinin dirçəlişi ilə daxil oldu. Tarixən Avropanın Şimal-Şərqində yaranan bu proses mərkəzdən əyalətlərə doğru yayılaraq, XX əsrin 90-cı illərində böyük sürətlə Cənub-Şərqi və Şərqi Avropanı bürüdü. Bu hadisələr xalqların milli siyasi oyanışında, milli özünüdərketmənin təşəkkülündə, milli dövlətçilik ənənələrinin dirçəlişində özünü göstərdi ki, bu da həmin ərazilərdə müstəqil milli dövlətlərin yaranması ilə nəticələndi. Bu elə bir dövr idi ki, milli dövlətlərin yaranması ilə aktuallaşan milli inkişaf prosesi müasir dünyanın tələbləri baxımından izah edilməli idi, çünki, dünyanın bir qütbündə milli müstəqillik zəminində ayrılma prosesi, digər qütbündə inteqrasiya prosesləri gedir. Bu proseslər ilk baxışda zidd olsalar da, eyni zamanda qarşılıqlı şəkildə əlaqəlidirlər, bir-birinə qarşılıqlı təsis edir və bir-birini tamamlayırlar. Milli müstəqilliyin qazanılmasında ölkədaxili milli qüvvələrin inteqrasiyası çox mühüm rol oynadığı kimi, inteqrasiya prosesinin də inkişafı güclü milli dövlətin mövcudluğunu tələb edir.

Məhz belə bir dövrdə millət və millətçiliklə bağlı anlayışların təhlili daha böyük əhəmiyyət kəsb etməyə başladı. Xüsusən də, Azərbaycanın bu poseslərin içərisində olması bizim üçün bu mövzunun aktuallığını daha da artırırdı. Macar mənşəli Amerika tarixçisi C.Lukas yazırdı: «XX əsr üçün siniflərin hakimiyyəti və ideyaların rəqabəti deyil, millətlərin mübarizəsi müəyyənedici rol oynayır».

Sovetlər İttifaqının tərkibində olduğumuz dövrdə bizim millət haqqında anlayışlarımız marksim-leninizm klassiklərinin, xüsusilə Stalinin müddəaları səviyyəsində idi. Bu müddəalara görə, millət ümumi ərazisi, dili, iqtisadi

həyat birliyi, milli psixologiya və ideologiyanın ümumiliyində öz əksini tapan mənəvi həyat birliyi olan insanların nisbətən sabit tarixi birliyi hesab edilir. Marksizmə görə millət kapitalizmin məhsuludur və gələcəkdə-kommunizmdə öz yerini içtimailəşmiş bəşəriyyətə verəcək və beləliklə də tarix səhnəsindən silinəcəkdir. Marksiszm - leninizmə görə, millət cəmiyyətin feodal dağınıqlığının aradan qaldırılması və kapitalist iqtisadi əlaqələri əsasında siyasi mərkəzləşmənin gücləndirilməsi dövründə yeni sosial tarixi hadisə kimi meydana gəlmişdir. Leninə görə, milli əlaqələr burjua əlaqələrinin yaradılmasından başqa bir şey deyildir və yaxud milli ideyalar olmadan feodalizmdən kapitalizmə keçmək mümkün olmazdı. Marksizm-leninizm baniləri mənəvi birliyi millətin birliyi üçün vacib hesab etsələr də, mədəniyyət və psixologiyanın ziddiyyətini də qeyd edirlər. Onların fikrincə, hər bir milli mədəniyyətdə 2 milli mədəniyyət var: 1) Burjua-mülkədar və klerikal mədəniyyət; 2) Demokratik və sosialist mədəniyyəti bir-birinə qarşı durur. Hər iki mədəniyyət eyni millətin nümayəndələrinin məhsuludur. Bu bir millətin daxilində müxtəlif ictimai siyasi ideologiya və psixologiyaya malik olan 2 millətin mövcud olması deməkdir. Burada «iki millət» ifadəsi əslində «iki sinfin» sinonimii kimi işlədilir ki, bu da marksizmin sinfiliyini bir daha sübut edir. Sovet elmində bu məsələlər 80-ci illərə qədər qadağan edilmişdi. Millət və millətçilik haqqında diskussiyaların gedə biləcəyi leksik meydan ideoloji baxımdan o qədər zəbt və deformasiya edilmişdi ki, milli məsələyə aid olan məqalələrin hətta rus dilinə tərcüməsi belə çətin idi. Vaxtilə bu cür zəbt və deformasiyanın mexanizmi M. Epşteyn tərəfindən təsvir olunmuşdur. O bunu eyni bir hadisəni ifadə edən, lakin ayrılmaz antonim(bir-birinin əksi olan sözlər) dəyər çalarına malik olan cüt anlayışların yaradılması ilə izah edirdi(məsələn, sülhsevərlik-barışdırıcılıq). Bu sahədə dilin indoktrinalaşması nəticəsində müxaliflik cəlb etmək hesabına

dəyər elementini zorla qəbul etdirən möhkəm konstruksiya yarandı.

Millət və millətçilik anlayışları dərin tarixi köklərə malik olsalar da, onlarla bağlı konkret formalaşmış bir fikir yoxdur. Ümumiyyətlə, politologiyada elə anlayışlar var ki, bu günə qədər onların dəqiq tərifini vermək mümkün olmamışdır. Bu anlayışlar mübahisə doğurmuş və mübahisə doğurmaqda davam edir. Məhz, bu cür problem doğuran anlayışlar siyasi bilik və siyasi praktika üçün təməl rolu oynayır. Bu anlayışlar haqqında bütün siyasi ideologiyaların nümayəndələri disskusiya aparırlar. Kamusella millətçiliyi digər ideologiyalarla münasibətdə öyrənərək qeyd edir ki, millətçilik öz təsirini ideologiyalarla birlikdə və onların vasitəsilə həyata keçirir. Onun fikrincə, millətçiliyi ideologiyalara aid etmək mümkün deyil, beləki, siyasi spektrin müxtəlif tərəfində olan nümayəndələr - sollardan tutmuş mərkəzçi və sağlara qədər - millətçilik doktrinalarını qəbul edir. Bizim dövrdə millətçiliyin öz yerini ideologiyalar münaqişəsinə verməsini düşünmək illyuziya olardı. Kamusella öz fikirlərini təsdiq etməkdən ötrü aşağıdakı arayışı tərtib etmişdir:

«İngilis millətini və milli dövlətini mühafizəkarlar, royalistlər və liberallar yaratdılar. İnqilabçı, respublikaçı və demokratlar Fransada eyni şeyə nail oldular. İqtisadi inteqrasiya tərəfdarları və təcridçilər alman milli dövlətinə gedən yolun əsasını qoyublar. Meksika millətinin yaradılmasına öz tövhələrini verən Meksika inqilabına antiklerikallar başçılıq edirdilər. Faşistlər böyük alman milli dövlətini yaradaraq, alman millətini III Reyxin çərçivəsində birləşdirə bildilər (1933-45). İrqçilər Cənubi Amerikanı ağ milli dövlətə çevirdilər (1948). İkinci dünya müharibəsindən sonra Qərbi Avropa sosial demokratları və xristian demokratlar sosial dövlət modeli əsasında öz millətlərinin pozulmuş bütövlüyünü bərpa etdilər. Modernistlər türk milli dövlətini (1923), ənənəvi millətçilər şüurlu olaraq İran milli dövlətini yaratdılar (1979).

«Millət» anlayışı və onun formalaşması ilə bağlı olan məsələlər də bu qəbildəndir. «Millət» anlayışının 300-dən çox tərifinin olması bir daha sübut edir ki, «millətşünaslıq»da

güclü terminoloji anarxiya hökm sürməkdədir. Bu təriflərin hər birində millət onu təşkil edən komponentlərdən birinə üstünlük verməklə müəyyən olunur. Bu isə millətin müəyyən olunmasında məhdud cəhətləri ortaya çıxarır. Millət dövlət, dil, ərazi, din, psixologiya, iqtisadi birlik, mədəniyyət ümiliyi və s. əlamətlər əsasında müəyyən olunur. Urs Altermatt qeyd edirdi ki, millət və millətçilik məsələlərinin müzakirəsi zamanı «anlayışlar tiraniyası»ndan qorunmaq lazımdır... Bu məsələlərin hər hansı bir aparıcı əlamət əsasında təhlili istər-istəməz həmin əlamətin dominantlığına səbəb olur.

Millətin müəyyənləşdirilməsi ilə əlaqədar problemlər mənə bir rəvayəti xatırlatdı. Bu rəvayətə görə, bir gün korlar şəhərinə fil gətirirlər. Hər bir insana bu heyvana toxunaraq onun nə olduğunu müəyyən etməklərini istəyirlər. Bir nəfər filin xortumuna toxunaraq deyir ki, bu dirəkdir, digəri toxunaraq deyir ki, bu borudur. Əslində hər bir kor özünə görə, düz fikirdədir, bəs həqiqət haradadır?

Məhz, millət məsələsini araşdıran hər bir tədqiqatçı onu ərazi, dil, din, iqtisadi birlik və əlamət əsasında təyin etməklə özünə görə haqlıdır. Lakin milləti təşkil edən bu əlamətlərin zaman keçdikcə müəyyən dəyişikliklərə uğraması bu təriflərin hər birində məhdud cəhətləri ortaya qoyur.

Bəlkə də bu problemin səbəblərindən biri eyni bir obyektiv prosesi və ya hadisənin müxtəlif üsul və ya əlamətlər əsasında təhlilinin bir-birindən kəskin fərqlənən baxışlar sisteminin yaradılmasına gətirib çıxarması ilə əlaqədardır.

Bunun sübutu kimi daşyonanlar haqqında məşhur kinayəli əhvalatı nümunə çəkmək olar: Bir daşyonandan nə etdiyini soruşurlar, - arabayla daş daşıyıram, - deyir. O birindən soruşduqda, - Şart kilsəsini tikirik- cavabını verir.

Bir sıra tədqiqatçılar millət və millətçilik problemlərinin keçən əsrdə qaldığını, liberal demokratik ideologiyanın digər ideologiyalara, o cümlədən millətçiliyə qalib gəldiyini, XXI əsri milli dövlətlərin bir sıra funksiyalarını transmilli kompaniyalara verməklə sıradan çıxması və qloballaşma əsri

adlandırırlar. Bu fikirlərdə müəyyən qədər həqiqət olsa da, lakin mövcud reallıq tam onların dedikləri kimi deyildir. U.Altermatt qeyd edir ki, Avropa ölkələri texniki və iqtisadi baxımdan nə qədər çox bərabərdirlərsə, bir çox insanlar öz mədəni eynilikləri üçün bir o qədər güclü təhlükə hiss edir və hər hansı bir şəkildə bir-birindən fərqlənməyə ehtiyac hiss edirlər. Avropalılar təsərrüfatın istehlakı və idarə edilməsində bir-birilərinə daha çox bənzədikləri bir zamanda, mədəniyyət səviyyəsində qloballaşmaya qarşı qiyam qaldırırlar.

Hətta BMT-nin keçmiş baş katibi Kofri Anand özünün «bu gün rastlaşdığımız bir çox problemlər ayrı-ayrı dövlətlər tərəfindən həll edilə bilməz» fikrinə aydınlıq gətirərək yazır: «Bu dünya hökümətinin yaradılması və milli dövlətlərin zəiflədilməsi demək deyil. Əksinə, dövləti möhkəmləndirmək lazımdır. Onlarsa ümumi qaydalara və dəyərlərə əsaslanan ümum institutlar çərçivəsində qarşılıqlı fəaliyyət göstərərək bir-birindən güc alacaqlar».

Millət və millətçilik ideyası, onlarla bağlı olan məsələlər yarandığı dövrdən bu günə qədər öz aktuallığını saxlamaqdadır. Q.Ayzeksin fikrincə, «millət, milliyyət, millətçilik problemləri dünya siyasi landşaftında dominantlıq edən faktordur. Bu problemlər hər bir insanın həyatına təsir göstərir... baş verən proseslərdə qrup şüurunun bütün sferalarını yenidən təşkil edir».

Əgər 1978-ci ildə A.Vinkler əsaslı olaraq millətçilik probleminə ictimai elmlər tərəfindən lazımi diqqət yetirilməməsindən gileylənirdisə, artıq 15 il sonra K.Verderi haqlı olaraq qeyd edirdi: «1980-1990 - cı illər ərzində millət və millətçilik konsepsiyaları ətrafında qurulan elm sənayesi o qədər geniş və nizamlı olmuşdur ki, bu tədqiqat sahəsini digərləri ilə müqayisədə prioritet saymaq olar». Bu fikirlər millət və millətçilik probleminin həm elmi nəzəri, həm də elmi praktiki dominantlıuğınının əyani sübutudur. Bu dominantlığı sadə nümunələrlə də sübut etmək olar. Məsələn, bugünki dünyanı siyasi münasibətlər baxımından Milli

dövlətlərdən kənar təsəvvür etmək mümkün deyil, cəmiyyət dedikdə, hər hansı bir dövlətin vətəndaşlarının məcmusu nəzərdə tutulur, siyasi legitimliyin mənbəyi ümummilli səsvermədir, BMT bir nömrəli ümumdünya təşkilatıdır və s.
Fikirlərimin daha da əsaslı olmasından ötrü dünyanın etnik xəritəsinə və milli münaqişələrin statistikasına nəzər salmaq istərdim.
Müasir dünyada dövlətlərin çox hissəsi əhalinin tərkibinə görə çox etnosludur. Əgər etnik bölgünün əlamətlərindən biri olan dili əsas kimi götürsək, onda hər bir Avropa ölkəsinin payına təxminən 9,5 etnik dil qrupu düşür. Latın Amerikası və Karib ölkələri üzrə isə bu rəqəm 21 təşkil edir.
Etnik tərkibinə görə, daha rəngarəng olan dövlətlər Afrika, Asiya və Sakit okean regionunda yerləşir. Bu region dövlətlərinin hər birində orta hesabla təqribən 50 və ya daha çox etnik qrup yaşayır. Bir sıra ölkələrdə isə bu qrupların sayı yüzlərlə ölçülür. Məsələn, Hindistanda 407, Nigeriyada 470, İndoneziyada 712, Papua-Yeni Qvineyada 817 və s.
Ölkələrin çoxunda kəmiyyət etibarilə bir qrup dominyonluq edir. Etnik baxımdan rəngarənglik təşkil edən Asiyada 46 dövlətdən 34-də bir etnik qrup əhalinin yarısından çoxunu təşkil edir. Afrikada bir sıra ada dövlətləri istisna olunmaqla 34 dövlətdən 12-də bir qrup dominantlığ edir.
Ümumiyyətlə, dünyanın 12 ölkəsində əhalinin 90%-dən çoxunu bir etnos təşkil edir. İngilis sosioloqu E.Luardın məlumatına görə, 1400-cü ildən müasir dövrümüzədək keçən müddət ərzində dünyada baş verən silahlı münaqişələrin yarısı dövlətlər arasında baş vermişdir. İkinci dünya müharibəsindən sonra keçən dörd onillik ərzində baş verən 127 əsas müharibədən yalnız 37-si beynəlxalq kateqoriyaya məxsusdur. Rusiya Federasiyası XİN-nin Diplomatiya Akademiyasının məlumatına görə, 1945-1989-cu illər arasındakı dövrdə baş vermiş beynəlxalq silahlı münaqişələrin xüsusi çəkisi azdır: 147 böyük silahlı münaqişədən yalnız 23-ü dövlətlərarası xarakter daşımışdır.

Qalanları isə dövlətdaxili məzmuna malik olmuşdur. Siyasi-statistik araşdırmaların nəticələri bir daha göstərir ki, 1970-80-ci illərin hüdudlarında dünya ölkələrinin demək olar ki, yarısı etnoslararası siyasi mübarizə ilə rastlaşmışdır. 1980-ci illərin ortalarında baş vermiş 120 silahlı münaqişədən 98-i etnik xarakter daşımışdır. 1988-ci ildə baş verən 111 silahlı münaqişədən 67-i daxili xarakter daşımışdır. Bu daxili münaqişələrdən 36-ı dövlət quruculuğu ilə əlaqədar müharibələr olmuşdur (yəni, ayrı-ayrı etnik icma və ya region üçün muxtariyyət tələb edilmişdir). 1993-cü ildə dünyanın 28 zonasında 34 böyük silahlı münaqişə qeydə alınmışdır. Onların hamısı dövlətdaxili xarakter daşımışdır. Həmçinin, 19 münaqişə ərazi problemləri və muxtariyyət və ya müstəqillik tələblərindən doğmuşdur. Oslodakı Dünya İnstitutunun direktoru Den Smitin hesablamalarına görə, 1990-99-cu illər arasındakı dövr ərzində dünyada 118 silahlı münaqişə qeydə alınmışdır ki, bunlardan yalnız 10-u dövlətlərarası müharibə xarakteri daşımışdır. Qalanları isə daxili siyasi müharibənin bu və ya digər formalarında baş vermişdir.

Millətçilik 1920-ci illərdən başlayaraq nəzəriyyənin predmetinə çevrilmişdir. Amerika tarixçiləri H. Kon və K. Hayes bu sahənin ilk pionerləri sayılırlar. 1920 - 1960- cı illər arasındakı dövrü çox vaxt tarixi millətçilik dövrü adlandırırlar. Dövrün bu cür adlandırılması həmin dövrdə nəzəri millətçiliklə daha çox tarixçilərin məşğul olması ilə əlaqədardır. Tarixi millətçilik 1960- cı illərə qədər öz aktuallığını saxladı. Bura amerikan tarixçiləri ilə yanaşı T. Şider və O. Lemberq kimi Avropa tarixçilərini, əsərləri anqlo-amerikan millətçiliyinə təsir edən çex tarixçisi M. Qroxu aid etmək olar.

1950- ci illər millətçiliyin öyrənilməsində tarixçilərin inhisarı sosioloq və politoloq K. Doyç tərəfindən pozuldu. Əvvəllər kibernetika ilə maraqlanan Doyç millətçiliyin araşdırılmasına universal «kommunikasiya nəzəriyyəsi» ni daxil etməyə cəhd göstərirdi. Bu çox da uğurlu alınmadı. Doyçun millətçilik

haqqında əsərləri onun siyasi idarəetmə nəzəriyyəsi haqqında əsərindən fərqli olaraq beynəlxalq elmi nəzəriyyədə özünə möhkəm yer tuta bilmədi. 1964- cü ildə E. Qellnerin nəşr olunan proqram məqaləsi həmin dövrdə beynəlxalq elm ictimaiyyəti tərəfindən xüsusi olararaq vurğulanmadı.

1983 - cü il millətçiliyin öyrənilməsi sahəsində yeni era sayılır. Bu vaxt eyni zamanda E. Qellnerin «Millət və millətçilik», B. Andersonun «Təsəvvür edilən həmbirlik», E. Hobsbaum və T. Reyncerin rəhbərliyi altında «Ənənənin icadı» adlı kitabları işıq üzü gördü. Bu tədbirlər millətçilik sahəsində araşdırmaları radikal şəkildə dəyişdirdi. Bu araşdırmalarla məşğul olan R. Brubeykeri, E. Balibarı, H. Bhabhı, İ.Vallerstaynı, K.Verderi, F.Ceymsi, M.Mannı göstərmək olar.

Onu da qeyd etmək lazımdır ki, bu məsələlərin fəallığı şəraitdən asılı olaraq tsiklik şəkildə dəyişir. Yəni şəraitdən asılı olaraq milli məsələnin fəallığının aşağı düşməsi onun tamamilə yox olması demək deyildir. O, sanki sönmüş vulkanı xatırladır və hər an aktivləşə bilər. Hətta dünyanın inkişaf etmiş demokratik dövlətləri belə bir problemlərdən sığortalanmayıb.

Məsələn, millətçilik problemləri insan hüquqlarının müdafiəsi sahəsində lider ölkələrdən birincisi olan Niderlanddan da yan keçməmişdir. Bu ölkənin parlamenti holland təbəəliyi olmayan 26 min xaricinin 3 il müddətində ölkədən çıxarılması barədə qərar qəbul etmişdir. Bu qərarın qəbulu qısa müddət ərzində 400 min mühacirin Niderlandda yerləşməsi ilə əlaqələndirilir. Bundan əlavə, niderlandlı gənclər arasında etnik dözümlülük və dözümsüzlük haqqında araşdırmalar aparan L.Haqendornun nəticələrindən aydın olur ki, niderlandlı gənclər keçmiş müstəmləkəsi olmuş surinamlılara, ölkəyə fəhləlikdən ötrü gəlmiş türk və mərakeşlilərə daha az dözümlülük göstərirlər. Bu da milli iyerarxiyanın və milli ayrı seçkiliyin bir nümunəsidir.

Hətta bu problem dünyanın bir nömrəli demokratik ölkəsi sayılan Amerika Birləşmiş Ştatlarında da öz aktuallığını göstərməkdədir. Xüsusən də, 11 sentyabr terror hadisələrindən sonra amerikan milli eyniliyi daha çox müzakirə olunan məsələlərdəndir. Amerikanların bir çoxu 11 sentyabr hadisəsini Amerikanın milli qüruruna edilən təcavüz, milli faciə və milli məğlübiyyət günü kimi qiymətləndirirlər. Bu hadisədən sonra onlar özlərinə «mən kiməm» sualını verərək milli eynilik və milli özünüdərk məsələlərini yenidən gündəmə gətirdilər. S. Hatinqton yazır ki, sağlam millətçilik ayırıcı çoxmədəniyyətliliyin, yaddançəkingən təcridçiliyin və universalizmin alternatividir. Bu elə bir bünövrədir ki, onun əsasında konservatorlar Amerika maraqlarını irəlilətmək və Amerikada Milli vəhdətə nail olmaq üçün birləşə bilərlər. Amerikada millətçilik» və «patriotizm» anlayışlarının fərqli və ümumi cəhətlərinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Vətənpərvərlik haqqında A. de-Tokvillin fikirləri diqqəti cəlb edir. Fransız politoloqu vətənpərvərliyi 2 hissəyə - instiktiv və şüurlu vətənpərvərliyə ayrır. O yazırdı: «Dünyada dərkedilməz, təmənnasız və sezilməz duyğulardan yoğrulmuş vətən sevgisi var. Bu elə bir sevgidir ki, insan qəlbini onun doğulduğu yerə əbədi bağlayır. Bu instiktiv məhəbbət üstəlik qədim adətlərə sədaqət, əcdadlara ehtiram, keçmiş haqda xatirələrlə qidalanıb güclənir və insanlar öz ölkələrini ata evi kimi sevməyə başlayır... Hər bir dərk edilməz duyğu kimi bu vətən sevgisi də insanı böyük, lakin qisamüddətli işlərə ruhlandırır. Bu duyğu dövləti təhlükə anında xilas edir, lakin dinc bir zamanda onu taleyin ümidinə, özbaşına buraxır. Bu instiktiv vətən sevgisi o vaxt hökm sürür ki, adətlər sadə, etiqad isə möhkəmdir, ictimai qaydalara şəksiz əməl olunur və onların ədalətliliyinə heç kəs şübhə etmir. Ayrı cür, daha rasional vətənsevgisi də var. Ola bilsin o, bu qədər pak və çılğın deyil, lakin daha səmərəli və sabitdir. Bu məhəbbət maarif sayəsində doğulur, qanunların köməyilə inkişaf edir, hüquqlardan bəhrələndikcə, böyüyür və nəhayət, insanın şəxsi mənafeləri ilə qovuşur». Ş.de Qollun

fikrincə, öz xalqına məhəbbət ön planda olanda vətənpərvərlikdən danışmaq olar, millətçilik isə öz xalqından olmayanlara qarşı nifrət formalaşdırır.

Ümumiyyətlə, Amerikada bu anlayışlara müxtəlif münasibət mövcud olmuşdur. Məsələn, bir sıra müəlliflərin fikrincə, bu gün amerikanlar özlərini daha çox «patriot» adlandırırlar. Lakin bu o demək deyildir ki, amerikanlar «millətçilik» anlayışını qəbul etmirlər. Nümunə üçün göstərəmk olar ki, XX əsrin əvvəllərində «millətçilik» Teodor Ruzvelt (yeni millətçilik kopsepsiyası) və digər amerikanların mənəvi cəhdəlrini, daxili aləmlərini xarakterizə edən müsbət anlayış kimi geniş şəkildə istifadə olunurdu. Bundan əlavə, 1950-ci illərdə H.Konun amerikan millətçiliyi haqqında yazılmış kitabından bəlli olur ki, keçmişdə Amerikanın mütərəqqi xadimləri çəkinmədən və utanmadan özlərini «millətçi» adlandırmışlar.

Amerikanların özlərini son vaxtlar daha çox «patriot» adlandırmalarının səbəbləri «Millətçilik» anlayışının neqativ əhəmiyyət (müəyyən zaman kəsiyində) kəsb etməsi ilə əlaqələndirirlər. Məsələn, birincisi, XX əsrin 30-40-cı illərində «millətçilik» anlayışının faşizmlə əlaqələndirilməsi. Mussolinin faşizm konsepsiyasının əsas prinsiplərini əməkdaşlıq, millətçilik və güclü hakimiyyət təşkil edirdi. Mussolini millətçiliyi «müqəddəs eqoizm» adlandırırdı. İkincisi, soyuq müharibə başa çatdıqdan sonra Balkanlarda və Qafqazda başlamış, hal-hazırda davam edən milli münaqişələrlə əlaqələndirilməsi.

Bunlara baxmayaraq, bu günün özündə də «millətçilik» anlayışına əhəmiyyət və üstünlük verən amerikanların sayı kifayət qədərdir. Onlardan biri İrvinq Kristoldur. O, konservativ yönümlü məşhur publisist, ideyaları C.Buş (oğul) administrasiyasının xarici siyasətinə əhəmiyyətli dərəcədə təsir edən neokonservatizm hərəkatının «xaç atası» hesab edilir. İ.Kristol hesab edir ki, neokonservatizm milliyyətçilikdir və onun tərəfdarları millətçi xarici siyasət həyata keçirməlidir. Onun belə bir epiqrafı Amerikada çox məşhurdur: «Patriotizm vətənin keçmişilə bağlılıqlar, millətçilik isə onun gələcəkdə böyüklüyünə

olan inamdan doğur (yaranır)». İrvinq Kristol qeyd edir ki, amerikan xarici siyasətinin məqsədləri dar məna kəsb edən, həddən artıq hərfi məna daşıyan «milli təhlükəsizlik»dən əhəmiyyətli dərəcədə miqyaslı olmalıdır. Burada söhbət millətin yüksək təyinat hissi ilə müəyyən edilən fövqəldövlətin (ABŞ) milli maraqlarından gedir.

Digər tədqiqatçı Kennat Minouq patriotizmlə millətçiliyin arasındakı klassik məhdudiyyətləri formulə edərək yazır: «Patriotizm mahiyyət etibarilə konservativdir. O, vətəni olduğu kimi müdafiə etmək cəhdini ifadə etdiyi halda, millətçilik öz ölkəmiz barədə ideal, realizə olunmamış təsəvvürlərə sadiqlikdir (bağlılıqdır). Bu təsəvvürlərin bir hissəsi bəşəriyyətə münasibətdə millətin böyük miqyaslı missiyasına inamla əlaqədardır.

Amerikanın ən nüfuzlu prezidentlərindən biri olan F.Ruzvelt «amerikanizm» anlayışını işlədirdi. Onun fikrincə, amerikanizm - ağıl və ürək məsələsidir, onun irqi və yaxud etnik mənşəyə heç bir aidiyyatı olmamışdır. Yaxşı amerikalı - ölkəsinə sadiq olan amerikalıdır. Onun kredosu - azadlıq və demokratiyadır.

Zənnimizcə, göstərilən nümunələr bu mövzunun aktuallığını bir daha sübuta yetirdi. Onu da qeyd etmək lazımdır ki, bu problemlərin süni şəkildə ört-basdır edilməsi onun daha da siyasiləşməsinə səbəb olur ki, bu da millət və millətçiliyi qan tökməkdə ən asan silahlardan birinə çevirir. Belə olduqda isə onun doğurduğu faciələri hiss etməmək mümkün deyil.

Müsəlman Şərqində, o cümlədən Azərbaycanda millətin formalaşması prosesi bir sıra sosial-iqtisadi, tarixi və siyasi səbəblərə görə Avropa ölkələrindən geridə qalırdı. XIX əsrin əvvəllərində Şərq ölkələri faktiki olaraq Qərbin milli dövlətlərinin təsir dairəsində idi. Ona görə də, Şərqdə milli hərəkat əsasən Avropa dövlətlərinin işğalçılıq siyasətinə qarşı müdafiə reaksiyası kimi formalaşmağa başlamışdı. Qeyd etmək lazımdır ki, millətin formalaşması obyektiv tarixi prosesdir. Bu prosesi ləngitmək olar, lakin onun qarşısını almaq olmaz. Bütün maneələrə baxmayaraq, bu prosesin qarşısını almaq mümkün olmadı. Türk milli azadlıq hərəkatının Rusiyadakı görkəmli

nümayəndəsi Yusif Akçura «Türk fikri, türk hərəkatı, türk yürdü» əsərində haqlı olaraq yazırdı: «Millət» anlayışı Avropada yaransa da, onu avropalılardan ilk dəfə və yüksək səviyyədə türk tayfaları əldə etmişlər. Ona görə ki, Avropa ilə, xüsusən onlar sıx əlaqə və qarşılıqlı münasibətlərdə olmuşlar. Bu bir çox türk tayfalarına - Osmanlı adlandırılan Qərb türklərinə, Krım türklərinə, Volqanın sahilində yerləşən Şimal türklərinə, həmçinin, Qafqazdakı azəri türklərinə də aiddir. Beləliklə, biz XIX əsrin axırlarında bu türk qruplarında milli təfəkkürün meydana gəlməsi və yayılmasının şahidi oluruq».

Şərqin, o cümlədən Azərbaycanın bu proseslərdə Avropadan geri qalmasının bir sıra tarixi kökləri var. Bu səbəbləri araşdırmadan Şərqdə millətin formalaşması prosesini təhlil etmək müəyyən çətinliklər yaradır. Ona görə də, ilk öncə Şərqin Qərbi Avropadan geri qalmasının tarixi köklərinə diqqət yetirək.

Ənənəvi (Orta əsr) dövlətlər bir-birindən kəskin şəkildə fərqlənən etnik icmaları çox asanlıqla özündə birləşdirə bilirdi. Bu zaman dövlət qeyri-etnik birləşdiricilərə əsaslanaraq özü üçün yerli elitaları seçirdi. Ayrı-ayrı regionların qapalılığı və güclü fenomen olan milli şüurun mövcud olmadığı şəraitdə etnik qruplar bir dövlətin ağalığı altında əsrlərlə yaşaya bilərlər. Məsələn, keçmiş Sovetlər İttifaqı buna sübutdur.

Şərqdə isə biz bunun əksini görürük. Orta əsr Şərq dövlətlərinin sərhədləri etnos tərəfindən müəyyənləşdirildi. Bu zaman dövlət Avropada olduğundan fərqli olaraq etnosları çox asanlıqla özündə inteqrasiya edə bilmirdi. Məsələn, Azərbaycan Səfəvi dövlətinin yaranması və Şərqin qüdrətli dövlətinə çevrilməsində aparıcı rol Qızılbaş tayfa əyanlarına məxsus idi. Qızılbaş tayfalarına isə ustaclı, şamlı, rumlu, əfşar, qacar və b. daxil idi. Dövlətin etnoslardan asılılığı onun mərkəzləşməsinə də mane olurdu. Dövlətin mövcudluğu etnosun mövcudluğundan asılı olurdu. Səfəvilər dövlətinin süqutundan sonra feodal pərakəndəliyi, iqtisadi əlaqələrin zəifliyi, natural

təsərrüfatın hökmranlığı Azərbaycanda mərkəzləşmiş dövlət yaratmağa imkan verməmişdir. Azərbaycan müstəqil və yarımmüstəqil xanlıqlara və sultanlara parçalandı. XVIII əsrin sonu və XIX əsrin əvvəllərində xanlıqlar arasında münasibətlərin kəskinləşməsi, bir çox hallarda isə müharibə vəziyyətinə çatdırılması ölkənin sosial-iqtisadi vəziyyətini daha da ağırlaşdırdı. Siyasi cəhətdən hökm sürən qeyri-sabitlik ölkəni işğal etmək istəyən xarici qüvvələr üçün şərait yaratdı. Bu da ölkənin Rusiya və İran tərəfindən işğalı ilə nəticələndi.

Ə.Tağıyev qeyd edir ki, Avropada bir sıra məqamlarda dövlətlər və onların sərhədləri millət yaradan amil rolunda çıxış etmişdir. Dövlət sərhədləri daxilində tarixən müxtəlif xalqlar və etnoslar müəyyən bir millət kimi formalaşmışlar. Məsələn, fransız milləti vahid Fransa dövləti ərazisində yaşayan müxtəlif etnoslardan formalaşmışdı. İngilis milləti anqlo-sakslarla normanların, yutların, britlərin, keltlərin, irland və şotlandların müəyyən hissələrinin bir ölkə daxilində birləşməsi nəticəsində meydana gəlmişdir».

Bu məsələlər Azərbaycan ictimai-siyasi fikrinin böyük mütəfəkkir nümayəndəsi olan Əhməd bəy Ağaoğlu tərəfindən incəliklə araşdırılmışdır. Onun fikrincə, Şərqdə dövlət hökumətlə qarışdırılmışdır. Hər iki məfhum - dövlət və hökumət - eyni mənanı ifadə edir kimi qəbul olunmuş, türklərdə isə bu zehniyyət daha irəli götürülmüşdür. Onlar dövləti yalnız hökumətlə qarışdırmaqla qalmamışlar. Belə ki, təsis etdikləri hökumətləri, dövlətləri müəyyən bir şəxsin, bir ailənin adına əlavə edilərək adlandırmışlar. Ə.Ağaoğlu yazır: «Min ildən bəri müxtəlif türk qəbilələrinin təşkil etdikləri bir çox dövlətlərin hamısı sülalə adlarını daşımışlar. Qəznəvilər, Səlcuqlar, Xarəzmşahlar, Osmanlılar bu xüsusda eyni zehniyyətdə hərəkət etmişlər. (müxtəlif tarixi dövlətlərdə Azərbaycanda mövcud olmuş Sacilər, Salacilər, Rəvvadilər, Şəddadilər, Eldənizlər, Hülakilər, Qaraqoyunlu və Ağqoyunlu, Səfəviləri qeyd etməklə Ə.Ağaoğlunun siyahısını daha da genişləndirmək olar - K.M.). Halbuki bu üç məfhum, yəni hökumət, sülalə və dövlət arasında

həm zahiri, həm də batini, həm maddi və həm də mənəvi çox bariz fərqlər mövcuddur. Şərq bunları qarışdırmış, hər sülaləni ayrı bir dövlət hesab etmiş və yeni gələn özündən əvvəl gələnləri adətən əcnəbi saymış və o sürətlə hərəkət etmişdir».

Ə.Ağaoğlu öz fikirlərinin doğruluğunu əsaslandırmaq üçün müqayisəli təhlildən (komparativistika) istifadə edərək yazır ki, İngiltərə sülaləni dörd kərə dəyişdirmişdi. Son sülalənin zamanında İngiltərə hüdudunu kürreyi-ərzin yeni qütbünə dayadı. Fəqət heç bir zaman, heç bir tarixçi və ya şair İngiltərəni bu sülalələrin adı ilə adlandırmağı xatrinə belə gətirməmişdir. Habelə, Fransa sülaləsini bir neçə kərə dəyişdi. Napoleon bütün Avropanı istila etdi. Fəqət bundan dolayı Fransa nə Napoleon adını aldı, nə də fransız dövlətinin təsisi ona aid edildi. Ə.Ağaoğlunun fikrincə, avropalılar bir dövlətin bir sülalənin adı ilə adlanmasını heç cür zehinlərinə sığışdıra bilmədiklərindən, «Osmanlı» kəlməsinə öyrəşə bilmirlər, daima Türkiyə deyirlər. «Dövlət sülaləsiz yaşaya bilir, necə ki bu gün cahanın çox qismi cümhuriyyət üsulu ilə yaşayır. Hökumətə gəlincə, o zatən mahiyyəti etibarilə dəyişkən bir şeydir və hər başqa bir şəkil ala bilir. Odur ki, bir dövləti bir sülalə və yaxud hökumət adı ilə adlandırmaq qədər qeyri-elmi və əsassız bir hərəkət təsəvvür edilə bilməz. Eyni zamanda bu cür təsəvvür çox xatalı bir zehniyyəti də ifadə edir». Mütəfəkkirin məntiqi sxeminə görə, dövləti sülalə adı ilə adlandırmaq dövləti sülalədən ibarət etməkdən irəli gəlir ki, bu təqdirdə sülalə yıxılanda və yaxud süqut edəndə dövlətin də yıxılması, məhv olması lazım gəlir. Həqiqətdə isə dövləti yaradan, dövlətin bərqərar amili və müəssisəsi məhz millətdir (millətin təşkilinin alman modeli - K.M.). Sülalə yıxılır, ancaq millət yaşayır və daha ləyaqətli və istedadlı rəhbərlərilə dövlətin təməlini təzələndirir, ona daha ziyadə şölə və dəbdəbə verir. Ə.Ağaoğlu bu problemin ziyanlı və qorxulu nəticələri haqqında yazır: «Həqiqət bundan ibarətkən və dövlət özünü qurmuş millətin adını daşıyaraq millətin davamı, mövcudiyyəti ilə özünün də davam və mövcud olmasını dərk etməli olduğu halda, yanlış bir tərəqqi ilə başqa bir ad alaraq

özünü başqa bir şey hesab edir. Bu qəribə hadisənin əməli nəticəsi olmaq üzrə milli tarixin sona yetib qırılmasını, milli vəhdətin pozulmasını, guya yeni təşəkkül etmiş olan dövlətin əski dövlətə nisbətən bir növ yabançı və hətta düşmən qaldığını zikr edə bilərik. Bu qəribə düşüncə tərzinin ən canlı misalını bir tərəfdən İran, digər tərəfdən Osmanlı tarixlərində görürük». Azərbaycanda millət haqqında daha çox yazan M.Ə.Rəsulzadə idi. O, millət anlayışı və onunla bağlı olan komponentləri inandırıcı şəkildə şərh edərək elmi nəzəri sistem yaratmışdı. Onun bu nəzəriyyəsi Şərqi Avropada millətin təşkili nəzəriyyəsinə daha yaxındır. Onun fikrincə, millət dil birliyi, ənənəyi-tarixiyyə və nəhayət, etiqadi-diniyyə birliklərinin məcmuyundan mütəşəkkil bir məhsuldur. («Dirçəliş» Cur, №14, 1914).

M.Ə.Rəsulzadənin millət anlayışına münasibəti Şərqi Avropada millətin təşkili nəzəriyyəsi ilə oxşardır. Lakin 1952-ci ildə Türkiyədə nəşr etdirdiyi «Azərbaycan» curnalındakı məqaləsində onun millət anlayışına münasibəti Qərbi Avropa modelinə daha çox yaxındır. O yazırdı: «Millət anlamını ifadə edən iki söz vardır: milliyyət və millət. Bunlardan birincisi lisani, dini, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsirilə meydana gələn etnik bir toplumu ifadə edir. İkincisi isə bu topluluqda ümumi bir ifadəyi anladır... O, rüşeymdir, bu cocuqdur, o ağacdır, bu meyvədir, o anadır, bu yovrudur, o milliyyətdir, bu millətdir» (Azərbaycan, 1952, №5). Onun fikrincə, milliyyət etnik anlayış, millət isə siyasi anlamdır. Millətin meydana gəlməsi haqqında M.Ə.Rəsulzadənin fikirləri müəyyən qədər milləti kapitalizmin məhsulu hesab edən marksistlər və yaxud da milləti müasir dövrün məhsulu hesab edən modernistlərlə eynilik təşkil edir: Onun fikrincə, milliyyətin millət halına keçməsi feodal sisteminin dağılması, burjuaziyanın zühuru ilə bağlı olub, ümumi şüur və kollektiv iradnin məhsuludur.

M.Ə.Rəsulzadənin məqaləsində milliyyət anlayışı etnos anlayışı ilə eynilik təşkil edir. Buradan belə bir nəticəyə gəlmək olar ki, Rəsulzadəyə görə, millət-milliyətin, yəni etnosun yüksək inkişaf

etmiş ali mərhələsidir. M.Ə.Rəsulzadə millətçiliklə bağlı fikirlərini məhz milliyyət və millət anlayışları ilə bağlı şəkildə izah edir. O, milliyyətçiliklə millətçiliyi bir-birindən fərqləndirərək yazırdı: «Avropalıların patriot termini ilə ifadə etdikləri anlam birini millətçi sözü ilə anlatmaq istədiyimiz anlamın eynidir. Avropalıların nasionalizm sözü ilə kəsb etdikləri anlam tamamilə başqa şeydir». Buradan belə bir nəticə çıxarmaq olar ki, Rəsulzadənin milliyyətçilik adı ilə ifadə etdiyi anlayış Avropadakı etnik millətçiliklə eyni məna kəsb edir. O millətçilik anlayışını müsbət bir hadisə kimi qiymətləndirirdi: «Millətçilik fikri ən təbii, ən mədəni və ən irəli bir fikirdir. Həm də insanlıq kültürünün ən təbii və ən normal inkişaf yoludur» (Azərbaycan, 1952, №7).

Çox vaxt deyirlər ki, tarix ondan uzaqlaşdıqca daha aydın görünür. Bu isə hər bir tədqiqatçıya onu daha dəqiq, səhvsiz və obyektiv şəkildə qiymətləndirməkdən ötrü şərait yaradır ki, bu da millətin uğurlu gələcəyinin təməlidir.

Tarix yalnız xronologiya və yaxud zaman demək deyil, o həm də nəsillərin milli yaddaşıdır. Odur ki, zaman müəyyən qədər bizə qarşı çevriləndə tez nəsillərin yaddaşını üz tutmalı oluruq. Bu Şərqə, o cümlədən Azərbaycana xas xüsusiyyətdir. Şərqdə tarixi keçmişə bağlılıq və tarixi varislik millətin təşəkkülü prosesində mühüm rol oynayır. Düzdür, tarixi keçmişə bağlılıq nə qədər müsbət bir tendensiya olsa da, bir o qədər də təhlükəlidir. R. Dekartın təəbirincə desək, «o xalqlar ki, öz tarixi keçmişlərilə öyünməyə başladılar, deməli, artıq onların sonu çatmışdır». N.Şəmsizadə isə bunu obrazlı şəkildə bu cür ifadə edir: « Siz ey bizdən sonra gələnlər! Bilin və agah olun, yalnız keçmişlə yaşamaq aldanışdır, tarix misilsiz sərvətdir, onu dəyişmək və danmaq olmaz. Lakin tarixə aludə olmayın, bu günlə yaşayıb, gələcəyi əldən verməyin. Tarixi gizlətmək üçün yaradılmış qaranlıq meşəyə çevirməyin».

Lakin bütün bunlar o demək deyildir ki, keçmişdən tamamilə imtina etmək lazımdır. Yadda saxlamaq lazımdır ki, keçmişi olmayan millətin gələcəyi də müəmmalı görünür. Keçmişi nəzərə

almadan qurulan gələcək təməlsiz binaya bənzəyir. Sərkərdələrdən biri demişdir ki, keçmiş - tuşlanmış tapança kimidir, istənilən vaxt atıla bilər. Kozma Prutkov isə yazırdı ki, «hazırkı - keçmişin nəticəsidir, buna görə nəzərini keçmişdən ayırma, bununla özünü böyük səhvlərdən qoruya bilərsən». Ona görə də, tarixi keçmişlə varislik əlaqələri emosional deyil, rasional xarakter daşımalıdır. Tarixi keçmişimizə fanatikcəsinə deyil, peşəkar kimi yanaşmalıyıq. Bu isə keçmişə görə gələcəyi görmək deməkdir.

Tədqiqatlar bir daha sübut edir ki, siyasi elmin bu bölməsi çox geniş predmet sahəsinə, çoxtərəfli praktiki və nəzəri bazaya malikdir. Millət və millətçilik məsələlərinin geniş tədqiqat sahəsinə malik olması həm də, onun doğurduğu problemlərin çoxluğundan xəbər verir. Düşünürəm ki, problemlərin çoxluğu və müxtəlifliyi məhz bu məsələlərin aktuallığından və elmi sistemdəki yerindən xəbər verən əsas göstəricilərdən biridir. Bu təbiidir, çünki, istənilən elm sahəsi nə qədər ki, onda yeni problemlər çoxdur - yaşamağa qadirdir. Yeni problemlərin çatışmazlığı elmin o sahəsinin aradan çıxması, yaxud müstəqil-inkişafdan qalması deməkdir.

Məqalədə millət və millətçilik məsələlərinin yığcam şəkildə tədqiqi bu sahədə bir sıra problemlərin olduğunu aşkar etdi ki, nəticə olaraq bunları aşağıdakı kimi ümumiləşdirmək olar:

- İlk növbədə qeyd etmək lazımdır ki, araşdırmalar bu sahədə güclü terminoloji və konseptual «anarxiya» mövcuddur. Bu cür vəziyyətin yaranmasını bir sıra amillərlə izah etmək olar. Bunun səbəblərindən biri kimi millət və millətçilik məsələlərinin yalnız siyasi elm deyil, digər ictimai elm sahəsi tərəfindən də tədqiq olunmasını göstərmək olar. Bunun nəticəsində millət və millətçilik məsələləri ilə bağlı nəzəriyyə və modellərin fəlsəfə, sosiologiya, politologiya, psixologiya və digər ictimai elmlər arasında parçalanması baş verir ki, bu da mövcud anarxiyanın başlıca səbəblərindən biridir.
- Mövcud nəzəriyyələrin öz daxili strukturu və natamamlığından irəli gələn problemlər. Bu sahədə mövcud

olan nəzəriyyələrin çoxu müasir dövrün reallıqlarına uyğun gəlmir və müasir dünyagörüşünün tələblərinə cavab vermir. Belə ki, bir sıra əsassız dəlillər, mübahisəli nəticələr, ikimənalı cavablar və həlli müşkül olan məsələlər üzərində qurulan nəzəriyyələr onların siyasi gerçəklikdə və siyasi praktikada tətbiqi zamanı mürəkkəb vəziyyətin yaranmasına gətirib çıxarır. XX əsrin son onilliyində baş qaldıran «milli renessans» zamanı milli münasibətlər sahəsində hökm sürən gərginlik mövcud nəzəriyyələrin natamamlığının və müasir dövrün tələblərinə cavab verməməsinin əyani sübutu idi.

- «Millət» və «millətçilik» anlayışlarının çoxcəhətliliyindən doğan problemlər. Mövcud anlayışların müxtəlif əhamətlər əsasında tədqiqi həmin əlamətin dominyonluğuna səbəb olur ki, bu da tədqiqatın birtərəfli şəkildə təhlil olunması ilə nəticələnir. Urs Altermattın təbirincə densək, bu zaman tədqiqat sahəsi anlayışlar tiraniyasının hakimiyyəti altına düşür. Ona görə də bu nəzəriyyələr milli münasibətlər sahəsində keçmişdə və müasir dövrdə mövcud olan təzahürləri məcmu halında əhatə edə bilmir. Çoxcəhətli bir məsələ haqqında onun hər hansı bir səciyyəsinə əsasən mühakimə yürütmək çox vaxt əsassız nəticələrin yaranmasına səbəb olur.
- Millət və millətçilik məsələsinə dair nəzəriyyə və modellərin xalis şəkildə tətbiq edilməməsindən irəli gələn problemlər. Bu modellərin çoxu tipik ideal xarakter daşıyır və praktikada konkret olaraq xalis şəkildə tətbiq edilmir. Məsələn, millətin fransız modelinə əsasən bu ölkədə millət vətəndaş həmrəyliyi hesab edilsə də, onun mədəni-tarixi həmbirlik olması haqqında təsəvvürlər də geniş yayılmışdır. Fransız modelinə uyğun ölkələrdə millətin vətəndaş anlayışı ilə yanaşı etnik mənası da hallandırılır. Bu modellərin Şərq və Qərb bölgüsü də nisbi xarakter daşıyır.
- Millət və millətçilik məsələlərinin inkarı və ona qarşı aparılan mübarizədən irəli gələn problemlər. Bu məsələlər XX əsrin sonlarından başlayaran daha mütəşəkkil xarakter

almağa başladı. Düzdür, mövcud şəraitdə qloballaşmanın əsas hərəkətverici qüvvəyə çevrildiyini inkar etmək mümkün olmadığı kimi, liberal demokratiyanın yeganə qalib ideologiya olduğunu bir mənalı şəkildə qəbul etmək mümkün deyil. Buna misal olaraq son 20 ildə Qərbdə yaranan liberal millətçilik nəzəriyyələrini göstərmək olar.

Araşdırmalar bunu deməyə əsas verir ki, millət və millətçilik məsələlərini tarixin arxivinə vermək hələ tezdir. Bunu aşağıdakı dəlillərlə əsaslandırmaq olar:

- XX əsrin sonlarında dünyada liberal deomkratiyanın şəksiz lider olduğunu söyləsələr də, XXI əsrin əvvəllərində bu fikirlər bir qədər zəiflədi. Bu isə o deməkdir ki, liberal demokratiya Fukuyamanın dediyi kimi yeganə idarəedici ideologiya deyil, millətçilik onun alternatividir. Millətçilik müxtəlif formalarda - sol radikalizm, dini təməlçilik, çoxmədəniyətlilik, antiqlobalizm və s. şəkildə beynəlxalq münasibətlərə öz təsirini göstərir. XX əsrin sonundan başlayaraq «liberal millətçilik» nəzəriyyələrinin yaranması millət və millətçilik haqqında hələ uzun müddət danışılacağından xəbər verir.
- Bu məsələlər qeyri adi təsiredici gücə malikdir ki, bu da apatiya vəziyyətində olan cəmiyyəti daxili və xarici problemlərin həllinə səfərbər edir. Millət və millətçilik hələ də cəmiyyətin ehtiyacı olduğu səfərbərlik funksiyasını inamla yerinə yetirir və bu məsələdə onun alternativi yoxdur. Bu zaman millət fərdlərin üzvlüyünün prinsipial olaraq vacib olduğu kollektiv cism kimi təsəvvür edilir. Millətçilik və həmrəyliyə əsaslanaraq insanlar arasında olan fərqləri unudaraq birgə fəaliyyət göstərməyə yönəlir.
- Millətçilik və demokratiya anlayışları bir-birinə nə qədər zidd olsalar da, onların arasında qırılmaz vəhdət mövcuddur. Millətçilik demokratik inkişafın şərtləndirici amillərindən biri kimi çıxış edə bilər. E.Yanın təbirincə desək, millətçilik və demokratiya xalq suverenliyinin qanuni övladlarıdır, onların arasında keçilməz ziddiyyət yoxdur. Hətta çox vaxt demokratiya millətçilik meyllərinin maskalanmasına şərait yaradır. Bu

çox vaxt özünü liberal demokratiyanın hakim olduğu ölkələrdə biruzə verir. Bu ölkələrdə «millət» və «dövlət» anlayışları sinonim kimi işlədildiyindən milli mraqlar dövlət maraqları kimi ifadə edilir, millətçilik isə dövlət millətçiliyi kimi xarakterizə edilir. Məsələn, amerikan millətçiliyinin dövlət millətçiliyi ilə əlaqələndirilməsi ona demokratiya pərdəsinə bürünməyə şərait yaradır ki, bu da həmin millətçiliyə «xeyirxah missiya» donu geyindirməyə imkan verir. Məhz, bu adla amerikan millətçiliyi dünyanın bütün güşələrinə sərbəst girmək mandatı əldə etmişdir.

Ümumiyyətlə, millət və millətçilik ideyaları bəşər tarixinin yaddaşında həm yaradıcı, həm də dağıdıcı gücə malik bir keyfiyyət kimi yer tutmuşdur. Bu məsələlərin inkar edilməsi, onunla bağlı olan problemlərin süni şəkildə ört-basdır edilməsi bu ideyaların dağıdıcı gücünə təkan verir. Onu nəzarətdə saxlamaq və dağıdıcı gücünün təsirini azaltmaq üçün ən münasib vasitələr onunla idarə etmək, onunla hesablaşmaq, ondan irəli gələn problemlərin dövlət səviyyəsində həllindən keçir.

Bu gün bütün dünyada azərbaycançılığın ən böyük qarantı olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları öz nitqlərindən birində belə söyləyirdi: «Azərbaycan bütün xalqların böyük, gözəl ailəsidir. Azərbaycanda heç vaxtı dini, milli, etnik zəmində ayrı-seçkilik olmamışdır və olmayacaqdır. Bu Azərbaycan dövlətinin siyasətidir».

Ədəbiyyat:

1. Ağayev İ. «Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər» Bakı 2006.
2. Cəfərov N. «Milli ictimai fikir tariximizdən» (1914 – 1917 fevral) Azərnəşr, Bakı, 1993.
3. Hüseynov Ş. «Əhmədbəy Ağaoğlunun dünyagörüşü».

Bakı, Azərnəşr, 1998.
4. Mirzəzadə A. «İxtisasa giriş» Bakı, Elm, 1990.
5. «Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası». AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. Bakı: «Səda», 2006.
6. Rəsulzadə M.Ə. «Panturanizm haqqında». «Azərbaycan», №6, 1991.
7. Qurbanov Ş. «Cəmaləddin Əfqani və Türk dünyası». Bakı, Elm, 1997.
8. Şəmsizadə N. «Azərbaycançılıq». Bakı: Nurlan, 2006.
9.Кольев А. «Нация и государство». М, 2005.
10. Ливен А. «Анатомия американского национализ ма». «Pro et Contra», №3, т.8, 2004.
11. Малахов В.С. «Национализм как политическая идеология». Москва, 2005.
12. Миллер А.И. «Национализм как теоретическая проблема». (Ориентация в новой исследователъ ской парадигме) «Свободная мыслъ», 2007, № 1.
13. Альтерматт У. «Этнонационализм в Европе». М.,ПГГУ, 2000.

Али АБАСОВ, Валентина МИРЗАЕВА

ВМЕСТО ЗАКЛЮЧЕНИЯ

Заявленная в названии представленного вниманию читателей сборника статей тема призвана ответить на один весьма актуальный вопрос: достигла ли философия в Азербайджане, как наша страна в целом, своей независимости от наследия прошлого или же она все еще переживает переходный период?

